# ÇİÇƏKLƏNMƏ DÖVRÜ

Böyük Rəhbərin baxışında

İslam inqilabından öncəki və sonrakı dövrlərin müqayisəsi

Tərtib edən: Əbdürrəhim Əbazəri

## Birinci fəsil: Zalım şahlıq

### Şah İranı

Batil və azğın quruluşlarda hakim sistem istər siyasi, istər insani mərkəzdən uzaq olan hər bir yerin məhrum qalmasına bais olur, hakimiyyətin mərkəzinə daha yaxın olan hər hansı şəxs və ya qurum daha artıq bəhrələnir, uzaq olan isə təbii olaraq məhrum qalır. Əgər güc-bəla ilə özünü birtəhər ayaqda saxlaya bilsə, başqa məsələ. Bu, bütün batil quruluşlarda belədir. Şah dövründə bizdə də belə olmuşdur. Mərkəzdə heç kəsin düşünmədiyi bir məsələ vardısa, o da məhrum bölgələrə qayğı idi. Əgər o zaman çox nadir hallarda məhrum təbəqələrin xeyrinə hansısa iş görülmüşdüsə, bu da məhrumiyyəti aradan qaldırmaqdan ötrü, məhrum təbəqələrə yardım məqsədilə görülməmişdi. Məsələn, hansısa hərbi baza üçün yol salırdılar ki, amerikalılar su ilə quru arasında əlaqələri zamanı əziyyət çəkməsinlər. Yaxud beynəlxalq bir sazişə üzv ölkələri bir-birinə birləşdirmək üçün yol çəkirdilər və təbii ki, üç-dörd şəhər və kənd də o yoldan istifadə edirdi. Bəzən bir

bölgənin səsinin çıxmaması üçün o bölgəyə bir iş görməyə məcbur olurdular. Amma bu qorxu, habelə özlərinin xüsusi maraqları olmayan bütün şəhər və kəndlər tam bərbad halda qalırdı.

Biz inqilabdan sonra bu geniş və böyük ölkədə elə yerlər gördük ki, çoxlu əhalisinin olmasına baxmayaraq, heç bir abadlıq işləri görülməmişdi. Yoxsulluq əsasən, ucqar bölgələrdə xarakterik hal almışdı. Xüsusən rejim üçün strateji əhəmiyyəti olmayan bölgələrdə nə dəmir yolu vardı, nə düz-əməlli asfalt, nə su, nə elektrik enerjisi, nə rabitə sistemi, nə də zavod.

Bir məmləkətdə, bir bölgədə yoxsulluğun xarakterik hal alması üçün əlli il zərbə vurmaq lazımdır. Allah bu iki xəbis və mənfur rejimin - Qacar və Pəhləvi rejimlərinin başçılarının günahlarından keçməsin! Onlar təxminən iki yüz il ölkədə hökmranlıq etdilər, onun hər tərəfində ixtilaf, ayrıseçkilik, əclaflıq və xalqa diqqətsizlik əlamətləri buraxdılar.

Mən inqilabdan öncə bir müddət Bəlucistan bölgəsində qalmışam. Sizlər bəlkə də bilirsiniz ki, o zamana qədər hələ də farslara qəcər, yəni qacar deyirdilər. Allaha şükür olsun ki, inqilabdan sonra

bu söz yığışdırıldı. "Qəcər" sözü onların yerli ləhcəsində vəhşi, rəhmsiz, daşürəkli, qatil və qorxulu adam demək idi. Bəlkə də bizim və sizin Buşəhr məntəqəmiz özünün ingilislərlə mübarizəsinə görə qeyri-insani və antihumanist siyasətlərə malik olan o xəbis rejim tərəfindən məhrum saxlanmışdı. Hər halda, bir xalq qəhrəman olduğunu, əcnəbini qəbul etmədiyini, düşmənə qarşı vuruşduğunu göstərmişdisə, bir yolla bədəlini ödəməli idi.

Buşəhr, Laristan və Fars vilayətinin digər bölgələri ingilislərə qarşı mübarizə apardığına görə - onların bəzisi tarixdə qeyd olunduğundan xalqın əksəriyyəti bilir, çoxunu isə bəlkə sizlər də bilmirsiniz və təəssüf ki, bunlar hələ də rəsmi tarixdə qeyd olunmamışdır - təbii olaraq rejim bu bölgəyə etinasız yanaşırdı. Bundan əlavə, qeyd etdiyim kimi, onların quruluşunun mahiyyətinə əsasən, mərkəzdən uzaq olan hər bir yer məhrum qalmalı idi. Sanki kələ-kötür bir bağı suvarırsan, amma su hər yerinə çatmır. Yeri hamar bir bağı suvaranda isə kanallar suyu bərabər şəkildə hər bir kola çatdırır. Müvazinət olmayanda bəzi yerlərə ümumiyyətlə, su çatmır. Bu baxımdan,

antihumanist bir quruluşun müvazinəti kökündən səhvdir.

Qeyd etdiyim kimi, süni yoxsulluq da yaradılırdı. Çünki buraya qarşı inadkarlıq, düşmənçilik və ədavət vardı. O quruluşun təbiəti, xarakteri belə yerlərlə uyğun gəlmirdi. Bu yerləri sürgün üçün nəzərdə tutmuşdular: Günavəni, Bərazəni, Deyləmi, Dəyyiri. Hakimiyyətin qəzəbinə gələnləri oraya göndərirdirlər. Bəllidir ki, belə bir yerə münasibət pis və mərhəmətsiz olur.

İslam Respubilkasında belə nöqsanlı sistem yoxdur, əksinə, onun təbiətində bir növ mərkəzdənqaçma, mərkəzçilikdən uzaqlaşma haləti var. Təbii ki, bəzi yerlərdə bundan yayınma baş verə bilər, amma quruluşun mahiyyəti və proqramı belədir. Hələ inqilabın qələbəsindən iki ay ötməmiş, Böyük İmam məni Bəlucistana göndərib dedi ki, siz Bəlucistanın vəziyyətindən xəbərdarsınız, gedin və oradakı yoxsulluqla maraqlanın". İmam Bəlucistana getməmişdi və bu, quruluşun mahiyyətindən irəli gəlirdi.

Məhrum bölgə təbii olaraq diqqətdən kənarda qalır və nəzərə çarpmır. İslam Respubilkasında belə bölgələr üçün bir şöbə

açılmışdır. Bu, İslam Respubilkası quruluşunun xüsusiyyətidir.

Əlbəttə, biz etiraf etməliyik ki, hələ bu bölgələrin ehtiyacı və haqqı çatan qədərincə iş görülməyib. Amma insafla qəbul edilməlidir ki, bu, səhlənkarlıq üzündən olmamışdır. Çünki səkkiz il müharibə aparmış bir ölkənin abadlıq imkanlarının bir hissəsi müharibəyə sərf olunmuşdur. Bir il müharibə aparmış ölkələr on il onun tör-töküntülərini yığışdırırlar. Biz səkkiz il vuruşmuşuq; özü də bəlli şəraitdə. Müharibə ilə yanaşı iqtisadi blokadalara da məruz qalmışıq. Bizimlə əclafcasına rəftar olunub. İnfrastruktur çatışmazlıqlar da olmuşdur. İndi isə çox sürətlə abadlıq işləri görülür.

Tağut hakimiyyəti illərində şah Məşhədə gələndə heç kim onu qarşılamağa getmirdi. Onun keçəcəyi yollarda ağac və güllər yox idi. Mən görmüşdüm ki, ləyaqətsiz merlər və rüşvətxor valilər yaşıl ağaclar gətirib, həmin xiyabanların kənarında torpağa basdırırdılar. Əgər bəxtləri

gətirməsəydi və şahın gəlişi üç-dörd gün təxirə düşsəydi, ağacların hamısı quruyurdu.[1]

İnsanın ləyaqətli həyatı təkcə çörək və su ilə deyil. İnsan məqsəd, eşq və məhəbbət, uca amallar, azadlıq və izzət istəyir. Bir xalqın qarnını doyurub, izzətini əlindən alsalar, buyruq qulu və xar etsələr, o necə asayiş və rahatlıq hiss edə bilər?! Ötən əsrlərdə padşahların zalım hökmdarlığı altında olan xalqımız bu vəziyyətdə idi. Xəyanətkar Qacar şahları İngiltərəyə mütilikdən azca boyun qaçıran kimi ingilis əsgərləri sizin Buşəhr şəhərinizi və bu bölgəni işğal edirdi. İngiltərəlilər dəfələrlə bu şəhərə gəlmiş, buranı işğal etmiş, yaxud işğalla hədələmişlər.

Bir xalq Allah düşmənlərinin və əcnəbilərin buyruq qulu olanların hakimiyyəti altında necə rahat yaşaya bilər?! Nə üçün böyük, gözəl və istedadlı ölkəmiz bu qədər təbii sərvətlərinə, bütün bu potensialına, torpaqlarına, sularına, yeraltı sərvətlərinə rəğmən, Pəhləvi və Qacar sülalələrinin mənfur padşahlığı dövründə yoxsulluq və bədbəxtlik içində yaşadı və xalq xoş gün görmədi?

---

[1] Böyük Rəhbərin şanlı Fəcr ongünlüyünün ikinci günündə çıxışından: 1999.

Sizin Buşəhr vilayətiniz əkinçilik imkanları, təbii və insani resurslar baxımından ölkəmizin çox istedadlı bölgələrindən biridir. Lakin siz şahidsiniz, vilayətinizin və şəhərinizin həyat səviyyəsini müşahidə edir və görürsünüz ki, Pəhləvi hökumətinin uzun illəri və ondan qabaq Qacarların hakimiyyəti dövründə bu vilayət baxımsız qaldı, sərvətlərdən istifadə olunmadı, torpaqlar becərilmədi, mömin və zəhmətkeş xalqa Allahın yaratdığı təbiətdə mövcud olan imkanlar yaradılmadı. Allahla və nəticədə xalqla əlaqəsi olmayanların hakimiyyəti altında yaşayan bir cəmiyyətin vəziyyəti bundan yaxşı ola bilməz.

İnqilabdan sonrakı 13 illik qısa müddətin 8 ilinin müharibədə keçməsinə, çoxlu problemlərə və iqtisadi embarqolara baxmayaraq, bu vilayətdə görülən işlər Pəhləvi rejiminin 50 ildən artıq sürən dövründə görülməmişdir. Sözsüz ki, bu gün görülənlər də görülməli olanlara nisbətən çox azdır.[2]

---

[2] Böyük Rəhbərin Buşəhr əhalisinin böyük toplantısından çıxışından: 1992.

**Dünənki hakimlər**

Bizim inqilabımız pis bir hökumətin təxminən bütün xüsusiyyətlərinə malik bir rejim əleyhinə möhtəşəm xalq hərəkəti idi. Həmin rejim həm fəsadçı, həm asılı, həm bacarıqsız idi, həm də zorla və çevriliş nəticəsində hakimiyyətə gəlmişdi. Mən bu dörd xüsusiyyəti qısaca açıqlamaq istəyirəm.

O rejim əvvəla fəsadla dolu idi: maliyyə fəsadı, əxlaq fəsadı, idarə fəsadı. Maliyyə fəsadları barədə bu qədər kifayətdir ki, şahın özü və ailəsi ölkənin böyük iqtisadi layihələrinin çoxuna müdaxilə edirdilər. Şahın özü, qardaş və bacıları ölkənin ən varlı adamları idilər.

Rza xan özünün 16-17 illik səltənəti dövründə böyük sərvət topladı. Bilməyiniz pis deyil ki, ölkənin bəzi şəhərləri sənədli şəkildə bütünlüklə Rza xana məxsus idi. Misal üçün, Fəriman şəhəri bütünlüklə Rza xanın mülkü idi. Ölkənin ən yaxşı torpaqları ona məxsus idi. O belə şeyləri və ləl-cəvahiratı sevirdi. Uşaqlarının zövqü isə daha rəngarəng idi. Onlar hər növ sərvəti sevir və toplayırdılar. Ən güclü dəlili də budur ki,

ölkədən gedəndə xarici banklarda milyardlarla dollar həcmində pulları vardı.

Bəlkə bilirsiniz, biz inqilabdan sonra şahın sərvətlərinin qaytarılmasını istədik və təbii ki, müsbət cavab vermədilər. O zaman bu ailənin ümumi əmlakının təxmini miqdarı on milyardlarla dollar edirdi. Gedib dünyanın müxtəlif yerlərində sakin oldular və hamısı milyarderlərdən sayıldılar. Onlar bu sərvəti zəhmətlə, qanuni ticarətlə qazanmamışdılar. Zirvəsində bu qədər maliyyə fəsadı olan bir quruluşun necə olacağını və xalqla necə rəftar edəcəyini özünüz təsəvvür edin.

Əxlaqi baxımdan da fəsad içində idi. Qaçaq alveri ilə məşğul olan cinayətkar bandalar şahın qardaş və bacılarına tabe idilər. Əxlaq və cinsi məsələlər baxımından elə işlər görülürdü ki, insan deməyə xəcalət çəkir. Bu xatirələrin bəzisini sonralar öz yaxınları və köməkçiləri yazıb nəşr etdirdilər.

İdarə fəsadı baxımından da vəziyyət acınacaqlı idi. Vəzifə bölgülərində bacarıq və qabiliyyəti meyar seçmirdilər, özlərinə bağlı olanları və ya xarici ölkələrin təhlükəsizlik orqanlarının tapşırdığı adamları vəzifəyə

gətirirdilər. Zirvəsində rüşvət alınan, sərvət toplanan, qaçaqmalçılıq və xalqa xəyanət edilən bir hökumət necə ola bilər?! İnsan bunları sübutlarla göstərsə, cildlərlə kitab olar. Onlar xalqdan tamamilə uzaq olduqlarına görə asılı idilər, hakimiyyətlərini qorumaq üçün xarici güclərə arxalanmağa məcbur olurdular.

Rza xanı ingilislər hakimiyyətə gətirdilər. Bu, dəqiq və aydın məsələdir. Məhəmmədrzanı da ingilislər möhkəmlətdilər. Doktor Müsəddiqin kabineti dövründən sonra amerikalılar çevriliş etdilər, ölkəni ingilislərdən oğurladılar və özləri hökmranlıq etdilər.

Onlar ölkənin əksər işlərində azad deyildilər. Amerika müstəşarları və on minlərlə amerikalı ölkənin hərbi, təhlükəsizlik, iqtisadi və siyasi mərkəzlərində ən mühüm və gəlirli postlarda çalışır, əslində bütün işləri görür və yerli məmurlara istiqamət verirdilər. Ölkənin təhlükəsizlik qurumunu amerikalı və israillilər yaratmışdılar, siyasətdə əvvəl ingilislərin, sonra isə amerikalıların fikirlərinə tabe idilər. Regional və qlobal miqyasda hətta iqtisadi sahələrdə, misal üçün, neftin qiymətində, satışında, xarici şirkətlərin

İran neftinin taleyinə dair siyasətlərində - bütün bu mühüm və həssas məsələlərdə onların istədiyi işi görürdülər. Təbii ki, öz maraqlarını da nəzərə alır, hakimiyyətlərini qorumaq üçün əcnəbilərə hər bir şəraiti yaradır, istismarçılığa və soyğunçuluğa imkan verir və onlara arxalanırdılar.

Onlar çevrilişlə hakimiyyətə gəlmişdilər; həm Rza xan, həm də Məhəmmədrza. Çevrilişlə hakimiyyətə gələnlərin vəziyyəti də bəlli məsələdir; özlərini zorla xalqa sırımışdılar, xalqın səsindən, istəyindən, mədəniyyətindən, məhəbbətindən, iradəsindən əsər-əlamət yox idi. Onlar xalqın iradəsinə əsla hörmət etmir, xalqla heç bir səmimi münasibətə malik deyildilər. Münasibət düşmən münasibəti, ərbab-rəiyyət, ağa-nökər münasibəti idi. Hər halda, şahlıq idi. Şahlığın mənası budur; yəni xalq qarşısında heç bir öhdəlik götürməyən avtoritar hakimiyyət. Pəhləvi ailəsi bizim ölkəmizdə 50 il belə hökmranlıq etdi.[3]

Bir vaxtlar azğın rejimlərin hökmranlığı və əcnəbilərin istismarı səbəbindən bu böyük ölkənin bütün həyat qaynaqları bir növ hədər gedir, maddi

---

[3] Böyük Rəhbərin gənclərlər sual-cavab məclisində söhbətlərindən: 1999.

və insani sərvətlər məhv edilir, mənəviyyat, düşüncə və etiqad sərvətləri köhnəlirdi. Bütün dünyanın ixtiyar sahibi olduqlarını iddia edənlər o zaman ölkəmizdən razı idilər, xalqları özlərinə qul hesab edənlər diktatura dövrünün İranını tərifləyirdilər. O dövrün İranı əcnəbilər və xarici soyğunçular üçün cənnət, İran xalqına ziyandan başqa bir şey verməyənlər üçün təhlükəsiz yer idi, bu torpağın sahibləri, bu evin övladları üçün isə təhlükəli yer, xoşagəlməz həyat, hər cəhətdən məyusedici və ölümcül bir mühit idi. Bu məmləkətin gənci qürur hissindən məhrum idi, tələbənin bütün məqsədi bu idi ki, özünü birtəhər xarici ölkələrin birinə çatdırsın və orada bir işlə məşğul olsun. Öz ölkəsi və xalqı üçün çalışmaq istəyənlər daxildən qovrulurdular.[4]

**Sultan və rəiyyət əlaqəsi**

Bizim keçmişimizdə eniş-yoxuşlar olmuşdur. Qüdrətli dövrümüz olub, məğlubiyyətimiz olub, hidayətimiz olub, azğınlığımız olub, amma bütün bu dövrlər

---

[4] Böyük Rəhbərin Hərbi Hava Qüvvələrinin səhər toplantısında çıxışından: 1995.

boyunca, hətta İslamın gəldiyi dövrdə də, İslam mərkəzlərindən uzaq olduğuna görə, bu ölkədə sözün əsl mənasında İslam hökuməti olmayıb. İslam fəthləri olub, İslamın böyük şəxsiyyətləri buraya gəliblər, daha böyük şəxsiyyətləri burada yetişiblər. İslam tarixinin dəyərli alimləri, böyük şəxsiyyətlər, İslam səmasının ulduzları burada meydana çıxıblar. Amma bu ölkədə İslam quruluşu həqiqətən, qurulmayıb.

Biz Əməvi və Abbasi dövlətlərini İslam quruluşu bilmirik. Onlar da başqa bir padşahlıqdır. Harun ər-Rəşidin, Əbdülməlikin və ya Hişamın hökumətinin Ərdəşir Derazdəstin hökuməti ilə nə fərqi var?! Adları müsəlman olduğuna görə yaxşıdırlarmı?! Məgər ad məsələni həll edir?! Sultan Mahmud Qəznəvi hakimiyyətinin keçmiş zalım hakimiyyətlərlə fərqi nədir?! Hakimiyyət baxımından Qəznəvilərin Sasanilərlə nə fərqi vardı?! Fərq yalnız İslam mühitinə aiddir. İslam mühiti Sultan Mahmud Qəznəvini namazını qılmağa vadar edir. Buna görə, onun hökuməti sayəsində olan şəxs də namaz qılan yetişir. Bunun Sultan Mahmudun şahlığına aidiyyəti yoxdur. Bu, İslamın mövcud miqdarının nəticəsidir.

İslam Respubilkasından öncə bu ölkədə hakimiyyət və hakimlə xalq arasında əlaqələr həmişə qeyri-islami, sultan və rəiyyət, qalib və məğlub əlaqəsi olmuşdur. Bu hakimlərin hamısı xalqa qələbə çaldıqlarını düşünürdülər; sonuncuları olan Rza xan və oğlundan tutmuş, axıra qədər hamısı. Qacarlar bu xalqa qalib gəlib, fateh olduqlarını duydular, əvvəldən özlərini fateh kimi apardılar. Onlardan öncə Zəndilər, Əfşarilər və Səfəvilər də belə omuşdular.

Əgər bu şəkildə geriyə qayıtsanız, pulla, güclə, qəbiləçiliklə, quldurluqla, pəhləvanlıqla və müxtəlif vasitələrlə xalqa qələbə çalan, onu öz hakmiyyət boyunduruğu altına salan müxtəlif sülalələr görərsiniz. Onların xalqla əlaqələri həmişə "biz buyurduq" şəklində təzahür etmişdir. "Mən xalqın xidmətçisiyəm" kimi sözləri imam deyirdi. Bu sözlər İslam Respubilkasına, İslama və bizim imamımıza aiddir. Ondan öncə isə "biz əmr edirik" və "biz belə buyururuq" olmuşdur.

Əlaqəni bu sözlərdən anlamaq olar. Bu sözlər bir hakim, fateh, qalib, ixtiyar və qüdrət sahibini təqdim edirdi. Şahlığı da ya qılıncla əldə etmişdilər, ya atalarından irs aparmışdılar. Buna

görə heç kəsin minnəti altında da deyildilər, "sultan oğlu sultan" yazırdılar. Deyirdilər ki, mənim padşahlığımın heç kimə dəxli yoxdur, bu, atamın mirasıdır. Sanki atasından bir mis aftabanı irs aparmışdır. Bu ona məxsusdur. Kimsə deyə bilməz ki, bu mis aftaba səndə haradandır. Bu adam da şahlığı irs aparmışdır, mis aftaba kimi bu da onun şəxsi mülküdür, heç kəsin müdaxilə etməyə haqqı yoxdur: sultan oğlu sultan! Bunlar mühüm məqamlardır.

Hakimiyyəti qılıncla əldə edən padşah daha Allaha da bəndə olmurdu; misal üçün, Nadir şah, Ağa Məhəməd xan, yaxud Rza xanın özü. Bunlar zorla hakimiyyətə yiyələndilər. Əlbəttə, Rza xan heç olmasa, öz xəncəri sayəsində də gəlməmişdi. O, Britaniyanın xəncəri sayəsində hakimiyyətə gəlmişdi.[5]

Şah rejimi İslam quruluşu kimi deyil. Burada quruluşun məmurları xalqla dostdurlar, xalqa yaxındırlar, xalq onları görür. Siz prezidenti görürsünüz, bir şəhərə səfər edəndə əhali atasını görən uşaq kimi ətrafına toplaşır, eşq və sevgi ilə

---

[5] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.

onu yaxından görür, ona hörmət ifadə edir, məktublarını şəxsən özünə verirlər. O da xalqın problemləri ilə məşğul olur. O zaman belə deyildi. Rejimin məmurları ilə xalq arasında yerlə-göy qədər məsafə vardı; həm fiziki, həm mənəvi məsafə. Xalq onları ümumiyyətlə, başqa bir dünyaya aid bir şey hesab edir və sözsüz ki, onlara nifrət bəsləyirdilər. Bu məsafələr nifrətə səbəb olur. Rejimin məmurları haqda məğlubedilməz, qəddar və əlçatmaz bir sima yaratmışdılar, lakin gördünüz ki, xalq meydana çıxdı, yaydıqları ümidsizliyə rəğmən, rejimi didilmiş pambıq sayağı bütünlüklə alt-üst etdi; bu qədər cansız, zəif, yüngül və məzmunsuz idi.

Bu quruluşdan sonra biz çox inkişaf etmişik. Bu, tağut rejimləri, yaxud dünyanın adi quruluşları, xüsusən də inqilabdan öncə İranda hakim olan xəbis və murdar quruluşla müqayisəolunası deyil. Orada dövlət, hökumət, siyasət kökündən fəsad üzərində qurulmuşdu; Məhəmmədrzanın özündən və yaxın ətrafından tutmuş aşağı səviyyələrə qədər. Onların çap olunmuş bioqrafiyalarını yəqin görmüş və

oxumuşsunuz. Onlar haqda bəlkə də 10-15 bioqrafiya çap olunub.

Onların daxilində necə fəsad və çirkinlik var imiş! Hakimiyyətin zirvəsindən aşağı səviyyələrə qədər bütün qohumları, təhlükəsizlik qurumları, hərbi və polis qüvvələri - hamısı fəsad içərisində idilər. Düzdür, qurumlar daxilində bəzi sağlam adamlar da vardı; yəni digərlərinə nisbətən asılılıqları az idi. Sağlam hərbçilər, polislər var idi, biz onları görmüşdük. Həm orduda, həm polis qüvvələrində, həm də digər idarələrdə mömin, dindar və sağlam zabitlər vardı. Xüsusən də elm sahələrində belə insanlar çox idilər. Yaxşı adamlar az deyildilər, amma başdakılar fəsad içərisində idilər.

Rejimə bağlı ruhanilər də fəsad içərisində idilər. Belələri də vardı. İndi biz onlara saray mollası deyirik. Lakin onların bəzisinə saray da əhəmiyyət vermirdi, ya öz şəhərlərinin SAVAK-ına, ya da rayon polisinə işləyirdilər. Bu qədər sapqın idilər. Ümumiyyətlə, şah rejiminə azca yaxınlaşan hər bir şəxs fəsad içərisində idi. Daha artıq yaxınlaşanın fəsadı daha çox olurdu. Zirvə isə fəsad və çirkinliyin mərkəzi idi.

İslam Respubilkası quruluşunda vəziyyət 180 dərəcə fərqlidir. Fəsad içində olanlar quruluşdan bir o qədər uzaqdırlar. Quruluşun özündə olan məmurlar təmiz və pak insanlardır. Prezidentə baxın: dəyərli, mömin, alim, Allah yolunda mücahid, əziyyət çəkmiş, xalqdan olan və imtahan vermiş bir insandır. Prezidentlə çalışan məmurların hər biri müəyyən həddə belədirlər. Düzdür, aşağı səviyyələrdə sağlamlıq yuxarı səviyyələr qədər olmur. Yəni quruluşun mərkəzindən nə qədər uzaqlaşırıqsa, sağlamlığı təmin etmək bir o qədər çətinləşir. Lakin İslam Respubilkası quruluşunda hətta aşağı səviyyələrdə də həqiqətən, misilsiz insanlar var. İranda heç zaman dövlət işlərində bu qədər pak və müqəddəs insan çalışmayıb. Mən müxtəlif qurumlarda çalışan belə pak gənc və qeyri-gəncləri tanıyıram. Onlar həqiqətən, uca insanlar, hamısı əmanətdar, doğruçu, dünya bəzəklərinə etinasızdırlar. Onlar tarixin müftəxorlarının keçə bilmədiyi eqoistlik, sərvətlilik və rahatlıq körpülərindən asanlıqla keçə bilmişlər. Bu quruluş belədir, qabaqkı quruluşun əksidir. Biz bu qədər inkişaf etmişik, istiqamət, forma və məzmun bu qədər dəyişmişdir. Lakin

hələ kamil İslam quruluşu ilə məsafəmiz var. Biz bundan ötrü hərəkət edirik. Məqsəd budur və biz ümidvarıq![6]

Mən sizə bir xatirə danışım. Siz o zaman yox idiniz. Bəzi şəxslər var idilər və repressiyanın nə olduğunu bilirlər. Ümumiyyətlə, təsəvvüredilməzdir. 1963-cü ildə məni Qızıl qala həbsxanasına apardılar. O zaman bir neçə tehranlı gənci də gətirdilər. Mən kameranın qapısının arxasından danışıqlarını eşitdim. Bildim ki, bunları yeni tutublar. Bir qədər sevindim ki, istintaq bitəndən sonra təkadamlı kamerada da rahatlıq yaranar, bunlarla təmasda olaram, danışarıq, hər halda, bir həmsöhbət taparıq. Gecə oldu, onları bir-bir çağırıb apardılar. Bir saat sonra mən kamerada şam və işa namazlarını qılmağa başladım. Namazdan sonra bir nəfər kamera qapısındakı bacanı açıb dedi: "Hacıağa, biz qayıtdıq". Gördüm ki, həmin tehranlıların biridir. Dedim qapını aç, gəl içəri. Qapını açdı və kameraya girdi. Dedim nə üçün tez qayıtdın? Bəlli oldu ki, onları mərhum Şəhid Bahünərin çıxışını dinləyərkən tutmuşdular.

---

[6] Böyük Rəhbərin yeni il və novruz bayramı münasibəti ilə müraciətindən: 1999.

Şəhid Bahünər 1963-cü ilin ramazan ayında Tehranın Came məscidinin şəbistanında çıxış edərkən SAVAK məmurları hücum edib bir qrupu tuturlar. Bu beş-altı nəfər də orada tutulur. O zaman Şəhid Bahünərin özünü də tutub Qızıl qala həbsxanasına aparmışdılar. Bu adamları dindirir və görürlər ki, yox, bunlar mühüm adamlar deyillər və ciddi fəaliyyətləri yoxdur. Ona görə də onları buraxırlar. Ciblərini axtaranda geri qaytardıqları bu şəxsdən bir təqvim tapırlar. Təqvimin bir səhifəsində pis xətlə, səhv formada və avamcasına bir beyt şeir yazılmışdı:

Gənc və qoca! Hamınız deyin:
"Allahın lənəti olsun böyük Rza şaha!"

O nə şüar vermişdi, nə bu şeiri çap etdirmişdi, nə onu bir yerdə danışmışdı. Təkcə cib təqviminə bu avam şeiri yazmışdı. Buna görə onu altı ay həbsə məhkum etdilər.

Söhbət bundan getmirdi ki, kimsə haradasa şüar versin, danışsın, yaxud bir tribunada fikir bildirsin. Mən 1971-ci ildə Məşhəddə tələbələrə təfsir dərsi deyirdim. Bəqərə surəsinin əvvəllərini, Bəni-İsrail hadisələrini təfsir edirdim. Məni SAVAK-a çağırıb dedilər ki, siz nə üçün Bəni-İsrail

barədə danışırsınız? Dedim bu, Quran ayəsidir. Mən Quran ayəsini izah və təfsir edirəm. Dedilər yox, bu, İsrailə qarşı təhqirdir. Bəni-İsrail ayələrini təfsir etdiyimə görə və orada İsrail adı çəkildiyindən, mənim təfsir dərsimi tətil etdilər. O zaman repressiya dəhşətli idi, lakin tağut rejimi nə ABŞ, nə Fransa, nə də başqa bir dövlət tərəfindən əsla azadlıq və demokratiyaya qarşı çıxmaqda ittiham olunmadı. O zaman seçkilər keçirilirdi, amma xalq əsla bilmirdi ki, kim gəldi, kim getdi, kim seçildi. Bir seçki qutusu düzəldir və özlərinin istədiyi, sarayın təsdiq etdiyi bir deputatın adını qutudan çıxarırdılar. Bu işlə səsvermənin oyuncaq formasını nümayiş etdirirdilər. Regionumuzun bəzi ölkələrində bu gün də belədir. Onlara əsla etiraz bildirmirlər. Lakin 26 il ərzində təxminən 25 seçki keçirmiş İslam İranını yenə də ittiham edirlər ki, demokratiya yoxdur, burada hər şey təyinat əsasındadır və seçki keçirilmir.[7]

İnqilabın qələbəsindən öncə ABŞ-a və Qərbə bağlı olan zalım şah rejimlərinin hakim olduğu uzun illər boyunca – istər mənfur Pəhləvi, istər

---

[7] Kerman vilayətinin universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

məlun Qacar şahları dövründə bu böyük və bərəkətli məmləkətdə xaricilər – bir gün ruslar, bir gün ingilislər, bir gün də amerikalılar hökmranlıq etdilər, ölkəni taladılar, sərvətləri apardılar, xalqı istismar, əşirətləri tar-mar etdilər, şəhərləri viran qoydular, uzun illər bu xalqın təbii sərvətlərinə qarşı əllərindən gələni etdilər. Xaricilər üçün yol açıq idi. Əcnəbilərin inhisarı və istifadəsi üçün şərait əlverişli idi.

Bir gün İngiltərə kompaniyaları idi, bir gün amerikalılar, onlardan qabaq da ruslar. Onlar istədikləri şəkildə bu məmləkətdən sui-istifadə edə, onu talaya bildilər. Lakin İslamın hakimiyyəti başlayan gündən əcnəbilərin əli kəsildi, təcavüzkarların istismarına son qoyuldu. Bu gün xarici güclər daha bu xalqdan və onun sərvətlərindən sui-istifadə edə bilmirlər, xalqın taleyini müəyyənləşdirməyə gücləri yetmir. Bu gün (əsas amil) bu xalqın özüdür və onun seçdiyi şəxsiyyətlər.[8]

Xalqımız ötən əsrlərdə - çox keçmişə qayıtmasaq, deməliyik ki, son əsrlərdə - qlobal

---

[8] Böyük Rəhbərinin Kürd şəhərinin İnqilab stadionunda çıxışından: 1992.

güclərdən asılı şəxslərin hakimiyyətinə məhkum olmuşdu. Onlar zorla, qətllə hakimiyyətə gəlir, zalımlıqla, diktatorluqla, eqoistliklə şahlıq edirdilər. Düzdür, bəzi bacarıqlı və ləyaqətli insanlar da vardı. Onlar ən azı hansısa sahədə xalqımızın qüdrətini göstərə bilirdilər. Bəzilərində isə bu da yox idi. Dünyadan köçdükdən sonra onların varisləri – övladları, qardaşları, yaxud qardaşı uşaqları heç bir haqqa malik olmadan hakimiyyətə yiyələnirdilər. Onları seçməkdə, istəməkdə, qəbul etməkdə və bəyənməkdə xalqın heç bir rolu olmurdu. İran xalqı əsrlərlə belə yaşadı. Onların sonuncusu bu asılı və azğın sülalə idi. O, çevrilişlə hakimiyyətə yiyələnib, 50 ildən artıq diktatorluq etdi.[9]

Rəis Əli Delvarinin dövründə ingilisləri Buşəhrə gətirən, onun kimilərlə və İran xalqı ilə düşmən olan şəxslər 100-200 il bu ölkənin başına elə oyun açdılar ki, onu abadlaşdırmaq üçün illərlə zəhmət çəkməliyik.

Mən həmişə demişəm ki, Allah Qacar və Pəhləvi şahlarına lənət eləsin. Pəhləvilər inqilabdan

[9] Böyük Rəhbərin yeni il və novruz bayramı münasibəti ilə müraciətindən: 1999.

öncəki 50 ildə ölkənin başına elə bir bəla gətirdilər ki, deyiləsi deyil. Onlardan qabaq da mənfur Qacar sülaləsinin padşahları ölkəmizə və xalqımıza nələr etdilər! Onlar hər bir şeyi özlərinə, ətraflarına və Tehranın əyan-əşrafına istəyirdilər, məhrum şəhər və kəndləri xatırlamırdılar, indikindən iki dəfə artıq əhalini lazımınca idarə edə bilən zəngin torpağa, potensiala, mədənlərə, suya və digər sərvətlərə malik bu gözəl, istedadlı və böyük ölkəni başlı-başına buraxıb, xarabalığa çevirmişdilər.

Biz oturub hesablayanda görürük ki, ölkəmizin çoxlu şəhər və vilayətləri məhrum bölgələr sırasındadır. Nə üçün belə olmalıdır? Bu onların hakimiyyətinin nəticəsidir. İslam Respubilkası Allahın lütfü ilə bunu düzəltməlidir və düzəldəcək. Allaha şükür olsun ki, inqilabın əvvəlindən bu günədək dövlət məmurları və qayğıkeş insanlar fəaliyyət göstərib, çalışıblar. Allaha şükür olsun ki, son zamanlarda işlər daha da artırılmışdır. Onlar sözügedən üzüqara və məlun sülalələrin xarabalıqlarını düzəldib, ölkəni abadlaşdırmağa çalışırlar.[10]

---

[10] Böyük Rəhbərin Delvar bölgəsinin əhalisi ilə görüşdə çıxışından: 1992.

**Əşirətlərə zülm**

Zalım şah rejimində əşirətlərə həm maddi, həm mədəni zülm olundu, onların məktəb, mədəniyyət və yol baxımından ehtiyacları təmin edilmədi. Biz gələndə sizin yollarınızı gördük. Ölkənin məhrum təbəqələrinin problemlərinə heç bir maraq göstərməyən zalım şah rejimi nə zaman gedib əşirətlərin problemləri ilə yaxından tanış olurdu?! Onlar nə istəyirdilərsə, özləri üçün istəyirdilər. O rejim əşirətlərin bəzi ünsürləri - sadə əşirət camaatı ilə arası olmayan müftəxorlarla yaxşı münasibətdə idi, caamata qayğı göstərmirdi.

Mən Fars vilayətində, Kuhgiluyə və Buyer Əhməd vilayətində, Sistan və Bəlucistanda əşirətlərin yanına getdim. Hər bir yerdə əşirətlərin vəziyyəti, yaşayış şəraiti, yaylaq və qışlaq yolları və ərzaq təminatı pis vəziyyətdədir. Onların ehtiyacı olan bəzi məhsullar – qənd, şəkər, düyü və yağ şəhərdən gəlməlidir. İnşallah siz heç zaman şəhər ərzağına möhtac olmayasınız! Hətta onu təmin edəsiniz ki, bu xalq əcnəbilərə möhtac olmasın. Əşirətlər övladlarının məktəbə getməsini istəyir, amma çətindir. Əşirət gəncləri arasında çox

istedadlı uşaqlar var, mən özüm görmüşəm. Pəhləvi hakimiyyətinin qara illərində - Allah onların əzabını günbəgün artırsın, onları tarixin şeytansifətləri ilə birgə etsin! - əşirətlərin problemlərinə diqqət ayrılmadı, inqilabdan sonra isə çox iş görülmüşdür.[11]

Zalım şah rejimi dövründə - istər mənfur Pəhləvi dövründə, istər mənfur Qacar dövründə bu bölgəyə çox zülm olunmuşdur. Bəlkə də bilirsiniz ki, Bəlucistanın bəzi yerlərində farslara hələ də "qəcər" deyirlər. "Qəcər" "qacar" sözüdür. Qacarlar dövründə onlara çox zülm olunduğuna görə bu sözü mənfi mənada işlədirlər.

Mənfur Pəhləvi dövründə vəziyyət Qacar dövründən yaxşı deyildi. Pəhləvi rejiminin Bəlucistan siyasəti belə idi ki, qədim mülkədarlar kimi yerli xanları özlərinə çəksinlər və bölgənin təhlükəsizliyini onlardan istəsinlər. Qədimdə şah bir nəfəri bir yerə göndərib deyirdi ki, məsələn, Xorasan sənin mülkün olsun; Xorasanı bu ölkədən ayırmasınlar, vergilərini hər il hədiyyələrlə bizə göndər, sonra nə edirsən et. O da misal üçün, 5

---

[11] Böyük Rəhbərin Loristan vilayətinin əşirətlər yaşayan Papi kəndinin əhalisi ilə görüşdə çıxışından: 1991.

milyon göndərəcəkdisə, xalqdan 15-25 milyon alırdı. Necə alması da öz işi idi; qətllərin, zülmlərin, ədalətsizliklərin, haqsızlıqların, zəifləri məhv edib, müftəxorları varlandırmanın mərkəzi dövlətə aidiyyəti yox idi.

Pəhləvi dövründə Sistan və Bəlucistanın vəziyyəti belə idi. Orada Rigi, Mübarəki, Narui və Şeşzehi qəbilələrindən xanlar vardı. Siz Şeşzehilər barədə çox eşitmisiniz. Qəbilə başçısı valinin yanında məsuliyyət daşıyırdı. Əgər yaxşı işləsəydi, mükafat olaraq deputat seçilərdi.

Rejim bölgənin təhlükəsizliyi ilə məşğul olmurdu. Mən orada olanda İranşəhrlə Çabahar arasındakı bölgələrin dırnaqarası keşikçiləri rejimin dilavərləri idilər. Bir neçə yoxsul, məhrum, məzlum və bədbəxt bəlucun əlinə əl çomağı və ya Brno tüfəngi verib deyirdilər ki, bu yolu qoruyun, onlar da qoruyurdular, amma nəyi qoruduqları bəlli deyildi. Təbii ki, onların meyarlarına uyğun hərəkət edirdilər.

Xan xalqın başına oyun açırdı. Mən Bəlucistanda elə bir vəziyyət gördüm ki, həqiqətən, deyiləsi deyil. Danışsalar, inanmazsınız; yəni indiki vəziyyətlə bu qədər fərqli idi. Orada bir qrup adam

hər cəhətdən rifah içərisində yaşayırdı. İranşəhrdə Tehranın əyanları kimi yaşayırdılar. Fənnucədə, Spokkedə və adi insanların ayağının dəymədiyi ucqar bölgələrdə aristokrat həyat tərzi sürürdülər. Halbuki həmin şəhərlərdə zəruri məişət imkanlarından məhrum xalq vardı, acınacaqlı yoxsulluq hakim idi; nə yol vardı, nə su, nə elektrik enerjisi, nə yayda sərinləşdirici cihazlar. Oranın əhalisi belə məhrum qalmışdı.

Kim yaşamaq istəyirdisə, xana yaxınlaşmaq üçün bir yol tapmalı idi. Axund da yaşamaq istəsəydi, xana yaxınlaşmalı idi. Bu səbəbdən, oranın çoxlu ruhaniləri xanlara qoşulmuşdular; onlarla əlaqə qurur, yaşayışlarını birtəhər idarə edirdilər. Bəlucistanda vəziyyət belə idi, xalq belə əziyyət çəkirdi.

İslam Respubilkası orada böyük bir xoşbəxtliyin müjdəçisi oldu. Zalım təbəqə, yəni xanlar kənarlaşdırıldılar. Nə qədər çalışdılarsa, olmadı. Mənim özüm inqilabın birinci ilində Bəlucistana getdim. Bəlucistanın bütün birinci dərəcəli xanları hökumətə yaxınlaşmaq və münasibət qurmaq üçün İranşəhrə gəlib mənimlə görüşdülər. Mən İslam Respubilkasının siyasətini

açıqladım və onlar ümidlərini üzdülər. Düzdür, bu siyasəti qəbul etməyənlər var idi. Biz orada siyasət yox, həqiqəti icra etmək istəyirdik. Həqiqət bu idi ki, bu xalq İslam Respubilkasının sayəsi altında yaşamalıdır. İndi də o xalq var. Allaha şükür ki, xanların hökmranlığına son qoyulub; hərçənd İslam Respubilkası bundan ötrü çox çətinliklər çəkdi.[12]

**Rza xan rəzilliyi**

Mən iki-üç bariz nümunəni demək istəyirəm. Qoy bəlli olsun ki, inqilab bu xalq üçün necə böyük iş görmüşdür. İngilislər İranda Rza xanı hakimiyyətə gətirdilər. Bu, Rza xanın müxaliflərinin sözü deyil, o rejimə bağlı olanların özləri və bütün bitərəf tarixçilər bunu açıq söyləmiş, etiraf etmişlər. İngilislərin özləri də Rza xanı devirdilər. Onlar hiss etdilər ki, Pəhləvi rejimi o zaman İkinci Dünya Müharibəsində bəzi uğurlar əldə etmiş Almaniyaya təmayül göstərir. Rza xan xaraktercə Hitlerə bənzədiyindən, onu sevirdi.

---

[12] Fəqih rəhbərin Sistan və Bəlucistan vilayətinin Əhli-sünnə işləri üzrə nümayəndəlik dəftərxanasının ruhaniləri ilə görüşdə çıxışından: 1991.

İngilislər bunu duyan kimi Rza xanı devirib oğlu Məhəmmədrzanı hakimiyyətə gətirdilər. Onların özləri də bunu etiraf edirlər. Bu, qəti məsələlərdəndir.

Mən Məhəmmədrzaya bağlı şəxslərin birindən bir söz danışım, siz görün asılılıq necə alçaldıcı və rəzil səviyyədə olmuşdur. Rza xan gedəndən sonra və İranda şahlıq məsələsinin taleyi hələ tam bəlli olmayan dövrdə İngiltərənin Tehrandakı səfiri Məhəmmədrzanın nümayəndəsinə deyir ki, bizdə olan məlumata görə Məhəmmədrza Berlin radiosunu dinləyir, xəritə üzərində Almaniyanın qələbələrinə baxır. Buna görə biz ona etimad etmirik. Həmin adam xəbəri Məhəmmədrzaya çatdırır, o da Berlin radiosunu dinləməyi kənara qoyur. Sonra İngiltərənin səfiri deyir ki, daha eybi yoxdur, onu şah etmək olar. Rejimin və dövlətin başında elə bir şəxs durur ki, əcnəbi səfirliyə bu həddə bağlıdır. Onlar bunun şahlığı üçün belə alçaldıcı şərtlər qoyurlar, o da qəbul və icra edir. Belə bir rejimin xarici qüvvələrdən nə qədər asılı olacağı bəlli məsələdir.

Mənfur Pəhləvi rejiminə yaxın adamların xatirələri də bunu təsdiq edir. İnqilab ərəfəsində

ABŞ-ın və hətta o zaman daha böyük güc sayılmayan İngiltərənin səfirləri Məhəmmədrzanın vəziyyətinin təyin edilməsində, onun taleyində və seçməli olduğu qərarlarda mühüm rol oynayırdılar. Ona deyirdilər ki, bu işi görməlisən, bu hərəkəti etməlisən. Fikirlərini deyirdilər, o da qəbul edirdi. Bu 50 ildə həmişə belə olmuşdur. Neft müqaviləsini Rza xanla 60 ilə qədər artırdılar. Adla deyirdilər ki, filankəs hökumətin başında olmalıdır. Görün bu 50 il ərzində bu böyük xalqa nə qədər hörmətsizlik edilmişdir.

İnqilab bu qədər asılı bir rejimi kökündən qoparıb məhv etdi. İnqilab üçün əhəmiyyəti olan birinci məsələ budur ki, hakimiyyətdə xarici qüvvələrə göz dikməyən quruluş və şəxslər təmsil olunsunlar. Bu, inqilabın birinci xüsusiyyətidir. Öz ayağı üstə dayanan, asılı olmayan və digər qüvvələrə etina etməyən müstəqil bir quruluş üçün milli maraqlar mühümdür. Belə bir quruluş iş başındadırsa, ölkənin dövlət adamları və başçıları belə şəxslərdirsə, bəllidir ki, bütün qərar, hərəkət və mövqelərdə xalqın xeyri, marağı və istəyi nəzərə alınar. Bu ölkə və xalq üçün lazım olanlar bu gün inqilabın və İslam Respubilkası quruluşunun

düşmən və müxaliflərinin narahat olduğu məsələlərdir.[13]

İnqilabdan öncəki illərdə ölkədə həmişə çətinlik, xarlıq, bədbəxtlik, hakim təbəqələrin müxtəlif təzyiqləri, hegomonluqları və əcnəbilərin təhqirləri olmuşdur. Bu ölkədə uzun illər ingilislər, uzun illər ruslar, uzun illər hər ikisi və nəhayət, uzun illər amerikalılar nə desəydilər, o da icra olunurdu. Bizim xalqımız həmin xalq idi, eyni istedadları vardı. Bu gün Allaha şükür olsun ki, müxtəlif sahələrdə siz gənclərin istedadları ulduz və günəş kimi parlayır. Lakin ləyaqətsiz hökumətlər və səhv tərbiyə səbəbindən xalqın ayıqlığı və dözümü az idi. Bəlli dövrdə cəmiyyətdə ayıq insanlar, böyüklər, elmli adamlar və Böyük İmam kimi şəxsiyyətlər peyda olub xalqı oyadanda, onları dözümə vadar edəndə, cəmiyyətə haqqı və dözümü tövsiyə edəndə bu coşqun dərya vücuda gəldi, xarlıq və fəlakət dolu tarixi kəsib əcnəbilərin hökmranlığına son qoydu.

Siz əziz gənclər bilin, yaşadığınız bu gündə nə ABŞ-ın, nə başqa bir gücün heç birinin bu

---

[13] Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ildönümü mərasimində çıxışından: 1995.

ölkəyə, onun siyasətlərinə və hökumətinə heç bir ağalığı yoxdur. Bir zaman ABŞ və İngiltərənin səfirləri ölkənin başçılarına istədiklərini diktə edirdilər. O zaman ABŞ səfirinin ən mühüm beynəlxalq və ya daxili bir məsələdə bir fikri olsaydı, onu İran şahı Məhəmmədrza Pəhləviyə, yaxud onun Baş nazirinə və ya nazirlərin birinə desəydi, icra olunmaması imkansız idi. Hətta onların şəxsi maraqlarına zidd olsaydı da, icra etməyə məcbur idilər. Bir müddət çalışırdılar, əl-ayaq çalırdılar, lakin icra etməyə məcbur qalırdılar. Bu ölkədə əcnəbilərin hökmranlığı bu şəkildə idi.

Bu ölkədə İran və İngiltərə arasında neft müqaviləsinin bitməsinə bir neçə gün qalmış bir neçə nəfər oturub müqavilə mətni hazırladılar. Orada İranın maraqları müəyyən həddə nəzərə alınmışdı. Rza xan nazirlərin iclasına girdi, gedib əlaqədar nazirin qarşısından həmin yazını götürdü və orada hamının gözü qarşısında sobaya atıb yandırdı. Nə üçün? Çünki İngiltərənin səfiri yanına gəlib onunla bir-iki saat xüsusi iclas keçirmiş, deyilməli sözü demişdi. O da gəlib İranın maraqlarını hətta azacıq təmin edən, düşmənin və

əcnəbinin dözmədiyi yazını sobanın içərisinə atdı, yandırdı və məhv etdi.

Mənim əzizlərim! Bu ölkədə Pəhləvi dövrünün bütün tarixi belə keçmişdir. Xalqın maraqları əvvəlcə İngiltərənin, son 30-40 ildə də ABŞ-ın maraqları sayəsində tapdanırdı. Əgər bir məsələdə, bir işdə, bir ticarətdə ABŞ-ın marağı olsaydı, dövlət məmurlarının ona qarşı çıxması qeyri-mümkün idi. İnqilab bu vəziyyəti, bu yanlış qaydanı, çox təhqiramiz və xaredici əlaqəni pozdu...

Siz əziz gənclər bizim bir ömür yaşadığımız, İran xalqına qarşı çətinliklərini, əzab və təhqirlərini bütün vücudumuzla hiss etdiyimiz dövrü görməsəniz də, onu öyrənə bilərsiniz. O zaman xalqımızın hansı vəziyyətdə olduğunu öyrənə bilərsiniz. İran xalqı ABŞ-la dost münasibətləri onillər boyunca sınaqdan keçirmişdir. Bu ölkə sionistlərin və amerikalı oliqarxların sığınacaq yeri olmuşdu. Buraya gəlib əylənirdilər. Onlar buraya texnologiya, elm gətirmirdilər, universitetlərin səviyyəsini yüksəltmirdilər, buranın gənclərinə bilik vermirdilər. İranlılar o zaman bir beynəlxalq elmi yarışda da uğurla çıxış etmədilər. Bu gün isə

həmin gənclər beynəlxalq olimpiadalarda yüksək yerlər tuturlar. O zaman İran dünyada sayılan bir ölkə deyildi, adı hansısa məhsuluna - xüsusi iclaslarda neftinə, ümumi yerlərdə də xalçasına görə çəkilirdi. Ancaq bu gün ölkəmizin gəncləri, döyüşçüləri, görkəmli şəxsiyyətləri, uca insanları, istedadlı və yaradıcı gəncləri və onların məhsulları xalqların gözünü qamaşdırır. Sizin uğurlarınız bütün İslam dünyasını sevindirir. Siz hansısa yarışda qələbə çaldıqda nə üçün Misirdə, Fələstində, Suriyada, Türkiyədə və hətta Latın Amerikasının bəzi ölkələrində insanlar ayağa qalxır, atılıb-düşür və şadlıq edirlər. Çünki ölkəniz bu gün dünyada sevilir.[14]

İran xalqı uzun əsrlər boyu həmişə ya özləri, ya əcdadları qılınc gücünə hakimiyyəti ələ keçirmiş, xəncər dəstəyinə və qüdrət süngüsünə arxalanaraq övladları üçün saxlamış şahlar görmüşdür. Hakimiyyət haqqı xalqın istəyi, meyli və seçimi olmadan hakimlərin şəxsi malı kimi övladlarına, nəvələrinə və bir neçə nəsillərinə irs çatırdı. Son dövrlərdə, yəni Qacarlar dövrünün

---

[14] Böyük Rəhbərin tələbə və şagirdlərlə görüşdə çıxışından: 1998.

ortalarından Pəhləvi dövrünün sonuna qədər ölkə hakimiyyətinə başqa bir çirkin amil də daxil oldu. O amil əcnəbi müdaxiləsi idi. İngilislər Rza xan Pəhləvini özləri seçərək hakimiyyətə gətirdilər və himayə etdilər. Sonra da oğlunu hakimiyyətə gətirdilər. 19 avqust çevrilişindən sonra isə ölkəmiz amerikalıların ixtiyarına keçdi.

Bizim xalqımız heç bir təsirə malik deyildi. Bir xalq həyatının ən əsaslı məsələlərində - təlim-tərbiyədə, iqtisadiyyatda, siyasətdə, beynəlxalq əlaqələrdə və adi məişət qaydalarında heç bir ixityara malik deyildi. Onun taleyinə elə şəxslər hakim olmuşdular ki, vəzifəyə yiyələnmək üçün xalqdan heç zaman icazə almırdılar. Çox zəif formada olan qısa bir dönəmi çıxsaq, biz heç zaman demokratik seçkini təcrübə etməmişik. İslam inqilabı, xalqın mübarizəsi və fədakarlığı, Böyük İmamın misilsiz şəxsiyyəti Allahın lütf və mərhəmətini cəlb etdi və xalqımıza bu böyük hədiyyə verildi.[15]

22 Bəhmən (11 fevral) hadisəsi və inqilabın qələbəsi İran xalqına qarşı təhqirlərə son idi.

---

[15] Böyük Rəhbərin Prezidentin hökmünün təsdiqi mərasimində çıxışından: 2001.

Xalqımız uzun əsrlər boyu təhqir edilmişdi. Bir müddət diktator şahlar vasitəsilə təhqir olundu. Yəni hələ müstəmləkəçilik, istismarçılıq və xarici təsirlər olmayan qədim dövrlərdə padşahlar var idi. Onların bəzisi qüdrətli, bəzisi zəif və bacaraqsız idilər, amma istisnasız olaraq hamısı xalqı təhqir edirdilər. Əgər siz bəzi şahların, onların övladlarının və şahzadələrin yazdığı xatirələrə müraciət etsəniz, aydın şəkildə görərsiniz ki, onlar İranı öz mülkləri hesab ediridlər. Bu mülkdə bir qədər rəiyyət də onlar üçün işləyir. Onların maaşalma haqları var? Xeyr. Onların iradələri mötəbər sayılır? Xeyr. Bu şahların xalq, ölkə və özləri haqda təsəvvürləri bu qədər yanlış və rüsvayçı idi. Doğrudan da ölkəni özlərinki bilirdilər; kimsə yaxşı bir iş görürsə, öz borcunu yerinə yetirmiş olur, səhlənkarlıq edənlər də qüdrətli və müstəbid hakimin maraqlarına zərbə vuran nankorlardır. Təxminən məşrutədən sonra başlayan başqa bir dövrdə də bu təfəkkür tam sıradan çıxmadı, şahlıq dövrünün sonuna qədər qaldı.

Modernizm iddiası etmələrinə və özlərini dünya ilə tanış göstərmələrinə rəğmən, Pəhləvi

şahlarının beynində də bundan başqa bir şey yox idi. Özlərini ölkənin və xalqın sahibi bilirdilər.

Son dövrdə buna başqa bir amil də əlavə olundu və o, xarici təsir idi. Bu, Qacarlar dövrünün sonlarından başlandı və Pəhləvilər dövründə pik həddinə çatdı. Çünki Rza xanı ingilislər hakimiyyətə gətirdilər, ona şərait yaratdılar, onu saxladılar və necə hərəkət etməsini diktə etdilər. Ondan sonra oğlunu yenə də ingilislər gətirdilər. Bunlar tarixin danılmaz faktlarıdır, iddia deyil. Biz keçmişdə bunları versiya və təhlil formasında deyirdik. Lakin sonra çoxlu sənədlər açıldı və bəlli oldu ki, bu şəxsləri öz əlləri ilə gətirmişlər.

Bunlar xarici siyasətlərin icraçısı idilər; bir müddət İngiltərə siyasətlərinin, Müsəddiqin dövründən sonra isə ABŞ siyasətlərinin. Bəzi hadisələrdə yenə də xalqın maraqlarına görə yox, özlərinin bəzi maraqlarına görə amerikalıların diktə etdiyi bir siyasətə qarşı ürəklərində narahat ola bilərdilər. Amma hər halda, onların siyasətlərini icra edirdilər, oyan-buyanı yox idi. Hökumət kabinetini onlar təyin edirdilər. Baş nazirlər onların tərəfindən təsdiq olunmalı idi. Onlar bəzən şaha bir qədər qulaqburması vermək üçün onunla çox da

yaxşı münasibəti olmayan birini Baş nazir gətirirdilər. Bu dəfələrlə baş vermişdir. Yəni onun çox da bəyənmədiyi bir şəxsin Baş nazir olmasını tapşırırdılar. O da məcbur qalıb qəbul edirdi. Məmləkət bu formada əcnəbilərin, ABŞ siyasətlərinin ixtiyarında idi. Bu təkcə neft siyasətlərinə məxsus deyildi, bütün sahələrdə belə idi; istər neft məsələlərində, istər ölkəni sənayeləşdirməkdə, istər xarici siyasətdə və dünya ölkələri qarşısında mövqe seçimində.

Əgər dövlət rəsmiləri arasında kimsə özünü başqa bir yerə, misal üçün, ozamankı Şərq blokuna, yaxud başqa bir supergücə bağlamaq fikrinə düşsəydi, amerikalılar anlayan kimi ya onu işdən çıxarırdılar, ya da bir yolla özləri istədikləri mövqeyə qaytarırdılar. Xarici güclər arasında ölkəmizdə daha çox nüfuz uğrunda rəqabət gedirdi. Sözsüz ki, hakim qüvvə ABŞ idi. Bu arada xalqın iradəsi, istəyi və qüdrəti əsla rol oynamırdı.

Bir ölkə və xalq üçün ən böyük müsibət budur ki, baxımsız qalsın, öz evində aşağılansın və təhqir olunsun. Bunun ardınca hər şey gəlir: iqtisadi problem, mədəni problem, etiqadlara,

amallara və milli mədəniyyətə etinasızlıq. Bunlar əcnəbi hökmranlığının zəruri nəticələridir.

Xalqın qiyamının və möhtəşəm İslam inqilabının ən mühüm məqsədlərindən biri bu hökmranlığa son qoymaq idi. Məhz buna görə o günlərdə xalqın şüarları arasında xarici məsələlər də yer alırdı, ABŞ-ın, İngiltərənin, şahın müdafiəçilərinin və İsrailin əleyhinə şüar verirdilər. Tarix boyu ümumi xalq həmişə xaricilərin hökmranlığından əziyyət çəkmişdir. Bu böyük inqilab İslam şüarlarını irəli sürməklə, İslam bayrağını, dinə və dini kimliyə qayıdış bayrağını ucaltmaqla başlandı. Onun öncülləri təqlid müctəhidləri və böyük alimlər idilər. Bu inqilab xalqda olan istiqlaliyyət ruhiyyəsini doyurdu və təmin etdi. Xalq dərk etdi ki, İslama arxalanmaqla təhqir örtüyünü kənara çəkə biləcək. Bu, mübarizənin məqsədlərindən biri oldu.[16]

İngilislər Rza xanı hakimiyyətə gətirdilər ki, onların istədiyi işi görsün. Bu, inkar oluna bilməz. Həm də mənim sözüm deyil, tarixin qəti sözlərindəndir; həm məlumatı olanlar yazmışlar,

---

[16] Böyük Rəhbərin fiqh ali ixtisas (xaric) dərsinin sonundakı söhbətindən: 2002.

həm də 30-40 ildən sonra nəşr olunmuş sənədlərdə mövcuddur. Bir neçə gün bundan öncə belə bir sənəddə oxuyurdum ki, Seyid Ziyanın, Rza xanın və İngiltərə məmurlarının iştirak etiyi bir iclasda Rza xan deyib ki, mən siyasətdən bir şey anlamıram, siz nə əmr etsəniz, mən itaət göstərəcəyəm. Doğrudan da belə idi. Lakin itaətkarlıq halının bir qədər zəiflədiyini və həqiqi müstəqilliyə sarı yox, Hitler Almaniyasına sarı meylləndiyini duyduqları anda - təbii ki, Rza xan Hitlerə baxdıqda vəcdə gəlir və həzz alırdı - onu kənarlaşdırıb, oğlunu gətirdilər. Bunlar ölkənin reallıqlarıdır.

Ölkəmiz sizin haqlı olaraq dediyiniz, mənim də qəbul etdiyim bütün zəngin mədəni xüsusiyyətlərinə rəğmən, təhqir olundu. 50-60 il bizdə elə adamlar hakimiyyətdə oldular ki, onları gətirənlər nəinki biz deyildik, - çünki İranda bu formada xalq hakimiyyəti ümumiyyətlə, olmamışdır - hətta özlərinin igidliyi də deyildi. Əgər diktator idilərsə, kaş ən azı Nadir şah kimi öz qollarının gücü ilə, yaxud Ağa Məhəmməd xan kimi öz hiyləgərliyi ilə hakimiyyətə gəlmiş olaydılar. Amma belə deyildi. Digərləri onları xalqa

hakim etdilər, onlar da xalqın bütün maddi və mənəvi sərvətlərini qarət etdilər. Çoxlu zəhmət və əziyyətlərdən sonra bu uğursuz vəziyyət qarşısında möhtəşəm bir hərəkət başlandı, canları fəda etməklə, sinələri qəddar düşmənin süngüsü qarşısında sipər etməklə nəticəyə çatdı.[17]

**Şah sarayı və ölkənin dağıdılması**

Siz gənclərin çoxu keçmiş dövrü xatırlamırsınız. Zalım diktatura illərində İran xalqı üçün ən çətin dövr inqilabın qələbəsindən öncəki 50 illik dövr olmuşdur. Nə üçün? Çünki keçmişdə müstəbid şahlar xalqa həmişə çox zülmlər etsələr də, zalım, diktator və pis olsalar da, xalqla araları olmasa da, ən azı çox məhdud dövrlərdən başqa heç zaman xarici düşmənlərin əmri altında olmamışdılar.

Lakin son dövrlərdə, yəni Qacar dövrünün sonlarından Pəhləvi dövrünün axırına qədər istibdad, diktatura, xalqın fikrinə etinasızlıq, idarə fəsadı, zülm, ayrıseçkilik, dövlət rəsmilərinin və saray adamlarının sui-istifadəsi tüğyan edirdi.

---

[17] Böyük Rəhbərin mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2001.

Bunların hamısı vardı və bunlardan əlavə, çox acı olan bir amil də vardi və o, əcnəbilərin hökmranlığı idi. İranlı öz evinin içində xaricilərə yaltaqlanmalı idi. İranlı rəis, hərbçi, müdir və nazir öz evi daxilində ABŞ-ın, İngiltərənin səfirinə və tamahkar əcnəbi məmurlara - bu ölkədə yüz minlərlə əcnəbi məmur çalışırdı - yaltaqlanmalı idi. Gərək onların əlinin altında işləyəydi, onlardan əmr alaydı, onların istəyini nəzərə alaydı. Bu bir xalq üçün ən pis hal, rəzillikdir. Bir xalq müəyyən bir dövrdə yoxsulluğu və iqtisadi problemləri qəbul edə bilər, amma xarlığı qəbul etməz. İran xalqını xar etdilər. İnqilab xalqı xarlıqdan xilas etdi, asılılıqdan, azğın şah rejiminin fəsadından, qorxu və qaranlıqdan qurtardı, xalqı azad etdi, iranlı öz məmləkətini aldı, iranlı gənc, kişi və qadın, yaradıcı alim və tələbə özü üçün və öz iradəsi ilə işlədiyini anladı, gələcəyə ümidvar oldu.[18]

İslam quruluşunun, İslam inqilabının parlaq həqiqəti bu möhtəşəm işi gördü. Heç kəs belə bir hadisəni gözləmirdi. O zaman bir siyasi söz danışan və bununla ürəklərini sərinləşdirib,

---

[18] Böyük Rəhbərin xalqla, ölkə və ordu məmurları ilə görüşdə çıxışından: 2006.

mübarizə apardıqlarını düşünən bəzi ziyalıların son istəyi bu idi ki, keçmiş Sovet respubilkaları kimi, Afrikanın, Asiyanın və yaxud digər yerlərin zavallı kommunist ölkələri kimi, yaxud Türkiyə və Pakistan kimi bir ölkə olaq. Bundan artığını təsəvvür etmirdilər. Bu xalqın müstəqil olması, öz ayağı üstə dayanması, öz istedadlarını çiçəkləndirməsi, öz sözünü danışması, öz yolunu, öz məmurlarını seçməsi, ölkəni özününkü bilməsi və sərvətlərinin ölkənin özündə sərf olunmasını düşünməsi onların təsəvvürünə də gəlmirdi. Bunu inqilab etdi. Bu iş imamın rəhbərliyi və imanlı xalqın iradəsilə baş tutdu. Bu böyük çadırın dirəyi imandır. Belə bir möcüzə edən parlaq həqiqətə, inqilabçı İslama, əsl Məhəmməd (s) İslamına iman.[19]

Allah Qacar və Pəhləvi rejimlərinin başçılarına lənət eləsin! Pəhləvilər inqilabdan öncəki 50 ildə ölkənin başına elə bir bəla gətirdilər ki, deyiləsi deyil. Onlardan qabaq da mənfur Qacar sülaləsinin padşahları ölkəmizə və xalqımıza nələr etdilər! Onlar hər bir şeyi özlərinə, ətraflarına və

[19] Böyük Rəhbərin Quruculuq Cihadının mücahidləri ilə görüşdə çıxışından: 1998.

Tehranın əyan-əşrafına istəyirdilər, məhrum şəhər və kəndləri xatırlamırdılar, indikindən iki dəfə artıq əhalini lazımınca idarə edə bilən zəngin torpağa, potensiala, mədənlərə, suya və digər sərvətlərə malik bu gözəl, istedadlı və böyük ölkəni başlı-başına buraxıb, xarabalığa çevirmişdilər.

Biz oturub hesablayanda görürük ki, ölkəmizin çoxlu şəhər və vilayətləri məhrum bölgələr sırasındadır. Nə üçün belə olmalıdır? Bu onların hakimiyyətinin nəticəsidir. İslam Respubilkası Allahın lütfü ilə bunu düzəltməlidir və düzəldəcək. Allaha şükür olsun ki, inqilabın əvvəlindən bu günədək dövlət məmurları və qayğıkeş insanlar fəaliyyət göstərib, çalışıblar. Allaha şükür olsun ki, son zamanlarda işlər daha da artırılmışdır. Onlar sözügedən üzüqara və məlun sülalələrin xarabalıqlarını düzəldib, ölkəni abadlaşdırmağa çalışırlar.[20]

Bu parlaq istedad, zəngin torpaq, mühüm çoğrafi mövqe, uğurlarımızın əsası olan möhtəşəm tarix və hamısından üstünü, bu gün gənclərimizin qəlblərində parlayan və dünyanı özünə cəlb edən

---

[20] Böyük Rəhbərin Delvar bölgəsinin əhalisi ilə görüşdə çıxışından: 1992.

iman nuru, bizim gənc və yeniyetmə nəslimizə işıqlı gələcək müjdələyən amillərdir. Siz həmin gələcəyi bacardıqca yaxşı qurmağa çalışmalısınız. Bizdə inqilabdan öncə də bu gənc, bu mövqe və bu tarixi keçmiş olmuşdur, amma bu nailiyyət və inkişaf olmamışdır. Nə üçün? Çünki o zaman bu ölkəyə, onun bütün sahələrinə hakim olan siyasi rejim əvvəla din, iman və dəyərli inanclardan tam uzaq idi, daxilində uca dəyəri olmayan bir qrup puç insan xalqa hökmranlıq edirdi. İkincisi də budur ki, bu amillər onların düşmənlərə bağlanmasına bais olmuşdu. Bizim ölkəmiz oğru və quldurların cənnəti idi. Nə üçün? Çünki kəndxudanı görüb kəndi çapırdılar. Rejimin məmurlarını şərik edib xalqı talayırdılar. İnqilab əcnəblərin xain nüfuzu, həmçinin azğın insanların qeyri-qanuni və qeyri-məntiqi hökmranlığı qarşısında ən böyük maneəni yaratdı. O maneə İslam idi. Nə qədər ki, İslam var, qlobal hegemonizmin təbliğatçıları bərk qorxacaqlar.[21]

Bir zaman Tehrandakı yüksək rütbəli məmurların ən böyük məqsədi öz ciblərini

---

[21] Böyük Rəhbərin şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdə çıxışından: 2003.

doldurmaq, xarici, amerikalı və sionist ərbablarını razı salmaq idi. Xalqın və ölkənin problemlərini özlərinə məqsəd seçməyi düşünmürdülər. Bir şəhərin icra aparatında nüfuzlu bir insan olsaydı, öz nüfuzu qədərincə, həm də çox zaman şəxsi maraqlarından ötrü dövlət imkanlarını öz şəhərinə cəlb edirdi. Bu olmdıqda isə şəhər hər şeydən məhrum qalırdı. Bizim xalqımızın, şəhərlərimizin çoxu tağut dövründə bu ayrıseçkiliyin, səhv tağut sisteminin qurbanı oldu. İslam Respubilkası dövründə isə ölkənin məsul şəxsləri xalqa xidmət göstərməyi özlərinin yeganə vəzifələri bilirlər. Mən dəfələrlə demişəm ki, bizim məmurlarımız xalqın xidmətçiləri və nökərləridir. Xalq əzəmətli milli iqtidarı məmurlarına tapşırıb ki, həm beynəlxalq miqyasda onların şərəfini, istiqlaliyyətini, elmi, mədəni və siyasi mövqelərini qorusunlar, həm də ölkənin potensialını onların xeyrinə işlətsinlər.[22]

Bu gün din və fiqh hakim olmuşdur. Bu vəziyyət İslam tarixi boyu heç zaman baş verməmişdir. Bu, erkən İslam çağındakı bir neçə illik İslam hakimiyyəti dövründən sonra mövcud

---

22 Böyük Rəhbərin Damğan əhalisi ilə görüşdə çıxışından: 2006.

olmamışdır. Bu vəziyyəti Səfəvilər dövrünün vəziyyəti ilə müqayisə etmək olmaz. Onlar bir qrup çevrilişçi və quldur və Qacarlar kimi təsadüfən, şiə idilər. Şahlıq və digər hakimiyyət şərtləri baxımından Səfəvilərin Qacarlarla fərqi olmamışdır, yalnız şiə görüşləri olmuşdur.[23]

Bu Tehran şəhərində İslamın ən böyük düşmənləri öz evlərindəki kimi tam təhlükəsiz şəraitdə yaşayırdılar. Bu məmləkətin sərvətlərini, nefti aparır, inkişafın qarşısını alır, xain və zalım proqramlarını zorla icra edirdilər. Ölkənin idarəçiləri, yəni Məhəmmədrza şah və onun ətrafı əllərini sinələrinə qoyub onların qarşısında dayanırdılar. Zahirən lovğalıqları vardı, amma əslində, əlləri sinələri üzərində idi, icazəni onlardan alırdılar. Tehrandakı şah sarayı ən mühüm məsələlərdə qərar vermək üçün ABŞ və İngiltərə səfirlərindən fikir öyrənirdilər. Bunlar sənədlərdə mövcuddur. Təəssüf ki, İslam ölkələrinin çoxunda bu gün də vəziyyət belədir. Çox möhtəşəm tarixə malik olan, bu gün elm, mübarizə, texnologiya və siyasət sahələrində öz bacarığını göstərən bu

---

[23] Böyük Rəhbərin Kermanın cümə imamı və digər məsul şəxsləri ilə görüşdə çıxışından: 1991.

qüdrətli və ayıq xalq əl-ayaq altda əzilirdi. İmam xalqı səhnəyə çıxardı, xalqa etimad etdi, xalq da özünü göstərdi. O, xalqa etimad göstərəndə, xalq da ona etimad göstərdi. Küfrün ümid yeri olan bu nöqtə əsl Məhəmməd (s) İslamının bayraqdarı oldu. İran xalqı inşallah bu yolda günbəgün irəliləyəcək.[24]

Keçmişdə uzun illər bu xalqa və bu milli kimliyə zülm olunub. Bunu bizim hamımız həmişə göz önündə saxlamalıyıq. Tarix boyu xalqımıza həqiqətən, zülm olunmuşdur. Bu gün sizdə olan bacarıq və istedad bizim ölkəmizin gənc nəslində, kişi və qadınlarında həmişə mövcud olmuşdur. Amma insan istedadının çiçəklənməsi üçün həvəsləndirməyə, tanıtdırmağa, etimad və ümidə ehtiyacı var. Müxtəlif dövrlərdə bu siyasətin tam əksi icra olundu. Bu sahədə əsl müqəssir də hökumətlər və siyasətlər olmuşdur. Bunda heç bir şübhə yoxdur. Bəziləri nə etdiklərini bilirdilər. Məsələn, Pəhləvi dövründə əksər məmurlar bilərəkdən bu yolu tutdular, istedadların qarşısını aldılar. Səbəb də bəllidir: iranlının asılı qalması.

---

[24] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2006.

Onların istedadlı nəsillə düşmənçiliyi təbii düşmənlik deyildi, doğrudan da şəxslərlə düşmənçilik etmək istəmirdilər, dünyanın hakim siyasətləri onlardan bunu istəmişdi.

Siz görün Pəhləviləri kim hakimiyyətə gətirdi, Rza xanı kim bu ölkəyə hakim etdi. Bu daha qaranlıq məsələ deyil. Bu gün hamı bilir ki, Rza xanı ingilislər hakimiyyətə gətirdilər. Necə ki, daha işə yaramadığını hiss edən kimi kənarlaşdırıb, Məhəmmədrzanı gətirdilər. Bu bizim müasir tariximizin aydın hissələrindəndir. Onları hakimiyyətə gətirənlər müxtəlif siyasətlərlə özlərindən asılı saxlamağa çalışırdılar. Bu ölkədə Müsəddiqin başçılıq etdiyi milli hərəkat uğur qazananda ən çox təhlükə hiss edən də şah rejimi və ingilislər idilər. Sonra ingilislər məsələnin öhdəsindən gələ bilmədiklərini görüb amerikalıları işə qoşdular. Onlar gəlib ingilisləri də sıxışdırdılar və özləri hakim oldular. Bir nəfər qalxıb bir çamadan dollarla buraya gəldi və süni bir böhran yaratmaqla milli hökuməti devirdi, Məhəmmədrza Pəhləvini hakimiyyətə gətirdi. Bu aydın bir məsələdir. Buna dair sənədlər və əlyazmalar bu gün hamının ixtiyarındadır.

Əlbəttə, təəssüf ki, siz gənclər bu məsələlərə müraciət etməyə az vaxt tapırsınız. Amma bunlar vacibdir, bunları bilməlisiniz. Bu gün Rza xanı İranda hakimiyyətə gətirən şəxsin adı bəllidir, Məhəmmədrzanı hakimiyyətə gətirən şəxsin adı bəllidir. İrana pul gətirən şəxsin adı bəllidir. ABŞ-da cızılan və əməliyyat otağı Avropada təşkil olunan plan da bəllidir. Bunlar aydın və bəlli planlardır. Onların Xarici İşləri Nazirlikləri bunları nəşr etmişdir və bu gün hamının ixtiyarındadır.

İran xalqının müstəqilliyindən və özünəinamından dünyanın istismarçı və müdaxiləçi siyasətləri zərər görürdülər. Bir xalq üçün böyük zəhər asılılıqdan, onun dərmanı isə özünüdərkdən, düşüncə və elm müstəqilliyindən, öz ayağı üstə dayanmaqdan, özünü idarə etməkdən, digərlərinə möhtac bilməməkdən ibarətdir. Buna görə də, təbii ki, onlar bu dərmanı xalqdan uzaq saxlamalı idilər.

Pəhləvi rejimi xalqın istedadlarının qarşısını almağa çalışırdı. Bu, şüarçılıq deyil, məntiqə və dəlilə söykənən bir sözdür. Uzun illər beləcə ötdü. Düzdür, onlardan öncə Qacarlar da eyni işi gördülər, lakin bilmədən, axmaqlıqdan, cəhalətdən,

elmlə tanış olmadıqlarına görə. Onlarda da asılı olan şəxslər tapılırdı. Bu bizim keçmişimizdir. Bütün bu dövr boyunca İran xalqına zülm olunmuşdur. İslam inqilabı belə bir rejimi kənarlaşdırdı.[25]

**Mənfur şahlar**

Həqiqət budur ki, bizim ölkəmiz və cəmiyyətimiz inqilabdan sonrakı bütün bu dövrdə həssas anlar yaşamışdır. Bu arada gənclərin rolu, gəncliyin və gənclik istedadlarının təsiri səciyyəvi olmuşdur. Biz istedadlı xalqıq, əvvəllər də istedadlı olmuşuq. Lakin müstəmləkə və diktatura siyasətlərinin hökmranlığının, sülalə hakimiyyətlərinin, haqsız və zalım hökumətlərin təsirindən iki-üç əsr dünyanın elm karvanından geri qaldıq.

Elmi gerilik özü ilə birgə iqtisadi, mədəni, hərbi və digər gerilikləri də gətirir. Öz istedadlarına, təbii və humanitar potensialına, coğrafi mövqeyinə, yeraltı sərvətlərinə görə dünyanın ən mütərrəqi və ən sərvətli ölkələrindən

---

[25] Böyük Rəhbərin gənc ixtiraçı və yaradıcılarla görüşdə çıxışından: 2005.

birinə çevrilməli olan bir ölkə Qacar və Pəhləvi rejimləri dövründə geriqalmış, asılı, yoxsul, zəif və başıqapazlı bir ölkəyə çevrildi. Bu bizim tariximizdə baş verdi. Günahı kimin boynunadır? İlk növbədə fəsad içərisində olan bacarıqsız və asılı başçıların. Qərbin müstəmləkə siyasətləri zamanı onlar həm də asılı oldular. Onların iradələri, təəssübkeşlikləri yox idi, təkcə öz həyatları, ağalıqları və hakimiyyətləri haqda düşünürdülər. Günah ilk növbədə bunların boynuna düşür; ən azı Qacar və Pəhləvi sülalələrinin.

Xalqımızın qiyamətdə və Allah-Taalanın yanında bu zalımların yaxasını tutmağa, onların əleyhinə böyük iddialar irəli sürməyə haqqı var. Bunlar istedadlı, zəngin, böyük, misilsiz mədəni keçmişə malik bir ölkəni - belə bir ölkə ən azı dünyanın birinci dərəcəli ölkələri sırasında, əslində isə ən başda durmalı idi - aşağı dərəcəli, yoxsul, zəif, təhqir olunmuş, başıqapazlı və ümidsiz bir ölkəyə çevirənlərdir.

Sonra nə baş verdi? Bu 100-120 il əsnasında ayıq və böyük şəxsiyyətlər peyda oldular. Onlar xəbərdarlıq etdilər, ölkənin həyatının qaranlıq və zülmət səmasında ildırımlar çaxdırdılar və xalq

oyandı. Bir nümunə Mirzə Şirazinin məşhur Reji kompaniyasına qarşı çıxması idi. O bütün ölkəni udub tədricən Hindistanın gününə salmaq istəyirdi. Başqa bir nümunə o zamanın Milli Məclisində Rza xanın, digərlərinin və bütün ölkəni ingilislərə təhvil verən xəyanətkar müqaviləni imzalayanların qarşısında mərhum Ayətullah Müdərrisin fəryadlarıdır. Bunlar mühitdə ildırımlar yaratdı, qəlbləri işıqlandırdı, iradələri möhkəmlətdi. Hərəkat bu fikrin öncülləri vasitəsilə başlandı. Allah-Taala bu xalqa imam kimi əzmkar, iradəli və ilahi bir rəhbər bəxş etdi. Yenə də həmin gənclər öz hərəkətlərini etdilər, böyük və əsaslı bir dəyişiklik baş verdi. İran xalqının saxlandığı həbsxana milləri qırıldı. Lakin inqilabın başladığı nöqtədən xalqın çatmalı olduğu yerə qədər uzun yol var. Bu uzun yol müxtəlif problemlərlə doludur, bundan ötrü iradə, qüvvə, həvəs, yaradıcılıq, qüvvələrin böyük səfərbərliyi lazımdır. Bunlar gənclər, gənclik ruhiyyəsi və gənclik həvəsi vasitəsilə təmin olunmalıdır.[26]

---

[26] Böyük Rəhbərin ölkə üzrə şagirdlərin İslam birliklərinin üzvləri ilə görüşdə çıxışından: 2007.

Bu xalq başucalığı və müstəqilliyi dadmış qorxmaz bir xalqdır. Bizim bugünkü əsas nəslimizi təşkil edən gənclər ölkələrində heç bir əcnəbinin hökmranlığını görməmişlər. Bizim dövrümüzdə isə belə deyildi. Bizim nəslimiz elə bir dövrdə göz açdı ki, hakimiyyətin zəifliyi səbəbindən xarici işğalçılar tam ixtiyar sahibi olmuşdular. Bizim Məşhəddə bir əcnəbi dövlət, Azərbaycanda başqa bir əcnəbi dövlət, Tehranın özündə də müxtəlif əcnəbi dövlətlər at oynadırdılar. Sonra formal olaraq öz hərbi qüvvələrini çıxardılar, siyasi qüvvələri isə yerində qaldı. Sizin keçmiş nəsliniz ölkəni belə görmüşdülər. Ölkənin məsul şəxsləri əcnəbilərin itaətkarı idilər. Lakin bugünkü nəsil belə deyil. Bugünkü nəsil öz ölkəsini, xalqını, məmurlarını, hökumət və quruluşlarını həmişə azad, başıuca, müstəqil və izzətli görür, ölkənin bütün atributlarının müstəqillik əlamətlərinə malik olması ilə fəxr edir. Bu, düşmənin təhdidindən qorxmayan nəsildir.[27]

**Asılılıq və diktatorluq**

---

[27] Böyük Rəhbərin Dokuhə qarnizonunda "Nur yolçuları"nın toplantısında çıxışından: 2002.

Bu inqilab bizim tariximizdə yeni bir dövrün başlanığıcı oldu. Keçmişdə uzun bir dövrdə biz istibdada düçar olduq. Diktator, müstəbid və hegemon padşahlar məmləkətin bütün işlərini əllərinə keçirmişdilər, ölkəni öz mülkləri, xalqı rəiyyətləri bilirdilər. Son dövrdə - yəni Qacar dövrünün sonlarından Pəhləvi dövrünün axırlarına qədər bu məsələyə başqa bir dərd və xəstəlik də əlavə olundu və o, asılılıq idi. Qədim padşahlar diktator olsalar da, əcnəbi güclərdən asılı və onların fərmanına müti deyildilər. Lakin Qacar dövrünün sonlarından və bütün Pəhləvi dövründə padşahlar həm diktator, həm də asılı idilər. Bu, keçmiş siyasi hakimiyyətlər üçün əlavə xəstəlik oldu. Bu diktatorluğun və asılılığın bizim ölkəmiz və xalqımız üzərində çoxlu təsir və nəticələri olmuşdur. Bizim ölkəmizi geridə saxlayan, təbii sərvətlərimizi düşmənlərə yedirdən, xalqımızın fikir və elm inkişafına mane olan bu diktatorluq və asılılıq idi. Biz bir zaman dünyada elmin bayraqdarı idik, sonra isə digərlərinin elminin zəif və əhəmiyyətsiz tərəflərinin və artığının dilənçisi olduq, digərlərinə əl açdıq. Onlar da istədikləri zaman əlimizə nəsə qoydular, istəmədikdə də -

əksər vaxtlarda istəmirdilər - imtina etdilər. Buna əsasən, xalqımız diktatorluq və asılılıq səbəbindən geriqalmış və zəif bir xalq oldu, neftimiz və digər sərvətlərimiz də getdi. Gələcək üçün keçmişdən qat-qat təhlükəli planlar cızmışdırlar. İnsan mənfur Pəhləvi rejiminin son dövrünə aid sənədlərə baxanda aydın şəkildə görür ki, onlar ölkənin və xalqın gələcəyi üçün çox təhlükəli planlar nəzərdə tutmuşdular. Bu planlar icra olunsaydı, bizi daha yüz il geriyə salacaqdı. İnqilab bu prosesi dayandırdı, xalqımızın tarixində yeni dövr başlandı. İnqilabın əsas dörd xüsusiyyəti olan müstəqillik, azadlıq, özünəinam və inkişaf bütün müxalifət və düşmənliklərə rəğmən, onun ölkədə qurduğu möhkəm təməllərdir.[28]

İranın 2500 illik şahlıq dövründən əlavə - onlar iddia edirdilər, bizim dəqiq məlumatımız yoxdur; özlərinin də məlumatı yox idi və boş-boş danışırdılar - son bir-iki əsrdə Pəhləvi və Qacar padşahlarının uğursuz sayəsi altında bu məmləkətdə baş verənlər xalqı bədbəxt günə qoydu. İran özünün tarixi əzəmət və izzətindən

---

[28] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 2004.

məhrum edildi, elm, sivilizasiya karvanından geri qaldı, siyasətdə, iqtisadiyyatda gerilədi, həyat sərvətlərini əldən verdi. Xalq padşahlıqdan bunları gördü. Onları kim xilas etdi? Kim onları oyatdı? Böyük ruhani kişi. Xalq ruhanilərin öncüllüyünü görüb, həqiqi din alimlərini sevir. Bu məmləkətdə nə zaman həqiqi azadlıq mübarizəsi olubsa, rəhbəri ruhanilər olmuşlar. Bu, tarixdir; ruhanilərin yox, onların düşmənlərinin yazdığı, amma bunu etiraf etdiyi tarix.[29]

Bizim xalqımız bir-birinin ardınca gəlib-gedən diktator və şah sülalələrinin uzun dövründən sonra yeni qlobal dönəmə elə bir halda başladı ki, bir tərəfdən diktatura dövrü bitməmişdi, digər tərəfdən asılılıq dövrü başlanmışdı. İnqilabdan qabaqkı dövrün tarixinə baxsanız, bizim hansı vəziyyətdə olduğumuzu görər və indiki mövqeyimizi düzgün anlayarsınız. O zaman bu ölkədə diktatura dövrü asılılıq dövrünə çevrildi. Əlbəttə, ölkənin asılılığı birdən-birə yaranmadı. Qacarlar dövrünün sonlarından xaricilərə İran xalqının ziyanına olan ardıcıl imtiyazları verməklə

[29] Böyük Rəhbərin ümumi görüşdə çıxışından: 1994.

tədricən əcnəbi dövlətlərin iqtisadiyyatına və siyasətinə asılılıq başlandı. Diktatura dövrü Məşrutə hərəkatı və digər məsələlərə görə zəifləyəndən sonra birdən-birə Pəhləvi rejimində rüsvayçı asılılıq bayrağı ucaldı; yəni qeyri-müstəqil siyasətlər, kontraktlar, xarici fərmanlara qulaq asan, onlar tərəfindən oturdulmuş siyasi şəxslərin hakimiyyəti. Əlbəttə, onda da diktatorluq vardı, günbəgün daha təhlükəli, daha modern və daha ağır olurdu. İnqilab belə bir şəraitdə qələbə çaldı, İran xalqı bir anda möhtəşəm hərəkətə başladı. Bu hərəkət həm uzun əsrlər boyu ölkəyə hakim olan diktaturalar, eqoist hökumətlər, həm də asılılıq, qeyri-müstəqillik, boyunduruq və qlobal güclərə tabelik əleyhinə idi. İnqilab ölkəmiz üçün çox dərin, qədim və təhlükəli olan bu iki faktorla əlbəyaxa oldu. Buna görə inqilabın işi çətin idi.

Əgər inqilab dini inanca və İslam imanına söykənməsəydi, qələbə çala bilməzdi. Bu hərəkəti başladan, davam etdirən xalqın hər bir fərdinin imanı idi. İslam inqilabından qabaq son 150 ildəki bütün hərəkatlar bu məqsədlə çalışdılar, amma uğursuzluqla üzləşdilər. Lakin inqilab bu yolda qüdrətlə irəliləyib uğursuzluq amillərinə qələbə

çala bildi. Nə üçün? Çünki İslam inqilabı yeni söz ortaya qoydu. Bu söz beynəlxalq, xüsusən də İslam ictimai rəyində özünə yer aça bilərdi. Bu yeni sözün ən böyük hissəsi Tövhid idi; dərin, dəqiq və hərtərəfli mənada. Tövhid - cəmiyyətə ilahi dəyərlərin hakimiyyəti, tağut, avtoritorizm, azğın və fəsadçı hökumətlərin əsl insani dəyərlərə hakimiyyətinin inkarıdır. Bu baxımdan, tövhid İslam şüarının və inqilab mesajının fəqərə sütunu, əsas təməli idi.

İslam inqilabının başqa bir sütunu insan məqamının ucalığına diqqətdir. Müəyyən bir coğrafi və siyasi toplumda yaşayan cəmiyyətin ucalığı tələb edir ki, azad və müstəqil olsun, istedadı çiçəklənsin, öz taleyinə hakim olsun, təhqirə və hörmətsizliyə məruz qalmasın, şəxsiyyəti ucalsın. Avtoritar rejimlər dövründə və sonra asılı Pəhləvi hökumətində bunlar görməzliyə vurulmuşdu. Avtoritar rejimlər bəzən fəthlər və abadlıq işləri kimi xidmətlər də göstərmişlər, lakin hər bir insanın ən böyük dəyəri olan azadlıq, müstəqillik, öz taleyini müəyyənləşdirmək haqqını

İran xalqından almışdılar. Bu, bütün diktaturaların xarakterik cəhətidir.[30]

**Sərvətlərin qarət olunması**

İllər öncədən, bəlkə də 200 il öncədən daha çox sərvət və qüdrət təşnəsi olan və bütün dünyanı ələ keçirmək istəyən güclər tərəfindən İran xalqına qarşı bir mübarizə başlandı. Onlar mövcud təbii sərvətləri, mədəni irsləri, elm vasitələrini və parlaq istedadları aparıb Avropada yeni yaranmış sivilizasiya və siyasətin - yəni sənaye sivilizasiyasının və ondan irəli gələn siyasi sistemin xidmətində işlətmək istəyirdilər. Onlar istifadə edilməsi mümkün olan bütün xalqlarla, onların özləri istəmədən mübarizəyə başladılar. Avropa kiçik yer idi, lakin onda böyük güc susuzluğu vardı. Dünyanın əsas sərvətləri də Avropada yox, Asiya və Afrikada yatmışdı. Sərvət və qüdrət təşnələri onları ələ keçirmək üçün uzun-uzadı yollar qət edib, dünyanın sərvətli bölgələrini tutmağa məcbur idilər. Onlar həmin sərvətləri o zaman Avropada elm və sənaye inkişafını yenicə

---

[30] Böyük Rəhbərin Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2003.

dadmış siyasi quruluşlara köçürürdülər. Beləliklə, Asiya və Afrikanın canına daraşdılar. Kim dünyanın müasir tarixinə dair kitabları oxuyubsa, macəranın ardını bilir. Hindistan müstəmləkəyə yem oldu; Çin, Yaponiya və Şərqi Asiyanın digər bölgələri də həmçinin. Avstraliyanı isə birdəfəlik uddular.

Ola bilsin hansısa bir ölkədə xalq yoxdur, yaxud mədəniyyətsiz xalq var. Təbii ki, müstəmləkəçilər üçün onun istismarı asandır. Amma bir ölkə mədəniyyətli, özü üçün şəxsiyyət və tarix tanıyan iddialı bir xalqa malikdirsə, o zaman müstəmləkəçilərin oraya daxil olması elə də asan olmur. Çünki həmin ölkənin xalqı tərəfindən müstəmləkə əleyhinə mübarizə yaranır. Bu gün bizim hegemonizm adlandırdığımız amil, İran xalqını sözügedən mübarizəyə məcbur etdi. Keçmişdə hegemonizm bir ölkəyə daxil olduqda, birbaşa müstəmləkəçilik formasında girib ölkəni tuturdu. Amma bu gün xalqları və onların sərvətlərini ələ keçirmək üçün daha mütərrəqi üsullardan istifadə edirlər. Buna əsasən, İran xalqının 150 il, yaxud daha artıq müddətdə müstəmləkəçi dövlətlərlə apardığı mübarizə -

tənbəki hərəkatından tutmuş sonrakı hadisələrə, milli hərəkata və İran xalqının imperializm siyasətləri, ABŞ və digərləri ilə bugünkü mübarizələrinə qədər hamısı xalqımızın məcbur edildiyi mübarizələrdir. Əgər İran xalqını rahat buraxsaydılar, özü öz işi, öz ölkəsi, öz maraq və sərvətləri ilə məşğul olsaydı, belə bir mübarizə olmaya da bilərdi. Xalqımızı bu mübarizəyə onlar məcbur etdilər. Onlar bu gün də təcavüzkarlıqla məşğul olurlar.

Əlbəttə, biz dünyanın hər yerində böyük güclərin yaxasını tuturuq. Dəlilimiz budur ki, onlar təcavüzkar və zalımdırlar. Biz zalımı özbaşına buraxıb demirik ki, bizi buraxsan, daha səninlə işimiz olmayacaq. Onlar təcavüzkar və işğalçıdırlar, daim xalqlara zülm etməkdədirlər. Biz zalım təcavüzkarı özbaşına buraxıb cinayətlərinə göz yuman dövlət və xalqlardan deyilik. Mənim qardaş və bacılarım! İran xalqı qədimdən mübarizəyə məcbur edilmişdir, bu günün məsələsi deyil. Düzdür, bu ölkədə İslam inqilabı qələbə çaldıqdan və bütünlüklə hegemon qüvvələrin ixtiyarında olan keçmiş rejim devrildikdən sonra böyük hegemon güclər daha əsəbiləşdilər,

mübarizə daha kəskin və daha sərt şəkil aldı. Unutmayın, yaxın keçmişdə ölkənin paytaxtı olan bu Tehranda elə rejim iş başında olmuşdur ki, o zamanın şahı Baş nazir təyin etmək istəyəndə əvvəlcə amerikalıların razılığını soruşurdu. Neft Şirkətinin prezidentini, Müdafiə Nazirini, yaxud ordunun qərargah rəsini dəyişdirmək istədikdə ABŞ səfirindən xahiş edirdi ki, mənim iqamətgahıma təşrif buyurun, görək bu dəyişikliyə etirazınız var, yoxsa yox. Sadə dillə desək, onlardan əmr alırdı. Hegemonizmin də kompliment vərdişi yoxdur ki, qarşı tərəfin güzəştə getdiyini gördükdə "bağışlayın, daha sizinlə işimiz yoxdur" desin. Əsla belə deyil. Siz hegemonizm və müstəmləkəçilik qarşısında nə qədər əyilsəniz, daha çox təzyiq göstərəcək. Başınızı aşağı salsanız, təzyiqini artıracaq ki, səcdəyə düşəsiniz. Qarşısında torpağa düşüb səcdə etdikdə ayağını sinəniz üzərinə möhkəm qoyacaq. Hegemon və təcavüzkar qüvvvələrin xisləti belədir.

Bəli, onlar əmr alan belə bir şaha bəzən deyirdilər ki, eybi yoxdur, filankəsi filan vəzifəyə qoymanıza etiraz etmirik. Bəzən də uyğun dəyişikliyə qarşı çıxır, ürəyi istədiyi adamı

çıxarmağa, yaxud təyin etməyə qoymurdular. Təsəvvür edin, 15 il öncəyə qədər bu ölkədə və bu Tehran şəhərində belə bir hakimiyyət olmuşdur.

Belə bir rejimin vaxtında bu məmləkətin nefti, poladı, daş kömürü, sərvətləri, əkinçiliyi, univeristeti və ordusu hansı vəziyyətdə və kimin xidmətində olar? Bəllidir ki, həmin hegemon və zalım qüvvənin xidmətində. Əlbəttə, hegemon tərəf də həmişə bir ölkə deyildi. Bir müddət ingilislər idilər, sonra təzə nəfəsli, pullu və gənc bir supergüc kimi amerikalılar meydana atıldılar, qoca, qədim və köhnə rəqibi qovub, özləri hər şeyi ələ keçirdilər.

Belə bir vəziyyətdə inqilab qələbə çalıb qulağısırğalı nökəri bayıra tulladı və fələyin qarşısında da baş əyməyən, təslim olmayan bir quruluş qurdu. İnqilabın qurduğu dövlət ABŞ və SSRİ kimi böyük güclərə hətta bir an da təslim olmadı. Bu iki böyük güc yüz məsələdə bir-biri ilə vuruşsalar da, bir neçə məsələdə razılaşırdılar. Onlardan biri və ən başlıcası İslam Respubilkasına təzyiq göstərmək idi. Bu iki böyük gücün bu məsələdə razılaşması aydın idi. Məgər bundan ayrı cür ola bilərdi?! Səhnədə olan hər kəs bunu aydın şəkildə görürdü, gizli bir şey deyildi. Lakin

inqilabdan yaranmış İslam quruluşu hər iki gücə qarşı çıxdı.

İslam Respubilkası kimi bir dövlət qurulanda hegemon qüvvələrin inqilaba qarşı mübarizəsi daha ciddiləşdi və gücləndi. Zarafat deyil, söhbət ABŞ-ın maraqlarından gedir. ABŞ-ın siyasi, iqtisadi və media imkanları əlindən çıxmış, başı daşa dəymişdi.

Düzdür, mübarizə 200 il öncədən davam edirdi. Amma o zamanın, özü də tam hegemon güc mövqeyində mübarizəsi təkcə İran xalqına qarşı idi. Ölkəyə hakim rejim ən azı son əlli ildən artıq müddətdə və Qacarların sonlarından özünü hegemon gücə əlibağlı təslim etmişdi. Hegemon güc də bir gün İngiltərə idi, bir gün Rusiya, sonra da ABŞ.[31]

Bir vaxtlar azğın rejimlərin hökmranlığı və əcnəbilərin istismarı səbəbindən bu böyük ölkənin bütün həyat qaynaqları bir növ hədər gedir, maddi və insani sərvətlər məhv edilir, mənəviyyat, düşüncə və etiqad sərvətləri köhnəlirdi. Bütün dünyanın ixtiyar sahibi olduqlarını iddia edənlər o

---

[31] Böyük Rəhbərin ordu mənsubları ilə görüşdə çıxışından: 2004.

zaman ölkəmizdən razı idilər, xalqları özlərinə qul hesab edənlər diktatura İranını tərifləyirdilər. O dövrün İranı əcnəbilər və xarici soyğunçular üçün cənnət, İran xalqına ziyandan başqa bir şey verməyənlər üçün təhlükəsiz yer idi, bu torpağın sahibləri, bu evin övladları üçün isə təhlükəli yer, xoşagəlməz həyat, hər cəhətdən məyusedici və ölümcül bir mühit idi. Bu məmləkətin gənci qürur hissindən məhrum idi, tələbənin bütün məqsədi bu idi ki, özünü birtəhər xarici ölkələrin birinə çatdırsın və orada bir işlə məşğul olsun. Öz ölkəsi və xalqı üçün çalışmaq istəyənlər daxildən qovrulurdular.

Bu gün İran müstəqil bir ölkədir. Bu gün xalqımız heç bir hegemonun təzyiqi altında baş əymir, öz maddi və mənəvi imkanlarından öz ölkəsi, bu günü və sabahı üçün istifadə edir. Bu gün ölkəmizin silahlı qüvvələri nə üçün və kimin üçün silahlandıqlarını bilirlər. Bilirlər ki, xalqı, ölkəni və milli müqəddəslərini müqəddəs və şərəfli müdafiə yükü onların çiynindədir. Bundan həzz alır, bununla fəxr edirlər. Bu gün silahlı qüvvələr xarici hegemonları öz aralarında, yaxud başları üstündə görməyə məcbur deyillər. Bu gün bizim

hərbi tələbələrimizin istər bu yüksək səviyyəli universitetdə, istərsə də digər hərbi universitetlərdə öyrəndikləri elmlər üçün əvvəllər xaricə getməyə, çətinlik və təhqirləri qəbul etməyə məcbur olurdular. Özlərinə dünya xalqlarının yerinə qərar vermək haqqı tanıyan şəxslər İran xalqını, hərbçisini və özlərindən başqa bütün xalqları ikinci dərəcəli sayırlar. Təəssüf ki, bu gün də onların boyunduruğunu qəbul edən ölkələrə qarşı belədirlər. Bu gün dünya hegemonları İran xalqından, hökumətindən və İslam Respublikası quruluşundan narazıdırlar və bu, təbiidir.[32]

Bacarıqsızlıqda, fəsadda və əcnəbilərə boyun əyməkdə regionun azğın hökumətlərinin ən pisi olan Pəhləvi rejimi özünün onillərlə hakimiyyəti dövründə İran xalqına və ölkəsinə ən böyük zərbələri vurmuş, qəddar diktatorluqla və rəhmsiz tədbirlərlə xalqı siyasi səhnədən çıxarmış, ölkənin maraqlarını müdaxiləçi güclərlə və soyğunçu şirkətlərlə sövdələşmənin qurbanı etmiş, pozğunluğu və şəhvətpərəstliyi yaymaqla gəncləri ölkənin taleyi haqda düşünməkdən saxlamış, hər

---

[32] Böyük Rəhbərin Hərbi Hava Qüvvələrinin səhər toplantısında çıxışından: 1995.

bir etirazçı və azadlıqsevərin səsini boğazında kəsmişdi.

Pəhləvi rejimi milli əkinçiliyi məhv etməklə, zəif və yarımçıq sənayeni asılı saxlamaqla, həris əcnəbilərə və saray nökərlərinə şərait yaratmaqla, neft gəlirlərini mənimsəməklə, milli sərvətləri amerikalı və avropalı ərbablarına bağışlamaqla, kəndləri viran qoymaqla, ölkəni dəyərsiz xarici məhsulların və ABŞ əkinçiliyinin artıq məhsullarının bazarına çevirməklə və digər xəyanətkar proqramlarla ölkənin iqtisadiyyatını tənəzzülə uğratmış, xarici güclərin iradəsində asılı etmiş və xalqın həyat damarını düşmənlərə tapşırmışdı. İran xalqının imanını, mədəniyyətini, etiqadlarını ələ salmış, onu təhqir etməklə və Qərb mədəniyyətini zorla yaymaqla özünəinamına qarşı ciddi mübarizəyə başlamışdı. Bir neçə əsr boyunca əcnəbi, zalım və müstəbidlərin hücumu qarşısında həmişə haqlı tələblərinin, ədalət, azadlıq istəyinin və müqavimətin əsas səngərinin qaynağı olan din və ruhaniliyi ən ağır intiqamlara məruz qoymuş, onlara qarşı bütün güc, təhdid, böhtan və təbliğat vasitələrindən istifadə etmişdi. Yoxsulluğun, kasıblığın, aclığın xalqın əksəriyyətini sıxdığı bir

halda, bir tərəfdən şahın, ailəsinin, saray adamlarının və hərbi komandanların israfı, bədxərcliyi, dəbdəbəçiliyi, əfsanəvi yaşayışları və sarayları, digər tərəfdən də əcnəbi şirkətlər və onların daxili dəllalları vasitəsilə milli sərvətlərin qarət edilməsi günbəgün xalqın vəziyyətini daha da ağırlaşdırırdı. İslamın xilaskar hökmləri rejim başçılarının günahkar əllərilə bütünlüklə ictimai həyatdan xaric edilmişdi, rejimin birbaşa nüfuzu altında olan mərkəzlərdə, misal üçün, hərbi və təhsil mərkəzlərində hətta dini təqvaya riayət etmək, namaz qılmaq və ibadət etmək də masqara olunur, bəzi yerlərdə cinayət sayılırdı.

Zalım və qəddar rejimi azca tənqid etmək kobud və qanlı tədbirlərə səbəb olurdu. Şahın ABŞ CİA-sı və bəşər düşməni olan sionistlər vasitəsilə idarə və təchiz olunan cəhənnəm SAVAK-ının ona qarşı çıxmağa cürət tapanları əzmək üçün ən ağır işgəncələri və ən qorxulu həbsxanaları hazır vəziyyətdə idi.

Elm hövzələri, universitetlər, tələbələr, mübariz alimlər və gənclər, xüsusən də dindən və dini mübarizədən danışanlar ən kobud vəhşiliklərə məruz qalırdılar. Ölkə xarabalığa, din-iman məhvə

doğru gedirdi, milli istiqlaliyyət, izzət və şərəf əcnəbilərin ayaqları altında idi, İranın və iranlının gələcəyi çox qaranlıq görünürdü.

Böyük İmam Xomeyninin rəhbərliyi ilə İslam hərəkatı 1962-1979-cu illər arasında belə bir şəraitdə başlandı, inkişaf etdi və kamilləşdi. Bizim Böyük İmamımız əsl Məhəmməd (s) İslamının təlimlərinə söykənərək, xalqın imanına inamla, özünün misilsiz qorxmazlığı, ixlası və Allaha təvəkkülü ilə müsibətlər meydanında mübarizə yolunu açdı, irəlilədi, dözümlə və peyğəmbərcəsinə xalqın beynini və qəlbini acı həqiqətlərlə və onlardan çıxış yolu ilə tanış etdi. İlk addımlardan bu ruhani kişinin nidasına qulaq asan, onun haqq məntiqinə və aydınlaşdırıcı dərsinə könül verən İran xalqı İslama güclü iman və eşqlə unudulmaz fədakarlıqlar və canfəşanlıqlar yaratdı.[33]

Müstəmləkəçi qüvvələr onillərlə İranda hökmranlıq etdilər. Bu müddətdə müstəmləkəçi İngiltərə dövlətinin xalqımızın başına gətirdiyi bəlalar yaddan çıxmaz. Məşrutə inqilabını müsadirə, xalqı Rza xan diktatorluğuna məhkum

---

[33] Böyük Rəhbərin İslam inqilabının iyirminci ildönümü münasibətilə müraciətindən: 1999.

etdilər, nefti taladılar, ölkəni geridə saxladılar, xalqı aşağıladılar, xar etdilər. Onillərlə xalqın bütün haqlarını tapdadılar. İngilislərin beynəlxalq mövqeyi zəifləyəndən sonra amerikalılar özlərini bu süfrəyə çatdırdılar. İngiltərəlilərin cinayətləri İranda amerikalılar tərəfindən davam etdirildi. Onlar pəncələrini bu ölkəyə günbəgün daha möhkəm batırıb sərvətləri daşıyır, dini və milli mədəniyyəti məhv edir, əcnəbiyə pərəstiş mədəniyyətini bərkidirdilər. Bu ölkənin hər bir şeyi onların fərmanı altında idi. Bu xalqın bütün qüvvəsini almışdılar. İslam xalqın damarlarına yeni qan köçürə, İslam oyanışı şüarı onu hərəkətə gətirə bildi. Böyük İmamın rəhbərliyi xalqa yol göstərdi. Bu xalq Quranın buyurduğu kimi, öz taleyini öz iradəsi, müqaviməti və səyi ilə dəyişdirdi, diktatura rejimini məhv etdi, Amerikanı ölkədən qovdu, supergüclərin istismarına son qoydu, xalq öz taleyini təyin etmək hüququnu yenidən əldə etdi.[34]

## Keçmiş hakimiyyət dəyişiklikləri

[34] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2004.

Ölkəmizin tarixinə nə qədər baxırıqsa, nə qədər geriyə qayıdırıqsa, İsalm inqilabına başqa bir oxşar tapmırıq. Mən bunu bir qədər aydınlaşdırım. Tarix boyu ölkəmizdə hərbi güclər vasitəsilə, ordu yeritməklə, çevrilişlə hakimiyyət dəyişiklikləri olmuşdur, müxtəlif sülalələr gəlib-getmişlər, amma onların heç birində xalqın müdaxiləsi olmamışdır. Ölkəmizin istər İslamdan öncəki, istərsə də sonrakı tarixinə baxsaq, görərik ki, hakimiyyət dəyişikliklərinin hamısı belə olmuşdur.

Qədimdə yalnız bir istisna olub, onu deyəcəyəm. Ondan başqa hakimiyyət dəyişikliyi həmişə ordu yeritməklə, hərbi hücumla və xalqın rolu olmadan baş tutmuşdur. Nə sülalələrin, nə də bir sülalə daxilində şahların dəyişdiyi zaman xalqın iradəsi rol oynamışdır. Yenə də sizin şəhəriniz Şirazdan misal çəkmək istəyirəm. Fətəli şah Qacarın ölümündən sonra, burada hakim olan Hüseynəli Mirzə adlı böyük oğullarından biri şah olmaq istəyirdi. Amma Tehranda Fətəli şahın nəvəsi Məhəmməd şah taxta oturmuşdu. Müharibə baş verdi. Şiraz şəhərinin darvazaları arxasında iki qüvvə arasında döyüş başladı. Bu müharibələrdən xalq ziyan çəkir, adi insanlara xəsarət toxunur,

tarlaları, mal-mülkləri və canları təhlükəyə düşürdü. Tarix boyu belə olmuşdur.

Qeyd etdim ki, yalnız bir istisna var, o da tarixi baxımdan şübhəlidir və əfsanələrlə qarışmışdır. O, dəmirçi Kavənin qiyamıdır. Deyirlər bu dəmirçi xalqın köməyi ilə Zəhhak Marduşun səltənətini devirdi. Əgər düz olsa, tarixdə yalnız bu bir nümunə var. Bizim tariximizdə ən böyük hakimiyyət dəyişikliyi olan, şahlığı kökündən devirən və monarxiyanı xalq hakimiyyətinə çevirən İslam inqilabı xalqın gücü ilə baş verdi. Burada daha iki böyük güc qarşılaşması, hakimiyyət davası və bu kimi məsələlər yoxdur. Xalq ruhanilərin başçılığı ilə səhnəyə çıxır, hakimiyyəti təkəbbürlü padşahlardan, tağutlardan, monarxist diktatorlardan alır. Bunu xalq özünün möhtəşəm və ilahi qüvvəsi ilə bacardı, xalq hakimiyyəti quruldu. Bildiyimiz qədərincə, bu, ölkəmizin tarixində baş vermiş yeganə belə hadisədir.

Xalqımızın məqsədi İslam sayəsində istiqlaliyyət və azadlıq əldə etmək idi. İnqilab dövrünün "İstiqlaliyyət, Azadlıq, İslam

Respubilkası” devizi xalqın ürək sözü idi, xalq bunu istəyirdi.

Xalq görürdi ki, bu qədər böyük bir ölkənin başçılarında düşüncə müstəqilliyi yoxdur, əcnəbilərə, hegemon güclərə tabedirlər, boyunlarından onların itaət boyunduruğunu asmışlar, onların qarşısında zəif və qeyri-müstəqil, öz xalqlarına qarşı isə zalım və qəddardırlar. Onlar xalqa qarşı təzyiqlə, ağır tədbirlərlə və şiddətlə rəftar edirdilər, başına qamçı vurub, seçim icazəsi vermirdilər. Məşrutə zamanı və İslam inqilabına qədər bu xalq heç zaman səsvermədə həvəslə, rəğbətlə və ayıq şəraitdə iştirak etmədi. Seçkinin mənası yox idi. Hakimiyyət sülalə hakimiyyəti, məmur və başçılar əcnəbi qüvvələrin sifariş etdikləri idi. Məşrutə dövründə yaranmış Şura Məclisi də xüsusi təyinatla qurulan və xalqın seçmədiyi parlament idi. Xalq bu məsuliyyətsiz və öhdəliksiz qrupun onlar üçün verəcəyi qərarların əsirinə çevrilmişdi.[35]

## Elm adamlarının təhqir edilməsi

---

[35] Böyük Rəhbərin Şiraz əhalisi ilə görüşdə çıxışından: 2008.

Bu ölkə son iki-üç əsrdə elm və sənaye baxımından gördüyünüz bu vəziyyətə düşmüşdür. Siz o günləri görmədiniz. Xoşbəxtlikdən, siz Allahın lütfü ilə bəzi işlər görülmüş və müəyyən həddə nailiyyətlər əldə edilmiş bu günü görürsünüz. İnqilabdan öncə elm, sənaye və inkişaf ağlamalı vəziyyətdə idi. Bəzən yaxşı istedada malik bir adam tapılsaydı da, ölkədən getməkdən başqa bir yol görmürdü. Beyin alverçiləri də yaxşı və fəal beyinləri öz ölkələrinə aparıb özləri üçün işlədir, bizim kimi ölkələri belə beyinlərdən məhrum edirdilər. Biz geri qalmışıq və inşallah sizlər bunu düzəltməlisiniz.[36]

İnqilabdan öncə özü və elmi üçün yaşamaq istəyən şəxs tanınmaz qalır, yaltaqlıq edən isə önə çıxırdı. Doğrudan da öz elmi həyatını yaşamaq istəyən şəxsə heç kim azca diqqət də göstərmirdi.

Mən prezident olanda bir dəfə Kərəcin serum istehsalı mərkəzinə getdim. Gördüm ki, qoca alimlərin bir qrupu oradadırlar. Zənnimcə, onların biri radioda çıxış edənlərdən idi. Mən ləhcəsindən anladım ki, nəcəfabadlıdır. Əldən düşmüş bir qoca

---

[36] Böyük Rəhbərin ölkənin elmi nümunələri ilə görüşdə çıxışından: 1999.

idi. Məni görəndə onu ağlamaq tutdu. Gördü ki, prezident gəlib ona əl verir, görüşür və halını soruşur. O, həyatında əsla belə bir şey görməmişdi ki, bir ölkə rəsmisi təvazökarlıqla onunla danışsın və elmini dəyərləndirsin. Görürdü ki, mən onun elminin dəyərini bilir, bir alim kimi - süni şəkildə yox, həqiqətən və ürəkdən – ona hörmət bəsləyirəm. Bu ona doğrudan da qəribə görünürdü. Keçmişdə belə bir şey əsla görünməmişdi.[37]

Ədalət cəmiyyətdə görünməlidir və bu mümkündür. Necə ki, İslam inqilabı və İslam Respubilkası quruluşu onun bir zaman qeyri-mümkün sayılan bəzi hissələrini həyata keçirdi. Bir zaman bizim ölkəmizdə ABŞ-a, ondan öncə İngiltərəyə, azğın supergüclərə, fəsadçı saraya bağlı olmayan şəxslərin siyasi mərkəzlərə yol tapması mümkün deyildi. Adi camaat heç bir rola malik deyildi. Heç kim təsəvvür etməzdi ki, bu çirkinliklərə və asılılıqlara bulaşmadan kimsə bu ölkədə siyasi rol oynaya bilər. Amma bu gün ölkənin bütün şəxsləri görürlər ki, istəsələr və lazımi şəraitə malik olsalar, quruluşun ən yüksək

---

[37] İran İslam Respublikası radiosunun Elm qrupunun üzvləri ilə görüşdə çıxışından: 1992.

siyasi postlarına yüksələrlər. Bir zaman bu ölkədə ictimai ədalət heç kəs üçün təsəvvüredilləsi deyildi. Amma bu gün onun müəyyən miqdarı reallaşmışdır. Deməli, biz bacarırıq və xalqın iradəsilə çoxlu işlər görmək olar.[38]

Bizim məmləkətimizi həm elm, həm xalqın maddi durumu baxımından onillərlə geridə saxlamışdılar. Bütün bunlarla yanaşı, İslam inqilabından qaynaqlanan oyanış, həvəskarlıq, diribaşlıq və İslam imanının bütün xalqa bəxş etdiyi ümid ölkədə yenilik yaratmışdır. Ölkənin universitetini, sənayesini, elmi və təcrübi məsələlərini və xalqın məişət vəziyyətini o zaman və bu gün müşahidə və müqayisə edən şəxslər bilirlər ki, inqilab İslam inancı sayəsində və xalqın səhnədə iştirakından istifadə edərək ölkəmizdə həyatı yeniləşdirə bilmişdir. Biz həyat karvanından fərsənglərlə geri qalmışdıq, bütün həyat imkanlarından uzaq idik. Yalnız rifah içində olan təbəqə xarici məhsulların istifadəçi və istehlakçıları idilər. Lakin inqilabın sayəsində görülən işlər ölkəni tərəqqi və yüksəliş yoluna çıxarmış, yenilik

---

[38] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 2001.

yolunu açmış, ürəkləri ümidvar etmiş, elm və təfəkkür təməllərini möhkəmləndirmişdir.[39]

Elmin güclü inkişaf dövrü olan son 150-200 ildə ölkəmizə edilən ən böyük xəyanət bu idi ki, Əbu Əli, Farabi və Razi kimi şəxsiyyətləri olan bu istedadlı xalqı bugünkü elm dünyasında öz yerini tutmağa qoymadılar, yaxud buna şərait yaratmadılar. Siz "qoymadılar" da deyə bilərsiniz - bu, bədbin baxışdır; "şərait yaratmadılar" da deyə bilərsiniz - bu, nikbin baxışdır. Hər halda, bundan az deyil. Qacar və Pəhləvi dövrlərində buna şərait yaratmamaqdan ibarət böyük günah onların üzərinə düşür. Şərait yaradılmadıqda xalqda və gənclərdə olan istedad iki-üç haldan birində olar: Biri budur ki, ümumiyyətlə, üzə çıxmaz. Sizin nə qədər fiziki gücünüz və fiziki inkişaf potensialınız olsa da, əvvəldən idman edib əzələlərinizi bərkitməsiniz, inkişaf etməzsiniz və istedad tələf olar. İkincisi budur ki, istedadı olan, amma onu çiçəkləndirmək üçün imkanın olmadığını görən insan xarici ölkəyə gedər. Uzun illərlə baş verən və yalnız bu illərə aid olmayan beyinlərin qaçışı

---

[39] Böyük Rəhbərin Gilan vilayətinin əhalisi ilə görüşdə çıxışından: 2001.

məsələsi bizim tarixi bəlamızdır. İstedadlı və bacarıqlı insanlar dünyanın bir tərəfinə gedib işləmişlər. Üçüncüsü budur ki, şərait yaradılmadığına görə istedad yanlış və səhv yollarda işlədilər.

Bu gün İranda bu iş görüldü. Bu gün ölkəmizdə istedadların üzə çıxması, elmin, texniki və texnoloji məharətin inkişafı üçün şərait yaranmışdır. Siz bunu göstərməyi bacaran ən yaxşı nümunələrsiniz. Bizim gənc alimimiz, əslində deməliyik ki, gənc sənətkarımız öz istedadı ilə, öz beyninə və təcrübəsinə arxalanaraq, əlində heç bir örnək olmadan böyük bir iş görməyi bacarmışdır. Bunu çoxlu yerlərdə müşahidə etməkdəyik.

Məncə, xalqımız üçün bundan böyük bayram yoxdur ki, insan gənclərinin özlərinə güvəndiyini, böyük işlər görməyə inandığını və bu işləri görmək üçün möhkəm iradə əldə etdiklərini duysun.[40]

Müstəmləkəyə çevrilmiş ölkələrə qarşı görülən işlərdən biri onları elmi cəhətdən geridə saxlamaq idi. Onların inkişafına həm praktik

---

[40] Böyük Rəhbərin Atom Enerjisi Təşkilatının məsul şəxsləri ilə görüşdə çıxışından: 2006.

maneə törətdilər, həm də onları psixoloji cəhətdən zəiflətdilər ki, bacarmadıqlarını düşünsünlər. Bu uzun müddət davam etdi və bizi inkişafdan saxladılar. Demirik ki, bu iş bütünlüklə elmin öncülləri vasitəsilə görülmüş, daxili qüvvələrin, diktatorların və pis idarəçiliyin təsiri olmamışdır. Məsələnin bu tərəfini inkar etmirik, lakin o tərəfi də ən mühüm təsiri buraxdı. Qacarlar dövründə ən mühüm şəxsiyyətlərin yanlış siyasəti, yanlış anlaması, dünyagirliyi və tənbəlliyi ölkənin vəziyyətinə təsir etdi. Amma həmin dövrdə Əmir Kəbir kimi birisi meydana çıxıb elmi inkişafın rolunu və elmin inkişafdakı təsirini siyasətçilər səviyyəsində düzgün anladığında ikinci, yəni xarici amilin rolu özünü aydın şəkildə göstərir və bu işığı söndürməyə çalışırlar. Bu onu göstərir ki, onlar bir ölkəni iqtisadi və siyasi istismar altında saxlamaq istədikdə, onları elmi baxımdan inkişaf etməyə qoymamalı olduqlarını bilirlər. Bu, Pəhləvi hakimiyyəti dörvründə də eynilə belə olmuşdur. Bunlar təhlili və izahı uzun məsələlərdəndir. Əlbəttə, bu işlər görülüb, bunlar yalnız iddia deyil, arxasında dəlillər mövcuddur.

Bu gün ölkəmiz xoşbəxtlikdən, elə bir dövrü keçirir ki, onda iki ayıqlıq mövcuddur: biri öz bacarığına və fitri istedadına ayıqlıq, ikincisi isə ölkəmizə və bizə bənzər digər ölkələrə hökmranlıq etmək istəyən qüvvələrin, ölkəmizin elmi inkişafının ən mühüm düşmənləri olmasına ayıqlıq; yəni özünü tanımaq və düşməni, onun təxribatını tanımaq ayıqlığı. Bu iki ayıqlıq sayəsində ümidvarıq ki, möhtəşəm elmi inkişafa nail ola biləcəyik.[41]

İran xalqı bir-iki əsr elm və sivilizasiya karvanından geri qaldı. Ölkə əcnəbilərin, düşmənlərin, yaxud onların təyin etdiyi adamların vasitəsilə idarə olundu. Bütün bunların səbəbkarı ayıqlığın olmaması idi. Xalqı, gəncləri və müxtəlif təbəqələri məlumatsız, avam saxlamışdılar ki, ölkənin başına gələnləri dərk etməsinlər. Dünyanın hər bir nöqtəsinə göz dikmiş müstəmləkəçilər iki əsr boyunca bizim ölkəmizin hər bir yerində öz maraqları və şeytani məqsədləri naminə bacardıqları hər bir işi gördülər, yolları üzərində maneənin olmaması üçün xalqı yuxuda saxladılar.

---

[41] Böyük Rəhbərin universitet müəllimləri ilə görüşdə çıxışından: 2005.

Əcnəbilərin özləri xalqı belə saxlaya bilməzlər, onların bu işdəki aləti asılı və azğın hökumətlər idi: Qacar və Pəhləvi hökumətləri. Bunlar İran xalqından olsalar da, oğruların şəriki idilər. Özləri bu xalqa bağlı və bu xalqın ağır minnət yükünə borclu olsalar da, əcnəbi üçün işləyirdilər. Əcnəbi də onların maraqlarına zəmanət vermişdi. Əcnəbilər vasitəsilə Qacarların maraqları bir cür təmin olunurdu, mənfur, asılı və azğın Pəhləvi rejiminin maraqları da bir cür. Onlar xalqı məlumatsız saxladılar və ona qarşı əllərindən gələni etdilər.

İslam inqilabı və İslam mübarizəsinin genişlənməsi bizim Böyük İmamımızın, ayıq və mübariz ruhanilərin, mömin və dindar ziyalıların rəhbərliyi ilə bu ölkədə oyanış dalğası yaratdı və bu, inqilabla sonuclandı. Bir xalqın inqilabı elə qüdrətə malikdir ki, hegemonizmin ən möhkəm qalalarını uçurar və uçurtdu. İslam inqilabı müstəmləkəçi ABŞ və İngiltərəyə arxalanan Pəhləvi rejiminin istibdad qalasını məhv etdi, onun yerində xalq və İslam hakimiyyəti qurdu. İslam Respubilkasını siz xalq yaratdınız. İslam Respublikası – xarici gücün müdaxiləsi olmayan,

avtoritorizm və istibdadın olmadığı, aristokrat təbəqəsinin, feodal və xanların müdaxilə etmədiyi bir hökumətdir. Biz Ciroftda olanda xalq xanların əlindən nalə edirdi. Xanlar mənfur Pəhləvi rejiminin, onlar da ABŞ-ın aləti idilər.

İslam Respubilkası - tağut hökumətinin sarayı, əcnəbilərin, xan və xanlığın müdaxiləsi olmayan bir quruluş, xalqın və ləyaqətli insanların hökumətidir. İslam Respubilkasında mühüm dövlət vəzifələrinə yiyələnmək qabiliyyət və bacarıqdan asılıdır. Kimin qabiliyyəti varsa, iş, fəaliyyət və vəzifə sahələrində önə çıxmalıdır; ölkənin hansı yerindən və hansı ictimai təbəqədən olur-olsun. Və bunların hamısında İslam hidayəti nəzərə alınır, ilahi mətnlərdən və Qurandan ilham alınır. İslam Respubilkası quruluşunun mənası budur. Yoxsul və varlı, zadəgan və qeyri-zadəgan arasında məsafə yaratmaq, xüsusi bir təbəqəyə üstünlük vermək İslam Respubilkası quruluşuna uyğun deyil. İslam Respubilkası quruluşunun hansı sahəsi bu bəlaların birinə düçar olsa, İslam

Respubilkası və İslam quruluşu xəttindən yayınmışdır və onu düzəltmək lazımdır.[42]

İran xalqı ürəkdən Pəhləvi və Qacar padşahları sülalələrinə lənət oxumalıdır. Bu iki xəbis sülalə məmləkətin, bu qədim, istedadlı və ağıllı xalqın iki qanadını qırdılar, elm və əməyin heç birində xalqa şərait yaratmadılar. Görülən işlər dəyərsiz, yaxud az dəyərli işlər idi, elm təqlidçi və ikinci dərəcəli idi. Ürəkdən çağlayan, həqiqətən həyata zinət bəxş edən və məmləkətdə əhəmiyyətli işlər yaradan işi görmədilər, bacardıqları qədər məhv etdilər. Ürəkdən çağlayan yaradıcı elmi məhv etdilər. Həmin sülalələr bu cinayətləri törətdilər. Nəticədə elm, sivilizasiya, bilik və təcrübə yarışmasında ya digərlərindən öndə olan, ya da ən azı zəif qalmayan İran xalqı illərlə geri qaldı. İndi biz çalışıb, çulumuzu sudan çıxarmalıyıq. İnşallah siz xalqın iradəsi ilə bu işi görəcəyik. Bunun əlamətləri indi də görünür.

Əvvəlcə Nasirəddin şahdan sonrakı Qacar şahları, sonra da Pəhləvi ailəsi – bu ata-oğul həqiqətən, xalqın və ölkənin bütün varlığını,

---

42 Böyük Rəhbərin Ciroft əhalisinin böyük toplantısında çıxışından: 2005.

mənəvi sərvətlərini hərraca qoydular: “Onlar (İbrahim, Yəqub və onlara tabe olanlar) bir ümmət idilər ki, keçib getdilər. Onların etdikləri əməllər özlərinə, sizin etdiyiniz əməllər isə sizə aiddir”. Onlar getdilər, işləri Allahladır, əməllərinin cəzasını da görürlər. İndi mənim və sizin növbəmizdir: “Sizin etdiyiniz əməllər sizə aiddir”. Əlbəttə, inqilabın qələbəsindən bu günədək, insafla desək, elm və əmək sahəsində çoxlu işlər görülmüşdür. Əgər kimsə bunu inkar etsə, sanki “indi hansı dəlilə əsasən gündüzdür?” - deyən şəxs kimi olar. Bu qədər aydındır. Əgər insan ölkəyə baxsa, şagirdin, müəllimin, mütəxəssisin və tələbənin artmasını, çoxlu laboratoriyaları, əkinçilik və sənaye işini, dəqiq və dəyərli işləri, yaradıcılıqları, çoxlu ixtiraları görər. Onları bu on beş ildə İslam bu xalqa bəxş etmişdir. Biz deyə bilmərik ki, bu işləri biz gördük. Bu nailiyyətlər İslama məxsusdur, imanın, xalqın fəallığının və xalq hakimiyyətinin xüsusiyyətidir.[43]

Biz dünyanın elm və sivilizasiya karvanından geri idik, siyasi quruluş baxımından

---

[43] Böyük Rəhbərin nümunə fəhlələrlə və mədəniyyət mənsubları ilə görüşdə çıxışından: 2005.

ən mürtəce dövlətlərdən biri bizdə idi. Hakimiyyət sülalə hakimiyyəti idi: bir nəfər ölür, xalq onun hər hansı yaş, şərait və xüsusiyyətdə olan övladını mütləq hakim kimi qəbul etməyə məcbur olurdu. Nə elm, nə təqva, nə ağıl - heç bir şey meyar deyildi. Belə bir üsul-idarəni İranda konstitusiyaya salmışdılar; Rza xanın çəkmələri və məmurlarının sərt baxışları altında qəbul olunmuş konstitusiyaya. İran dünyada xar edilmişdi. Beynəlxalq toplantılarda bir fikir sahibi, bir şəxsiyyət sahibi kimi İranın adı çəkilmirdi, digərlərindən dilənçi payı alan bir ölkə və sınaq yeri olmuşdu. Bəzi iqtisadi və digər nəzəriyyələri burada sınaqdan keçirirdilər ki, görsünlər nəticəsi nə olacaq; maddi, mənəvi, siyasi və şəxsiyyət baxımından yoxsul idi. İmam belə bir cəmiyyət və ölkə ilə işləməli idi.[44]

Amerikalılar uzun illərdir elmi işlərdə çalışırlar. Onlar həm öz milli imkanları, həm də digər ölkələrdən qarət etdikləri sayəsində azad şəkildə alim yetişdirəndə və elmi cəhətdən inkişaf edəndə bizim xalqımız elə bir rejimin çomağı altında idi ki, qorxu və asılılıq yaratmaqla, siyasi və

---

[44] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 1999.

əxlaqi fəsadlarla iranlı alimə hətta düşünmək icazəsi vermirdi. Siz istəyirsiniz ki, belə bir şəraitdə ABŞ səviyyəsində və onunla ayaq-ayağa irəliləyək?! Bu, artıq gözləntidir.

Mən bəlkə bir dəfə də demişəm: Keçmişdə ABŞ-dan alınan bu reaktiv təyyarələrin hər hansı bir hissəsində - böyük bir detalın xırda bir hissəsində nöqsan yaransaydı, amerikalılar bizim Hərbi Hava Qüvvələrimizin texniki mütəxəssislərinə bu böyük detalı açıb onun kiçik hissəsindəki nöqsanı aradan qaldırmağa, yaxud dəyişməyə icazə vermirdilər. Onlarla, bəzən yüzlərlə kiçik hissədən təşkil olunan bu böyük detalı təyyarəyə qoyub ABŞ-a aparır, orada dəyişdirir və geri qaytarırdılar. Belə rəftar edirdilər. Bu ölkədə nə tələbənin sayı, nə təhsilin keyfiyyəti, nə işə şərait, nə tədris və nə tədqiqat həvəsi vardı. Belə bir vəziyyətdə siz gözləyirsiniz ki, İran xalqı inkişaf etmiş olsun?![45]

Biz təxminən yüzillik və çox acınacaqlı bir tənəzzül dövrü keçirdik. Bu dövr Qacar rejiminin ortalarından Pəhləvi dövrünün sonuna qədər

---

[45] Böyük Rəhbərin Tehran Universitetindəki sual-cavab toplantısındakı söhbətlərindən: 1998.

davam etmişdir. Hətta ozamankı dövlət rəsmilərinin və ziyalıların baxışına əsasən, İranın modernləşmə dövrü olan Pəhləvi dövründə də, təəssüf ki, biz tənəzzül enişində hərəkət etdik. Nə üçün deyirik tənəzzül? Bəlkə də Qacar dövrünün əvvələrində də müxtəlif elm və sənaye sahələrində çox böyük hünər göstərməmişik. Amma mən onu tənəzzül dövrü adlandırmıram. Tənəzzül dövrü Qacar dövrünün ortalarına və ondan sonraya aiddir. Nə üçün? Çünki bu dövr İran xalqının özünün bəzən sürətlənən, bəzən zəifləyən təbii hərəkətindən kənarda qaldığı, yəni ovsun olunduğu dövrdür. Bir xalq həmişə öncül olmur. İstedadlı bir xalq bəzən müxtəlif amillər səbəbindən sürətlə irəliləyir, bəzən sürəti azalır, bəzən də ovsunlanır. Bu ovsunlama həyata keçdi. Nəyin qarşısında ovsunlandı? Dünyaya mikro və strateji baxışa malik təzə nəfəsli canlı bir varlığın – Qərbin sənaye sivilizasiyası və elmi inkişafı qarşısında. Bu varlıq dünyanı ələ keçirmək məqsədilə meydana çıxdı. Odur ki, özü üçün faydalı, dünya üçün isə ziyanlı oldu, uzun müddət qəflət yuxusuna dalmış xalqların, o cümlədən bizim xalqımızın, Asiyanın, Afrikanın və dünyanın

digər xalqlarının kabusuna çevrildi, onların bəzən sürətlənən, bəzən zəifləyən təbii hərəkətlərini davam etdirməyə qoymadı, onları ovsunladı.

Qacar dövrünün ortalarından bizim ölkəmizdə Avropa inkişafının əlamətləri tədricən görünməyə başladı. Bizim ziyalılarımız Avropaya gedən, yaxud onların yazılarını oxuyanlar idilər. Onların inkişafları ilə tanış olur və özlərini onlardan gücsüz və zəif görürdülər. Erkən Məşrutə ziyalılarının dəfələrlə təkrar etdiyi söz budur ki, biz yalnız və yalnız qərblilərin ardınca getməli və həyatımızın bütün sahələrində onların dediklərinə əməl etməliyik. Bu, Tağızadənin və digərlərinin sözüdür.

Onlar deyirlər ki, biz inkişaf etmək üçün onların bütün proqramlarına əməl etməliyik; yəni yenilik, yaradıcılıq, elm və sənaye məsələlərinə yerli baxış imkanı əsla bu hesablamalarda yer almırdı. Bunu bu tərəfdən hesab edin. İndi isə qarşı tərəf, yəni bizim əməl etməyə tövsiyə olunduğumuz nədir? Baxışı təkcə öz ölkəsi çərçivəsində məhdud olmayan, dünyaya yağlı tikə gözü ilə baxan, özünü böyütməyi düşünən də sənaye, elm və elmi inkişaf inqilabıdır. O zaman

müstəmləkənin başlanmasından yüz ildən artıq ötürdü. Yəni portuqaliyalılar, ispaniyalılar, ingilislər, hollandiyalılar və Avropanın müxtəlif bölgələri dünyanın əl vurulmamış sərvətli bölgələrinə, o cümlədən bizim regionumuza, Hind okeanı regionuna, Hindistan yarımadasına, İndoneziyaya, Afrikaya və digər bölgələrə əl uzatmış, tükənməz sərvətlər tapmışdılar. Düzdür, avropalıların xarakteri də bunda təsirli idi. Bu xarakterlərin bəzisi müsbətdir, bəzisi isə mənfi. Mən qərbliləri tamamilə mənfi xarakterizə edənlərdən deyiləm. Xeyr, onların müsbət xarakterləri də var: riskə gedir, qorxmur, işdən yorulmurlar.

Bunlar gəmiyə minib yola düşdülər, gedib əl dəyməmiş ölkə və bölgələrə, yəni təbii sərvət anbarlarına çatdılar, Asiyanı, Afrikanı, Amerikanı fəth etdilər.

İranda bizim siyasətçi, alim və mütəfəkkirimiz "biz bütünlüklə qərblilərin kiçik müridi və ardıcılı olmalıyıq" deyirdisə, biz indi hansı vəziyyətdə olmalıyıq?! Bizim kiçik müridi və ardıcılı olmaq istədiyimiz tərəf insaflı və ədalətli olsaydı, təcavüz və hücum niyyəti olmasaydı, çox

yaxşı olardı. Amma görək bizim tərəf-müqabilimiz kim idi? Əl uzadan, təcavüz edən, böyük dünyaya həyatın inkişaf və tərəqqi maddələrinin anbarı kimi baxan bir qüvvə. Biz onun müridi olduq, o, ölkəmizə girdi, amma bizə elm və sənaye vermədi, bizi elmli və mədəniyyətli yetişdirmədi, şagird yetişdirən qayğıkeş bir müəllim kimi olmadı. Biz elm və sənayenin yenidən qurulması, bəzilərinin sözü ilə desək, modernləşmə dövründə bir memar və mühəndisin qulluğunda duran sadə bir tikinti fəhləsi kimi olduq. Sadə bir fəhlə nə iş görə bilər? Düzdür, evin tikintisində rolu ola bilər, amma yalnız fiziki və qeyri-elmi rolu: palçıq ver, kərpic ver, gəc ver, yaxud bunları bir-birinin üstünə qoy. Bizim tənəzzül dövrümüz bu cəhətdəndir. Ağıllı və istedadlı iranlı bu şəraitdə iki işdən birini görə bilərdi: ya razılaşıb bu vəziyyətə təslim olsun, ya da ölkədən gedib başqalarına çalışsın. Hərbi və hava sənayesində - ötən bir neçə ildə bizim bəzi nailiyyətlər qazandığımız sənayedə bu gün bu ölkədə təyyarə və ən mürəkkəb detallar istehsal edən mühəndislərin o zaman vəzifəsi bu idi ki, təyyarənin yoxlanış siyahısını götürüb ona baş çəksinlər və hansısa hissənin nasaz olub-olmadığını

desinlər. Əgər bir hissədə nöqsan olsa, onu çıxarıb əcnəbi mühəndisə təhvil versinlər, o da bizim pulumuzla təyyarəyə qoyub ABŞ-a aparsın, orada təmir etsinlər, yaxud dəyişdirib qaytarsınlar. Bundan artığına icazə verilmirdi. Bu mühəndis, bu düşüncəli və istedadlı adam ya bu vəziyyətə dözürdü, - əksərən belə idilər, həmin vəziyyətdə yaşayırdılar – ya da macəraçı xarakteri vardısa, ölkədən gedib digərlərinə xidmət göstərirdi və bəzən heç vaxt geri dönmürdü. Belələri də çox olmuşdur. İnqilabdan sonra mən bunların bəzisi ilə rastlaşmış, görüşmüş və tanış olmuşam.[46]

O (İmam Xomeyni) bu yolu keçib qələbənin yaxınlığına, yəni 1978-ci ilə çatdı. İndi imam böyük bir hadisə qarşısında qalmışdır. Bu hadisə bir xalqın bütün vücudu ilə himayə etdiyi İslam hərəkatının qələbəsidir. Bu qələbə yalnız azğın və mürtəce bir rejim üzərində qələbə deyildi, həmin rejim ozamankı hegemon güclərin təxminən hamısı tərəfindən himayə olunduğuna görə onların hamısı üzərində qələbə sayılırdı. O bu məmləkəti İslamın üsulu, fikri və proqramı ilə idarə etmək istəyir.

---

[46] Böyük Rəhbərin mühəndislərlə, texnika və sənaye tətqiqatçıları ilə görüşdə çıxışından: 2005.

Onun qarşısında nə var? İki yüz ilə yaxın bir müddətdə müxtəlif cəhətlərdən təzyiq altında saxlanan, bütün üstün xüsusiyyətlərini sıradan çıxarmağa, zəiflətməyə və məhv etməyə çalışdıqları böyük bir xalq. Əgər son iki yüz ilin tarixinə müraciət etsəniz, imamın işinin əhəmiyyətini daha yaxşı dərk edərsiniz. Mən təkidlə tövsiyə edirəm ki, gənclər bu tarixi öyrənsinlər. Təbliğat qurumları da bu müddətdə ölkənin başına gətirilən həqiqətləri xalqa izah etsinlər. Məncə bu sahədə az iş görülmüşdür.

İngiltərə məmuru olan ser Con Mülküm 19-cu əsrin əvvəllərində Hindistandan İrana daxil oldu. O zaman, yəni Fətəli şah Qacarın hökuməti dövründə ingilislər saray adamları və azğın siyasətçilər üçün aldadıcı və qiymətli hədiyyələrlə İrana daxil oldular, İngiltərə müstəmləkəçiliyi, yaxud başqa sözlə desək, İngiltərənin dağıdıcı nüfuzu - çünki İran adətən başa düşülən şəkildə müstəmləkələşmədi, ondan da pisi baş verdi - İran hökumətlərini güclü əllərində saxladı və onların vasitəsilə istədiyi işi gördü. O zamandan inqilabın qələbə çaldığı günə qədər təxminən 170-180 il ötdü. Bütün bu müddətdə, bütün böyük qlobal güclər,

hərbi, siyasi, iqtisadi, mədəni və əxlaqi qüvvələr bu tarixi, köklü, mədəniyyətli, qorxmaz və böyük xalqın üzərində işləyib, onu böyük gücləri heç bir təhlükə ilə təhdid etməyəcək qədər zəif, kiçik, ümidsiz və məyus etdilər. İmam belə bir reallıq qarşısında qaldı. Əlbəttə, bu 170-180 ilin əsas hissəsində İranda İngiltərə, 1963-cü ildən sonra Amerika, ortalarda da Rusiya dövlətinin nüfuzu, rus və ingilis rəqabətləri olmuşdu; Qacarlar dövründə bir cür, Pəhləvi rejimi dövründə isə qat-qat təhlükəli və ağır formada.

Onlar bu xalqa qarşı bacardıqlarını etdilər. Nəticəsi bu oldu ki, imamın qarşısında siyasi baxımdan asılı və tabe olan bir ölkə mövcud idi. O zaman ABŞ hökuməti nəyi iradə etsəydi, İranda icra olunurdu, iqtisadi sahədə, neft sahəsində, təyinatlarda, hökumətlərdə - filan hökumət gəlsin, filan hökumət gəlməsin - beynəlxalq münasibətlərdə, xalqa məcburən verilən adət və rəftarlarda, universitet sahəsində istədikləri işi görə bilirdilər. Biz bütünlüklə tabe və asılı, iqtisadi baxımdan da tamamilə istehlakçı və yoxsul idik. Hər şeyi idxal etməli idik. Mən bir dəfə dedim, amma bəziləri inanmadılar; inanın ki, bel dəstəyini

bizim ölkəmizə idxal edirdilər, dərzi iynəsini idxal edirdilər, müxtəlif ərzaq məhsullarını idxal edirdilər, sənaye məhsullarını idxal edirdilər. Biz tamamilə istehlakçılıq idik. Yəni bu xalqın, bu istedadların, bu beyinlərin və bu gənclərin öz ehtiyaclarının bir hissəsini özlərinin istehsal etmək qüvvəsi və imkanı yox idi; "xaricə ehtiyacımız yoxdur" - demək imkanı yox idi. Ölkəyə bir sənaye, misal üçün, maşınqayırma, yaxud dəmirəritmə sənayesi gətirildikdə çox yarımçıq gətirilirdi, özü də başdan-ayağa asılı şəkildə. Satdıqları mütərəqqi və model cihazların, misal üçün, hərbi təyyarələrin təmirinə icazə vermirdilər. Bu iş xaricdə görülməli idi. İqtisadi baxımdan yüz faiz asılı və istehlakçı, elmi baxımdan təxminən sıfır həddində idik. Bu xalqın yeni dünya elmlərinə dair heç bir təzə sözü yox idi. Universitetlər kəmiyyət baxımından da çox az idi. Pəhləvi rejiminin sonlarında ölkədə indikinin təxminən onda biri qədər tələbə var idi. Əgər bir sinifdə bir dərs deyilsəydi də, hər bir sahədə - istər humanitar elmlərdə, istər texnika və sənaye elmlərində, istər təbii elmlərdə deyilən sözlər digərlərinin sözləri idi, heç bir elmi yenilik yox idi. Milli sərvət sarıdan talanmışdıq; özləri

istədiyi qiymətə nefti, mədənləri, hər şeyi aparırdılar. İctimai baxımdan, yoxsul və zənginin vəziyyəti baxımından ölkə çox bərbad vəziyyətdə idi. Bu ölkədə elektrik enerjisi, içməli su və bu kimi imkanlar görməyən, bunlara ümidvar da olmayan minlərlə və bəlkə on minlərlə kənd vardı. Yalnız Tehrana və bir neçə böyük şəhərə baxırdılar, o da bəlli formada. Tehran o zaman dünyanın ən çirkin və ən çirkli paytaxtlarından biri sayılırdı. Təkcə özlərinə qulluq edirdilər, özlərinin harada ayaq yerləri var idisə, orada aeroport da var idi, rifah imkanları da. Amma özlərinə lazım olmayan yerlər ümumiyyətlə başlı-başına buraxılmışdı. Təbəqələr arasındakı fərq özünün pik həddinə çatmışdı.

Əxlaqi baxımdan işləri fəsad yaymaq idi. İnqilabdan öncə - altmışıncı illərin sonlarında və yetmişinci illərin əvvəllərində gənclər üçün etdiyim çıxışlarda dəfələrlə nümunə və faktlar göstərib deyirdim ki, cinsi özbaşınalıq, hicabsızlıq və pozğunluq baxımından bizim ölkəmizdə olan vəziyyət Avropa ölkələrində də yoxdur. Doğrudan da yox idi; mənim məlumatım vardı. Düzdür, Avropa ölkələrində hansısa fəsad mərkəzinin olması mümkün idi. Amma orada xalqın həyat

tərzi, misal üçün, qadınların vəziyyəti, geyimi və rəftarı bizim xüsusən bəzi şəhərlərimizin vəziyyətindən yaxşı idi. Əxlaq baxımından xalq müxtəlif bəlalara düçar olmuşdu; təkcə ehtiras məsələlərində yox. Onların vasitəsilə insanların bir-birləri ilə münasibətləri, xalqın etimadı bütünlüklə zədələnmişdi. Qəsdən bu hala salmışdılar. Xalqın həvəssiz, hövsələsiz, ümidsiz olmasını istəyirdilər. Bir xalqı inkişaf etdirən xarakterlər ümid, aktivlik və ciddilikdir. Ümidsiz olan, öz gələcəyindən məyus olan və özünü təhqir edən xalq inkişaf etməz. Hansı məhsulun daxildə istehsal olunduğu deyilirdisə, "dəyəri yoxdur" demək idi. Təhsilli şəxslər və digərləri bir-birinə deyirdilər ki, iranlı palçıq aftaba da düzəldə bilmir. Yəni inkişaf etmiş elmi nəsil də bu ölkənin elmi gələcəyinə ümidsiz idi. Bu, sözügedən əxlaq problemidir.[47]

**Pasport İslamı**

"La ilahə illəllah" sözü dillərdə, hətta ölkənin alnında idi. Misal üçün, o zaman da konstitusiyada göstərilirdi ki, ölkənin rəsmi dini

---

[47] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 1999.

İslamdır. Bunlar var idi. Lakin bunlar məsələnin zahiri tərəfidir. İslamın və "la ilahə illəllah"ın adı var idi, özü isə yox idi.

O dövrün parlamenti Allahın hökmlərini qəbul etmək barədə düşünmürdü, hətta onların ziddinə də gedirdi. O zamanın dövlət rəsmiləri hakimiyyəti Allah hökmlərinə uyğun idarə etmək istəmirdilər, Allah hökmlərinin əksinə idarə edir, fəsadı, küfrü yayır, Allah hökmləri ilə mübarizə aparırdılar. Amma İslamın adı vardı. İslamın adının bir faydası yoxdur. Düzdür, ümumi xalq arasında həqiqi və ixlaslı möminlər həmişə çox olmuşdur. Amma xalqın taleyi onlarla deyil, əksəriyyətin hərəkəti ilə təyin olunur. Cəmiyyətdə bir qədər yaxşı insanın olması yetmir. O zaman belə idi; zəiflik, fəsad, bədbəxtlik, bir dövrdə ABŞ-ın, bir dövrdə İngiltərənin, bir dövrdə Rusiyanın hökmranlığı vardı. Bu xalq heç zaman layiq olduğu izzət və şərəfini əldə etmədi. Bu xalq tövhid meydanına daxil olan gündən Allah hökmlərinə uyğun əməl etməyə, öz ölkəsini, dövlətini qurmağa qərar verdi. Odur ki, izzət və ucalıq pilləkanına qədəm qoydu. Düzdür, bu gün böyük güclər İran xalqına qarşı təxribat və hiylə işlədir, təzyiq

göstərir və düşmənçilik edirlər. Amma onlar da bu xalqı başıuca və şərəfli xalq bilirlər. Bu xalq öz ölkəsinin quruculuğuna başlayıb, onu abadlaşdırmağa çalışır. Qərara gəlmişdir ki, əcnəbinin boyunduruğu altına girməsin, öz həyatını, məqsəd və yolunu ABŞ-dan və digərlərindən öyrənməsin, özü qərar versin və əməl etsin. Bu hər bir xalqı tərəqqinin zirvəsinə çatdıracaq amildir. Bu qərar bizim ölkəmizi və xalqımızı xilas edəcək.[48]

İslam Respubilkasından öncə ölkəmiz həmişə parçalandı, ondan həmişə qopardılar. Pəhləvi və Qacar şahlarının heç biri ölkənin sərhədlərini qoruduqlarını deyə bilməzlər. Qacarların vəziyyəti bəllidir. Pəhləvilər də İranın paytaxtını illərlə xarici əsgərlərin çəkməsi altına saldılar, ölkənin qadınını, kişisini, namusunu onlara verdilər. Yalnız İslam Respubilkası mərdliklə dayanıb təcavüzkarların bir addım da irəliləməsinə imkan vermədi. Səkkiz il müharibə məgər zarafatdır?! Səkkiz il müharibə və bütün bu fədakarlıq! Bizim gənclərimiz Şərqin, Qərbin,

[48] Böyük Rəhbərin Seçkilərə Nəzarət Komitəsinin ölkə üzrə üzvləri ilə görüşdə çıxışından: 1992.

NATO-nun və onların hamısının birliyi qarşısında müqavimət göstərdi və vətəni xilas etdi.[49]

Qacarlar dövründə şimal qonşumuz tərəfindən bir müharibəyə məcbur olduq və sonda sülh müqaviləsi bağlandı. Ölkə həmin ölkə idi, xalq da həmin xalq. Lakin bu xalq o zaman imtahandan başıuca çıxmadı, zəiflik göstərdi və nəticədə, məğlub olduqdan və Türkmənçay müqaviləsi bağlandıqdan sonra uzun müddət adi xalq heç, hətta böyük şəxsiyyətlər də zəiflik və məğlubiyyət hissi keçirdilər, öz şəxsiyyətlərini göstərmək qüdrətini əldən verdilər. Yəni o tarixi məğlubiyyət təkcə həmin mərhələ üçün yox, tariximizin 150 illik dövrü üçün məğlubiyyət idi. O bir imtahan idi. O zaman İran xalqının belə bir imtahan verməsinə nə bais oldu? Bunun özünün bir təhlili var: o zaman hakimlər və siyasi adamlar pis, hərbi komandanlar bacarıqsız idilər. Xalq yaxşı xalq idi. Kiminsə o xalqı meydanda saxlaması lazım idi ki, öz hərəkətinə inanıb fədakarlıq göstərsin, öz maraq və ləzzətindən keçsin. O zaman belə şəxslər yox idi. Şahlar hakimiyyət sürürdülər. Başında belə fəsadçı

[49] Böyük Rəhbərin media mənsubları ilə görüşdə çıxışından: 1996.

hakimlərin olduğu ölkənin axırı belə olmalıdır. Həmin xalq sizin və bizim dövrümüzdə baş verən bu müharibədə bütün dünyanı özünə cəlb etdi, ölkənin başını ucaltdı, İslamın qüdrətini göstərdi. Bizə hücum edən təkcə bir qonşu ölkə deyildi. Onun arxasında ABŞ, keçmi SSRİ və dünyanın digər silahlı qüvvələri dururdu. Amma eyni zamanda Allaha iman, Böyük İmamın rəhbərliyi, gənclərin, ailələrin fədakarlığı hesabına bu sınaqdan üzüağ çıxa bildi.[50]

Siz əlinizdə dəyərli gövhər tutdunuz, əzəmətli iş gördünüz, ölkəniz daxilində tükənməz bir xəzinə kəşf etdiniz, İslama, müstəqilliyə və azadlığa qovuşdunuz, özünüzü xarici qüvvələrin boyunduruğundan xilas etdiniz. Bir zaman bu məmləkət, bu univetsitet, bu Tehran, bu qarnizonlar, bu silahlı qüvvələr, bu dövlət müəssisələri, bu nazirliklər, bu təhlükəsizlik qurumları - hamısı və hamısı ABŞ-ın mülkü idi. Bu gün ölkənin ən ucqar nöqtələrində, ən kiçik kəndlərində də heç kimin bir ABŞ tərəfdarını görməyə gözü yoxdur. Bir zaman bu məmləkətdə

---

[50] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 1992.

xalq yox idi, səslər yox idi, parlament yox idi, seçkilər yox idi; hər şey formal, yalançı və saxta idi. Pəhləvi dövrü bu xalq üçün doğrudan da qəribə dövr idi. Sanki geniş bir yerdə böyük bir zavod düzəldirlər. Baxanda elə bilirsiniz zavoddur, yaxınlaşanda isə görürsünüz ki, hamısı neylon və plastikdəndir. Hündür tavanı, dirəkləri olan böyük imarət kimi möhtəşəm saray olduğunu güman edirsən, amma yaxınlaşdıqda görürsən ki, qardan düzəldilmişdir.

Universitet, ziyalılıq, jurnal, qəzet, parlament və hökumət - hamısı formal idi. Yalnız ümumxalq hərəkatı olan dini hərəkat həqiqi idi. Ona da nifrət və ədavətlə baxırdılar. Düzdür, ətrafda zəif və çox kiçik formada vətənpərvəlik hərəkatı da mövcud idi. Bu xalqı belə bir hala salmışdılar. Siz gəlib hər şeyi əsaslı şəkildə qurdunuz. Bu gün bu məmləkətdə elm, sənaye, universitet, insanların şəxsiyyəti, düşüncələr, sözün həqiqi mənasında azadlıq və təhsil inkişaf edir. Bu xalqın hərəkəti yavaş-yavaş elə bir həddə çatacaq ki, dünyada öz mövqeyini tapacaq. Dünən dünyada heç kəs İran xalqını saymırdı. Buraya gələnlər bu xalqın özündən vəhşilik haqqı alırdılar.

Siz bu gün bir xalq və mühüm fikir sahibisiniz. Dünyanın hər hansı bir mühüm məsələsində İran xalqının ciddi müxalif olduğu iş baş tutmur. Bu gün bu xalq, bu quruluş, bu dövlət və bu böyük ölkə Allahın lütfü ilə dünyada belə bir mövqeyə malikdir. İran xalqının əzəməti tədricən hamını cəlb edir. Bu sizin uğurunuzdur.[51]

Allaha şükür olsun ki, İslam Respubilkası müxtəlif sahələrdə - həm ölkə quruculuğunda, həm ümumi düşüncə və xarakterlərdə, həm İslam mədəniyyətinin genişlənməsində, həm müstəqillikdə, həm istedadların canlanmasında, həm də xalqın ictimai-siyasi iştirakında böyük uğurlar əldə etmişdir.

Zalım şah rejimləri dövründə xalq həmişə proseslərdən kənarda qalırdı, heç kim onu saymırdı. Hər şey hakimlərin əlində idi, istədiklərini edirdilər. İslam Respubilkası əsrlər boyu yaranmış bu səddi uçurmaq şərəfinə nail oldu. Xalq ixtiyar və qərar sahibi oldu, dövlət məmurları xalqın istək və fikirlərinə əməl etməyə

---

[51] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 1996.

məcbur oldular. Bu, inqilabın qorunması üçün ən yaxşı üsuldur.[52]

Bu ölkə və torpaq hegemon qüvvələrin, ən çirkin hegemonların pəncəsində idi, onu özlərinki bilirdilər, özləri üçün hələ fəth olunmamış bir zirvə sayırdılar. Siz görün regionumuzun bəzi hökumətləri bu gün ABŞ-ın iradə və istəyi qarşısında nə qədər kiçilirlər! O nə istəsə, bunlar təslim olub yerinə yetirilər. Bunlardan müharibə, sülh istəsə, bir ölkə ilə düşmən olmalarını istəsə, hərbi müqavilə və hətta hökumət dəyişikliyi istəsə, boyun qaçırmırlar.[53]

İranda mənfur, asılı və azğın Pəhləvi rejimi ABŞ qarşısında bu hökumətlərin hamısından daha asılı və təslimçi idi. Amma bu gün ABŞ bu rejimi əldən vermişdir. Hegemon qüvvələr həmişə bir milyard bir neçə yüz milyonluq müsəlmanlardan, onların İslam, İslam hökmləri və İslam təlimləri haqda düşünmələrindən qorxmuş, buna görə də İslam hökmlərini və Quranı unutdurmağa

---

[52] Böyük Rəhbərin Qum əhalisinin böyük toplantısında çıxışından: 1992.

[53] Böyük Rəhbərin Kitab həftəsinin başlanması münasibətilə müraciətindən: 1993.

çalışmışlar. Bu xalq, bu ölkə İslamı parlaq bir günəş kimi dünyanın müsəlman xalqlarının düşüncə və qəlbində ucaltdı, hamıya təqdim etdi, müsəlmanlarda İslam duyğularını dirçəltdi. O zaman həm hegemonların ixtiyarında olan ölkə əllərindən çıxdı, həm də xatırlanmasını istəmədikləri İslam gündəmə gəldi.[54]

**"Bir şeyimiz yox idi!"**

Pəhləvi dövründə ən çox aparılan təbliğatdan biri "bacarmırıq" idi. Bizim hamımız uşaqlıqdan belə yetişmişdik ki, İran məhsulu pisdir, zəifdir, xoşagəlməzdir, iranlı - hər bir sahədə yaxşı məhsulun istehsalında bacarıqsızlıq deməkdir. Bu mədəniyyəti xalqımızın beyninə yeritmişdilər. Halbuki bu, həqiqətin tam əksinədir. Bu xalq hər bir cəhətdən bacarıqlı xalqdır; istehsal və inkişaf etməyi, yaratmağı, elm və texnologiya sərhədlərini keçib irəliləməyi bacarır.

Düzdür, biz hələ dünyadan çox geridəyik. Çünki bizi uzun müddət geridə saxlayıblar. Bunu özümüz yaxşı bilirik. Lakin biz sürətlə bu məsafəni

---

[54] Böyük Rəhbərin Fitr bayramı münasibəti ilə ümumi görüşdə çıxışından: 1999.

qət edirik ki, önə çataq. Bu, müharibədə tam aydınlığı ilə göründü. Həm insani hisslər, həm də mənəviyyata, paklığa və təmizliyə təmayül potensialı baxımından hər yerdə belə idi.[55]

İnqilabın əvvəlində Quruculuq cihadı təşkilatı elevator - taxıl anbarı düzəltmək istəyirdi. Bilirsiniz ki, tağut dövründə bizim elevatorları Sovet mütəxəssisləri düzəldirdilər. Tağut rejimi buğdanı ABŞ-dan alırdı, elevatorunu Sovet düzəldirdi. Elevatorun zahiri sadədir, amma nisbətən mürəkkəb texnologiyası var. Quruculuq cihadı dedi ki, elevator düzəltmək istəyirik. Ətrafdan səslər ucaldı ki, bacarmazsınız, əbəs yerə özünüzü yormayın, ölkənin imkanlarını hədər etməyin. Onlar Xuzistanda kiçik bir elevator nümunəsi düzəltdilər. Mən o zaman gedib oraya baxdım. Bu gün sizin İslam Respublikanız dünyanın birinci dərəcəli elevator düzəldən ölkələrindəndir.

Tehranın yaxınlığındakı bəndlərin biri su buraxırdı, onu düzəltmək lazım idi. Dedilər ki, bu bəndi tikən kompaniyanın özü gəlməlidir. Gedib

---

[55] Böyük Rəhbərin cihad və şəhadət öncülləri ilə görüşdə çıxışından: 2005.

gətirdilər. Bu da mənim prezidentliyimin əvvəllərinə aiddir. Deyirdilər məgər biz bənd tikə bilərik?! Keçmişin təlqinləri idi. Bizim gənclərimiz iradə göstərdilər, getdilər bənd tikməyə. Bu gün İslam Respublikası Allahın lütfü ilə bölgənin ən yaxşı bənd tikən ölkəsidir. Regionumuzda İslam Respublikası kimi heç bir ölkə istər betondan, istər torpaqdan böyük bəndlər tikməkdə peşəkar deyil. Bizim tikdiyimiz bəndlər tağut dövründə xarici şirkətlər vasitəsi ilə tikilən oxşar bəndlərdən daha yaxşı, daha böyük və əlbəttə, ki, çox az xərclidir. Öz işimizdir, nə üçün bacarmarıq?![56]

Özümüzü layiq olduğumuz mövqeyə çatdırmaq üçün illərlə çalışmalıyıq. Bu gerilik ölkənin və xalqın böyük potensialından istifadə edə bilməyən bacarıqsız rejimin əlliillik hakimiyyətinin təsiridir. Siz bugünkü istedadı görürsünüz. Görün bizim gənclərimiz dünyanın elmi olimpiadalarına necə çıxırlar! Keçmişdə bu istedadlardan istifadə olunmurdu, onlara diqqət göstərilmirdi. Yalnız özlərinin qanunsuz məqsəd və istəkləri üçün onlardan istifadə edirdilər. Bəziləri buraxıb gedir,

---

[56] Böyük Rəhbərin Yəzd vilayəti universitetlərinin tələbələri ilə görüşdə çıxışından: 2008.

çoxları da qalırdılar, lakin istedadlarında heç bir inkişaf yaranmır və bir iş görülmürdü.

Məmləkəti xaraba vəziyyətdə buraxmışdılar. Müharibədən sonra bizim ən böyük işlərimizdən biri müharibənin xarabalıqlarını düzəltmək idi. Görürdük ki, müharibənin bu xalqın başına gətirdiyi fəlakət Pəhləvi sülaləsinin uzun illər hökuməti dövründə yaranandan azdır. Belə bir hökumət illərlə xalqa başçılıq etdi, 1962-ci ildə imamın fəryadı ucalanda isə xalqın qəzəbi partladı.

Onbeşillik mübarizə dövrü də daxil olmaqla keçmiş rejimdə incəsənət hakimiyyətin əlində idi. Doğrudan da tənəzzülə uğramışdı və səhnədə deyildi. Lakin inqilabın qələbə çaldığı andan incəsənət əsasən yeni sənət istedadlarının - gənclərin vasitəsi ilə meydana qoşuldu. Siz indi görürsünüz ki, bizim bu məşhur sənətkarlarımız arasında çoxları inqilabdan sonrakı gənclərdir. Bunlar ya müharibə cəbhələrində, ya inqilab səhnələrində imandan bəhrələnməklə özünəinam əldə etmiş və bir sahəyə yönəlmiş, misal üçün, əlinə fotoaparat götürüb, şəkil çəkmək üçün cəbhələrə gedən şəxslərdirlər. Bu işlər bunları incəsənətə sarı çəkdi. Həmçinin incəsənətin digər növlərində

əksəri inqilabın əvvəlindən başlayan gənclər idilər. Bəziləri də inqilabdan qabaqdan qalan və inqilabla razılaşan sənət adamları idilər. Təəssüf ki, çoxları da razılaşmadılar, gedib bir kənarda oturdular və sənətlərini inqilab üçün işlətmədilər. Ümumilikdə, inqilabın əvvəlindən bu günədək ötən 20 il ərzində incəsənətin böyük rolu oldu, təkcə aktyorluq və ya şeir sənəti yox, müxtəlif sahələr inkişaf etdi, dəyərli və böyük işlər gördülər, gənc sənətkarlar yetişdi.

Əgər bu günü inqilabdan öncəki dövrlə müqayisə etsəniz, görərsiniz ki, bizim vəziyyətimiz çox yaxşıdır və üstünlüklərimiz var. Lakin əgər çatmalı olduğumuz vəziyyətlə müqayisə etsək, xeyr, geridəyik. Mən açıq şəkildə deyirəm ki, geridəyik. Bizim hələ yazıçılıq sahəsində, şeir sahəsində, təsviri incəsənətdə - yəni kino və teatr sahələrində çox çatışmazlığımız var, görülməyən işlərimiz çoxdur. İnsan çoxlu naşılıqlar müşahidə edir. Mən ümidvaram incəsənət sahələrində fəaliyyət göstərən şəxslər bizim inqilabın digər sahələrində müşahidə etdiyimiz və dünyanı özünə cəlb edən - sənayedə, hərbi sənayedə və elm sahələrində biz doğrudan da dünyanın diqqətini cəlb edən işlər görmüşük - özünəinamı əldə edək

və incəsənət sahəsində də inşallah böyük xalqımıza və inqilabımıza yaraşan işlər görə bilək. Məndə bu ümid var.[57]

Təəssüflə etiraf etməliyik ki, İslamdan sonrakı tarix boyu mədəniyyətin, kitabın və elmin bayraqdarlarından biri olan əziz xalqımızın kitab oxumaq həvəsi çox aşağı həddədir. Çoxlu acınacaqlı və xoşagəlməz hallar kimi bu məsələ də ötən iki yüz ildə zalım, fəsadçı, mədəniyyətsiz və savadsız padşahların hakimiyyətinin nəticəsidir. Digər xalqların elmə, tədqiqata, biliyə üz tutduğu bir dövrdə bizim qədim və istedadlı xalqımız mənfur, xudpəsənd, hegemon və ləyaqətsiz insanların hakmiyyəti altında elm və bilgidən uzaq qaldı. Asılı və azğın Pəhləvi rejiminin bütün işləri əcnəbi düşmənlərin istəyinə və bu xalqın ziyanına uyğun gördüyü son dövrdə nəinki kitab və mütaliəni təbliğ etmək üçün iş görülmədi, hətta qeyri-sağlam əyləncələrlə, gənclər arasında cinsi ehtiras alovunu qızışdırmaqla bu təcili zərurəti xalqın diqqətindən daha da kənarlaşdırdılar. Qlobal şəraitin İran xalqının pis vəziyyətində əsaslı

---

[57] Böyük Rəhbərin gənclərlər sual-cavab məclisində söhbətlərindən: 1999.

dəyişikliklərə dözdüyü ən yaxşı dövrlərin birində bizim məzlum xalqımızı ondan məhrum etdilər. İş elə bir yerə çatdı ki, o zaman Tehranda və bəzi şəhərlərdə barların sayı kitabxanaların və kitab mağazalarının sayından çox və ya bir neçə dəfə artıq idi.[58]

İnqilabdan qabaqkı son əlli ildə bu məmləkətdə iki nəfər hakimiyyətdə oldu: ata və oğul! Onların hər ikisini əcnəbilər hakimiyyətə gətirdilər. Rza xanı ingilislər kazak alayından tapdılar. Onların qorxub-çəkinmək bilməyən bir quldura ehtiyacları vardı. Gətirib əlinə silah verdilər, nəhayət, taxta çıxardılar, sonra da onun vasitəsilə öz planlarını icra etdilər, bu məmləkətdə görmək istədikləri hər bir işi gördülər. Onlar dinə, ruhaniliyə, bu ölkənin qədim və milli ənənələrinə, bu ölkənin dini və etiqadi təməllərinə vurmaq istədikləri hər bir zərbəni onun vasitəsilə vurdular. Qorxusuz və həyasız bir adam olduğundan işlərinə yarayırdı. İngilislər Məşrutədən qabaq uzun müddət bu ölkədə təsir vasitəsi axtarır, amma tapmırdılar. Çox zaman da alimlər mane olurdu.

---

[58] Böyük Rəhbərin Kitab həftəsinin başlanması münasibətilə müraciətindən: 1994.

Bu adamın isə alimlərə qarşı cəsarətli və qorxmaz olduğunu bilirdilər. Onu hakimiyyətə gətirdilər və istədikləri hər bir işi gördülər. Sonra siyasi baxımdan başqa bir səmtə yönəldiyini görüb onu götürdülər və yerinə oğlunu qoydular.

Bir xalq, eləcə də bizim xalqımız üçün bundan böyük rüsvayçılıq yoxdur ki, ölkənin hakimlərini, başçılarını və siyasətçilərini İngiltərə hökuməti öz səfirliyi vasitəsilə gətirib-aparsın. Bir xalq üçün bundan ağır nə ola bilər?! Pəhləvi dövrünün adamları haqda yazılmış xatirələri oxuyun. 1941-ci ildə Rza xanı işdən kənarlaşdırdıqdan sonra oğlu Məhəmmədrza bir neçə gün bilmirdi ki, onu padşah edəcəklər, yoxsa yox. Bir nəfəri İngiltərə səfirliyinə göndərdi, onlar dedilər ki, bəli, eybi yoxdur, padşah olsun, bu şərtlə ki, filan işi görsün, filan işi görməsin. Bunlar bu ölkənin həqiqətləridir.

İranın əlliillik diktatorluğu, tağut və azğın şah rejimi iki nəfərin vasitəsilə icra olundu. Onları da əcnəbilər iş başına gətirdilər, xalqın heç bir rolu olmadı. Ondan qabaq Qacar rejimi də şah hakimiyyəti idi. Bu şahların bioqrafiyasına baxın. Xalq heç, xalq ümumiyyətlə, onlar üçün deyiləsi

deyildi, hətta dövlət adamlarını - Sədri-əzəmdən tutmuş aşağıya qədər hamısını öz nökərləri bilirdilər. Onlara deyirdilər ki, siz bizim nökərlərimizin arasında beləsiniz, eləsiniz. Bu ölkəyə belə insanlar hakim olmuşlar. Uzun əsrlərdən sonra inqilabın sayəsində ilk dəfə olaraq bu ölkədə elə hökumətlər iş başına gəlir ki, dövlət məmurlarının meyarı elm, təqva, ədalət, xalq sevgisi və xalqın seçimidir. Onlar xalqla, xalq üçün və xalqın xidmətindədirlər, sui-istifadə və oğurluq etmir, düşmənə boyun əymirlər. İranın uzun tarixində əsrlərlə bunlar olmamışdır. Bunları İslam və inqilab bu xalqa verdi. Bunları gənc nəslə izah etməlisiniz. Qoy bilsinlər ki, ölkələri necə idi və necə oldu, haradan haraya gəldi.[59]

---

[59] Böyük Rəhbərin alim və ruhanilərlə görüşdə çıxışından: 1998.

## İkinci fəsil: Qələbə şəfəqi

### Quran

Tağut rejimi dövründə xalq Quranla tanış deyildi, Quranı üzündən, özü də səhv oxuya bilən adamlar da az idi. Gənclər və Pəhləvi məktəblərində böyüyənlər Quranla əsla tanış deyildilər. Əgər mömin ata-anaları olsaydı, onları bir yerdə Quran kursuna qoyurdu və özləri öyrənirdilər. O zaman bizim məktəblərimiz Quran tərbiyəsi üçün məsuliyyət daşımırdı, Quran cəmiyyətdə qərib idi. Bu böyük Tehran şəhərində bir neçə nəfər bir yerə toplaşırdı və bir müəllim onlara təcvid, yaxud qiraət öyrədirdi. Belə Quran kursları da az idi. Digər şəhərlərdə də belə idi. Quran cəmiyyətə çıxdıqda isə şirinliyini daddırır. Bu gün bizim ölkəmizdə Quran hakimdir.[60]

Bir zaman bizim ölkəmizdə Quranın oxunuşu tərk edilmişdi. Tehranın, yaxud Məşhədin harasındasa kimsə Quran aşiqi olsaydı, zəhmət çəkib dərs keçirdi ki, uzun illərdən sonra bir qədər

---

[60] Böyük Rəhbərin Quran müsabiqələrinin xitam mərasimində çıxışından: 1998.

şagird yetişdirsin. O zaman belə idi. Bu insanlar qürbətdə idilər, səhnədə, göz önundə və televiziyada deyildilər. Tağut zamanı Quran təcrid olunmuşdu. Biz İslam hakimiyyətinə görə Allaha şükür edirik ki, bu gün Quran bizim ölkəmizdə fəxr səbəbi, Quran oxumaq ölkəmiz üçün hörmət amilidir. Bu, İslamın nemətlərindəndir. Bunu İslam quruluşu bizə verdi. Quranın bizim canımıza, ruhumuza və dilimizə hopması Allahın bizə bir hədiyyəsi idi.[61]

Bu gün Allaha şükür olsun ki, İslam quruluşu sayəsində ölkəmizdə Quran sədası ucalmışdır. Bizim əziz gənclərimiz bilsinlər ki, bir zaman bu ölkədə Quran sözün əsl mənasında qərib idi. Təkcə Qurana əməl etmək və ona sayğı bildirmək yox, hətta Quranın oxunuşu da qərib idi. Bəzən nümayişkarlıq üçün bir tərəfdə bir hərəkət görünürdü. Amma Quran ölkə xalqı, xüsusən də gənclərimiz arasında ideal deyildi. Bu gün isə

---

[61] Böyük Rəhbərin Quran qiraətçiləri ilə görüşdə çıxışından: 2004.

görürəm ki, Quran tilavətini lazımınca bacaran gənclərin və hətta yeniyetmələrin sayı çoxdur.[62]

Bir zaman bizim cəmiyyətimizdə Quran yox idi, namaz həqiqi mənada mövcud deyildi, cümə namazımız yox idi, ilahi və mənəvi toplantılarımız mömin bir xalqa münasib həddə deyildi. Zalımlar bizə hökmranlıq edirdilər. Bu ölkənin başçıları günah sahibləri, Allah evindən uzaq idilər, hidayətin nə olduğunu bilmir, Allahın yolunu tanımır, ədalətin nə olduğunu bilmir, peyğəmbərləri sevmir, Allah yoluna gəlmirdilər. Biz uzun müddət belə yaşadıq. Lakin Allah bizi oyatdı. Bu xalq oyanmış və Allah tərəfindən hidayət olunmuşdur. Yolu Allah bu xalqa göstərdi.[63]

**Mədəniyyət və milli kimlik**

Tərif olunmuş mədəni bir məqsəd əsasında baş verən İslam inqilabının qələbəsindən sonra mədəniyyət və milli kimlik məsələsinə əhəmiyyət

---

[62] Böyük Rəhbərin Quran qiraətçiləri ilə görüşdə çıxışından: 2005.

[63] Böyük Rəhbərin İmam Rzanın (ə) müqəddəs məqbərəsində etdiyi çıxışından: 1994.

göstərildi. Bu işin bəzi səmərələri oldu. Ölkədə bu səmərələrin yaranması əsla mümkün deyildi. Bu yeniliklər, elmi nailiyyətlər, yeni elm və tədqiqat sahələrinə qoşulmaq cəsarəti - xoşbəxtlikdən, bunlar bu gün ölkəmizdə müşahidə olunur - milli kimliyin dirçəlişindən yaranan özünəinama görədir. Bunu inqilab etdi. İnqilabdan öncə milli kimlikdən və milliyyətdən çox danışırdılar, amma əslində heç zaman milli kimliyi gücləndirmirdilər. Sözsüz ki, səbəbi də bəlli idi. Çünki buranı öz maraqları üçün istəyənlər, bizim əziz ölkəmizdə öz maraqlarını tərif edənlər bilirdilər ki, bu ölkədə milli kimlik dirçəlsə, onların maraqları ilə düz gəlməyəcək və onlar məqsəd seçdikləri maraqlara qovuşa bilməyəcəklər. Bu səbəbdən o zaman burada milli kimlik zəiflədildi. Biz öz ölkəmizdə asılılıq və əcnəbilər qarşısında kimliyin zəiflədilməsi yönümündə o qədər ifrata vardıq ki, görkəmli şəxslər xəcalət çəkməyib, fars dilinin və ərəb əlifbasının dəyişdirilməsini təklif etdilər. Düzdür, dilin dəyişdirilməsi üçün az iş gördülər, amma əlifbanın dəyişdirilməsi üçün - bir ölkənin əlifbası onun mədəniyyətinin ciddi cəhətlərindən və mühüm şərtlərindən biridir - tağut dövrünün

mətbuatında və qəzetlərində açıq-aşkar yazı verdilər, müdafiə etdilər və bu barədə danışdılar; o da tamamilə mübahisəli, çaşdırıcı və düzgün olmayan dəlillərlə. Onlar bu həddə irəlilədilər.

Pəhləvi rejimini hakimiyyətə gətirən şəxslər, milli xüsusiyyətlərin heç birinə dözməyə hazır deyildilər. Əlbəttə, bizim milli kimliyimiz əvvəldən İslamla qarışmışdır; dilimiz, ənənələrimiz, elmimiz, alimlərimiz İslamla qarışmışlar. Tarixdə görürsünüz ki, bizim görkəmli, məşhur və ölməz alimlərimiz dünyəvi elmlərlə yanaşı din elmini də öyrənmiş şəxslərdir. Yəni bütün elmlər dindarlar vasitəsi ilə inkişaf etmişdir. Əlbəttə, bu o demək deyil ki, yalnız dini mədrəsə tələbələri bu xüsusiyyətə malik olmuşlar. Xeyr! Cəmiyyət dini cəmiyyət idi. Bizim mədəniyyətimiz, elmimiz, rəftarımız, ənənələrimiz dinlə qarışmış, onların çoxu dindən qaynaqlanmışdır. Milli kimliklə və onun xüsusiyyətləri ilə mübarizə apardıqda təbii ki, dinlə mübarizə də onun tərkib hissəsi oldu. Çünki din və iman bütün insani dəyərlərin təminatçısıdır. Təbii ki, imanla da kəskin şəkildə müxalifət edirdilər. Bunlar hətta bizim yerli geyim formamızı da qəbul etmədilər. Bir neçə min il keçmişə malik

bir xalqın bu gün yerli paltarı yoxdur, yerli geyimimizi tanımırıq. Halbuki dünyanın çoxlu ölkələrində bu var. Əlbəttə, yerli geyim inkişafa mane olmur, amma bizim yoxumuzdur. Çünki onlar qoymadılar. Bu, bəlli tövsiyəyə əməl olunmasıdır: "iranlı gərək başdan-ayağa qərbli olsun". Görün, öz kimliyindən uzaqlaşmaq hansı həddə olmuşdur...

Bir zaman bir insan öz meyli ilə ehtiyacına uyğun bir xörəyi, dərmanı seçir və qəbul edir. Bu, seçimdir və çox yaxşı bir şeydir. Amma bir vaxt da bir nəfəri yatızdırıb onun üçün nə lazım olan, nə meyli və iştahası çəkən, nə də faydalı olan bir maddəni zorla boğazına tökür, yaxud bədəninə köçürürlər. Mədəni hücum belədir və uzun illər İran xalqına qarşı bu iş görüldü. Asılı siyasətçilərdən, maliyyə müqavilələri ilə ağızları yumulan şəxslərdən heç bir gözlənti yoxdur. Amma o dövrün elmi və mədəni şəxsiyyətlərindən bu gözlənti var; hansı etiqadda olsaydılar, hətta İslamı qəbul etməsəydilər, imanları olmasaydı da, xalqın mədəni kimliyinə dəyər verməli idilər, lakin vermədilər; qapıları açdılar, gözləri yumdular, mat-məəttəl baxıb bizi geriyə saldılar. Bu səbəbdən elm

və texnologiya sahəsində geri qaldıq. İndi xoşbəxtlikdən, belə deyil və vəziyyət çox dəyişib. Mənim gənclik dövrümün ənənəsinə görə isə hər hansı məhsul yalnız xarici olduğuna görə gözəl idi, daxili və yerli olduğuna görə xoşagəlməz. O dövrün ümumi mədəniyyəti belə idi. Ölkənin elm və tədqiqat işində də elmin sərhədlərini yarmaq və bağlı yollarını açmaq cəsarəti ümumiyyətlə, təsəvvür olunmurdu. Özlərində belə bir istedadı görən şəxslər ölkədən xaricdə işləməkdən başqa bir yol görmürdülər. Bizim özümüzün qurmağımız, istehsasl etməyimiz, yaratmağımız ümumiyyətlə, təsəvvür olunmurdu. Mən əlimdə olan müxtəlif məlumat və məruzələrdən buna dair çoxlu real nümunələr bilirəm. Bəlkə sizin bəziniz də bu nümunələrdən xəbərdarsınız. Bu gün isə xoşbəxtlikdən, bu cəsarət, özünəinam və müxtəlif sahələrə giriş cürəti var. İnqilab bu mədəniyyəti dəyişdirdi. Mədəniyyət məsələsi belədir. Bu sadəcə, nümunə idi.[64]

**İslam kimliyi**

---

64 Böyük Rəhbərin teleradio verilişləri şirkətinin əməkdaşları ilə görüşdə çıxışından: 2004.

Biz uzun əsrlər istibdada və tam iki əsr əcnəbilərin hömkranlığına məruz qaldıqdan sonra özümüzə gəldik. Böyük İmam başucalığını bizim xalqımıza qaytara bildi. İngilislər, ruslar və amerikalılar növbə ilə bu ölkəyə ağalıq və həqiqi hökmranlıq etdilər. Zahirən hökumətin başında durmasalar da, ölkənin hər bir işi onların əlində idi. Bizim xalqımız öz hüququndan, sərvətlərindən, izzətindən və dininin həqiqi dadından məhrum olmuşdu.

Bizim böyük imamımız İslama qayıdışla, İslama sarılmaqla ölkəmizdə istibdad və müstəmləkənin uzunmüddətli hökmranlığına son qoyub bizə başucalığı bəxş edə bildi. O bizim xalqımıza İslam kimliyi hissini qaytardı. Hiss etdilər ki, öz ayaqları üstə dura bilirlər, özləri qərar verə, seçə bilirlər, taleyüklü məsələlərdə özləri "hə", yaxud "yox" deyə bilirlər. Bizim xalqımız əsrlər uzunu belə bir şey görməmişdi. Bunu İslam onlara verdi. Dünyanın hər hansı bir nöqtəsində İslam oyanışı hərəkatı güclənsə və möhkəmlənsə, o ölkənin xalqı və gəncləri İslama sarı

yaxınlaşdıqlarını duysalar, kimliyin və başucalığının uyğun yenilənməsi baş verəcək.[65]

Biz on beş il öncəki xalqıq? On beş il öncə İranda vəziyyət necə idi? Bizim və sizin Məşhədimizdə nə baş verirdi? Gənclər necə idilər? Universitet necə idi? Elm hövzəsi necə idi? İndi necədir? Bu dəyişiklik on beş il ərzində həyata keçəsi dəyişiklikdirmi?! Bu, Allahın möcüzəsindən, mənəvi diqqətdən və qeyb aləmindən çaxan şimşəkdən başqa bir şeydirmi?!

Bu inqilab baş verdi və inkişaf etdi. Onun ilk təsiri dünya səviyyəsində yüzəlliillik müstəmləkə binasını yerlə-yeksan etməsi idi. Hansı binanı? Müstəmləkəçilik müsəlmanların ruhiyyəsini əzmək üçün yüz əlli il zəhmət çəkmişdi. Müsəlman dünyada özünün müsəlman olması ilə qürur duymurdu. Sizin hansınız görmüş, yaxud eşitmisiniz ki, tağut dövründə dünyanın hər hansı bir yerində - Avropada, Amerikada, yaxud ucqar bölgələrdə kimsə başını dik tutub fəxrlə desin ki, mən müsəlmanam. O zaman da müsəlman olmaq fəxr idi, amma heç kim bunu hiss etmirdi,

---

[65] Böyük Rəhbərin İslam quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2003.

ruhiyyələr sarsılmışdı. İnqilab gəlib bu vəziyyəti dəyişdirdi. Müsəlmanlar dünyanın hər bir yerində İslam kimliyi hiss etdilər və ruhlandılar. Buna görə biz deyirik ki, bu inqilabi hərəkat böyük güclərə öz zərbəsini vurmuşdur və onar bir iş görə bilmirlər.[66]

Biz İslam yolunda və İslam istiqamətində hərəkət edə bilmişik. İslam qanunlarını cəmiyyətə çıxarıb imkanımız həddində icra etmişik. Biz uca İslam dəyərlərini İslam Respubilkasında tanıtdıra, Allahın kəlamını xalq arasında yayıb ürəkləri Allaha sarı yönəldə bilmişik. Yəni inqilab bu işi görmüşdür. Fərdlər bu işləri özlərinə aid edə bilməzlər. Bizim inqilabımız Allahın lütfü ilə belə böyük bir iş görmüşdür. Biz bu uğuru əldə etmişik. İndi də bu yolu ciddi şəkildə davam etdirməliyik. Çünki bu həddə də onun təsirlərini müşahidə etmişik və Allah-Taala bizə başucalığı vermişdir.

Bizim ölkəmiz və xalqımız tağutların uzun hakimiyyəti boyunca təhqir olunurdu, geridə qalmışdı, xalq öz hüquqlarını bilmirdi, dövlət rəsmilərinin xalqla əlaqəsi və hakim quruluşun dünya gücləri qarşısında şəxsiyyəti yox idi, mütləq

---

[66] Böyük Rəhbərin Xorasan vilayətinin alimləri və əhalisi ilə görüşdə çıxışından: 1990.

davamçı idi. Onların nəzərində ilahi təlimlər xalqa faydasız idi, təlim-tərbiyə İslam əsasında deyildi. Tağutların hakimiyyəti dövründə bizim ölkəmiz zəifliyə, xarlığa, yoxsulluğa, bacarıqsızlığa məcbur edilmişdi və bu onu incidirdi.

Allah-Taala İslamın sayəsində, İslam mənəviyyatına diqqətin, İslamın siyasi sözünə diqqətin sayəsində bizi o əziyyətlərdən xilas etdi. Yəni peyğəmbərlik bundan ötrü deyildi ki, bir qrup insan müəyyən bir etiqadı öz beynində saxlasın və fərdi əməlləri yerinə yetirsin, ictimai quruluş isə Allahın düşmənlərinin və allahlıq edənlərin əlində olsun. Peyğəmbər xalqın həyatını formalaşdırmaq üçün gəldi. Allaha şükür olsun ki, bu iş baş tutdu, bizim xalqımız da təsirlərini müşahidə etdi və gözəl nəticələrini gördü.[67]

## Özünəinam prinsipinin dirçəldilməsi

Xalqımız böyük və istedadlı xalqdır. Sonradan belə bir vəziyyət yaratmışdılar. İmamın fəryadı ucaldıqda xalq özünə gəldi. Düzdür, imamın başladığı gündən bu möhtəşəm okeanın

---

[67] Böyük Rəhbərin İslam quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 1997.

fırtınasına qədər on beş il çəkdi – ağrı-acılı on beş il. Lakin xalq əsil-nəsəbli, köklü, istedadlı, qeyrətli, mədəniyyətli və dindar idi, özünü uyuşdurucu və yuxulu vəziyyətdən çıxarıb ayağa qalxa, mübarizə dövründə, xüsusən də son bir-iki ildə öz şəxsiyyətini göstərə bildi. Bu, müsbət cəhət idi. Lakin uzun illər bu ölkədə məcburən yaradılan və öz təsirlərini buraxan reallıqlar imamın qarşısında idi. İndi imam bu cəmiyyəti gözəl və ideal formada qurmaq istəyirsə, nə etməlidir? Görün bu nə qədər mühümdür, zarafat deyil. Siz elə bir yerə getmisiniz ki, materiallar var, imkan var, yer var, lakin bina uçulub-dağılmışdır. Bu materiallarla bu yerdə uca, əzəmətli və əbədi bir bina tikmək istəyirsiniz. Hər mühəndis bu işi görə bilməz. Burada həmin əzəmətli kimlik və şəxsiyyət özünü göstərir. İmam bu xalqa, bu ölkəyə, bu səhnəyə və bu materiallara baxdı. O, İslamı tanıyırdı, İslam amallarını və İslam hökmlərini də bilirdi. İslam materialları və bu xalqın əli ilə əzəmətli, müstəqil, başıuca, xoşbəxtliyə və inkişafa aparan və keçmişin nöqsanlarını düzəldən bir hökumət qurmaq istəyirdi. O bu xalqda hər şeydən çox nəyə diqqət yetirməli idi? Prioritet nə idi?

İmam prioritetləri təyin etdi və rəhbər tutdu. Mənim fikrimcə, bu prioritetlər birinci növbədə iki məsələdən ibarət idi. Biz ilk gündən imamın buyruqlarının, düşüncələrinin, mühakimələrinin və hadisələrdə rəftar tərzinin çoxunu yaxından müşahidə edirdik. Buna görə düzgün anlaya bilərik. Siz bu gün də imamın söz və əməllərini araşdırsanız, imam haqqında bildiklərinizi qarşınıza qoysanız, həmin iki məsələni aydın şəkildə müşahidə edərsiniz.

Birincisi xalqda özünəinam və müstəqillik hissinin dirçəldilməsidir. Uzun illər xalqı inandırmışdılar ki, siz bacarmırsınız. Bütün təbəqələrdən olan şəxslər – ruhani, qeyri-ruhani, ali təhsilli, alim, cahil nə qədər deyirdilərsə, cavab verirdilər ki, olmaz, faydası yoxdur. Bu hiss dəyişilməli idi. Belə ictimai xarakterlər fərdi xarakterlər kimi deyil. Fərdi xarakterlər də asanlıqla dəyişilmir, ictimai xarakterlər isə olduqca çətindir. İmam bunu özünəinam, özünə güvənmək və müstəqil hərəkət hissinə çevirməli idi. Bundan ötrü o bu xalqdan qeyrisinin heç bir müdaxiləsini və təsirini xalqa məcbur etməməli idi və etmədi. İmamın Amerika və ozamankı sovetlər qarşısında

möhkəm dayanması bundan ötrü idi. Amerikalılar tam iyirmi beş il başlarını aşağı salıb asanlıqla buraya gəlib-gedirdilər. Burada geniş bir süfrə açılmışdı, onlar və bir qrup muzdur istədikləri hər bir işi görürdülər. İnqilabın ilk aylarına qədər hələ ümidlərini üzməmişdilər. Mən bəzi məsələləri xatırlayıram, lakin indi onları deməyə vaxt yoxdur. İmam bu böyük iddialıların hamısını susdurdu. Əgər azca diqqətsizlik etsəydi, qapıdan qovulmuş həmin şəxslər müxtəlif yollardan və müxtəlif pəncərələrdən yenidən daxil olacaqdılar. İmam əcnəbinin hər hansı nüfuz və hökmranlığının qarşısında möhkəm dayandı. Bu birinci məsələ idi.

İmamın çox diqqət yetirdiyi ikinci məsələ xalqda dini ruhiyyənin dirçəldilməsi və imanın gücləndirilməsi idi. Bu iman onun özündə də var idi. Buna görə dini məsələlər, bəndəlik və dinə aid olan hər bir iş üçün çox çalışdı, diqqət göstərdi və bu sahədə əsla güzəştə getmədi. Çünki din çarədir. Bir xalqda dini ruhiyyə olduqda, təsiri təkcə fərdi baxımdan yaxşı, təmiz və abid insanların olması deyil, düzgün dini ruhiyyənin təsiri ictimai həyatda da əks olunur. Məhz buna görə dünyanın bütün böyük düşmənləri və ölkədəki ardıcılları imamın

yaydığı və əsl İslam adlandırdığı dinə qarşı çıxmağa başladılar. Deyirdilər ki, bu din siyasət və hökumət dinidir. Bəzən də anadan qayğıkeş dayə olub - indi də bəzən belə olurlar - deyirdilər ki, siz siyasət və hökumət dinindən danışanda, xalqın dini və imanı zəifləyir. Bu həqiqətin tam ziddinədir. Bir cəmiyyətdə din olduqda orada fədakarlıq ruhiyyəsi olur; bir cəmiyyətdə din olduqda orada agahlıq, sayıqlıq və məsuliyyət hissi olur. Siz görürsünüz ki, bu gün bizim cəmiyyətimizdə və ölkəmizdə, xalqın məlumatlandığı qədərincə, dini məsələlərə qarşı məsuliyyət və qeyrət hissi var. Bu, dini ruhiyyəyə görədir.[68]

Bizim böyük imamımızın öz hərəkatı və bu xalqın köməyi ilə devirdiyi siyasi quruluş, yəni azğın və asılı şah rejimi, başçılarının və məsul şəxslərinin İran xalqının və bu ölkənin gənclərinin taleyinə əhəmiyyət göstərmədiyi bir rejim idi. Onlar ölkəni və xalqı daha artıq asılılığa sövq edirdilər. Xalqın səadəti onlar üçün əsla məqsəd deyildi. Ölkə yanlış və qeyri-münasib modellərlə idarə olunurdu. Bu modellər yarımçıq formada

---

[68] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 1999.

əcnəbi ölkələrdən alınmışdı, lakin o da icra olunmurdu. Yəni müxtəlif adlar altında və müxtəlif üsullarla mütləq diktatura və totalitar rejim hakim idi. O üsulların heç biri xalqın iradə və istəyindən irəli gəlməmişdi, onların maraqlarına yönəlməmişdi.

İnqilabdan öncəki asılı rejimdə xalq fəsada və cinsi özbaşınalığa düçar olmuşdu; daha doğru desək, fəsada, cinsi özbaşınalığa, özünə inamsızlığa və imansızlığa sövq edilirdi. Yəni xalqın hərəkətini elə tənzim etmişdilər ki, ölkədə imansızlıq günbəgün daha da genişlənsin, xalq düzgün mənəvi imandan məhrum olsun, fəsada çəkilsin, insanlarda əcnəbilər qarşısında özünə inamsızlıq haləti güclənsin, ölkədə iqtisadi və mədəni müstəqilik mənasını itirsin. Həmin fəsad dolu quruluşda əsas istiqamətlər bunlar idi.

Bu mərhələdə Böyük İmamın böyük hünəri bu idi: həmin fəsadlı quruluşun yerinə bu ölkədə elə bir siyasi quruluş yaratdı ki, onda xalqa etinasızlıq əvəzinə xalqa eşq hakimdir, xalqın, xüsusən də gənclərin taleyinə diqqətsizliyin yerinə xalqın və gənclərin taleyinə eşq, onlara qeyri-adi diqqət əhəmiyyət kəsb edir, əcnəbilər qarşısında

özünə inamsızlığın yerinə xalqın özünəinamı günbəgün inkişaf edir, əcnəbilərdən siyasi, iqtisadi və mədəni asılılığın əvəzinə siyasi, iqtisadi və mədəni müstəqillik məqsəd seçilir.

İran xalqının Böyük İmamın bu ölkədə bərqərar etdiyi siyasi baxışında öz həyat tərzində digərlərini yamsılamağa və onlardan öyrənməyə ehtiyacı yoxdur. Çünki özü zəngin və güclü mədəniyyətə malikdir; İslamı var, Quran təlimləri var, ilahi hökmləri var, özünün milli və yerli prinsipial ənənələri var və özü üçün şirin, gözəl, möhtəşəm, təminatlı və başıuca bir həyat qura bilər. Böyük İmamın bu ölkədə yaratdığı İslam quruluşunun onun hərəkatından və bizim dövrümüzdə bu ölkədə baş verən əzəmətli möcüzədən qabaqkı azğın rejimlə fərqi bu qədər böyük və barizdir. Diqqətlə baxdıqda görürsünüz ki, tənəzzülə uğramış Pəhləvi rejimində İran xalqına məcburən verilən və həmin siyasi sistemin ayrılmaz xislətlərindən olan bütün mənfi cəhətlər Böyük İmamın bu ölkədə yaratdığı siyasi

quruluşda 180 dərəcə fərqli məsələlərə çevrilmişdir.[69]

Bu ölkədə bizim mühəndislərimiz elektrik stansiyası, bənd, hava limanı tikmək sözünü deməyə cürət etmirdilər. Bu işlərin hamısını xaricilər görməli idilər. İranlı mühəndisin maksimum hünəri xarici bir mühəndisin, yaxud şirkətin götürdüyü proyektdə çalışmaq idi; bunu da əgər onlar qəbul etsəydilər. Bəzi yerlərdə də qəbul etmirdilər. Mən 3-4 il öncə Kərxə bəndi haqda müsahibə verdim və bunu geniş açıqladım. Həmçinin Karun-3 bəndini Dez bəndi ilə müqayisə etdim. Dez bəndi tağut dövründə tikilmişdi, Karun-3 bəndi isə İslam Respubilkası dövründə. Onlar bir-birinə bənzəyir; su və elektrik baxımından bir-birinə yaxın imkanlara malik iki beton bənddir. Dez bəndinin tikilişində nə qədər iranlıları təhqir etdilər, nə qədər aşağıladılar, iranlı mühəndisi, iranlı iş adamını rüsvay etdilər. Lakin bu bəndin tikilişində betonun tökülməsi və dağa birləşdirilməsi baxımından Dez bəndindən daha həssas və mühüm olan bu böyük və mürəkkəb işi

---

[69] Böyük Rəhbərin İmam Xomeyninin məqbərəsi ziyarətçilərinin toplantısında çıxışından: 1997.

iranlı gəncin, mühəndisin özü gördü; bunu təfərrüatı ilə bizə izah etdilər. Stansiyasını özü tikdi, bəndini özü tikdi, suyun altındakı sıradan çıxmış yolu və uzun asma körpünü özü düzəltdi, həm də fəxrlə. Təri axdı, amma fəxrlə başını dik tutdu. Bu kiçik iş deyil. Siz bunu hər şeydə görə bilərsiniz.

Bu gün iranlı mühəndis, alim, doktor, hərbçi qurmağı, istehsal etməyi, yaratmağı, işlətməyi və digərlərindən daha böyük bacarıq göstərməyi özünə borc bilir. O zaman isə hətta təsəvvür də etmirdilər; bunun misalları olduqca çoxdur. Bu, indiki quruluşun işgüzarlığıdır. Bu quruluş bu işi gördü. Ölkənin məhv edilmiş əkinçiliyini bu quruluş dirçəltdi. Ölkənin sadə və ibtidai sənayesini bu quruluş mürəkkəb və həssas nüvə sənayesinə çevirdi. Bu quruluş indi yeni sənaye sahələrində - Nano texnologiyada və digər bu tip sənayelərdə təxminən birinci sıradakılarla çiyin-çiyinə hərəkət edir və işləyir. Bunlar quruluşun səmərəliliyidir.

Siyasi və beynəlxalq mövqe sahəsində bunu kim inkar edə bilər?! Bu gün İslam Respubilkası dövlətinin regional və hətta qlobal siyasətlərə

təsirini kim inkar edə bilər?! Müsəlman xalqlar arasında İslam Respubilkasının başucalığını kim inkar edə bilər?! Hansı ölkə iddia edə bilər ki, onun prezidenti, yaxud yüksək rütbəli məmurları başqa bir müsəlman ölkəyə gedirlər, həmin müsəlman ölkənin hökuməti istəməsə də, xalqı toplaşır və onun xeyrinə şüar verir?! İslam Respubilkasından başqa hansı ölkə bunu iddia edə bilər?! Yalnız İslam Respubilkasının başçılarının digər xalqlar arasında mənəvi, həqiqi və siyasi hörməti var. Bunlar nailiyyət deyil?! Hansı nailiyyət bunlardan mühüm və daha üstündür?!

İslam ölkələrinin İslam kimliyi, antiimperializm və müstəqillik hissini bu quruluş yaratdı və inkiaşf etdirdi.[70]

Bu mərkəzlərin bünövrəsini qoyanlar, bu sərhədlərin xaricindən başqa bir yerə könül verməmişdilər. Buranı xaricilər düzəltdilər, xaricilər proqram hazırladılar və özləri də bəhrələndilər. Bəlkə də bu imarətlərın qədim hissələri almaniyalılar vasitəsilə düzəldildi, ingiltərəlilər tərəfindən proqram hazırlandı və

---

[70] Böyük Rəhbərin quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2007.

idarə olundu, sonralar da amerikalılar istifadə etdilər. Lakin bu gün bu mərkəzdə iranlı qurur, iranlı öyrədir, iranlı öyrənir və iranlı qazanc götürür. Məqsəd xalqın maraqlarıdır. Bu əziz və möhtəşəm bir şeydir, dəyəri bilinməlidir. Bu xalq hər yerdə xidmətə layiqdir.[71]

Biz əcnəbi qüvvələrin siyasətlərini izləyən, nüfuzlu dövlətlərin qərarlarına tabe olan tanınmaz bir xalq idik; bir gün ABŞ-ın, ondan qabaq İngiltərənin, bir gün də Rusiyanın. Lakin bu pak şəcərə bizi dünyanın ən təsirli xalqlarından birinə, regionda isə ən təsirli ölkəyə və xalqa çevirdi. Bunu bizim düşmənlərimiz etiraf edirlər. Biz özünü unutmuş, öz daxili qüvvələri ilə tanış olmayan, onlara inanmayan, əcnəbilərin bərbəzəyinə göz dikmiş və aldanmış bir xalq idik. Lakin bu pak ağac bizi yaradıcı, özünə güvənən, müxtəlif sahələrdə yeni sözlərə malik bir xalqa çevirdi. Bu gözəl ağacın şirin meyvələri bu gün müxtəlif sahələrdə - istər humanitar, istər təcrübi elmlərdə, istər ictimai məsələlərdə, istər siyasətdə, istər dində minlərlə tədqiqatçı, alim, mütəfəkkir beyin və qüdrətli

[71] Böyük Rəhbərin Zabitlik İnstitutunda çıxışından: 1996.

qoldur. Bu gün biz əksəriyyəti gənc olan məqsədli, imanlı və inkişafın bütün şərtlərinə malik bir xalqıq.[72]

Bizim ölkəmizdə və necə deyərlər, üçüncü dünyanın bir çox ölkələrində məmləkəti idarə etmək üçün iki nəzəriyyə mövcuddur: Biri budur ki, bir ölkənin xalqı, ziyalıları və qərar verənləri ölkələrini qorumaq və gələcək naminə qüdrətli bir qlobal gücə arxalanmağın zəruri olduğunu bildirirlər. Bu qlobal gücün kimliyinin – istər elmdə, istər dünya siyasətində və mədəniyyətində üstün qüvvə olmasının onlar üçün fərqi yoxdur. Deyirlər biz bu gün elmi, siyasi və texniki yarışlarda birinci yerdə duranların davamçısı olmalıyıq. Dəlilləri budur ki, onlar güclü olduqlarından biz onların qanadları altına girməliyik.

Dünyanın zəif ölkələrində bu baxış və təfəkkür tərzi hakimdir. Siyasi və coğrafi məsələləri araşdıranlar bilirlər ki, belə təfəkkür tərzi Latın Amerikası, Afrika və bəzi Asiya ölkələrində mövcud olmuşdur. Bəzi ziyalı və siyasətçilər bunu

---

[72] Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ildönümündə çıxışından: 2006.

rəhbər tuturmuşlar. İranın keçmiş rejim başçıları da bu fikirdə idilər. Deyirdilər ki, ABŞ, yaxud bəzi Avropa dövlətləri pullu, güclü, elmli, yaxud silahlıdırlar, biz nə üçün özümüzü onlardan ayıraq, nə üçün onların davamçısı olmayaq; hər halda, nə də olsa, onlar ərbab və ağadırlar.

Keçmişdə ölkəmizdə də belə təfəkkür tərzi hakim idi. Əgər sizdən kimsə tağut dövrünün feodal kəndlərində yaşamışsa, bu təfəkkür tərzini xanın artığını yeyən rəzil, zəlil və zəif təbəqələrdə müşahidə etmişdir. Belə təfəkkür nəticəsində tağut Pəhləvi rejiminin başçıları ağıllı, qeyrətli, cəsarətli, sivilizasiyada və elmdə parlaq keçmişi olan bu xalqın sərvətlərini ABŞ-dan hərbi təyyarə almağa xərcləyirdilər. Bir təyyarənin bir hissəsində eyib və qüsur yarandıqda yerli mühəndis və mexanikin açıb nöqsanını düzəltməyə haqqı çatmırdı. Çünki hissələr mürəkkəb hissələr idi. Yəni bəzən təyyarənin bir hissəsi bir-birinə bağlı olan on detaldan təşkil olunurdu. Onlar nöqsanlı hissəni açıb təyyarə ilə onu istehsal edən və satan ölkəyə - əsasən də ABŞ-a göndərirdilər. Sonra nöqsanlı hissəni təhvil verib yenisini alır və geri qayıdırdılar. Nə üçün iranlı bir mühəndisin təyyarənin xarab

hissələrinə əl vurması yasaq idi? Çünki onlara deyirdilər ki, sizin belə məsələlərlə nə işiniz var, bunlar xarici mütəxəssislərə aiddir, siz ümumiyyətlə, belə işlərə qarışmayın. Bir xalqı təhqir etmək belə olur. Mən çox təəssüflə deməliyəm ki, bu gün də ölkənin bəzi yerlərində belə təfəkkür tərzinə malik insanlar tapılır. Yəni hələ də bəziləri Qərbə və ABŞ-a bağlı olan keçmişdəkilərin fikir və üsul tör-töküntülərinin təsiri altındadırlar.

Bu bir nəzər və təfəkkür tərzidir. Başqa bir nəzər və təfəkkür də deyir ki, biz bacarıqlı bir xalqıq, bu bacarıqlardan istifadə etməyi prinsip seçməliyik. Düzdür, harada işimiz alınmasa və başqasının daha yaxşı alətə malik olduğunu görsək, gedib ondan borc alar, işimizi yoluna qoyarıq. Sonra da özümüz həmin aləti düzəltməyə çalışarıq. Bu, ağıllı bir işdir. Sizin avtomobiliniz, qazınız, yaxud soyuducunuz hər dəfə xarab olduqda qonşunun yanına gedib deyə bilməzsiniz ki, zəhmət olmasa, bunu bizim üçün təmir edin. Bu iş asılılıqdır. Düzdür, bəzən lazımdır, yəni qarşı tərəfin ixtisası var və siz ondan öyrənməlisiniz; bunun eybi yoxdur. Qonşunun işlədə biləcəyi bir

aləti var, siz onu əmanət götürün və sonra da çalışın ki, özünüzü ondan ehtiyacsız edəsiniz. Bir xalq miqyasında bu ehtiyacsızlıq elmi, əməli, texniki, mədəni və bir sözlə, hərtərəfli müstəqillik deməkdir. İslam inqilabı əvvəldən belə bir müstəqillik istəyir.

Deməli, belə nəticə alırıq ki, bu təfəkkür tərzi ilə elmi, texniki və digər müstəqillikləri əldə etmək olar. Bizim imamımız xalqa demək istəyirdi ki, ey xalq, ey gənc, ey fəhlə, ey mühəndis və müdir, sən əcnəbiyə arxalanmadan özün bacararsan. İmam bizdə bacarmaq ruhiyyəsini dirçəltmək istəyirdi. Asılılıqla sonuclanan birinci təfəkkür tərzinə malik şəxslər keçmiş onillər boyunca həmişə iranlını ələ salıb lətifə düzəldirdilər ki, məgər daxili məhsul məhsuldur?! Bir xalqa bundan böyük zülm ola bilməz.[73]

**İran xalqının müqaviməti**

Bu xalq nəyi vardısa, hamısını qoyub ixlasla gəldi. Kəndli kişi və qadın, şəhərli yoxsul kişi və qadın, müxtəlif ailələr, çoxlu gənclər, müxtəlif

---

[73] Böyük Rəhbərin fəhlə və müəllimlərlə görüşdə çıxışından: 1994.

təbəqələr, ölkənin silahlı qüvvələri – ordu, Keşişçilər korpusu, hətta polis qüvvələri və xalqın Bəsic könüllüləri səhnəyə çıxdılar. İran xalqı həmin səkkiz ildə doğrudan da böyük iş gördü. Mən son bir neçə əsrlik tarixdə İran xalqının belə könüllü və rəğbətlə böyük hərbi bir hadisəyə qoşulub öz ürəyi, canı, imanı, duyğuları və qolları ilə zəhmət çəkdiyi bir dövr tanımıram. Müxtəlif dövrlərdə, hətta böyük müharibələr aparılmış və böyük işlər görülmüş Səfəvilər dövründə də bu gün müşahidə etdiklərimiz ümumiyyətlə, mövcud olmamışdır. Bunun aydın dəlilləri də var. Bunların təhlili var və səbəbi bəllidir. Hər halda, bizim tariximizdə bu hadisə həqiqətən, bənzərsiz, ya da bənzəri az olan bir hadisə idi.[74]

Bu xalqın tarixinə müraciət etsəniz, görərsiniz ki, hakimiyyət dəyişikliyində heç zaman rolu, mövqeyi, təsirli və fəal iştirakı olmamışdır. Təkcə İslam inqilabında, bizim misilsiz rəhbərimizin inqilab çağırışında xalq hərəkət etdi. Həm də cəmiyyətin xüsusi insanları, bir zümrəsi, bəzi qrupları səhnəyə çıxmadı, bütün xalq okeanı

---

[74] Böyük Rəhbərin müqəddəs müdafiənin idarəçiləri və sənət adamları ilə görüşdə çıxışından: 2000.

təlatumə gəldi. Müqəddəs müdafiə zamanı da məsuliyyət hiss edən təkcə rəsmi silahlı qüvvələr deyildi, bütün xalq idi. Harada hazırlıqlı ürək, dəyərli məqsəd, həvəs və iman vardırsa, səhnəyə çıxdı.[75]

İran xalqının ən müsbət cəhətlərindən biri bu inqilabın olmasıdır. Başqa bir böyük müsbət cəhəti budur ki, onda xalq hakimiyyəti var. Hakim qurum xalq qurumudur, prezident, parlament üzvləri xalqdandırlar, xalqın içindən çıxmışlar, sultan və padşah deyillər ki, hökm verməyi öz haqları və xalqı öz nökərləri hesab etsinlər. Zalım şah rejiminin məmurları belə idilər. Savadsız, şəxsiyyətsiz və dəyərsiz bir maymaq atasının özü kimi quldur bir şəxs olduğuna görə xalqın ixtiyar sahibi olmuşdu. Xalq da onun qarşısında torpağa düşürdüsə, haqqı idi, gərək düşəydi. O da istədiyini zorla xalqa yeritməkdə özünü haqlı bilirdi. Bu hal bir xalq üçün böyük rəzalətdir!

Bu gün Allahın lütfü ilə bu ölkədə elə şəxslər hakimiyyət başındadırlar ki, özlərinə və yaxınlarına dair heç bir iddiaları yoxdur və heç bir şey

---

[75] Böyük Rəhbərin Fars vilayətinin Bəsic üzvləri ilə görüşdə çıxışından: 2008.

istəmirlər. Böyük İmam özünü xalqın xidmətçisi bilir və bununla fəxr edirdi. Xalqın xidmətçisi olmaq məmurların da fəxridir. Onlar açıq-aşkar deyirlər ki, biz xalqa xidmət üçün buradayıq. Bir neçə gün vardırlar, ondan sonra olmayacaqlar. Bu çox böyük bir dəyərdir.[76]

İnqilabın birinci məqsədi ölkə daxilində asılı olmayan, müstəqil bir quruluş yaratmaq idi. Asılılıq bir ölkə və xalq üçün böyük bəladır, digər bəlalar da ondan törəyir. Xarici bir qüvvədən asılı olan bir xalqın istedadları, insani və maddi sərvətləri həmin xarici qüvvənin istəyi istiqamətində sərf olunur, xalqın xeyrinə yox. Xalqı sevən, ona ürək yandıran insan və şəxsiyyətlər ya təcrid olunurlar, ya da asılı rejim tərəfindən məhv edilirlər. Nefti, qazı və digər yeraltı sərvətləri çıxarılıb əcnəbinin xeyrinə sərf olunur. Dostluğu, düşmənliyi və beynəlxalq mövqeyi həmin qüvvənin istəyinə tabe olur, məzhəbi, əxlaqı, mədəniyyəti, adət-ənənələri onun istədiyi, seçdiyi və müəyyən etdiyi formada olur, öz imanı, iradəsi, istəyi və fikri diqqətdən kənarda qalır. Odur ki,

---

[76] Böyük Rəhbərin ordu mənsubları ilə görüşdə çıxışından: 1994.

asılı bir quruluşda xalq və mütəfəkkir beyinlər heç bir təsirə malik olmurlar. Asılı ölkə öz hökuməti tərəfindən yox, əslində, asılı olduğu dövlət tərəfindən idarə olunur.

Bir xalq üçün bundan böyük bədbəxtlik yoxdur. Bütün milli bəlaların anası asılılıqdır. Əziz bacı və qardaşlar! Ölkəmiz İslam inqilabından qabaq asılı idi. Bu asılılıq, xüsusən mənfur və azğın Pəhləvi rejiminin hakimiyyətdə olduğu əlli ildən artıq bir sürədə son həddinə çatmışdı.[77]

**İnqilabın möhtəşəmliyi**

Asılı və azğın rejim dövrünün Tehranı hara, İslam dövrünün Tehranı hara?! Qərbin sapqın dəyərlərinin cücərdiyi tarla hara, İslam dəyərlərinin çiçək və meyvələrinin ərsəyə gəldiyi gülüstan hara?! Allah övliyalarından başqa insanlar arasında o kişi qədər əzəmətli və qüdrətli olan, vücudunda ilahi atributlar tərənnüm olunan bir kimsə tanımırıq. Belə əzəmətli bir kişi sürgündən qayıdıb ölkəyə daxil olur və ilahi qüdrətlə o saat mənəvi dəyərlərdən uzaqlaşmış bir dünyada İslam

---

[77] Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ildönümü mərasimində çıxışından: 1995.

hakimiyyətinin təməlini qoyur. Bu hadisələr bizim gözümüz önündə baş verdi. Biz imamı və inqilabı yaxından gördük. Amma demək istəyirəm ki, özüm də daxil olmaqla bizim əksərimiz imamın və inqilabın əzəmətini hiss etmədik. Çox möhtəşəmdir. Mən bir dəfə imama dedim ki, tarixdə 200-300 il bundan öncə sizin kimi bir şəxs olsaydı, ondan bir əlamət, əlyazma, imza, yaxud paltarının bir parçası qalsaydı, onu muzeyə qoyub təbərrük edərdik. İndi siz bütün vücudunuzla bizim qarşımızdasınız. Biz sizin əzəmətinizi necə dərk edə, duya bilərik?! Bu bir həqiqətdir. Bu həqiqət bizim ürəklərimizdə, həyatımızda, bütün dünyada, xüsusən də İslam dünyasında daha güclü və hissolunan tərzdə yayılmalıdır.

Pəhləvi dövründə bəzi təbəqələr arasında belə təbliğat aparılırdı ki, ruhanilərin heç bir savadı yoxdur, onlar ümumiyyətlə, elm adamı deyillər, heç bir şey bilmirlər. Bəlkə də bizim elm adamlarımız inanmazlar. Çünki onlar bütün ömürlərini elmdə keçirmişlər. Deyəcəklər məgər kiminsə belə bir səhv etməsi mümkündür?! Bəli, mümkündür, bu işi gördülər. Bu gün hələ də Rza xan dövründə yetişmiş nəslin bəzi qalıqları,

daşürəkli insanlar, İslam Respubilkasının uğurlarından təsirlənməyənlər var. Onların İslam Respublikası quruluşuna münasibəti pisdir ona görə ki, bu quruluşun başında bir ruhani dayanır. Görürlər ki, ədalətli quruluşdur, fəsaddan uzaqdır. Bu gün dünyada hansı ölkənin – biz yarışa girməyə hazırıq – yüksək səviyyəli məmurları dünya bəzəklərinə və maddi ləzzətlərə İslam Respubilkasının məmurları qədər etinasızdırlar?! Əlbəttə, bu yalnız Allahın iradəsi ilə mümkün olmuşdur. Bu işdə bizim rolumuz olmayıb, nə varsa, Allah-Taaladan, Rəbbin müqəddəs zatının iradəsindəndir.[78]

Bir zaman əsl möminlər Allah yolunu müdafiə etmələrini arzu edirdilər, lakin bacarmırdılar, şərait yox idi, səma tağutların qara buludları ilə dolmuşdu. İslam amalları uğrunda hər hansı bir elmi və ya fiziki fəaliyyət mümkün deyildi. Qəm-kədər içində yaşayır, qəm-kədərlə də dünyadan köçürdülər. Bu gün isə yollar açılmış, səma aydınlaşmışdır, gələcək işıqlıdır, məzlum olan ilahi və dini dəyərləri müdafiə imkanı

---

[78] Böyük Rəhbərin ruhani və digər şəxslərlə görüşdə çıxışından: 1994.

mövcuddur. Bu, Allahın böyük nemətidir. Bunu dəyərləndirməli və bugünkü ömrün bir anını keçmişin bəzi qafil insanlarının yanlış yolda keçən ömürlərinin bütün illərinə bərabər bilməliyik.

İllərlə İslam vardı, lakin səhnədə deyildi. Uzun bir dövrdə İslam dini adı müsəlman, özü İslamdan xəbərsiz rejimlərdə təcrid vəziyyətində idi. Zahirən müsəlman olan İran, Osmanlı və Hindistan rejimlərində həqiqi İslam yox idi, əsl İslam təcrid olunmuşdu. İki-üç əsr öncədən isə Qərbin, Avropanın inkişaf dövrü başlandı, maddi dəyərlər müxtəlif formalarda dünyaya hakim oldu, İslam və müsəlmanlıq tamamilə qürbətdə və təcriddə qaldı. Hətta İslamın adını da unutdurmağa çalışırdılar. Çalışırdılar ki, müsəlman ölkələrini laik və qeyri-islami təfəkkürlərlə hətta İslamın formasından da uzaqlaşdırsınlar. Söhbətin əvvəlində "Bismillah" demək, namaz qılmaq eyib sayılırdı, əsl müsəlman kimi yaşamaq qeyri-mümkün idi, İslam əlamətləri daha çox şərti xarakter daşıyırdı, İslam mənəviyyatından, mübarizəsindən və İslamın maddi rəqiblər qarşısında üstünlüyündən xəbər-ətər yox idi. Belə

bir şəraitdə "bütün dinlərə qalib etmək" vədi necə həyata keçə bilərdi?![79]

### İran inqilabı və İraq

Mən İran inqilabını İraq çevrilişi ilə müqayisə edirəm ki, siz İslam İnqliabının müstəmləkəçiliyə necə zərbə vurduğunu görəsiniz. 1958-ci ildə İraqda çevriliş baş verdi, Feysəli devirib yerinə Nuri Səidi gətirdilər. O zaman Böyük Britaniyanın Baş naziri İden xatirələrində yazırdı: "Mən həftəsonu bir adada istirahət edərkən İraqda çevriliş xəbərini aldım. Bu zaman beynimə çox böyük zərbə toxundu və birdən hiss etdim ki, dünya tərpənir" (Onun sözləri indi dəqiq yadımda deyil). İraq çevrilişi İngiltərə və müstəmləkəçilik üçün hədsiz dərəcədə əhəmiyyətli idi. Bu nigaranlıq çevrilişdən sonra nəşr olunan bütün yazılarda və xatirələrdə əks olunmuşdu və zərbənin böyüklüyü özünü göstərirdi. Sonradan bəzi müstəmləkəçi rejimlərin onda əlinin olduğu, bəzilərinin də sonradan ondan istifadə edib əllərində saxladıqları bəlli oldu. Siz indi də o

---

[79] Böyük Rəhbərin Keşikçilər Korpusunun Quru qoşunlarına baş çəkərkən etdiyi çıxışından: 1991.

çevrilişin təsirlərini görürsünüz. Təxminən 30 il ötdükdən sonra İraqın bügünkü töhfələri həmin çevrilişin, öz sözləri ilə desək, inqilabın təsirləridir.

Diqqət edin! Bir ölkədə adi bir çevriliş baş verdi. Yalnız İraqın İngiltərə müstəmləkəsi olduğuna və İngiltərənin İraqa hakim olub ondan istifadə etdiyinə görə onlar üçün bu qədər ağır idi. İndi siz o çevrilişi İslam inqilabı ilə müqayisə edin; ümumiyyətlə müqayisəolunmazdır. İslam inqilabı qəfildən Qərbin və kapitalizm dünyasının müstəmləkə quruluşunun bütün varlığını və dəyər sistemini şübhə altına saldı; yəni gələcəklərini bütünlüklə təhdid və naməlum etdi. Çünki bu inqilab İslama əsaslanırdı. Nəticə etibarilə harada müsəlman varsa, orada bu inqilabın potensialı mövcuddur. Sonra bunun nümunələrini bir-birinin ardınca Əfqanıstandan tutmuş İndoneziyaya, Malayziyaya, Misirə, Tunisə qədər hər yerdə və hətta dırnaqarası inqilabi sistemi olan ölkələrdə, misal üçün, Əlcəzairdə və Liviyada da gördülər. Müşahidə etdilər ki, həmin İslam oralarda baş

qaldırmışdır, mübariz tələb edir və perspektiv müəyyənləşdirir.[80]

İslam iniqilabı İranda elə bir iş gördü ki, dünyanın heç bir yerində onun bənzəri görülməmişdir. Mən bu sözü bəlkə də inqilablar dövrünün, yəni iyirminci əsrin bütün inqilablarının tarixini oxumuş bir adam kimi deyirəm. Xatırlamıram ki, bu ölkələrin inqilablarından birinin tarixini oxumamış və bilməmiş olum; Rusiya və Sovet inqilabından tutmuş Hindistanda, Misirdə və Latın Amerikası ölkələrində, Afrika və Asiyanın digər ölkələrində baş verənlərə qədər.

Bu ölkələrin heç birində İranda baş verən hadisə baş vermədi. Bunların hamısının adı inqilabdır. Yəni misal üçün, belə deyilir: İran inqilabı, Sovet inqilabı. Doğrudan da söz müştərəkdir, amma eyni yox, iki fərqli hadisə baş vermişdir. İranda baş verən inqilab 1917-ci ildə Rusiyada baş verib marksist və kommunist quruluşu ilə nəticələnəndən tamamilə fərqlənir. Düzdür, bunların müştərək və oxşar cəhətləri də var, amma mahiyyətlər eyni deyil.

---

[80] Böyük Rəhbərin Qum Elm Hövzəsinin tələbə və alimlərinin nümayəndələri ilə görüşdə çıxışından: 1989.

İslam inqilabını təhlil etmək istədikdə beyinlərinin digər inqilablara dair təsəvvürlərindən istifadə edənlər böyük səhvə yol verirlər. Bu inqilab ümumiyyətlə həmin vasitələrlə təhlil olunası deyil. Rusiya inqilabında çörək məsələsi vardı. Sonra həmin qrup gəlib xalqı təhrik etdi. Bəllidir ki, zirək, mübarizədə təcrübəli və ideologiyaya malik mütəşəkkil bir siyasi qrup xalqı iğtişaşa çəkmək, onlara şüar öyrətmək və siyasiləşdirmək istəsə, bunu asanlıqla bacarar. Xalq buna hazır idi, bunlar da çörəkləri isti təndirə yapdılar, sonra da özləri qoparıb istifadə etdilər. Bu, inqilab adlandı. Dünyada baş verən inqilabların əksəriyyəti ya buna bənzəyir - hətta xalqın daha az iştirakı ilə - və yaxud bir çevrilişdir.[81]

Barəsində az danışılan məqamlardan biri budur ki, bizim əzəmətli inqilabımız qələbənin keyfiyyəti baxımından müstəsna bir inqilab idi. Yəni doğrudan da xalqın belə əzəmətli izdihamı ilə qələbə çalan bir inqilab o zamana qədər, ən azı bizim dövrün inqilablarında görünməmişdi. Bu inqilabda xalq küçələrdə, şəhər və kəndlərdə ayağa

---

[81] Böyük Rəhbərin ölkə üzrə cümə imamları ilə görüşdə çıxışından: 1990.

qalxdı, bütün xalqın iştirakı ilə rejim əleyhinə mübarizə aparıldı. O zamana qədər dünyanın müxtəlif yerlərində baş verən bütün inqilablar – o cümlədən, Latın Amerikasının, Afrikanın, Asiyanın və digər yerlərin solçu və marksist inqilabları başqa növdən və başqa formada idi.[82]

İranın böyük İslam inqilabı doğrudan da müstəsna bir inqilab idi. Biz digər inqilabları həm tarixdə oxumuşuq, həm də öz dövrümüzdə müşahidə etmişik. Kaş siz əziz xalqımız tarixi kitab və yazılarla daha artıq ünsiyyətdə olaydınız və mənim bir neçə kəlmə ilə demək istədiyimi özünüz kitablardan təfsilatı ilə mütaliə edəydiniz. Heç bir şey onun yerini vermir. Doğrudan da bu inqilab digər inqilablarla fərqlidir. Bu fərq həm onun yaranmasının necəliyində, həm də xalq hərəkatının məqsədində görünür. İkinci cəhətdən onu misal üçün, 70-80 illik kommunist quruluşunun mənşəyi olan Rusiya Oktyabr İnqilabı ilə müqayisə edib, o inqilabın və qiyamın necə və hansı şüarlarla baş verməsini görə bilərik. O inqilab zamanı nə qədər faciələr yarandı? Burada necə idi? Ümumiyyətlə

[82] Böyük Rəhbərin cümə namazı xütbələrindən: 1995.

fərq yerlə-göy qədərdir. Əlbəttə, bu müqayisə xalq hərəkatı olan inqilablarladır. Çünki o inqilab da xalq inqilabı idi. Ondan öncə Böyük Fransa İnqilabı baş vermişdi. Onun adı inqilabdır, əslində isə hərbi çevriliş sayılır və inqilabla fərqi həqiqətən o qədər çoxdur ki, bunları əsla bir-biri ilə müqayisə etmək olmaz. Bizim inqilabımız əzəmət, sağlamlıq, paklıq, yayınmalardan və bütün xalq qiyamlarında görünən faciələrdən uzaq durmaq və çəkinmək, davamlılıq, eləcə də bacarıq, iqtidar və gördüyü işlər baxımından möhtəşəm bir inqilabdır.

Mən prezident olarkən çoxlu əhalisi olan böyük bir inqilabçı ölkəyə səfər etdim. Adını çəkmək istəmirəm. O zaman onların inqilabından 19 il ötürdü. Hava limanından bizə ayrılmış yerə gedərkən avtomobildə həmin ölkənin prezidenti ilə bəzi məsələlər haqda söhbət edirdik. Mən gördüm ki, yollarda təmir işləri görürlər. Dedim ki, deyəsən işləyirsiniz. Dedi ki, bəli, biz indiyə qədər inqilabda dağılmış paytaxt küçələrinin asfaltını təmir etməyə macal tapmamışdıq. Bu il - 19 ildən sonra imkan yarandı və küçələri asfaltlayırıq. Görürsünüzmü?! Bizim gördüyümüz inqilabların hamısının səyi özlərini qorumağa sərf olunurdu; nə düzgün

seçkilər, nə quruculuq və nə yaradıcılıq. Çox yaxşı inqilablar beşillik və ya bir neçə illik proqramlarını elan edirdilər. Lakin o da formal idi və təxminən heç bir şey yox idi. Bu inqilabların çoxu işin azlığına, bacarıqsızlığa və digər nöqsanlara görə bir-birinin ardınca iflasa uğradı; istər kommunistlər, istər digər solçular. Bəli, inqilablarından 19 il ötmüşdü, paytaxtın küçələrini təmir etdirmək üçün hələ indi pul xərcləmək fikrinə düşmüşdülər. Görün sizin inqilabınızla, onun bacarığı, nailiyyəti və möcüzəsi ilə nə qədər fərqlidir. Mən yenə həmin dövrdə əvvəllər Portuqaliyanın müstəmləkəsi olmuş başqa bir ölkəyə getdim. Orada da səhv etməsəm, inqilabdan 8-9 il ötürdü. O ölkənin prezidenti həmin bölgənin məşhur şəxsiyyətlərindən sayılırdı, indi dünyadan köçmüşdür. Küçələrdən keçərkən gördüm ki, mağazalar boşdur. Sonra bizim heyətimizin üzvləri küçələri gəzib gəldilər, dedilər ki, mağazalarda heç nə yoxdur. Bir neçə növ məhsul var, o da azdır və talonla verilir. İnqilabdan 8-9 il ötdükdən sonra xalq hələ də son dərəcə ağır vəziyyətdə yaşayırdı. Düzdür, iqtisadi blokadada idilər, düşmənlər onlara hücum etmiş və digər inqilablar kimi

şəraitlərini çətinləşdirmişdi. Bir gecə də bizim üçün ziyafət verdilər. Xalqı aclıq çəkən və paytaxtının mağazaları boş olan həmin cənab əleyhinə qiyam etdiyi öncəki hakimlər kimi rəftar edirdi. Onun rəftarı əvvəllər orada hakimiyyətdə olmuş portuqaliyalı hərbçini yada salırdı; eyni rəftar, eyni lovğalıq, eyni təkəbbürlülük. Bu bizdə təəccüb doğurdu. Mən o zaman prezident olsam da, bir tələbə idim, yaşayış tərzimiz tələbə yaşayışı idi. Bizdən yuxarıda da böyük imamımız dururdu. Onun yaşayışı təmizlik və sadəliyin tərənnümü idi, çox sadə yaşayırdı. Xalq da çox eşq və sevgi ilə imamı doğrudan da sevirdi, onun yolunda canını qurban verməyə hazır idi. Demək istəyirəm ki, digər inqilablar belə olmuşdur. Bizim inqilabımız həqiqətən, müstəsnadır; həm şüar və məqsədlər, həm üsullar, həm hakimiyyətə gəlmək, düşməni məhv etmək, öncəki azğın rejimi devirmək, həm də quruculuqda göstərdiyi davamlılıq, qüvvə və qüdrət baxımından. İnsafla desək, bu inqilab müxtəlif cəhətlərdən möhtəşəmdir.[83]

---

[83] Böyük Rəhbərin cümə namazı xütbələrindən: 1996.

Dünyanın bütün böyük inqilablarına baxdıqda – 19 və 20-ci əsrlərdə dünyada baş vermiş böyük siyasi dəyişikliklərə və onlardan öncə baş vermiş Fransa inqilabına baxdıqda görürük ki, bu inqilablar qısa müddətdə öz əsas və prinsiplərinə arxa çevirmiş, vəfasızlıq etmişlər. Bu heç bir təhlil olmadan tarixin özündən əldə olunan nəticədir. Bəzən bu prinsipləri dilə gətirirdilər, lakin hamı bilirdi ki, bunlar dəyişilmişdir. Həm Fransada, həm Sovet inqilabında qısa müddət ərzində belə oldu. Bu təməllər sözdə və əməldə dəyişildi. Bu dövrdə dünyanın müxtəlif yerlərində baş verən xırda inqilablarda istisnasız olaraq - yəni mənim məlumatım qədərincə, hətta bir istisnası belə yoxdur - bu əsaslar dəyişilmişdir. Bizim inqilabımızın möcüzəsi budur ki, biz bu gün eyni şüarları veririk, eyni prinsip və əsasları özümüzə iş proqramı seçmişik. İnqilabın əvvəlində də məhz bunlar elan olunmuşdu. Yəni proqram və istəyimizdə bu prinsiplərdən heç bir yayınma baş verməmişdir. Bu çox əhəmiyyətli məsələdir. Üsullar dəyişir, lakin əsas prinsiplər qalır. Bizim

inqilabımıza qarşı aparılan bütün ədavət və düşmənliklər də bu prinsiplərin qaldığına görədir.[84]

**İran inqilabı və Fransa**

Bizim inqilabımız beynəlxalq müşahidəçilərin dəyərləndirdiyindən və təqdir etdiyindən də çox böyük, üstün, uca və bünövrə baxımından güclüdür. Mən indi qısa şəkildə deyəcəyəm. Bu səbəbdən, bu inqilab əleyhinə hücum, zərbə və blokadalar mənim tanıdığım bütün inqilablardan artıq olmasına rəğmən, bu inqilab bütün böyük inqilablardan dəfələrlə az təsirlənmişdir. Mən inqilabımızı sizin az-çox tanıdığınız üç məşhur inqilabla müqayisə etmişəm. Əlbəttə, başqa nümunələr də var, lakin bu üç inqilab daha mühümdür.

Biri uzaq inqilablardan olan, qələbəsindən 200 ildən artıq vaxt ötən Böyük Fransa İnqilabıdır. Biri bizə təxminən yaxın olan Sovet inqilabıdır. Bu, son əsrlərin ən böyük inqilablarından biridir. Biri də bir İslam inqilabı, yəni həqiqətən, inqilab olan Əlcəzair inqilabıdır. İnsan Afrikada və Latın

[84] Böyük Rəhbərin prezident və digər rəsmi şəxslərlə görüşdə çıxışından: 2007.

Amerikasında inqilab adı ilə baş verən çevrilişləri inqilab adlandıra bilmir. Mən inqilab etmiş bu ölkələrin bəzisini – Afrika və qeyri-Afrika ölkələrini, Mozambiki, Zimbabveni, yaxud Hindistanda baş verənləri görmüşəm; təbii ki, onlara inqilab demək mümkündürsə.

Belə hakimiyyət dəyişikliklərinin heç biri bizim inqilabımızla müqayisə olunacaq səviyyədə deyil. Lakin bu üç inqilab müəyyən həddə müqayisəyə uyğundur. Mənim fikrimcə, bu müqayisə çox şirin elmi işdir. Çox yaxşı olar ki, kimlərsə bu işi görsünlər, həm sosioloji, həm də tarixi cəhətdən araşdırsınlar.

Bizim inqilabımızdan 20 il ötmüşdür. Siz Böyük Fransa İnqilabından, Oktyabr inqilabından, yaxud Əlcəzair inqilabından 20 il sonranı nəzərə alın. Böyük Fransa İnqilabından 20 il ötdükdən sonraya, yəni təxminən 1809-cu ilə baxın: 16-cı Lui dövrünün Fransasından fərqi yalnız padşahın kimliyindədir. 1809-cu ildə Napoleon Bonapart adlı bir padşah iş başındadır. Bir imperator tac qoymuş və sözun həqiqi mənasında padşahlıq edir. Napoleonun həyatında və müstəbid hakimiyyətində xalqın rəyi və Böyük Fransa

İnqilabının çalışdığı azadlıq zərrə qədər də yoxdur. Bəli, başqa fərqi budur ki, 16-cı Lui nisbətən bacarıqsız padşah idi, Bonapart isə bacarıqlı və güclü.

Bonapartın Fransaya xidməti budur ki, o, İtaliya, Avstriya və Belçikanı fəth edib. Onun işləri bunlardır. İnqilabdan 20 il sonra Fransa inqilabın, Jan Jak Russonun, Volterin və digərlərinin amalları baxımından əsla dəyişmədi. Siz bu 20 ildə Fransada nə baş verdiyinə baxsanız, bizim böyük və möhtəşəm inqilabımızın bu nümunələr arasında həqiqətən, birinci olduğunu anlayacaqsınız.

Bu 20 il ərzində, Napoleona qədər Fransada inqilab adı altında üç qrup hakimiyyətə gəlmişdir. Birinci inqilabçılar haqda bəlkə də eşitmiş, yaxud oxumusunuz. Onlar Fransa tarixində kobud, kor və unudulmaz işlər gördülər, xarabalıqlar törətdilər. Hər halda, bir inqilab etdikləri üçün müəyyən həddə dözüləsi idi.

Təxminən 5 ildən sonra ikinci qrup hakimiyyətə gəldi və birinci qrupu tamamilə məhv etdi. Təxminən istisnasız olaraq görkəmli inqilabçıların hamısı edam olundu. İkinci qrup radikallar idi. İlk inqilabçıları təslimçilikdə

günahlandırıb edam etdilər. Sonra da üçüncü qrup gəlib ikinciləri radikallıqda ittiham etdi; bəziləri edam, bəziləri illərlə sürgün olundular.

Siz Viktor Hüqonun Səfillər əsərini oxumuş olsanız, romanın əvvəlində həmin ikinci qrupun seçdiyi şəxslərdən olan bir qocadan söhbət gedir. Viktor Hüqonun romanının başladığı tarixə, yəni 19-cu əsrin əvvələrinə, təxminən 1825-ci ilə və bəlkə bir az da sonraya qədər sürgün hələ mövcud olmuşdur. Siz bu romanda sürgün həyatı yaşayan həmin qocanın nə etdiyini, nə dediyini və hələ də necə qorxduğunu müşahidə edirsiniz.

Sonra üçüncü qrup öz işlərini çox zəif şəkildə yerinə yetirib, Napoleonun hakimiyyətinə zəmin yaratdılar. Napoleon öz istedadından, həmçinin Fransanın bərbad durumundan istifadə edərək hakimiyyətə yiyələndi və padşahlığı bərpa etdi; lakin 16-cı Luinin də təmsil olunduğu Burbonlar sülaləsi kimi yox. Əlbəttə, bu vəziyyət Napoleonun yaşadığı dövrə qədər idi. Napoleon öldükdən sonra yenə Burbon padşahları, 18-ci Lui və digərləri hakimiyyətə gəldilər. Fransa inqilabdan təxminən yüz il sonraya qədər gərgin

durumda qaldı. Bunlar doğrudan da qəribə və mühüm hadisələrdir.

İnqilabdan yüz il sonra Fransa təlatümdə olan bir gəmi kimi idi. Çoxlu padşahlar gəlib getdilər. Napoleondan sonra Burbonlar və nəhayət, kommunistlər hakimiyyətə gəldilər və getdilər. Yüz ildən çox ötdükdən sonra Fransa Respubilkası sahmana düşdü. İndi siz onu bizim inqilabımızdan 20 il sonra ilə müqayisə edin. Biz indi 20 ilin başındayıq. Görün orada vəziyyət necə idi və burada necədir.

**İran və Əlcəzair inqilabları**

Əlcəzair inqilabını 20 ildən sonra özüm gördüm. Mən Əlcəzairə gedəndə inqilabdan təxminən 19 il ötürdü. Onların vəziyyəti doğrudan da ibrətamizdir. Əlcəzair inqilabı - İslamın, məscidlərin və din alimlərinin inqilabı idi. İnqilab məscidlərdən, dini mədrəsələrdən və elə bizim inqilabımız kimi elm hövzələrindən başlandı. Lakin orada hətta bir gün də dini hakimiyyət qurulmadı. İlk gündən fransızlar nüfuzları altında və müstəmləkədən xilas olmaq ərəfəsində olan

Əlcəzairdə həm öz mədəniyyət və ənənələrini, həm də dinsizliyi yaymağa başladılar.

Mən prezident olarkən Əlcəzairin böyüklərindən biri məni görməyə gəldi. O mənimlə ərəb dilində danışırdı. Bir dəfə nəsə demək istəyəndə ərəbcəsi yadına düşmədi. Ərəb dili onun öz dili və o, hökumətin sözçüsü olmasına baxmayaraq, bir qədər fikirləşdi və yadına düşmədi. Dönub fransız dilində yoldaşından soruşdu ki, bu söz necə deyilir. O, ərəbcəsini ona dedi. Sonra mənimlə söhbətini davam etdirdi.

Yəni onlar Əlcəzairdə dini yox, hətta çox əhəmiyyət verdikləri ərəb dilini qoruyub saxlaya və yaşada bilmədilər. Orada İslamdan əsla xəbər yox idi, məişət vəziyyəti, maddi və iqtisadi imkanlar baxımından da olduqca pis idi. Əkinçilik və iqtisadiyyat baxımından vəziyyətləri həqiqətən, çox pis idi. Əlbəttə, inqilabçı hökumət görkəmləri vardı və dünyada yaxşı siyasi mövqe nümayiş etdirirdilər.

Əlcəzairlilər yalnız inqilabın qələbə çaldığı zaman hakimiyyətə gələn Bumedyenin prezidentlik dövründə ABŞ və hegemonizm qarşısında müstəqil

şəkildə inqilabçı mövqe seçdi və Fələstini müdafiə etdi. Bir neçə il ötdükdən sonra isə bu da dəyişdi.

Yadımdadır, mənim özüm də bəzən gündəlik qeydlər yazırdım. Bu barədə çox ibrətamiz qeydlərim var. Mən görürəm ki, o zaman əlcəzairlilərin Fələstin məsələsində geri çəkilmək, Fələstini müdafiə etməmək, xüsusən ABŞ-a yaxınlaşmaq barədə sözləri indi əcnəbi radioların daim bizim dövlət məmurlarımızın beyninə salmaq istədikləri sözlərə bənzəyir. İndi də BBC, Amerika və sionizm radiosunu dinlədikdə görürük ki, o zaman əlcəzairlilərin dilinə düşən dəlil və sözləri bizə dedizdirməyə çalışırlar. Xoşbəxtlikdən, bacarmayıblar və bacarmayacaqlar.

Onlar əcnəbi radioların sözlərini qəbul etmişdilər və 20 il ötdükdən sonra Əlcəzair daha inqilabçı, islamçı və dinçi deyildi. Orada əxlaqi və mənəvi dəyərlər əsla mövcud deyildi, maddi inkişaf yox idi. Sovetlər xalqın yaşayışını düzəldə bilməsə də, ən azı kosmik yarışda dəyərli iş göstərə bildilər. Fransızlar inqilablarının prinsiplərini, azadlığı və müstəqilliyi həyata keçirə bilməsələr də, ən azı dünyəvi fəthlər etməyi bacardılar. Bu da müsbət iş olmasa da, məsələn, tarixi ad baxımından

deyirdilər ki, Napoleon hərbi zəfərlərdə görkəmli bir şəxsdir. Sonda o da məhv oldu; Rusiya ilə müharibədə məğlub oldu və bütünlüklə məhv edildi.

Buna əsasən, biz müqayisə etdikdə görürük ki, inqilabımız 20 ildən sonra Böyük Fransa İnqilabı kimi böyük, Sovet inqilabı kimi səs-sədalı bir inqilabın və Əlcəzair inqilabı kimi, necə deyərlər, bir İslam inqilabının müxtəlif fəlakətlərinə əsla düçar olmamışdır və bu, inqilabın gücünü göstərir.[85]

**İslamın dirilməsi**

İslam inqilabı İslamı yenidən dirçəltmək, "Allah yanında ən əziz olanınız ən təqvalı olanınızdır" sözünü yaşatmaq deməkdir. İnqilab bu sistemi, dünyanın bu yanlış düzənini yeni bir düzənlə əvəzləmək üçün baş verdi. Əgər dünyanın bu maddi düzəni qalsa, bəllidir ki, Məhəmmədrza kimi azğın, üzüqara və şəhvətpərəstlər iş başında olmalıdırlar, imam kimi dəyərli və nurlu bir insan həbsdə, yaxud sürgündə. Elə bir vəziyyətdə

---

[85] Böyük Rəhbərin "İnqilabın təhdidlərinin öyrənilməsi" toplantısının iştirakçıları ilə görüşdə çıxışından: 1999.

imamın yeri cəmiyyət deyil. Güc, fəsad və yalan hakim olduqda dəyər sahibi, sədaqətli, işıqlı olan və Allaha diqqət yetirən şəxsin yeri zindanlar, qətlgahlardır. İmam kimi birisi hakimiyyətə gələndə isə vərəq çevrildi, şəhvətpərəstlik, dünyagirlik, asılılıq və fəsad təcrid olundu, təqva, zahidlik, paklıq, nuranilik, cihad, insanlara qayğıkeşlik, rəhm, mürüvvət, qardaşlıq və fədakarlıq gəldi. İmam iş başına gələndə bu xislət və fəzilətlər gəlir, bu dəyərlər ortaya qoyulur.[86]

İyirminci əsr yeni ideya, təfəkkür və arzular əsasında xalq hərəkatları və inqilablar əsridir. Bu əsr ilk onilliklərdən Sovet Sosialist İnqilabı ilə başlandı və beləcə davam etdi – bəziləri solçu, bəziləri çox da marksist təfəkkürlər çərçivəsində olmayan inqilablar, nəhayət, bizim inqilabımız və bizdən sonra digər inqilablar baş verdi.

Dünyanın müxtəlif yerlərində onlarla inqilab baş verdi, hər biri də bir quruluşu devirdi, dövlət və hökumət qurdu. Onların hər biri ilə bu işi gördülər. Yəni bacardılarsa, əvvəldən onların yanına gedib işlərini bitirməyə çalışdılar. Bəziləri

---

[86] Böyük Rəhbərin Aşura batalyonunun komandirləri ilə görüşdə çıxışından: 1992.

əvvəldə özlərini qoruya bilmədilər və məğlub oldular. Problemi olan bəzilərinə qarşı əngəllərdən əl çəkmədilər, daim mane oldular, əziyyət verdilər, təbliğat apardılar, blokadaya saldılar və yordular. Özləri də bir kənarda pusqu qurdular ki, bunların yorulduğunu duyan kimi qəfildən son zərbəni endirsinlər. Təxminən endirdilər də və ümumi olaraq uğur qazandılar. Bir zaman təcrid olunan və məğlub edilən inqilab əleyhdarları sonra gəlib işləri ələ ala və hakimiyyətə yiyələnə bildilər.

İslam inqilabında da fərdlər yox, düşmən cəbhəsi inqilabın əvvəlindən həmin planı rəhbər tutmuşdu. Lakin bu 18 il ərzində bizim inqilabımızla əlaqədar düşməni sevindirib, ümidvar edəcək bir hadisə baş vermədi. Mən prezident olanda bir dəfə bir inqilabçı toplumun başçısı olan və dünyada məşhur siyasətçilərdən sayılan şəxslərin biri ilə öz ölkəsində görüşdüm. O özünün inqilabçı iddiaları, ideya və sözlərinin ziddinə bir iş görmüşdü. Ondan soruşdum ki, siz necə və hansı məntiqlə bu işi gördünüz? Gülüb dedi ki, bu taktikadır. Dedim insan o zaman taktikanı qəbul edə bilər ki, gediş xəttini bütünlüklə dəyişdirməsin, siz xəttinizi dəyişmisiniz. Doğrudan

da elə idi. Xətt və istiqamətləri bütünlüklə dəyişmişdi. Lakin o cənab bunu taktika sayırdı. Deyirdi ki, mən manevr edirəm, taktiki addım atıram. Bu necə taktikadır ki, insan düşməni özünə hakim etsin. Öz sözlərini geri götürmənin və istiqamətini tamamilə dəyişdirmənin adı taktikadır?! O inqilabların tarixində belə hallar görünürdü, düşməni tamaha salırdı, düşmən də ümidvar olurdu, pusqu qururdu, uğur qazanırdı; necə ki, təxminən hər yerdə uğur qazandı.

Məlumatlı və ayıq insan olan imam Allah hökmlərinə əməl etməkdə heç nəyi nəzərə almadı, Allahın hökmünü, şəriətini, halal və haramını meyar seçdi. Bu bizim inqilabımızın ilk on ilində düşmənə sarı ən az təmayül göstərilməsinə də mane oldu. İmamın vəfatından sonra da Allahın lütfü ilə belə olmasına çalışılmışdır. Nə zamansa bəzi şəxslərə aid məsələlərdə düşmənin, məsələn, bir qədər doğmalaşdığını xəyal etməsi mümkündür. Lakin çox keçmədən səhv etdiyini anlamışdır. Allahın lütfü ilə bu inqilab indiyədək düşmənə onu ümidvar edəcək bir üz

göstərməmişdir. Lakin düşmən hələ də pusqudadır. Bunu hamı bilməlidir.[87]

Bu, son əsrlərdə dünya inqilabları tarixində öz düzgün xətt və istiqamətini belə uzun müddət qorumuş ilk böyük inqilabdır. Belə bir şey olmamışdı. 18-ci əsrin sonunda Fransa inqilabından hələ 15 il ötməmiş istibdad əleyhinə baş verən bu inqilab Fransa ölkəsinin özündə çox ağır bir avtoritorizmə çevrildi. Fransa xalqı Böyük Fransa İnqilabı adı ilə məşhur olan inqilabda istibdad əleyhinə ayağa qalxmışdı. Onların problemi şah üsul-idarəsi idi. Lakin hələ 15 il ötməmiş devrilmiş Burbonlar sülaləsindən daha qəddar, daha qüdrətli və güclü bir padşah hakimiyyətə gəldi, diktatura və imperatorluq yarandı. Ondan sonra yarım əsr, yaxud daha artıq müddətdə Fransa daimi təlatüm halında idi; bu onun əlindən alırdı, o bunun üzünə pəncə atırdı, bir-birinə zidd olan sülalə və padşahlar hakimiyyətə gəlib xalqı daimi qorxuya və pərişanlığa salırdılar. Bu, dünyada Böyük Fransa İnqilabı adı ilə məşhur olan inqilabdır.

---

[87] Böyük Rəhbərin Keşikçilər Korpusu ilə görüşündəki çıxşından: 1997.

Sovet inqilabı öz amallarından 15 ildən də tez yayındı. Xalqın köməyi ilə hakimiyyətə gəlmiş inqilab uzun illər davam edən və sonra xələflərinə irs çatan Stalin diktaturası ilə nəticələndi. O böyük ölkədə xalqın nəinki ictimai, siyasi, dövlət və ölkə məsələlərində, heç öz şəxsi həyatının mühüm hissəsində də azca ixtiyarı yox idi. Dünya inqilablarının taleyi belə olmuşdur. Dünyada baş vermiş xırda inqilabların da hər biri buna bənzər tale yaşamışdır. Əgər kimsə tarix adamı olsa və araşdırsa, çoxlu qəribəliklər görər.

Xalqla başlayan, xalqla davam edən, öz sözünü dəyişdirməyən, yolunu əvəz etməyən və məqsədlərini azaldıb-artırmayan ilk inqilab İran İslam İnqilabıdır. Bu inqilab Allahın adı ilə, xalq üçün, ədalət, istiqlaliyyət və azadlıq naminə başlandı və hələ də eyni ideallarla davam edir. Şüarlar hələ də bunlardır və Allahın yardımı ilə bunlar da qalacaq.[88]

### Dinamik İslam quruluşu

---

[88] Böyük Rəhbərin Hərbi Hava Qüvvələrinin əməkdaşları ilə görüşdə çıxışından: 2005.

Əgər kimsə ölkə daxilinə nəzər salsa, görəcək ki, qədim şahlıq təməlləri yavaş-yavaş dağıldı, birdən-birə yox. Şah tacı birdən-birə sındı, şah sarayı məhv oldu, şah üsul-idarəsi dağıldı. Amma batil təməllərin çoxusu bu günədək tədricən dağılmışdır.

Bu gün ölkənin hər bir tərəfi ictimai məsələlərdə inqilab qarşısında vahid hüquqa malikdir, məhrum bölgələrin, kəndin, şəhərin, ucqar, yaxud yaxın yerlərin Tehranla fərqi yoxdur. Bu, yaddan çıxmış bir şey idi. Keçmiş rejimdə məhrum bölgələrin ümumiyyətlə, istəmək haqqı yox idi. Siz görün baş verən davamlı işlərə görə dərk və düşüncələr nə qədər fərqlənmişdir.

Mən şahlığın uzun əsrlər boyu bu ölkədə yaranmış və son 15 il ərzində dağılmış, yaxud çox zəifləmiş etiqad, düşüncə və əməl əsaslarını saymaq istəsəm, on altıdan artıq əsasın adını çəkə bilərəm. Lakin bu gün bu barədə danışmaq istəmirəm.

Bu gün başqa bir məsələyə toxunmaq istəyirəm. Hansı sahəyə baxsaq, müjdələr çoxdur. Yetər ki, insanlar bədbinlik eynəyini gözlərindən çıxarsınlar, bir qədər də ölkənin keçmiş vəziyyətinə

və bizim keçmişimizə bənzər ölkələrin indiki durumuna diqqət yetirsinlər və sonra İran İslam Respubilkasına baxsınlar. O zaman inqilabın necə böyük möcüzə göstərdiyini anlayacaqlar. Biz günəşin altında yol yeriyib kölgəsi görünməyən insanlara bənzəyirik. Biri o birindən soruşdu ki, günəş haradadır? Dedi: "Arxana bax". Baxıb öz kölgəsini gördü və günəşin nə olduğunu anladı. İslam Respubilkası quruluşu daxilində insan həqiqət və reallıqlarla təmasda olduğundan müqayisəli mühakimə imkanı zəif olur. Bunun üçün geniş baxış lazımdır.[89]

Şəfəq ongünlüyü bu yanlış üsula, nöqsanlı sistemə və qaydaya son qoydu. Daha hökumətin qalib, fateh, ağa, hakim və ixtiyar sahibi olmaq dövrü bitdi. Əgər ağa varsa, xalqın özüdür. İmam iş başına gəldikdə xalq onu qəbul edirdi. O, xalqın gücünü təmsil edirdi, özündən bir şeyi yox idi, atasından irs aparmamışdı, xəncəri ilə xalqın əleyhinə vuruşub bir şey əldə etməmişdi. Xalqın xəncəri onun əlində idi və onu xalqın düşməninin, işğalçının, müstəmləkəçinin, təxribatçının və

---

[89] Böyük Rəhbərin Keşikçilər Korpusunun komandirləri ilə görüşdə çıxışından: 1995.

çevriliş edənin başına vurdu. Xalq nə zaman xəncəri onun əlindən almaq istəsəydi, ala bilərdi, o da hörmətlə təqdim edərdi, heç kəsdən bir şey tələb etməzdi. Baxın, bu, İslam Respubilkası hökumətinin qaydasıdır.

Keçmiş padşahlar tarixin ən murdar insanlarındandırlar. Hamısı belədir, bir-biri ilə heç fərqləri yoxdur. Mən tarixi yaxşı oxumuşam, padşahlar arasında doğrudan da istisna tanımıram. Bu Əmir İsmayil Samaninin, şiə olan Ali-Buyənin, Səlcuqların, Qəznəvilərin və digərlərinin hansı işlərinə baxsanız, görərsiniz ki, ən çirkin bəşər xüsusiyyətlərinin təzahürüdürlər və ilahi nemətlərdən sui-istifadə etmişlər. Bu silsilə şəfəq ongünlüyündə sona çatdı. Şəfəq ongünlüyü İslam dəyərlərinin başlanğıc nöqtəsi oldu. İndi siz görün bu dönüş nöqtəsi üçün nə qədər anım tədbiri keçirmək və nə qədər iş görmək lazımdır. Əsas məsələ budur.[90]

Bizim inqilabımıza müstəsnalıq bəxş edən möhtəşəm bir amil var. İctimai elmlərdə deyirlər ki, inqilabın bir yoxuşu və zirvəsi olduğu kimi bir

---

[90] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə Şurasının üzvləri ilə görüşdə çıxışından: 1991.

enişi də vardır. Bu sizin atdığınız bir daş kimidir. Daş sizin qolunuzun qüvvəsi qədərincə yerin cazibə qüvvəsinin əksinə hərəkət edir. Lakin cazibə qüvvəsindən az olduqda daş yerə qayıdır. O qanunlar deyir ki, bir inqilab, xalqda inqilab coşqusu və ruhiyyəsi oluncaya qədər irəliyə doğru hərəkət edir, zirvəyə çatır, sonra da bu ruhiyyə, həyəcan və hərəkət amili tədricən azalır və bəzi yerlərdə öz ziddinə çevrilir. Nəticədə isə inqilablar süqut edir. Son iki yüz illik tarixdə dünyanın bizim tanıdığımız böyük inqilablarının hamısı bu nəzəriyyəyə uyğun olmuşdur. Lakin İslam inqilabı bu sosioloji təhlildən tamamilə istisnadır. İslam inqilabında inqilabın eniş padzəhəri inqilabın özündə qoyulmuşdur. Dəfələrlə demişik ki, inqilab İslam Respubilkasında və İslam Respubilkasının konstitusiyasında təcəssüm olunur. Konstitusiyanın imamın fikrindən və məktəbindən dərs almış müəllifləri bu qanunun özündə inqilabın davam etməsinin amilini qoymuşalar: İslam qanunlarına boyun əymək, qanuna dini legitimlik bəxş etmək - bu şərtlə ki, İslamla uyğun olsun - və rəhbərlik məsələsi.

Mən bir neçə il öncə İslam Respubilkası quruluşu ilə keçmiş Sovet rejimi arasında müqayisə apararaq - Sovet rejimini dağıtmağı bacarmış amerikalılar və qərblilər həmin mexanizmi İslam inqilabına qarşı da icra etməyə tamahlanmışlar - dedim ki, bu iki quruluş arasında olan bir-birinə tamamən yad olan fərqlər vardır. İslam Respubilkası quruluşunda hərəkətin əsası təməllərə boyun əymək üzərində qurulmuşdur. Bu quruluşun legitimliyinin başlanğıcı olan məsələ, yəni fəqihə aid ilahi vilayət ilahi hökmlərə boyun əyməklə şərtlənir. Rəhbərlik məqamında oturan şəxs İslam amallarına, İslam qanunlarına qarşı nəzəri, yaxud praktik baxımdan laqeyd olsa, legitimlik bitir və ona itaət göstərmək heç kəsə vacib olmur, hətta buna icazə də verilmir. Bu, konstitusiyanın, yəni inqilabın əsas sənədinin özündə qeyd olunmuşdur. Buna əsasən, siz bu gün İslam inqilabı düşmənlərinin sonsuz düşmənçilik və ədavətlərinə baxsanız, görərsiniz ki, onların düşmənçiliyinin ən mühüm hissəsi inqilabın təminatçısı və keşişçisi olan bu amillə əlaqədar iki-üç prinsipə qarşıdır. Bu baxımdan, bu inqilab məğlubedilməzdir. Bu inqilab zirvədən enən deyil

və öz hərəkətini dayandırmayacaq. Çünki bizim cəmiyyətimiz mömin və dindar cəmiyyətdir. Din, İslam və iman bütün təbəqələrin qəlbinin dərinliklərində mövcuddur. Xalq sözün həqiqi mənasında dinə etiqadlıdır. Odur ki, dini dəyərlər xalq üçün mötəbərdir və qanunda göstəriləni qorumaq xalqa görə bir vəzifədir. İndi siz müşahidə edirsiniz ki, imamın vəfatından 16 və İslam inqilabının qələbəsindən 26 il sonra elə bir hökumət hakimiyyətə gəlir ki, onun əsas devizi İslam, inqilab və ədalət amallarını davam etdirməkdir. Xalqın rəyi, ürəyi, istəyi və hərəkət istiqaməti də budur. Hərçənd bu xalqın, bu inqilabın və İslam Respubilkası quruluşunun müxalifləri, beynəlxalq düşmənləri bu xalqın barəsində ayrı cür fikirləşirlər. Lakin biz öz xalqımızı tanıyırıq. Bu xalq öz həqiqətlərini, ürəklərini, dərin İslam məqsədləri olan məqsədlərini öz səsvermələrində, hərəkət və şüarlarında aydın şəkildə göstərir.[91]

Bu xalqın gördüyü işi tarix boyu heç bir xalq belə güc və əzəmətlə görməmişdir. Məhz buna görə

---

[91] Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ildönümündə çıxışından: 2006.

siz bu gün hansı müsəlman ölkəsinə ayaq qoysanız, o ölkənin görkəmli şəxslərinin, o xalqın ziyalılarının, ali təhsilli gənclərinin, ayıq kişi və qadınlarının ürəyinin İran xalqının xatirəsi ilə döyündüyünü görəcəksiniz. Özləri öz dilləri ilə deyirlər ki, biz İran xalqını özümüzə örnək seçmişik. Çoxlu insanlar sizi yamsılayırlar. Çoxlu insanlar sizin yolunuzu seçiblər.[92]

**Gənclər**

Bizim xatırladığımız keçmişdə - 50, 40, 30 il öncə insan ramazan ayında Tehran şəhərinə girdikdə ümumiyyətlə, bu şəhərdə oruc ab-havası duymurdu: camaat gəzirdi, rahat siqaret çəkirdi, xörək, sendviç yeyirdi. Ümumiyyətlə, heç kəs hiss etmirdi ki, bu ay orucluqdur. Biz o zaman Məşhəddə idik. Dindar şəhər olan Məşhəddə caamat asanlıqla və aşkar şəkildə oruclarını yeyirdilər, şəhərin bəzi yerlərində sanki heç ramazan ayı gəlməmişdi. Ramazan ayının günortalarında bizim baş çəkdiyimiz və gedib gördüyümüz məscidlərin əksəriyyətində 50 nəfər,

---

[92] Böyük Rəhbərin İmam Rzanın (ə) müqəddəs məqbərəsində çıxışından: 1994.

40 nəfər, ən çoxu 100 nəfər insan otururdu; haradasa gözəl nitqli məşhur bir vaiz olduqda isə heç.

Bu gün isə hamı orucdur, hər yerdə zikr və diqqət halındadırlar. Ən yaxşı oruc tutanlar gənclər arasındadır. Quran, dua, təvəssül, münacat məclisləri və uzun söhbətlər var. Bu, keçmişlə müqayisəolunasıdırmı? Etikaf da belə idi. Keçmişdə etikaf çox az idi, çətin və ağır iş idi; üç gün oruc tutmalı, məsciddə qalmalı və bayıra çıxmamlı idilər.

Gənc nəslin günbəgün daha artıq fəsada sarı getdiyi bir dünyada bu gün bizim gənclərimiz günbəgün daha pak, daha təmiz və daha nurlu olurlar. Lakin hegemonizmin təbliğatı Allaha yaxınlaşmağa, özünü İslamla və İslam hökmləri ilə daha artıq uyğunlaşdırmağa çalışan bu ölkəni, onun universitet, gənc, tələbə, müəllim və müxtəlif təbəqələrini İslamdan uzaqlaşmış kimi göstərməyə çalışır.

İslam quruluşu gəncləri elə tərbiyə etmiş və elə bir dövlət qurmuşdur ki, bütün dünyanın əxlaq fəsadlarından əziyyət çəkdiyi bir vaxtda bunlar güvəndədirlər. Böyük ABŞ ölkəsində bir çox

islahatçı, mütəfəkkir və ruhanilər orada hakim olan fəsaddan fəryad qoparırlar; hamı nalə edir, amma çıxış yolu tapmırlar. Lakin İslam Respubilkası quruluşu belə bir şəraitdə gənc nəsil üçün təhlükəsiz və əmin-amanlı bir mühit yarada bilmişdir.[93]

Bizim ölkəmiz, böyük xalqımız və xüsusən gənc təbəqəmiz bəzi istisnaları çıxmaq şərtilə, o zaman ümumi olaraq qəflət içində idi. Bu qafillər arasında dindar və təqvalı insanlar da vardı, dinsiz və laqeyd adamlar da. Eləlәri də vardı ki, günah adamı deyildilər, pak gənclər idilər, lakin ümumi qəflətdə hamı eyni idi. İranda İslam hərəkatının gördüyü ən böyük iş bu idi ki, biz iranlıları tərpədib qəflət, laqeydlik və etinasızlıq yuxusundan çıxarıb gələcəyə sarı apardı. Sədi Gülüstanında birinci babın ikinci, yaxud üçüncü dastanında bir oğru qrupunun hekayəsini danışır. Deyir ki, bunlar bəzi adamlara hücum etmək istəyirdilər, amma onlara qarşı hücuma keçən birinci düşmən yuxu idi. Xarici düşmənin gəlməsindən qabaq onların daxilindən bir düşmən

---

[93] Böyük Rəhbərin mübarək ramazan ayının ilk cüməsindəki xütbələrindən: 1998.

onlara qələbə çaldı. Həmin düşmən yuxudan ibarət idi. Biz yuxuda idik, inqilab bizi yuxudan oyatdı. Mənim özüm Həmədanın 3100 illik tarixini yada salanda qürur duyuram. Həmədan həm də mənim evimdir. Bir şəhər 3100 il ayaqda qalmışdır! İnsan iftixar hissi keçirir, lakin bu, məsələnin bir tərəfidir. Məsələnin başqa bir tərəfi budur ki, simvolu Həmədan olan 3100 illik tarixdə biz İran xalqı ilahi peyğəmbərlərin, ilahi dinlərin insandan istədiyi formada taleyimizə hakim olmuşuqmu?! Özümüzü tanımışıqmı?! Öz gələcəyimiz üçün bir proqram cızmışıqmı?! Bu uzun və qədim tarixin ən yaxşı dövrləri bacarıqlı bir diktatorun hakimiyyətdə olduğu dövrlərdir. O bizim üçün qərar verib, gələcək müəyyənləşdirib, ölkəni böyüdüb. İran xalqı bir toplum olaraq İslam inqilabının qələbəsindən qabaq özünə bir mənzərə tərif etməyə, o mənzərəni seçməyə, onun üçün proqram hazırlamağa və ona doğru hərəkət etməyə fürsət və imkan tapmadı. Özümüz üçün bir mənzərə tərif etməyincə, heç bir düzgün iş baş tutmaz, hamısı gündəlik işlər olar. Tərif etdikdən sonra proqram hazırlamasaq, proqramsız iş nəticəyə çatmaz. Proqram hazırlayandan sonra iradə ilə çalışmasaq,

beynimizi, əzələlərimizi və cismimizi çətinliyə salıb yola çıxmasaq, məqsədə çatmarıq. Bunlar vacibdir.

Bir zaman söhbət bir nəfərdən gedir. O, qərar verir və iradə edir ki, qalxsın, hərəkət etsin və qalxıb hərəkət edir. Lakin bir zaman söhbət bir xalqdan gedir. Bir xalq hərəkət etməli, yola çıxmalı, seçim etməlidir. Burada iş mürəkkəb və çətin olur. İnqilab bizə bu bacarığı verdi. Biz tarixin daş-divarını yarıb özümüzü bu çərçivədən və daş hasardan çıxara bildik. İniqlab bununla da kifayətlənməyib bizə bir örnək göstərdi. Bu örnək İslam Respublikasıdır: respublika və İslam.[94]

O zamanlar indiki kimi deyildi, vəziyyət həqiqətən, çox pis idi. Gənclik o zaman dini hövzə tələbəsi olan mənim üçün yox, - mən uşaqlıqdan, ibtidai məktəbdən tələbə olmuşam – ümumiyyətlə, gənclər üçün ürəkaçan deyildi. Gənclərə diqqət yetirilmirdi, istedadları məhv olurdu. Biz öz gözlərimizlə bunu görmüşük. Mən özüm tələbə olduğum mühitdə bunu görürdüm. Sonra tələbəlikdən xaric mühitlərlə, universitet və tələbələrlə əlaqə qurduqda - mən uzun illər

---

[94] Böyük Rəhbərin Həmədan vilayətinin gəncləri ilə görüşdə çıxışından: 2004.

tələbələrlə əlaqə və ünsiyyətdə olmuşam - onlarda da belə olduğunu gördüm. O qədər parlaq istedadlar vardı ki, heç kəs anlamırdı və bilmirdi.

Mənim gəncliyim çox zaman gənclərlə keçmişdir. İnqilab qələbə çalanda təxminən 39 yaşım vardı. Mənim 17-18 yaşdan həmin tarixə qədər bütün dövrüm gənclərlə keçmişdir; həm elm hövzəsinin tələbələri, həm də digər gənclərlə. Hiss etdiyim bu idi ki, Məhəmmədrza Pəhləvi rejimi gənclərin pozğunluğa sarı getməsi üçün planlı işləmişdir. Pozğunluq təkcə əxlaq pozğunluğu deyildi, həm də kimlik pozğunluğu, şəxsiyyət pozğunluğu idi.

Düzdür, mən iddia edə bilmərəm ki, məmləkətin gənclərini pozğunluğa sövq etmək üçün rejimin özü plan hazırlamışdı. Belə ola da bilər, olmaya da bilər. Lakin qətiyyətlə deyə bilərəm ki, onlar elə proqramlar hazırlamış və məmləkəti elə idarə edirdilər ki, nəticəsi belə olurdu: yəni siyasi məsələlərdən, həyati məsələlərindən uzaq gənclik yetişirdi.

Siz inanırsınızmı, mən və mənim kimilər, iyirmidən artıq yaşımızda da hökumətin kimlərdən ibarət olduğunu ümumiyyətlə, bilmirdik. İndi siz

ölkənin Təlim və tərbiyə nazirinin kim olduğunu bilməyən bir şəxs tanıyırsınızmı?! Yaxud misal üçün, İqtisadiyyat və maliyyə nazirini və ya prezidenti tanımayan kimsə varmı?! Ölkənin ən ucqar yerlərində də hamının xəbəri var. O zaman bütün təbəqələr, o cümlədən gənclər siyasi məsələlərdən tamamilə xəbərsiz idilər. Gənclər ən çox gündəlik məsələlərlə məşğul olurdular; bəzisi çörək dərdində idi, bəzisi bir tikə çörək pulu qazanmaq üçün ağır iş görürdü. Əlbəttə, onların gəlirlərinin bir hissəsi yeməyə sərf olunmurdu, digər kənar işlərə xərclənirdi.[95]

Siz bizim dövrümüzdə Latın Amerikası və Afrika barədə yazılmış kitabları oxumuş olsanız, - Frantz Fanonun və o zamanlar bu haqda kitab yazan digər alimlərin əsərləri indi də mötəbər sayılır - bilərsiniz ki, bizim vəziyyətimiz də elə idi. İran barədə yazmağa heç kim cürət etmirdi, lakin Afrika, Çili, yaxud Meksika barədə asanlıqla yazırdılar. Mən bu kitabları oxuyarkən görürdüm ki, bizim vəziyyətimiz də eynilə belədir. Yəni o gənc fəhlə də ağır işlər görüb bir şahı qazandıqdan

---

[95] Böyük Rəhbərin universitetlərin yenidən açılışı münasibətilə etdiyi çıxışından: 1999.

sonra pulunun yarısı əyyaşlığa, veyilliyə, avaralığa və bu kimi işlərə sərf olunurdu. Biz bunları kitablarda oxuyur və görürdük ki, cəmiyyətimizin reallığı da belədir. Doğrudan da çox pis idi. Gənclik mühiti yaxşı deyildi. Əlbəttə, gənclərin qəlbində və gənc mühitin daxilində ayrı cür idi. Çünki gənc mahiyyətcə aktiv, ümidli və həyəcanlıdır.

Şəxsən mənim özümün çox həyəcanlı gəncliyim olmuşdur. İnqilabın başlanmasından öncə ədəbi və digər fəaliyyətlərə görə həyatımda həyəcan vardı. Sonra 1962-ci ildə mübarizələr başlayanda - mənim o zaman 23 yaşım vardı - təbii ki, biz daha ölkənin əsas həyəcanlı işlərinin içində idik. Mən 1963-cü ildə iki dəfə həbs olundum; həbs, zindan, istintaq. Bilirsiniz ki, bunlar insana həyəcan verir. İnsan çıxdıqdan sonra belə məsələləri sevən xalqın böyük izdihamını, bunları hidayət edən, işləri, düşüncələri və yolları düzəldən imam kimi bir rəhbəri müşahidə etdikdə həyəcanı daha da artırdı. Odur ki, belə yaşayan və düşünən mənim kimilər üçün həyat çox həyəcanlı idi. Amma hamı belə deyildi.

Gənclər bir yerə toplaşdıqda ürəkləri isti olduğundan, yəni təbiətlərində bir növ gümrahlıq

və şadlıq olduğundan, hər şeydən ləzzət alırlar. Gənc xörəkdən, danışmaqdan, güzgüyə baxmaqdan, istirahətdən ləzzət alır. Siz inanmazsınız ki, insan gənclik illərini ötürdükdən sonra sizlərin, misal üçün, təbii bir xörəkdən aldığınız ləzzəti daha duymur. O zaman hərdən böyüklər - yəni mənim indiki yaşımda olanlar bəzi sözlər deyirdilər, biz təəccüb edirdik ki, bunlar necə belə fikirləşirlər. İndi görürəm ki, xeyr, o yazıqlar çox da yanlış düşünməyiblər. Əlbəttə, mən özümü gənclikdən tamam qırmamışam. Hələ də özümdə gənclikdən nəsə duyuram və o hala düşməyə qoymuram. Allaha şükür olsun ki, indiyədək qoymamışam, bundan sonra da qoymaram. Lakin özlərini qocalığın ixtiyarına buraxanlar gəncin öz həyatının bütün sahələrindən duyduğu ləzzəti duymurdu. O zaman belə idi. Demirəm ki, qəm-qüssə hakim idi, bunu iddia etmirəm. Lakin qəflət və məlumatsızlıq şəraiti hakim idi.

O zaman mübarizə barədə ciddi və dərindən düşünən bizlər gəncləri bacardığımız qədər rejimin mədəni nüfuz dairəsindən çıxarmağa çalışırdıq. Mən özüm misal üçün, məscidə gedirdim, təfsir

dərsi deyirdim, namazdan sonra söhbət edirdim, bəzən rayonlara gedib söhbət edirdim. Mənim əsas diqqətim gəncləri rejimin mədəni kəməndindən çıxarmağa yönəlirdi. O zamanlar bunu gözəgörünməz tor adlandırırdım. Deyirdim ki, gözəgörünməz bir tor var; hamını bir tərəfə çəkir. Mən istəyirəm bu gözəgörünməz toru imkan daxilində parçalayım və bacardığım qədər gənci bu tor və tələdən çıxarım. Kim bu düşüncə kəməndindən xaric olurdusa, – onun xüsusiyyəti bu idi ki, əvvəla dindarlığa, ikinci növbədə isə imamın təfəkkürlərinə yönəlirdi – bir növ qorunurdu. O zaman belə idi. Həmin nəsil də sonralar inqilabın əsas dayaqları oldular. Mən indi də öz cəmiyyətimizə baxdıqda o nəslin çoxlu nümayəndələrini – həm mənimlə əlaqədə olanları, həm də olmayanları seçə bilirəm.

Hər halda, indi sizin dövrünüz, şəraitiniz yaxşıdır. Əlbəttə, demirəm ki, gənc üçün hər şey hazırdır və hər şey ideal formadadır. Əslində, o zamanla müqayisədə bu gün vəziyyət çox yaxşıdır. Əgər bir gənc yaxşı yaşamaq, özünün insani kimliyini və şəxsiyyətini tapmaq istəsə, mənim fikrimcə, bu gün bacarar.

Sizlər təəssüf ki, müharibə dövründəki inkişafı görməmisiniz. Əlbəttə, müharibəni görməməyiniz təəssüflü deyil, lakin ovaxtkı misilsiz mənzərəni dərk etmədiyinizə görə insan təəssüflənir. Sizinlə həmyaşıd olan 18-20 yaşlı gənclər mənəviyyat və paklıq baxımından bəzən qırx il Allah yolunda çalışmış bir arif həddinə çatırdılar. İnsan bunu onların vücudunda hiss edirdi; az da deyildilər, çox idilər. Mən o zaman belə gənclərin qarşısında həqiqətən kiçik olduğumu hiss edirdim. Təvazökarlıq üçün belə etmirdim. Bilirsiniz ki, insan bir böyüyün qarşısında durduqda, onun üstünlüklərini gördükdə öz zəifliyini anlayır. Mən Bəsic üzvü olan bir gəncin, döyüşcü bir gəncin qarşısında həmin hissi keçirirdim. Şərait belə idi; adi bir gənci belə dəyişdirə bilirdi.

Siz dünya gənclərinin vəziyyətindən xəbərdarsınız; rep qrupları, min cür əxlaq və düşüncə bəlaları. Dünya gəncləri doğrudan da min cür bəlalara düçar olmuşlar. İndi mövcud olan rep qruplarından və bu kimi insanlardan bizim dövrümüzdə də vardı. Bizim dövrümüzdə "The Beatles" adlı bir qrup məşhur idi. İndi eşitmişəm ki,

qocalıblar. Bir qədər öncə xarici jurnalların birində onların barəsində yazı gördüm; harada olduqlarını və nə iş gördüklərini yazmışdılar. Həmin psixoloji sıxıntı və problemlər onları belə işlərə sövq edirdi. İndi geriqalmış və ucqar ölkələrdə onları yamsılayanlar o yazıqların hansı xəstəliyə tutulduqlarını anlamırlar. Elə bilirlər bu, inkişafdır, halbuki bir tənəzzül və süqutdur. Dünya belə bir vəziyyətə düşəndə bizim gənclərimiz elə idilər. İranda gənc zəngin, ehtiyacsız, başıuca, qəlbində güclü sevincə, vəzifəni yerinə yetirmək hissinə və aydın məqsədə malik idi - nə iş gördüyünü və kimin üçün çalışdığını bilirdi. O, Allahın lütfü ilə qalib və Allah-Taalanın ona verdiyi həqiqi və mənəvi yüksəlişə sahib idi.[96]

Keçmişdə univeristeti dindən, təqvadan, ibadətdən uzaqlaşdırmağa çalışırdılar. İran xalqının düşmənləri tərəfindən planlaşdırılan bu hiylədə məqsəd ali təhsilli və ziyalı nəsli laqeyd, qayğısız, dəyərsiz istəklərin və şəxsi qazancın əsiri etmək, böyük ideallara diqqət və marağını öldürmək olmuşdur. Şərəfli univeristet mənsubları, dindar

---

[96] Böyük Rəhbərin Gənc həftəsi münasibətilə gənclərlə görüşdə çıxışından: 1998.

müəllim və tələbələr həmin ağır şəraitdə həmişə bu şeytani hiylə ilə mübarizə aparırdılar.

Bu gün Allaha şükür olsun ki, univeristet İslam ölkəmizin digər ictimai yerləri kimi dini əlamətlərlə bəzənmiş, saflıq, dindarlıq və inqilabçı hisslərlə zinətlənmişdir. İnqilabın univeristeti iki onillik boyunca bütün hadisələrdə fəal iştirak etmiş, məşhur şəhidlər vermişdir.[97]

**Nümunə qadınların yetişdirilməsi**

Tağut hakimiyyəti dövründə bizim bu qədər alim qadınımız yox idi. Bu mənim sözümdür və bunda israrlıyam. Bu gün qadın tədqiqatçıların, müəllimələrin, müxtəlif sahələrdə çalışan, düşünən, nəzər yürüdən və yazan qadın alimlərin, mütəfəkkirlərin, yazıçıların, ədiblərin, şairələrin, sənətkarların, rəssamların mütləq və nisbi sayı tağut dövründən dəfələrlə artıqdır. Qadını müdafiə adı altında hicabın, iffətin, qadın və kişi arasındakı pərdənin tamamilə götürüldüyü və bu özbaşınalığın günbəgün artdığı dövrdə hətta bəzi nümunələrdə Avropa ölkələrindən də pis əməl

---

[97] Böyük Rəhbərin univeristet mənsublarının toplantısına müraciətindən: 1999.

edirdilər. Bu gün İslam Respublikası quruluşunda hicab, çadra, başörtüyü altında qadınlardan ibarət nümunəvi düşüncə, elm, əməl adamları, siyasi fəallar, mədəniyyət və incəsənət xadimləri olduqca çoxdur. O zaman bunun bir hissəsi də yox idi, çox məhdud idi. Bu, təlqin etmək istədiklərinin tam ziddinə olan bir nəzəriyyəni gücləndirir. O da budur ki, özbaşınalığı yaymaq nəinki qadını, onun mənəviyyatını və istedadlarını inkişaf etdirmək deyil, əslində müxtəlif bərbəzəklər və bu işlərdən irəli gələn müxtəlif problemlərlə məşğul etmək və bunun özü qadınların kamiliyyə və tərəqqiyə sarı hərəkətinə maneədir.

İslam quruluşunda qoyulan məhdudiyyət qadının insani fitrətinə uyğundur; həm kişilər üçün məhdudiyyət var, həm də başqa bir formada qadınlar üçün. Bu məhdudiyyət onların enerjilərinin hədər getməməsinə və imkan daxilində yaxşı istiqamətdə işlədilməsinə kömək edir. Nəticəsi isə bu gün qadınlarda müşahidə etdiyimiz düşüncə, elm və əməl inkişafıdır. Biz bu gün buna şahidik. Bu birinci məsələ.

Əvvəllər deyilirdi və bəziləri hələ də çox nadanlıqla deyirlər ki, məgər qadınlar hicabla,

şəriətlə, İslam qaydaları ilə inkişaf edə bilərlər?! Bunun real cavabı bizim cəmiyyətimizin böyük qadın toplumudur. Heç vaxt ölkədə belə vəziyyət olmamışdır; tağut dövründə də olmayıb, təlim və tərbiyə siyasətinin başqa cəhətdən nöqsanlı olduğu əvvəlki dövrdə də olmayıb. Bu gün Allaha şükür olsun ki, İslam quruluşunda bu şərait yaranmışdır. İndi universitetlərdə, elm və təhsil mərkəzlərində uğurlu qızların say çoxluğu ikinci dərəcəli məsələdir. Birinici dərəcəli olan budur ki, nümunəvi qadınlar İslam Respubilkası quruluşunda elmin müxtəlif sahələrində parlaya bilmişlər.[98]

İslam böyük alim olan qadınlar yetişdirmişdir. Bu gün bizim cəmiyyətimizdə qadınlardan ibarət mütəxəssis, alim, həkim, tədqiqatçı və böyük sənətkarlar az deyillər. Onların arasında dəyərli fikir və nəzəriyyə sahibi olanlar var. Siyasət sahəsində, icraçı və qanunverici orqanlarda da belədir. Ölkənin bütün sahələrində qadınlar fəal iştirak edirlər. İslam təfəkkürü və dəyərlər sistemi ilə Qərb təfəkkürü və dəyərlər

[98] Böyük Rəhbərin alim qadınlarla görüşdə çıxışından: 2007.

sistemi arasında mübahisə mövzusu bu deyil, başqa bir şeydir.[99]

Həmin faciəli fəaliyyətlərdən biri Rza şahın zamanında baş vermiş 7 yanvar məsələsidir. İslamın və İranın düşmənlərinin planına uyğun olaraq, Pəhləvi sarayına bağlı olan ozamankı ziyalıların köməyi ilə qərara gəldilər ki, iranlı qadını iffət və hicabdan uzaqlaşdırsınlar, bununla da qadının müsəlman cəmiyyətlərində həmişə malik olduğu böyük iman qüvvəsini məhv edib sıradan çıxarsınlar.

Tağut rejiminin böyük cinayətlərindən biri 17 Dey (7 Yanvar) hadisəsidir. Hicabı və İslamda qadın və kişinin, eləcə də cəmiyyətin sağlamlığı üçün iki cins arasında təyin olunmuş pərdəni götürmək Qərb cəmiyyətlərində qadının başına gətirilmiş bəlanı iranlı müsəlman qadının da başına gətirmək demək idi. Rza xan ölkə daxilində dəyənəklə bu işi gördü. Qərb qadınının fəsad bataqlığına girməsi ailə institutunun məhvinə gətirib çıxardı. Hicabı ləğv etməklə qadın elmdə, siyasətdə, yaxud ictimai fəaliyyətlərdə inkişaf

[99] Böyü Rəhbərin şəfqət bacıları ilə görüşdə çıxışından: 1991.

etmədi. Bunların hamısı hicab və iffətlə də mümkün idi. Biz İslam quruluşunda bunu sınaqdan keçirdik. Hicabı ləğv etmək iffəti məhv etməyə, İslam cəmiyyətində həyanı sıradan çıxarmağa giriş idi və insanları çox güclü cinsi amillə məşğul etməkdən ötrü həyata keçirildi. Məqsəd onları bütün işlərdən saxlamaq idi. Bir müddət buna nail oldular, amma İran xalqının güclü imanı qoymadı. Bizim müsəlman qadınlarımız yaradılan əngəllərə rəğmən, həmişə bu təzyiqin qarşısında müqavimət göstərdilər; Rza xan gedəndən sonra bir şəkildə, onun dövründə bir şəkildə, tağut rejiminin digər dövrlərində də bir şəkildə. 1978-ci ilin yanvar ayının yeddisində Məşhəddə müsəlman qadınların hicabı müdafiə üçün keçirdikləri böyük mitinq baş tutdu. Biz o zaman sürgündə idik. Məlumat aldıq ki, mömin, müsəlman və cəsarətli qadınlar belə bir iş görmüşlər. Bu, tağut rejiminin faciələrinin bir hissəsidir. Dini amalları, əxlaqi dəyərləri, iqtisadi inkişafı və beynəlxalq iqtidarı məhv etmək, bir

xalqın sərvətlərini havaya sovurmaq da həmin tağut və bədnam rejimin işlərindən idi.[100]

[100] Böyük Rəhbərin Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdə çıxışından: 2008.

## Üçüncü fəsil: Uğurun doğuşu

### Siyasi müstəqillik

Bu İran ölkəsində xain Məhəmmədrza Pəhləvi Baş nazir, Neft şirkətinin prezidenti, Müdafiə, yaxud Xarici işlər naziri təyin etmək üçün İngiltərə və ABŞ-ın Tehrandakı səfirlərinin yanına adam göndərib deyirdi ki, filankəsi gətirmək istəyirəm, fikriniz nədir? Əgər onlar "gətir" - desəydilər, gətirirdi, "gətirmə" - desəydilər, gətirmirdi.[101]

Bu inqilabın dəyəri ondadır ki, ölkəmizi qlobal hegemonların istismarından xilas etdi. Siz görün dünyada beynəlxalq tamahkarlar və inhisarçılar xalqlara nələr edirlər! Bu ölkəyə, bu xalqa, bizim neftimizə, mədəniyyətimizə, hökumətimizə, insani və maddi sərvətlərimizə onlar hakim idilər. İnqilab onların hökmranlığına son qoydu, onları ölkədən qovdu və xalqa təsirlərini azaltdı. Bu bizim inqilabımızın dəyəridir. Bu inqilabı uca tutmalı, öz yolunda möhkəm

---

[101] Böyük Rəhbərin İmam Rzanın (ə) müqəddəs məqbərəsində çıxışından: 1994.

saxlamalı və uca məqsədlərinə sarı irəliləməsinə kömək etməliyik. Bu prinsip, əsas və təməllər bizim gələcəyimizi, taleyimizi, iqtisadiyyatımızı, mədəniyyətmizi, dinimizi və dünyamızı gözəlləşdirəcək, əziz və məzlum ölkəmizin yaralarını sağaldacaq.[102]

Yüzillərlə müsəlman xalqlar zəif və başıqapazlı yaşadılar. Yüzillərlə İsam dini müsəlman ölkələrində hakim olmadı, tağut və diktatorlar xalqa hakim oldular. Müstəmləkə dövründə də müstəmləkəçilər və xalqların sərvətlərini talayanlar müsəlman xalqlardan, o cümlədən bizim xalqımızdan hər şeyi aldılar. Onlar xalqın İslam inancını da almaq istəyirdilər. Buna çox çalışdılar, lakin bizim dövrümüzdə Allahın böyük möcüzəsi baş verdi; yəni hegemon və müstəmləkəçi təxribatçılar İslamın məhv olduğunu, müsəlman xalqların daha ayağa qalxmayacağını güman etdikləri halda, qəfildən bizim böyük, qorxmaz və imanlı xalqımız ilahi və müstəsna rəhbərin ardınca gedib ayağa qalxdı, uca səslə dünyaya dedi ki, biz özümüzün, İslam və

---

[102] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 2004.

Quranımızın nurlu hökmlərinin həyatımıza hakim olmasını istəyirik; dedi ki, müsəlmanlar özləri öz ölkələrini idarə edə, şərəflə yaşaya bilərlər; dünyaya bildirdi ki, biz dinimizin, millətimizin və vətənimizin düşmənlərinin nökəri olmaq və onların fərmanı altında yaşamaq istəmirik. Bunu bizim xalqımız özünün böyük inqilabında bütün dünyaya elan etdi.[103]

Müstəqil xalq o xalqdır ki, amerikalı, ingiltərəli, yaxud bir zaman rusiyalı ərbablar və onlar kimiləri onun taleyinə müdaxilə edə, öz xeyirlərinə olan işi görüb xalqın xeyrinə olanı kənara tullaya bilməsinlər. Müstəqil olmayan ölkələr belədir. Bu gün bəzi ölkələrə baxın, mən adlarını çəkmirəm, özünüz haraları dediyimi biləcəksiniz. Bu ölkələrin başçıları ABŞ-ın fərmanına müti dayanmışlar. Bir xalqın və ölkənin başçıları ABŞ-a müti olsalar, məmləkətdə nə edərlər? Bəllidir ki, həmin ölkədə ABŞ-ın maraqları icra olunacaq. Alış-veriş, təbliğat, yuxarıya çəkmək, kənarlaşdırmaq, işdən çıxartmaq, işə təyin etmək, xülasə, o ərbabların xeyrinə olan hər bir iş bu

---

[103] Böyük Rəhbərin Xürrəmabad əhalisinin böyük toplantısında çıxışından: 1991.

ölkədə baş verər, xalqın xeyrinə olan heç bir iş isə görülməz. Bir xalqın müstəqil olmaması belə bir müsibətdir. Keçmiş rejimdə də belə idi. Keçmişdə bu ölkənin ən mühüm problemi o idi ki, mənfur Pəhləvi rejimi ABŞ-a, ondan qabaq da İngiltərəyə bağlı idi. Onlar deyirdilər ki, kim yuxarıya gəlsin, Baş nazir, məmur, nazir, yaxud Neft Şirkətinin başçısı olsun və ya filan vəzifəni tutsun; amerikalılar deyən kimi o şəxsə yüksək vəzifə verirdilər. Bu xalqın xarici düşmənlərinin səhnədən kənarlaşdırmaq istədiyi hər bir şəxsi kənarlaşdırmaq üçün bunlar – yəni Pəhləvi rejimi bütün güclərini işə salırdılar. Bu məmləkətdə amerikalıların xeyrinə olan iş həmin rejimin vasitəsilə icra olunurdu. Əgər hər hansı bir iş onların zərərinə və xalqın xeyrinə olsaydı, həyata keçməzdi, hətta o işə qarşı da çıxırdılar. Bir ölkənin müstəqil olmaması belədir.

Bizim xalqımız mübarizə aparıb müstəqillik əldə etdi. Bu müstəqillik nədir? Bu, mühüm sualdır. Üç növ müstəqillik var və bu üç müstəqillik bir-birinin ardınca gəlir. Onların birincisi çətin, ikincisi birincisindən, üçüncüsü isə hər ikisindən çətindir. Çətin olan, bizim xalqımızın

həll etdiyi və nəticəsini gördüyü müstəqillik siyasi müstəqillikdir. Biz onu əldə etdik və bu çox çətin idi.[104]

**Seçkilər və demokratiya**

Əgər minillər öncədən - yazılı tariximizin çatdığı zamandan bu günə qədər ölkəmizin tarixinə baxsanız, daim diktatura monarxiyasının, bir şəxsin başçılıq etdiyi azsaylı bir qrupun bütün xalqa hakimiyyətinin mövcud olduğunu görərsiniz. Bu bizim tariximizdir. Bizim şahlıqlarımızın hamısı belə olmuşdur. Bizim hörmət etdiyimiz bəzi padşahlar – qüdrətli Qəznəvi və Səlcuq padşahları, Səfəvi padşahları, Şah Abbas, Şah İsmayil, Şah Təhmasib də belə olmuşlar. Bunlar bizim yaxşı padşahlarımızdır. Lakin onlar məmləkəti necə idarə etdilər? İdarəetmə üsulu necə idi? Bir nəfər başda və hamı ona itaətkar. Və kiçik bir qrup ölkənin bütün taleyini həll edir. Xalqın heç bir təsiri yoxdur və məmləkət bunlarındır.

Padşah öz nazirlərinə "mənim nökərlərim" deyirdi; nökəri idilər. Doğrudan da belə idi.

---

[104] Böyük Rəhbərin fəhlələr və ölkənin mədəniyyət işçiləri ilə görüşdə çıxışından: 1993.

Nasirəddin şah, Məhəmməd şah, Fətəli şah və sonrakılar hətta nazirlərinə və Sədr-əzəmlərinə deyirdilər ki, siz yaxşı nökərsiniz. Ölkədə siyasi mədəniyyət belə idi. Baş nazir və nazirlər şahın nökəri olduqda, xalqdan danışmağa dəyməz. Məmləkət azsaylı bir qrupa və əslində, bir nəfərə məxsus idi. Bu bizim tariximizdir.

Bu ölkənin məsul şəxsləri olan sizlər bu xalqdan və bu inqilabdan elə bir quruluş təhvil aldınız ki, onun bütün orqanları xalqın əlində və xalqın seçimi ilədir; rəhbər, prezident və parlament xalqın seçimi ilədir. Məntiqli və əqli olaraq xalqın vasitəsilə seçilən bu qurumlar xalqın ixtiyarındadır. Əlbəttə, silahlı qüvvələr və məhkəmə hakimiyyəti dünyanın heç bir yerində xalq tərəfindən seçilmir. Bu başqa bir məsələdir, bunun öz meyarları var. Bu, xalq tərəfindən seçilənlərin vasitəsi ilə seçilir. Siz burada belə bir quruluş qurmusunuz. İndi 28 ildir ki, bu məmləkətdə seçkilər keçirilir. Düzdür, ölkəmizin seçkiləri haqda boş-boş danışıqlar var. Dünyada nəyə qarşı boş-boş danışmırlar?! Allahın müqəddəs zatına qarşı da boş-boş danışanlar var,

dinə də qarşı. Daha bundan aydın və açıq demokratiya necə olmalıdır?![105]

İslam dövləti yaddaşlarda sülalə xilafətləri formasında qalmışdır. Elə bilirdilər ki, İslam dövləti Bəni-Ümməyə, Bəni-Abbas, yaxud Osmanlı xilafəti kimidir: bir nəfər xəlifə adını alır, əslində və əməldə isə fironluq və şahlıq edir. Dünyadan köçəndə də bir nəfəri öz yerinə təyin edir. Dünya xalqlarının zehnində İslam hökuməti bu formada canlanırdı. Bu, İslama və İslam hökumətinə ən böyük hörmətsizlikdir. İmam xalqın seçkisi, iştirakı olan İslam hökumətini növbəti dəfə xalqımıza izah etdi və cəmiyyətimizdə həyata keçirdi.

Bu gün ölkəmizdə müxtəlif səviyyəli məmurlar birbaşa, yaxud dolayısı ilə xalqın vasitəsilə seçilirlər. İslam Respubilkası quruluşunda sülalə vəzifəsi yoxdur, pula, maddi və dünyəvi amillərə görə vəzifə verilmir. Prezidentin, İslam Şurası Məclisinin, rəhbəri təyin edən dini ekspertlərin və bələdiyyələrin xalq tərəfindən seçilməsi ölkəmizin, İslamın və imamın fəxrlərindəndir. Bizim konstitusiyamız müəyyən

---

[105] Böyük Rəhbərin quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2007.

müddətə baş verən bu həssas və taleyüklü seçkiləri təyin etməklə İslam dünyasında mömin, aydın və yenilik istəyində olan beyin və fikirləri özünə cəlb edə bilmişdir.[106]

Bu ölkədə mövcud olan mənfur və pis keçmişə rəğmən, bu quruluş demokratiyanı həyata keçirə bildi. Biz bu gün təxminən hər il bir seçki keçiririk, 28 ildə təxminən 28 seçki keçirmişik. Bütün bu seçkilər sakit şəkildə, sağlam formada və ciddi başağrılar olmadan baş tutmuşdur. Bu onu göstərir ki, ölkədə demokratiya oturuşmuşdur. Bu işi kim gördü? Bu quruluş gördü. Bu çox mühüm uğurdur.[107]

Mühüm olan budur ki, xalq bu seçim sahəsində öz birliyini göstərsin. İran xalqı İslam inqilabından öncəyə qədər heç bir dövrdə bu seçim imkanına malik olmamışdır. İslam inqilabı bu imkanı İran xalqının ixtiyarında qoymuşdur. İslam inqilabından öncə İran xalqı oturub tamaşa edirdi ki, kim hakimiyyətə gələcək və istədiyi qərarı

---

[106] Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ildönümü mərasimində çıxışından: 2005.

[107] Böyük Rəhbərin quruluşun məsul şəxsləri ilə görüşdə çıxışından: 2007.

verəcək. Onları kim hakimiyyətə gətirirdi? Dünyanın müxtəlif əlləri və müxtəlif siyasi cinahları; bir gün ruslar, bir gün ingilislər, bir gün amerikalılar. Bu hadisələrdə İran xalqı tamaşacı idi və heç bir ixtiyara malik deyildi.

İnqilabın bizə veridiyi azadlıq və demokratiya, hətta nisbətən azad və öz sözləri ilə desək, demokratik bir dövr olan Müsəddiqin dövründə də yox idi. Doktor Müsəddiq o zamanın Şura Məclisini - yəni demokratiyanın atributu olan parlamenti buraxdı. Düzdür, onda demokratiya da yox idi, lakin Müsəddiq dedi ki, mən səlahiyyət istəyirəm. Səlahiyyəti aldı - əvvəl altı ay, sonra daha altı ay. Özünün ikiillik hökumətində bir il, yaxud bir qədər artıq mütləq səlahiyyətlərlə rəhbərlik etdi; özü qanun çıxarır, özü imzalayır və özü icra edirdi. Bunun harası İslam Respubilkası quruluşu ilə müqayisəolunasıdır?! Bu 26 il ərzində İslam Şurası Məclisinin və xalqın nümayəndələrinin iş başında olmadığı bir gün də olmamışdır. Bütün bu dövrdə bir-birinin ardınca seçkilər keçirilmişdir. İslam Respubilkasının ömründən 26 il ötür və biz təxminən 25-26 seçki keçirmişik. Bu, İran xalqı üçün bir imkandır. Bu

imkanı bizə İslam, inqilab və İslam Respubilkası verdi.[108]

Bizim ölkəmizdə diktatorlar həmişə xarici istismarçılara arxalanmışlar. Pəhləvi və ondan öncə başqa bir formada Qacar rejiminin diktatura və hegemonluğu onların əcnəbi qüvvələrə söykəndiyinə görə idi. Rza xan İngiltərəyə arxalanırdı. Məhəmmədrza əvvəlcə İngiltərəyə arxanlanırdı, sonra isə Amerikaya üz tutdu. O, Amerikanın maraqlarını və nüfuzunu onların istəyinə uyğun şəkildə təmin edirdi. Onlar da onu müdafiə edir, sonra bu ölkəyə və bu xalqa qarşı istədikləri işi görürdülər. Bu xalqı əlli il repressiya şəraitində saxladılar. Beynəlxalq baxımdan inkişaf üçün ən yaxşı və ən hazırlıqlı bir dövrdə bu xalqın elm, sənaye, mədəniyyət və əxalq inkişafının qarşısını aldılar, bu xalqı və bu ölkəni geriyə saldılar. Onların məqsədi eyş-işrət, sərvət toplamaq və öz xarici ərbablarına xidmət göstərmək idi. Onlar həmin xarici qüvvəyə arxalanaraq özlərini İranda tam möhkəmlətmişdilər. Onları uzaqlaşdırmaq, bu əyri, zərərli, lənət, nifrət və

---

108 Böyük Rəhbərin yeni il və novruz bayramı münasibəti ilə müraciətindən: 1999.

uğursuqla dolu rejimi devirmək hər kəsin işi deyildi. Böyük İmam İslam bayrağı altında hərəkat yaratdı. İmamın prinsipləri İslam prinsipləri, ədaləti İslam ədaləti, demokratiyası İslam demokratiyasıdır.

Bizim Böyük imamımız və İslam quruluşumuz barədə ən böyük insafsızlıqlardan biri budur ki, əcnəbi media imamı, İslam quruluşunu və İslam Respubilkasını avtoritorizmdə və demokratiyadan uzaq olmaqda ittiham edir. Bu inqilab İranda belə möhtəşəm şəkildə baş verdi, qələbədən sonra xalq ilk referendumu keçirdi. Bu heç bir inqilabda görünməmişdi. Siz baxın, bir ölkədə bir çevriliş, kiçik bir dəyişiklik və yerdəyişmə baş verəndə seçkilər 2-3 il təxirə düşür. Ölkədə xalq seçki qutusunu tanımırdı. Tağut rejimi dövrünün seçkiləri formal və yalançı idi. Xalq heç zaman seçkilərdə iştirak etməmiş və sözün həqiqi mənasında səs verməmişdi. Parlament seçkilərində kimi istəyirdilərsə, qutulardan onun adını çıxarırdılar. Belə bir şəraitdə inqilabın qələbəsindən iki ay sonra imam xalqı seçki məntəqələrinə çağırdı və xalq İslam Respubilkasına səs verdi. Bir ildə xalq

beş dəfə seçkilərdə iştirak etdi. İnqilabdan ötən 23 il ərzində bizim xalqımız 23 dəfə İslam Şurası Məclisi, Dini Ekspertlər Məclisi, prezident və bələdiyyə seçkiləri, həmçinin konstitusiya və İslam Respubilkası quruluşunu təyin etmək üçün 23 dəfə seçkilərdə iştirak edib, səs verib. Hətta zahirən demokratik olan hansı quruluşda xalqın səsinə və istəyinə bu qədər önəm verilir?![109]

İslam Respubilkasından və bu mübarək inqilabın qələbəsindən öncə ölkəmiz 50 il bu vəziyyətdə idi: seçkilər yox idi, tapşırıqla gəlmiş deputatlar vardı, ingiltərəlilər tərəfindən hazırlanmış və amerikalılar tərəfindən istifadə olunan padşah hakimiyyətdə idi. O zaman bu ölkədə və bu gün regionun mürtəce ölkələrində insan hüquqlarının pozulmasından söhbət açılmırdı və açılmır. İslam Respubilkasında hər şey xalqın çiynində və xalqın iradəsi ilə baş verir. Bu gün Allahın lütfi ilə bu ölkədə mövcud olan azadlıq İran tarixində misilsizdir, ya da misli azdır. Bizim keçmişimiz tiranlar dövrü olmuşdur. Keçmişə nə qədər baxırıqsa, qaranlıq və repressiya görürük. Bu

---

[109] Böyük Rəhbərin İmam Xomeyninin məqbərəsi ziyarətçilərinin toplantısında çıxışından: 2002.

gün Allaha şükür olsun ki, İran xalqı azaddır, düşünür, seçir və qərar verir.[110]

Hamının yerinə qərar verməyə çalışan qüdrətli dövlət və mərkəzləri biz inqilabın əvvəlindən Hegemonizm adlandırmışıq. O, xalqları, onların hüquqlarını saymır, maraqlarını nəzərə almır. Hegemonizmin siyasəti belədir və belə də edirlər. Bizim ölkəmizdə inqilabdan öncə on illərlə bu siyasət izləndi. Başqa ölkələrə də baxsanız, - mən ad çəkmir və zaman müəyyən etmirəm - çoxlu nümunələr görə bilərsiniz. Bunun əksi nədir? Əksi odur ki, bir ölkədə xalq siyasətə qarışsın, "hə" və "yox" desin, öz istəyini bildirsin, hüququnu tələb etsin, ölkəsinin məsələlərinə açıq gözlə, möhkəm iradə ilə, güclü addımla müdaxilə etsin. Ölkəmizdə bu tilsimi möhtəşəm İslam inqilabımız və onun misilsiz rəhbəri açdı. İnqilabdan öncə onillər boyu bu ölkədə parlament, seçki və bu kimi məsələlər yox idi. O dövrdə xalq bir dəfə də seçkilərdə iştirak etmədi, seçkiləri, hökuməti tanımadı, qərarlardan xəbəri yox idi. Bütün işlər bu xalqdan uzaqda görülür, qərar

---

110 Böyük Rəhbərin Fitr bayramı namazının xütbələrindən: 1993.

verilir və əməl olunurdu. İnqilabın əvvəlindən isə xalq səhnədədir. Ölkə məmurları qərar verirlərsə, cəsarət göstərirlərsə, möhkəm addım atırlarsa, xalqın dəstəyinə görədir. Bir ölkədə xalq səhnədə olduqda hakimiyyətə şərik olur, daha nə qlobal hegemonlar onu bir şeyə məcbur edə, yaxud kimisə onların belinə mindirə bilir, nə də hakimlər zəiflik göstərib əcnəbilərin istəyinə təslim olurlar. Çünki xalq tələb edir.[111]

Xalqımız ötən əsrlərdə - çox keçmişə qayıtmasaq, deməliyik ki, son əsrlərdə - qlobal güclərdən asılı şəxslərin hakimiyyətinə məhkum olmuşdu. Onlar zorla, qətllə hakimiyyətə gəlir, zalımlıqla, diktatorluqla, eqoistliklə şahlıq edirdilər. Düzdür, bəzi bacarıqlı və ləyaqətli insanlar da vardı. Onlar ən azı hansısa sahədə xalqımızın qüdrətini göstərə bilirdilər. Bəzilərində isə bu da yox idi. Dünyadan köçdükdən sonra onların varisləri – övladları, qardaşları, yaxud qardaşı uşaqları heç bir haqqa malik olmadan hakimiyyətə yiyələnirdilər. Onları seçməkdə, istəməkdə, qəbul etməkdə və bəyənməkdə xalqın

[111] Böyük Rəhbərin Bəsic üzvlərinin toplantısında çıxışından: 2000.

heç bir rolu olmurdu. İran xalqı əsrlərlə belə yaşadı. Onların sonuncusu bu asılı və azğın sülalə idi. O, çevrilişlə hakimiyyətə yiyələnib, 50 ildən artıq diktatorluq etdi, hakimiyyətinin son illərini İran xalqının hərraca çıxarmaqla keçirdi.

Böyük İmam özünün aydın fikri, ağıllı şəxsiyyəti, güclü və qətiyyətli qərarı, uca insani xislətləri və vücudunda dinə dair həqiqi inanc və bəndəliklə xalqın arzularını əks etdirə bildi; xalqın fəryadını, çağırışını və istəyini tərənnüm etdirdi. Xalq öz istəklərinin bu kişinin vücudunda və sözlərində əks olunduğunu gördükdə onun arxasınca hərəkət etdilər. Bu coşqun dalğa, böyük və tufanlı dərya böyük işlər görüb xalqı o vəziyyətdən xilas edə bildi. İran və iranlı yeni yolda - xalqın iştirakı və seçimi yoluna, xalqın istək, etiqad, rəğbət, məsləhət, xeyir və ziyanına əhəmiyyətli yanaşmaq, xalqın şəxsiyyətinə dəyər vermək yoluna qədəm qoydu. Bizim böyük imamımız və İslam Respubilkası Allahın lütfü ilə bu yolla getdi. Bu gün xalqımız dünyada başıuca xalqdır, özündə bacarıq, qüdrət və qürur duyur, özünü böyük və zalım güclərin, istismarçıların

təhqirindən xilas edib, ideal həyat və gözəl yaşayış yoluna daxil olub.[112]

**Keçmiş parlamentlərimiz**

Bu ölkədə on illərlə Məşrutə adı mövcud idi, lakin mənfur, ziyanverici və rəzil Pəhləvi sülaləsinin İrana şahlığı dövründə demək olar ki, parlament yox idi. Mərhum Ayətullah Kaşaninin və milli hərəkatın çalışdığı və parlamentin dirçəldiyi qısa bir dövrdən başqa həmin əlli ilin hamısında nə vardısa, məzmunsuz bir forma, məğzi və mənası olmayan bir ad idi. Bu həmin əlliillik dövr haqqında.

Əlliillik dövrdən qabaqkı 20 ilə yaxın müddətdə də bu ölkədə Məşrutə vardı. Məşrutənin əvvəlində yaradılmış Milli Şura Məclisi tətillərlə, bağlanmaqla, topa tutulmaqla və digər hadisələrlə yanaşı, ümumilikdə təxminən dörd çağırış işlədi. O məclislərin tarixi çox ibrətamizdir. İslam Respubilkasının və İslam inqilabının bu ölkəyə və bu xalqa doğrudan da nə verdiyini bilmək üçün hər bir adamın keçmişi öyrənməsi lazımdır. Necə

---

112 Böyük Rəhbərin yeni il və novruz bayramı münasibəti ilə müraciətindən: 1999.

olduğumuzu bilməyincə, bu gün nəyə malik olduğumuzu bilmərik. Həmin ilk bir neçə ildə, hələ məclis şahın, komandanın, dövlətin və xarici səfirliyin təsiri altında olmadığı zaman, ibtidai olmasına baxmayaraq, ölkənin vəziyyətinə təsir göstərən bir parlament oldu. Harada azca xarici təsir əlaməti olsaydı, var gücü ilə dayanırdı; Rusiya ultimatum verəndə müqavimət göstərdi; xaricilərdən kredit alınmasında müqavimət göstərdi; Vüsuqüddövlə müqaviləsində müqavimət göstərdi. O məclisdə Müdərris kimilərdən az-çox vardı. Zaman onların həmişə Müdərris kimi qala və Müdərris kimi ola bilmədiklərini göstərsə də, Müdərris, Xiyabani və digər müstəqil və imanlı şəxslərin sayəsində həqiqi parlamentə bənzəyirdi.

Bu, ilk iki parlament haqda. Sonra həmin şəxslərin təmsil olunduğu həmin parlamentdə xarici siyasətlərin təsiri göründü. İş elə bir yerə çatdı ki, çevrilişdən sonra Baş nazir olan Həsən Müşirüddövlə Pirniya öz kabinetini Milli Şura Məclisinə təqdim edəndə və məclis nazirlərin bir-ikisini rədd edəndə üzünü deputatlara tutub dedi: "Bizim cənub qonşumuz (yəni İngiltərə) bu iki nəfərin bizim kabinetimizdə olmasını istəyir".

Sonra məclis səs verdi. Qondarma cənub qonşunun iradəsi ilə əvvəlcə rədd olunmuş iki nazir məclisin səsini qazandı. İngiltərə Hindistanı və Bəhreyni işğal etdiyindən və Fars körfəzində olduğundan onu cənub qonşu adlandırırdılar. Hətta Pəhləvilər dövrünə qədər İngiltərə cənub qonşu adlandırılırdı. Avropada yerləşən və İrandan minlərlə kilometr uzaqda olan bir ölkənin adı qonşu idi. Çağırılmamış bu qondarma qonşu nəzərdə tutduğu iki nəfərin həmin kabinetdə olduğunu istədiyindən, nə Müşirüddövlə "cənub qonşumuz bu iki nəfərin olmasını istəyir" deməyə xəcalət çəkirdi, nə də məclis bəyənmədiyi iki naziri cənub qonşunun istəyinə görə qəbul etməyə. Əvvəllər Rusiya ultimatumu, Vüsuqüddövlə müqaviləsi və digər hadisələr qarşısında etirazını bildirən məclis bu səviyyəyə endi.

Mən birinci və ikinci çağırış parlamentlərin müqavimət göstərib möhkəm dayandığı yerləri qeyd etmişəm. Güman ki, on, yaxud ona yaxın nümunə var. Bu parlamentlər möhkəm dayanmış, xalqı həvəsə gətirmiş və hökumətləri gücləndirmişdi. O zamanın hökumətləri mahiyyətcə gücsüz və xəstə hökumətlər olsa və

çoxusunun beyni qərbli müftəxorlara bac vermək əsasında qurulsa da, hər halda, bu parlament imkan daxilində onları qoruyurdu. İlk dövrlərinə görə tarixdə başıuca qalan bu parlament tədricən elə bir vəziyyətə düşdü ki, bəzi deputatların müxalifət cəsarəti itdi və problemli hesab etdikləri iclaslarda iştirak etmədilər. Məgər siz iştirak etməyəndə üzərinizdən məsuliyyət götürülür?! Siz deputatsınız və məsuliyyət hiss etməlisiniz.

Onların bəzisi fəxr edirdilər ki, İran şahlığının azğın və rüsvayçı Pəhləvi sülaləsinə verildiyi iclasda iştirak etməyiblər; halbuki iştirak edib qarşı çıxmalı idilər. Bəziləri asılı və qeyri-müstəqil idilər. Cəsarətləri də vardı, lakin o cəsarəti batil və haqqın ziddinə olan yerdə işlədirdilər. Cibləri və qarınları haram malla dolu idi. Rüşvət tamahı, vəzifə tutmaq tamahı, hakimiyyətə gəlməsi mümkün olan, yaxud bu gün hakimiyyətdə olan şəxsə kömək etmək tamahı onları elə gic etmişdi ki, məsuliyyətin nə olduğunu dərk etmirdilər. Məsuliyyət hissi yox idi, müstəqillik yox idi, cəsarət yox idi, məlumat, elm və bilgi yox idi və buna görə də bəlli vəziyyətə düşdülər. Əgər Məşrutə bu hərəkatın həqiqi, ixlaslı və mömin rəhbərlərinin -

şübhəsiz, onların ən üstünü böyük din alimləri idilər. Kim bu həqiqəti inkar etsə, qəti və aydın məsələləri inkar etmişdir. Bəzi qüvvələr inkar edir, bizim keçmişimiz haqda tarix yazıb, həqiqətləri dəyişdirirlər - əvvəldə istədiyi kimi getsəydi, ölkəmiz dünya tarixinin ən həssas dönəmlərində əlli il geri qalmazdı. Biz 50 il ziyan gördük. Biz İran xalqı o savadsız quldurun, ailəsinin, övladlarının, qohumlarının və yaxınlarının, yəni bu ölkəyə hakim olan qüvvələrin - inqilabın qələbəsindən öncəki son yarım əsrdə ingilislərin və sonra da amerikalıların hökmranlığına, eləcə də parlamentin səhlənkarlığına görə zərər gördük və ziyana düşdük.[113]

Bu xalq tarixi boyunca həqiqi parlamenti inqilabdan sonra təcrübə etdi. İnqilabdan öncə iki-üç parlamentdən başqa bu ölkədə xalq parlamenti mövcud olmamışdır. Əvvəllərdə bir-iki parlament, sonra ortada bir parlament xalq və millət parlamenti idi. Xalqın seçdiyi həmin milli məclislərdə də bir şəhərdə xidmət göstərən hansısa müəllimin, fəhlənin, yaxud ruhaninin - çox məşhur

---

[113] Böyük Rəhbərin məclis deputatlarının toplantısında çıxışından: 1994.

və adlı-sanlı ruhaniləri demirəm - yanına getmirdilər, xanların, aristokrat övladlarının və şahzadələrin yanına gedirdilər. Yanlış tərbiyələrə görə, hətta xalq da onları seçirdi.

Bu gün parlament xalqındır. Deputatlar həqiqətən, millət vəkilləridir. Heç kəs deyə bilməz ki, bu parlamentdə İslam hökmlərinin icrasını istəməyənlər var. Mən belə güman etmirəm. Hətta dini azlıqlardan olan və şəxsi inancına görə müqəddəs İslam dininə etiqad bəsləməyənlər də İslam Respubilkasını qəbul etmişlər. İslam Respubilkası da İslam hökmlərinin təşkilatlanmış formasıdır. Onlar da bunun üçün çalışırlar. Bu parlamentdə məmləkətin düzgün, müstəqil və İslama uyğun qurulmasını, ölkədə yoxsulluğun kökünün kəsilməsini, rifahın yaranmasını istməyən bir kəs yoxdur. İnqilabdan öncəki parlamentlərdə "bizim cibimiz dolsun, mülkümüz qorunsun, qazancımız təmin olunsun, xalq da gedib nə istəyir etsin" - deyənlər vardı. Əgər ölkəni sel aparsaydı, evlər uçsaydı, minlərlə insan acından ölsəydi, onlar üçün mühüm deyildi.[114]

---

[114] Böyük Rəhbərin məclis deputatları ilə görüşdə çıxışından: 1996.

Bizim xalqımız İslam inqilabına qədər qanunverici hakimiyyətdə iştirakını təcrübə etməmişdi. Bəlkə ikinci və üçüncü çağırış Milli Şura Məclislərində, o da eyib və nöqsanlarla birgə müəyyən mənada bunu görmüşdü. Lakin kağız üzərində, havada olanlar da yavaş-yavaş bitdi. Belədir, azğınlıq dərinləşəndə xalq özünü hətta dildə də həqiqəti söyləməyə borclu bilmir. Təhlükə bundadır. İnqilabın qələbəsindən öncə belə idi.

Uzun illər hətta xalqın adını çəkmək, bu məsələləri iddia, onarla fəxr etmək də yox idi, hər şey formal, yalançı və süni idi. Həm Rza xanın dövründən və Məhəmmədrzanın dövrünün sonlarından ibarət olan açıq diktatura dövründə, həm də diktaturanın bir qədər örtülü və gizli olduğu orta dövrdə xalqın iradəsi yox idi; parlament mövcud deyildi, millət vəkili yox idi, deputat əmr və təyinatla seçilirdi. İnsan o dövrün tarixini oxuyanda - bir hissəsini özümüz sonlarda müşahidə etdik - necə olduğunu görür. Seçkilərin vaxtı çatmazdan bir müddət öncə özlərini hökumətin siyahısına salmaq üçün hazırlıq görülür, işlər başlanırdı, israrlar, yalvarışlar, yaxınlaşmalar, yaltaqlıqlar edilirdi, utanmadan açıq

şəkildə hökumətin və sarayın siyahısından danışırdılar. İslam inqilabı bu ölkədə və bizim tarixmizdə gördüyü əzəmətli işlərlə yanaşı bu böyük işi də gördü, xalqımız qanunverici orqanda təmsil olundu. Dünyada bənzəri az olan bu hörmətli parlamentin arxada qoyduğu il və dövrlər bizim tariximizdə həqiqətən, mühüm illər olmuşdur. Xalq öz marağı, istəyi, iradəsi və uyğun bildiyi yollarla araşdırır, ölkə problemlərinin həlli üçün bir şəxsi parlamentə göndərir.[115]

Biz inqilabdan öncə bu ölkədə Şura Məclisi adlı bir şeyi təcrübə etmişik. O məclisi və o tarixi görən, duyan, yaxud oxuyan hər bir şəxs bu məclisin və inqilabın qədrini bilər, bu 21 il ərzində İslam Şurası Məclisinin bir gün də tətil olunmamasına bais olan zəhmətləri dəyərləndirər. Düzdür, o parlament də İslamın məhsulu idi. Əgər İslama imanlı şəxslərin və böyük alimlərin dini mübarizələri olmasaydı, o da yaranmazdı. Lakin o məclis yoldan yayınmışdı. O məclisə iki bəla hakim idi: biri tətillər, biri də düz yoldan yayınmaq. Məclisin yayınması belə oldu ki, deputatlar öz

115 Böyük Rəhbərin parlamentin deputatları və əməkdaşları ilə görüşdə çıxışından: 1999.

vəzifələrinə əməl etmədilər. Üçüncü və dördüncü çağırış parlamentlərdən sonra hər biri ikiillik müddətə dörd-beş parlament formalaşdı və təxminən hamısı xalq tərəfindən seçildi. Sonra isə daha seçim yox idi və xalq iştirak etmirdi. O vəziyyəti görən, duyan, eşidən və anlayan şəxslər qədər heç kim indiki İslam Şurası Məclisinin, bu azad qanunverici orqanın və həqiqi xalq seçiminin qədrini bilməz. Allaha şükür edin ki, siz deputatları belə mühüm və uca yerdə çalışan, Onun üçün fikirləşən, qərar verən, vəzifənizi yerinə yetirmək üçün işləyib-çalışan, zəhmət çəkən şəxslərdən etdi. Bu ölkənin çalışmağa və zəhmət çəkməyə çox ehtiyacı var.[116]

İran xalqı ayıqdır və ölkəsinin taleyi ilə maraqlanır. Dünyanın müxtəlif yerlərinin analitikləri bu məsələyə ciddi yanaşırlar. Onların çoxu bilir - bəziləri görmüş, bəziləri də oxumuşlar ki, bu məmləkətdə məşrutənin əvvəlindən inqilabdan qabaqkı dövrə qədər təxminən 60 il boyunca çox az nümunələrdən başqa xalq parlament seçkilərinə diqqət göstərməyib. Ölkənin

---

[116] Böyük Rəhbərin məclis deputatları ilə görüşdə çıxışından: 1996.

rəhbərliyi də muzdur ailənin ixtiyarında olub. Onlar görürlər ki, bu gün İran xalqı səhnəyə çıxır, ölkə məmurlarını özü seçir. Bu, İran xalq üçün böyük şərəf və izzətdir.[117]

### Ordu və hərbi müstəqillik

Bir zaman özünün bütün bu dəyərli və üstün milli xislətlərinə, misilsiz mədəni ehtiyatlarına rəğmən, iranlı bu kurslardan ötrü xalqının düşmənlərinin qapısına getməli və digərlərinə möhtac olmalı idi. Onlar da bizim xeyrimizi düşünmürdülər. Bu gün bizim pilotlarımızın, dəyərli zabit-texniklərimizin və görkəmli alimlərimizin İslam Respubilkası ordusunun ehtiyacı olan müxtəlif kursları öyrənmək üçün keçmişdə olduğu kimi ABŞ-a, Avropaya və hətta elm sarıdan çox da üstün olmayan ölkələrə getməyə ehtiyacları yoxdur. Bu bir qələbədir. Digər qələbələr kimi bu qələbə də xalqımızın böyük inqilabından və onun bu inqilabın və özünün dərin

---

[117] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 2001.

imanının qüdrəti sayəsində əldə etiyi özünəinamından qaynaqlanır.[118]

Bu məmləkətdə pilot ABŞ təyyarəsi ilə uçurdu. Zabit-texniklər təmir işlərini görürdülər, lakin heç biri təyyarənin hissələrini açıb necə olduğuna baxmağa cürət göstərmirdi. Təyyarənin hissələri xarab olduqda ABŞ-a aparıb orada təmir etməli idilər. Həmin təyyarə ilə işləyən mexaniklərimizə ABŞ təyyarəsinin hissələrini təmir etməyə icazə verilmirdi. Bu gün isə ölkənin silahlı qüvvələri və xalqı bu sahədə çox inkişaf etmişlər.[119]

İran İslam Respubilkası ordusunun boynunda heç kəsin minnəti yoxdur. Heç kəs ordunun əlini tutub inqilaba, İslama və hidayət nuruna sarı çəkməmişdir. Bizim hamımızın boynunda inqilabın və İslamın minnəti vardır. İslamın bizim hamımızın boynunda haqqı var. İnqilabın bizim hamımızın boynunda haqqı var. O bizi acı əsarət, asılılıq, passivlik, istedadların üzə çıxmasına imkansızlıq və əcnəbilərin hökmranlığı

---

118 Böyük Rəhbərin Aviasiya Universitetinin məzunları üçün keçirilən tədbirdə çıxışından: 1990.

119 Böyük Rəhbərin fəhlələr və mədəniyyət mənsubları ilə görüşdə çıxışından: 1995.

dövründən xaric edib, çətinliyi və problemi olsa da, daha yaxşı bir dünya qurmaq və öz ayağı üstə dayanmaq üçün əlverişli bir dövrə daxil etdi. Ordu öz istəyi, öz ayağı, öz meyli, təşəbbüsü və riski ilə inqilaba qoşulub onu qucaqlayan və ona qarışıb həll olan qüvvələrdən idi.[120]

Bizim inqilabımızın digər inqilablarla fərqi bu idi ki, xüsusi bir partizan qrupun vasitəsilə qələbə çalmadı. Düzdür, İranda partizan əməliyyatları keçirən partiyalar vardı, lakin təxminən 75-76-cı illərdə bütünlüklə iflic olmuşdular. Bu məsələni o zaman meydanda olan şəxslərdən soruşa bilərsiniz. Biz bu vəziyyəti öz gözümüzlə gördük. O dövrün vəziyyətindən bilavasitə xəbərdar olmayan bugünkü gənclər hadisələrdə iştirak edən şəxslərdən soruşsunlar.

O zaman İranda silahlı mübarizə aparan, istər marksist, istər eklektik təfəkkürlərə malik qrup və qruplaşmalar 75 və 76-cı illərdən 77-ci ilə qədər təxminən sıradan çıxmışdılar, işləri yalnız ölkənin bir tərəfində bomba qoyub haranısa partlatmaqdan, yaxud kimisə terror etməkdən

---

[120] Böyük Rəhbərin Hərbi Hava Qüvvələrinin əməkdaşları ilə görşündə çıxışından: 1999.

ibarət olmuşdu. O zaman İranda qrup və qruplaşmaların gördüyü işlər bu gün misal üçün, ərəb ölkələrinin birində - bəzi şəxslərin çətinliyə düşməməsi üçün heç bir ölkənin adını çəkmirəm - baş verənlərin onda biri qədər də deyildi. Siz xəbərlərdə eşidirsiniz ki, filan ərəb ölkəsində müsəlmanlar polislə toqquşdular, bəzi işlər gördülər. İndi bunların qələbəyə nə qədər yaxın olduqlarına baxsanız, o zaman onların qələbəsinin nə qədər real olduğunu anlayarsınız. Ümumiyyətlə, partizan mübarizəsinin İranda nə zamansa qələbə çalması qeyri-real, gerçəkləşməsi imkansız idi. Çevriliş də imkansız nəzərə çarpırdı.

Müasir dövrdə bəzi inqilablar, yaxud dırnaqarası inqilablar bir çevrilişlə başlayır. Lakin o zaman İranda ordu tam məhdud bir çərçivədə amerikalıların əlində idi. Xüsusən gənc və aşağı səviyyəli təbəqələr arasında mənfur şah rejimindən narazı olan zabitlərin sayı çox idi. Ordunun çoxu narazı idi. Amma heç kəs o rejimlə vuruşmaq barədə düşünməyə cürət etmirdi. Misal və müqayisə olaraq belə demək olar ki, onlar bugünkü İraqın (1995) silahlı qüvvələri kimi hakimiyyətin pəncəsində möhkəm saxlanmışdılar.

Əlbəttə, onların problemi bu gün İraqdakıların problemindən çox idi. Çünki İranın zabitləri təkcə hakimiyyət tərəfindən nəzarətdə deyildilər. Onların arasında amerikalı qüvvələr də vardı. Qarnizonların çoxunda, xüsusən də həssas qarnizonlarda bir neçə min amerikalı vardı. Bəzi qüvvələrdə onların işi daha qabarıq idi. Buna əsasən, o zaman İranda hərbi çevriliş imkanı mövcud deyildi.[121]

Bu ölkədə silahlı qüvvələrin yarandığı zamandan bu günə kimi heç zaman silahlı qüvvələrimiz xalqa bu qədər bağlı, məqsəd və amallar yolunda bu qədər çalışqan, ölkə və sərhədlər üçün bu qədər fədakar olmamışlar. Son dövrlərdə ordunun yalnız adı vardı, bəzəkli kartondan düzəldilmiş böyük saray kimi idi. Əməl zamanı puçluğu bəlli olurdu, görünüşdə və mənzərədə isə gözəl və bərbəzəkli idi; həm xain rəhbərlərin, asılı komandanların, əcnəbilər qarşısında zəif və rəzil tiplərin, hər halda xalqın bir parçası olan ordunu öz ad və rəngləri ilə rəngləyən şəxslərin ona hakim olduğu son dövrlərdə, həm də

---

[121] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 1995.

əvvəlki dövrlərdə. İran ordusu "kazak" və "saldat" adı ilə - əcnəbi ad, əcnəbi geyim, əcnəbi qaydalar və əcnəbilərin komandanlığı ilə qurulmuşdur. Xalqdan olmayanların hakimiyyəti zamanı ordu da xalqdan deyildi. Bu gün isə Allahın lütfü ilə həmin ordu, həmin şəxslər, həmin müsəlmanlar xalqa bağlı şərəfli və böyük bir qurumda idarə olunur, öz əqidələri, imanları, vətənləri və ölkələri üçün çalışırlar.[122]

Bu gün bizim ordumuz başıuca, fəxrli və imanlı bir ordudur. Bu gün Allahın lütfü ilə ordumuzda həm dünyanın ordularında olan zahiri görkəm mövcuddur, həm də iman, mücahidlik, təqva və fədakarlıq. Bunların hamısından üstünü odur ki, bizim ordumuz xalq ordusudur. Zahiri görkəm yaxşıdır, lakin kifayət etmir. Bir zaman ordumuzun zahiri görkəmi yaxşı idi, onunla çox maraqlanırdılar. Lakin həssas dönəmdə, qırxıncı illərdə düşmənin hücum etdiyi vaxt ən kiçik müqavimət də göstərmədi. Mənfur Pəhləvi rejiminin başçıları iddia edir və deyirdilər ki, biz güclü ordu qurmuşuq. Lakin hücum zamanı

---

[122] Böyük Rəhbərin ordunun Quru qoşunlarının komandirləri və tələbələri ilə görüşdə çıxışından: 1993.

rüsvayçılıqları aşkara çıxdı. Öz aləmlərində orduya çoxlu pul xərcləmişdilər, lakin faydası sıfra bərabər idi və ölkəni müdafiə etmədilər.

İslam hakimiyyəti və şanlı İslam Respubilkası quruluşu dövrünün ordusu isə cəbhələrdə mərdliklə vuruşdu, müqavimət və fədakarlıq göstərdi, böyük şəhidlər verdi, məcburi müharibə dövründə, ondan öncə və sonra ordunun hər üç qüvvəsində dəyərli zabitlər İslam uğrunda fədakarlıq göstərdilər, özlərinin və ordunun adını əbədiləşdirdilər. Bu gün də, Allaha şükür olsun ki, öz İslam vətənlərini müdafiə etməklə fəxr edən mömin və başıuca zabitlərlə doludur. Bu zabitlər düşməndən qorxmurlar, düşmən isə onlardan qorxur.[123]

Zalım, eqoist və hegemonlar cəmiyyətin aktiv və həvəskar qüvvələrini həmişə özləri üçün işlətməyə çalışmışlar, milli maraqlar üçün yox. Bu, hegemonluğun xüssiyyətidir. İranın son padşahları milli iqtidarın mənbəyi olan ordudan özləri üçün istifadə etmək istəyirdilər. Mən inqilabın əvvəllərində Tehran qarnizonlarının birində belə

---

[123] Böyük Rəhbərin Zabitlik İnstitutunun məzunları üçün keçirilən tədbirdə çıxışından: 1994.

bir şüar gördüm: "Ordu şahın özü üçündür, xalq, sərhədlər və milli amallar üçün yox". İslam üçün olmalarını gözləmirdik, çünki İslama etiqadları yox idi. Amma bu qədər də təvazökarlıq göstərib demirdilər ki, ordu milli amallar və onların müdafiəsi üçündür. Deyirdilər ki, ordu bizimdir, bizim üçündür və bizə xidmət etməlidir. Əslində isə bütün milli orqanlar kimi ordu da xalqa məxsusdur, xalqındır və xalqdan təşkil olunmuşdur. Hər bir dövrdə orduda təmsil olunanlar bu xalqın uşaqları olmuşlar. Ümumiyyətlə, ordu quruculuğunda məqsəd xalqın və ölkənin amalların müdafiə etməkdir, bir şəxsi müdafiə etmək deyil. Lakin onlar həyasızlıq edib bu sözləri deyirdilər; təkcə fikirləşmir, hətta deyir və yazırdılar.[124]

Ordunu daxildən çürüdürdülər. Özlərinə sərf edən, özlərinə, öz zahiri cah-calallarına aid olan qədərincə orduya zahiri görkəm, təntənə və bərbəzək verirdilər, lakin elm, texnologiya, tədqiqat və istehsal əsla mövcud deyildi. Hərbi Hava Qüvvələri bir texnika və alət göstərib desin ki,

---

[124] Böyük Rəhbərin İran İslam Respubilkası ordusunun üzvləri ilə görüşdə çıxışından: 1995.

bunu mən düzəltmişəm, mənim övladlarım öz düşüncələrinin məhsulu ilə düzəltmişdir; əsla belə bir şey yox idi, yəni icazə vermirdilər. İnsan həmin insandır, Hərbi Hava Qüvvələrinin ozamankı gənci istedad və keyfiyyət baxımından bugünkü gənci kimi idi, lakin icazə vermirdilər. Təhsil xüsusi bir çərçivədə, əcnəbi ölkədə müəyyən şəraitdə verilirdi; təkcə hərbi işdə yox, həm də mədəni və etiqadi sahələrdə əmr, meyar və üsullar əcnəbilərin təsiri altında və əlində idi. Onlara üç-dörd texnika da verirdilər, amma bir texnikanın bir hissəsi yerini dəyişdikdə, yaxud xarab olduqda daha istifadə edə bilmirdilər. Bu necə ordudur və necə müstəqil ola bilər?! O zaman bu haqda söhbət getmirdi ki, İran ordusu öz beyninin məhsulundan istifadə edə bilsin. Əsla! Hətta bundan da getmirdi ki, ona verilən təyyarəni, radarı, yaxud müasir elektron cihazı dəqiq öyrənsin; buna da icazə verilmirdi. Bu bir varlığın inkişafının qarşısını alan daş, hicab və pərdədir. Bu varlıq key və laqeyd qalana qədər bu pərdə var, özünə gəldikdə isə pərdələri və maneələri götürür. Bu baş verdi və ordu xalqın ön sıralarına qatıldı.

İran xalqı maneələri qırıb, həqiqətləri dərk etməməsi üçün asılmış pərdələri götürdü. Onu oyadan amil Allahı yad etməsi, Allahın adı, İslamın adı, bir Allah adamının isti nəfəsi, uca İslam amallarının, məqsədlərinin və gələcəyin aydınlaşması idi. Onun qarşısında çox yaxşı sonuclu bu yol açıldı. Silahlı qüvvələr, ordu, Keşişçilər Korpusu, xalqın müxtəlif təbəqələri bu iyirmi il ərzində doğrudan da uğurlu imtahan verdilər. Xalqımız bu gün tarix qarşısında üzüağdır.

Bu gün ordu inkişaf etmiş, ayıq, alim, tədqiqatçı və quruculuq sahibi olan ordudur. Bu gün ordu imanlıdır. Bu gün orduda mömin gənclər, imanlı, fədakar, cəsarətli və fəxr etməli insanlar - hər bir xalq öz silahlı qüvvələrini belə gördükdə həzz alar - mövcuddur. İnsanın çoxlu yerlərdə gördüyü və eşitdiyi fəsad, alçalma və əsarətlər, Allaha şükür olsun ki, bu orduda və silahlı qüvvələrdə ya yoxdur, ya da çox azdır.[125]

Bir zaman bu ölkədə bir hərbi təyyarənin bir hissəsi xarab olsaydı, təyyarəyə qoyub, təmir üçün

---

125 Böyük Rəhbərin Hərbi Hava Qüvvələrinin əməkdaşları ilə görüşdə çıxışından: 2000.

ABŞ-a aparırdılar, həmin hissənin İranda açılmasına, yerli mühəndis və mexaniklərin onun daxilində nə olduğunu bilməsinə icazə vermirdilər. Bu gün isə sizin özünüz təyyarə istehsal edirsiniz. Müharibənin əvvəllərində "filan detalımız yoxdur" - deyəndə biz matəm saxlayır, düşünürdük ki, onu haradan gətirək. Lakin bu gün bu detalları özünüz düzəldirsiniz. Orduda özünütəmin cihadı şöbəsi açan ilk yer Hərbi Hava Qüvvələri idi. Təxminən 1981-ci ildə özünütəmin cihadını açdılar, sonra bizə xəbər verdilər. Biz də bütün orduda oxşar şöbələr açdıq. Bu baxımdan, Hərbi Hava Qüvvələri bacarır və siz gənclər bacarırsınız.[126]

**Müqəddəs müdafiə**

Rüsvayçı Türkmənçay müqaviləsindən 200 ilə yaxın vaxt ötür. Həmin tarixi oxuyan hər bir iranlı iki əsrə yaxın müddətdən sonra öz daxilində xəcalət, həqarət və məğlubiyyət hissi keçirir və özündən soruşur ki, bu qədər mühüm bir hadisədə nə üçün dövlət başçıları milli iradəni, ölkənin maddi və mənəvi sərvətlərini onun milli kimliyinə

---

[126] Böyük Rəhbərin ordunun Hərbi Hava Qüvvələrinin komandirləri ilə görüşdə çıxışından: 2004.

kömək üçün səfərbər edə bilmədilər. Düşmənin işğalçı ordusu ölkənin ürəyinə qədər yeridi. Sonra yalvarmaqla, xahişlə, bəxşişlə, dost cildində olan düşmənlərin vasitəçiliyi ilə, çoxlu milli ziyan və təhqirlərlə bir qədər geri çəkilməyə razı saldılar; halbuki qafqazın 17 şəhərini almış və ölkəni bir parçasından məhrum etmişdi. Siz bu gün də bu hadisəni xatırladıqda, oxuduqda və o acı hadisədə İran xalqına qarşı nə edildiyini gördükdə xəcalət və rəzalət hissi keçirirsiniz. Bunun oxşarı İkinci Dünya Müharibəsi hadisələrində Tehran şəhərində baş verdi; müxtəlif ölkələrin zabitləri özlərini göstərir, xiyabanlarda yeriyir, iranlıya təhqir gözü ilə baxır, onu işlədir, aşağılayır, namusuna təcavüz edirdilər. Bu bir növ idi, o başqa bir növ. Bunlar bir müharibədə bir xalq üçün böyük bir məğlubiyyətin göstəricisidir.

1980-ci ildə başlayan müharibədə də oxşar tale ilə üzləşə bilərdik. İran torpağının bir hissəsini ondan ayırmaq istəyənlərin məqsədi təkcə onu bir qədər kiçiltmək deyildi. Məqsəd bu idi ki, bu xalqı əsrlərlə - ən azı bir-iki əsr həqarət hissi ilə yerində oturtsunlar və qlobal hegemonizmin nəhəng imperiyası qarşısında qiyam etməyə cəsarət

göstərmiş, bütün beynəlxalq adətlərin ziddinə olaraq, dünyada heç bir qüvvəyə bac verməyən yüzfaizli xalq hakimiyyəti qurmuş bir xalqın cəsarət və özünəinam hissini öldürsünlər. Onlar üçün son məqsəd bu idi, bu olacaqdı. Əgər döyüşçülər, ailələr, xalqın ümumi səfərbərliyi, bu şərəfli səhnələr haqda məlumat hazırlayıb xalqa göstərən şəxslər olmasaydı, elə olacaqdı. Şübhəniz olmasın. İran torpağınının bir hissəsini alacaq, sonra bir qədər çənə vurub aldıqlarının bir hissəsini qaytaracaq, xalqın boynuna minnət də qoyacaqdılar. Əlbəttə, uzun illər boyunca və şübhəsiz, müharibənin sürdüyü səkkiz ildən artıq bir müddətdə bu işi görəcəkdilər, sonra İran xalqı nə zaman ölkəsinin həmin bölgəsinə baxsaydı, həqarət hissi keçirəcəkdi.

Siz gördünüz ki, İraqın arxasında bütün Qərb, Sovetlər, bütün Şərqi Avropa, ABŞ-ın işarəsinə tabe olan körfəz ölkələri elliklə dayandılar, İraqa kömək etdilər. Məqsədləri İrandan bir neçə şəhəri alıb, İraqa vermək, yaxud müstəqil bir dövlət qurmaq deyildi. Məqsəd İran xalqını məhv etmək, onun hegemon imperiyanın iqtidar maşınında açdığı dəlikləri bağlamaq idi.

Lakin Allah istəmədi. "Allah istəmədi" nə deməkdir? Yəni xalqımız yatsaydı, döyüşçülər cəbhəyə getməsəydilər, imam fəryad qoparıb, sinəsini sipər etməsəydi, duruş gətirməsəydi və bu yolda bu qədər istedad və güc səfərbər olunmasaydı, yenə də Allah belə istəyəcəkdimi?! Xeyr, Allah-Taalanın bir xalqın xeyrinə olan iradəsi o xalqın iradəsinə bağlıdır. Bir xalqın həyatında heç bir həqiqət və hadisə Allahın iradəsi ilə dəyişmir, yalnız o xalqın özünün iradə göstərdiyi təqdirdə dəyişir. Bu, Quranın açıq-aşkar ayələri və dinin qəti təlimlərindəndir. Vurmağa çalışdıqları bu ziyan - milli əzmkarlıq, dövlət başçılarının, məmurların siyasəti, ağıllı hərəkəti və bu yolda çalışanların ixlası və ciddiliyi olmasaydı, şübhəsiz ki, bu baş verəcəkdi - bu milli əzmkarlıqla və bu imanla bir fürsətə çevrildi. Bəli, biz müharibədə çox əziz qurbanlar verdik, çoxlu maddi və mənəvi ziyanlar gördük. Lakin bu xalqın qəlbində elə bir şey coşdu ki, onun faydaları və dəyəri xalqın bu günü və sabahı üçün hər şeydən artıqdır. Bu, özünəinam, başucalığı, istiqlaliyyət, milli özünəinam hissi və bu qaydaya inam idi: əgər bir xalq Allaha iman və saleh əməl ətrafında birləşsə, imkansız görünən

möcüzələr biri o birindən sonra mümkün olar. Bu bizim həyatımızda baş verdi.[127]

İnqilabdan öncə xalqımızın həyatının özü bir ibrət səhnəsi idi. Həmin səhnə bu gün dünyanın bəzi yerlərində mövcuddur: azğın hakimiyyətlər, problem içində qalmış xalq, əldən çıxmış dünya və axirət, xalqın həyatına beynəlxalq kərkəslər, düşmən və bədxahlar tərəfindən uzanmış əl, orada yaşayıb nə dünyaları və nə axirətləri olan insanlar üçün qaranlıq gələcək! İnqilabdan öncə bizim vəziyyətimiz belə idi və bu gün də dünyada bəzi ölkələr belədir. İran xalqı bu ibrətdən yaxşı istifadə etdi. Bu istifadələrin biri səkkizillik müharibədə müqavimət göstərmək idi.

Bizim böyük imamımız – dünya durduqca onun pak ruhuna Allahın nuru və rəhməti olsun – təkrar-təkrar buyururdu ki, düşmən İranı geriyə, hərəkətə başladığı yerə qaytarmaq, keçmiş hasarın arxasında saxlamaq, ölkənin sərvətlərini, mədənlərini, xeyir-bərəkətlərini və insan əməyini mənimsəmək, özü və nökərləri üçün pul, ləzzət və sərvət toplamaq və xalqı yaşadığı fəlakət çalasında

---

[127] Böyük Rəhbərin müqəddəs müdafiənin idarəçiləri və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2000.

buraxmaq istəyir. Xalq imamın dəyərli sözlərini qəbul etdi, gənclər də həqiqəti anladılar. Buna görə səkkizillik cəbhə eposu yarandı. Bu gün siz və bütün xalqımız, hətta digər xalqlar da o qəhrəmanlıqdan dərs almalıdırlar.[128]

Bir xalqın görkəmli şəxsləri ölkələrinin taleyində o zaman təsirli ola bilərlər ki, çətin sınaq qarşısında qalsınlar. Bir zaman - 1941-ci ilin sentyabrında bir neçə diviziya şərqdən və bir neçə diviziya qərbdən ölkəyə daxil oldu, səmada bir neçə təyyarə göründü. Ölkənin ozamankı hərbi qüvvələri nəinki cəbhələrdə qalmadılar, qarnizonlardan da qaçdılar. Qarnizonlarda olanlar evlərinə sürüşüb, gizləndilər. Bir zaman da günorta saat 2-də imam elan etdi ki, xalq gedib Pavəni düşmənlərin əlindən alsın. Mərhum Şəhid Çəmran mənim özümə deyirdi ki, imamın müraciəti radiodan yayımlananda biz orada düşmənin mühasirəsində idik; hiss etdik ki, düşmən məğlub olmağa başlayır. Bir neçə saatdan sonra Pavəyə doğru izdiham yollandı. Mən həmin gün saat 4-5-də imamın evinə gedirdim. Gördüm ki,

---

[128] Böyük Rəhbərin Keşikçilər Korpusunun komandirləri ilə görüşdə çıxışından: 2005.

ümumiyyətlə, vəziyyət dəyişmişdir. Xalq küçələrdən maşınlara minir, korpusun bölmələrindən və cəbhəyə ezam mərkəzlərindən cəbhələrə yollanırdılar. Xalq həmin xalq idi, lakin beyninin düşüncəsi və məzmunu dəyişmşdi; amal əldə etmiş, kimliyinə vaqif olmuş, özünü tanımışdı.[129]

Bizim əziz ölkəmiz uzun əsrlər boyunca dəfələrlə hücuma məruz qalmışdır. Bizim dövrümüzdə də təcavüzkar, tamahkar və hakimiyyət dəliliyinə tutulmuş bir qonşumuz ölkəmizə hökmranlıq niyyətində olan İslam düşmənlərinin təhriki ilə bizə hücum etdi və bu xalq can-başla vətənini qorudu.

Xalqımız uzun illərdən sonra ilk dəfə əcnəbi təcavüzkarla döyüşdən qalib və başıuca çıxdı. 200 il idi xalqımız hər bir hücumda məğlub olurdu, düşmən evimizin içinə girirdi. Lakin İslam və İslam inqilabı sayəsində ilk dəfə olaraq xalqımız və silahlı qüvvələrimiz qürurla düşməni nakam qoya bildilər; elə bir düşmən ki, təkcə öz qüvvə və imkanları ilə gəlməmişdi, arxasında hegemon

---

[129] Böyük Rəhbərin Simnan vilayətinin şəhid ailələri ilə görüşdə çıxışından: 2006.

düşərgə dayanırdı, çoxları ona yardım edirdi. Bizim xalqımız və silahlı qüvvələrimiz belə bir düşmən üzərində qələbə çaldı.[130]

**Polis**

Bizim polisimiz bu gün çox fərqlənmişdir. Tağut dövrü yadımızdadır. Siz o zaman dünyada deyildiniz. İndi həmin dövrlə yerlə-göy qədər fərqlənmişdir. Bir zaman bu ölkədə polis məmurları adətən xalqda qorxu, təşviş və nigaranlıq yaratmaqdan başqa bir iş görmürdülər. Bu gün polis xalq üçündür, xalqın yanındadır, xalqa dayaqdır və xalqın etimadını qazanmışdır.[131]

Xalq hakimiyyəti olmayan tağut dövründə polis xüsusi təbəqələrin təhlükəsizliyini qorumaq üçün idi, xalqın başına nə gəlsəydi, əhəmiyyəti yox idi. Mən keçmiş rejim dövründə ölkənin sərhəd bölgələrində sürgündə olmuşam. Oranın hansı vəziyyətdə olduğunu görürdüm. Orada təhlükəsizlik bölgənin müftəxor və quldurlarına

---

130 Böyük Rəhbərin Kerman vilayətinin hərbi və polis qüvvələrinin müştərək səhər toplantısında çıxışından: 2005.

131 Böyük Rəhbərin Polis akademiyası tələbələrinin 17-ci məzunları üçün keçirilən tədbirdə çıxışından: 2007.

tapşırılmışdı. Təhlükəsizlik bölgə xanlarının, böyüklərinin və varlı adamlarının təhlükəsizliyindən ibarət idi, digərlərinin belə bir hüququ yox idi. Bu ölkənin müxtəlif bölgələrində, xüsusən də ucqar yerlərdə nüfuzlu bir adam öz nökərlərini, fəhlələrini, işçilərini döysəydi, öldürsəydi, həbs etsəydi, həyatdan silsəydi, onların və ailə-uşaqlarının təhlükəsizliyini pozsaydı, eybi yox idi, heç kəs demirdi ki, nə üçün bu işi gördünüz. Polisə şikayət etsəydilər, şikayət edən məhkum olurdu. Yəni "təhlükəsizlik" deyəndə ümumi deyil, xüsusi təbəqələrin təhlükəsizliyi nəzərdə tutulurdu.[132]

### Quruculuq

Bu xalq inqilabın əvvəlində harada idi, bu gün haradadır?! Onda əlimizdə xarabalıqdan başqa bir şey yox idi. Bu ölkənin hər bir şeyi asılı idi. Keçmiş rejimdən qalanların çoxu asılı, bünövrəsiz və zəif sütunlar üzərində idi. Bu gün xalqımız hərəkət etmiş, güclənmiş, öz hərbi və siyasi gücünü sınamış, zalım və hegemon dünya qarşısında necə

---

[132] Böyük Rəhbərin polis işçiləri və komandirləri ilə görüşdə çıxışından: 1997.

müqavimət göstərməyin lazım olduğunu bilmiş, quruculuğu təcrübə etmişdir. İndi Allahın lütfü ilə ölkənin hər yerində quruculuq fəaliyyəti hiss olunur.[133]

Məmurların ölkəni birtəhər idarə etməyə çalışdığı dövlətlə ölkədə əsaslı yenilik yaradıb, zaman boyu müstəbid şahların, xüsusən də mənfur və asılı Pəhləvi və son Qacar şahlarının dövründə yaratdıqları acınacaqlı durumdan xilas etməyə çalışan bir dövlət eyni deyil. Doğrudan da İranı və iranlını dünyada rüsvay etmiş, ölkənin hər bir sahəsini tənəzzülə uğratmışdılar. Belə bir şəraitdə kişilər möhkəm iradə ilə işə girişmiş, ölkə idarəsini öhdələrinə götürmüş, ağır yükləri çiyinlərinə almış, ölkəni mütərəqqi, hörmətli və beynəlxalq imicli bir ölkəyə çevirmək, bu böyük xalqı layiq olduğu yerə ucaltmaq istəyirlər.

İnqilabdan öncəki 80-90 illik dövrdə ya məmurların fəsadı olub, ya dövlət rəsmilərinin xəyanəti, ya əcnəbilərin müdaxiləsi, ya xalqın təhqiri. Bu gün İslam quruluşu inqilabın, xidmətçi və zəhmətkeş məmurların sayəsində xalqın

---

[133] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 1996.

şəxsiyyətinə uyğun dəyərli mövqeyə sarı sürətlə hərəkət edir.

Mənfur və azğın şah hakimiyyətində çox az insanları çıxmaqla hamısı fəsad içində idi. Düzdür, o zaman bəzi idarələrdə həqiqətən, şərəfli insanlar vardı. Biz həm icraçı, həm məhkəmə orqanlarında və həm silahlı qüvvələrdə iffətli və uca insanlar tanıyırdıq. Lakin o şərəfli insanlar öz iş yerlərində şərəflərini qorumaq üçün mübarizə aparırdılar. Bu nə deməkdir? Yəni o zamanın idarələri ümumi olaraq fəsad tələb edirdi. Nə üçün? Çünki yuxarıdan aşağıyadək hər yer fəsad içində idi. Nazir fəsad içində olduqda, ölkənin birinci dərəcəli podratçısı əcnəbilərlə əlbir olduqda, dövlət başçısı, yəni şahın özü əcnəbilərdən, öz xalqından və mümkün olan digər şəxslərdən rüşvət aldıqda digərlərinin halı bəllidir.

O zaman idarələri bilərəkdən fəsada bulaşdırırdılar. Üfunəti hər yeri bürümüş o fəsadçı və fəsad törədən rejim zamanı indiki beynəlxalq tənqidçilərin heç biri dillənmirdi.[134]

---

[134] Böyük Rəhbərin hökumət rəsmiləri ilə görüşdə çıxışından: 1996.

Bu 20 ildə ölkənin maddi quruculuğunda görülən işlər zalım Pəhləvi hökumətinin bütün dövründə və ondan öncə görülməmişdir. Bu müddətdə ölkənin övladlarının və inqilabın yetirmələrinin əli ilə əziz xalqımıza təqdim olunan xidmətlərin həcminin uzun siyahısı var. Əlbəttə, bütün bunların başında, inqilabın elm və abadlaşdırma sahəsinə ən mühüm xidməti özünəinam hissidir. Bu, son əsrlərdə xalqımızın itirdiyi sərvəti idi. Bu sərvət Qərbin əlaltısı olan bacarıqsız padşahların böyük günahı nəticəsində məhv edilmişdi. Bu gün iranlı özünün ölkənin idarəsinə, quruculuğa, maneləri dəf etməyə, yaradıcılığa və yeniliyə qadir olduğunu hiss edir. Bu hər bir xalqı öz məqsədlərinə çatmaqda uğurlu edən tükənməz sərvətdir. Ötən 20 ildə elm, sənaye, hərb və siyasət sahəsində bütün bu nailiyyətləri xalqımıza nəsib edən budur.

İnqilabın 20 illik fəaliyyətinin məhsulu olan mənəvi quruculuq, din və mənəviyyatın, milli istiqlaliyyət və başucalığının, xalqın müxtəlif təbəqələrinin siyasi azadlıq və aydınlığının inkişafı xalqımızın fəxrinə və başucalığına, eləcə də digər xalqların və insafı olan görkəmli şəxsiyyətlərin

tərifinə səbəb olmuşdur. Xalqımızın bu üç məsələdə nailiyyətlərinin şah dövrü ilə müqayisəsi çox öyrədicidir. O dövrdə mənəviyyat və din tamamilə təcrid olunmuş, fəsad və özbaşınalıq hər yeri bürümüşdü, düşüncə və elm sahiblərinin danışıb-yazması qadağan olunmuşdu, siyasi diktatura ölkə mühitini qaraltmışdı, xalq əcnəbilərin siyasətlərinə məhkum olmuş, bütünlüklə qlobal, regional və hətta ölkə məsələlərindən məhrum qalmışdı. İran ABŞ-ın, İngiltərənin, sionizmin və xarici oliqarxların iradəsinin icra olunduğu yer, iranlı onların siyasətlərinin əsiri, şah isə asılı və muzdur idi.

Bu gün inqilabın sayəsində düşmənlər tərəfindən yüzlərlə iqtisadi, siyasi və mədəni təxribata rəğmən, İran xalqı ayıq və aktiv, məmurlar, rəsmi şəxslər çalışqan və qayğıkeş, gənclərin istedadı çiçəklənməkdə, maddi və mənəvi quruculuq layihələri xalqın əli ilə inkişaf halında, ölkənin dünyadakı başucalığı və müstəqilliyi dillər əzbəri, xalqla məmurlar arasında əlaqə misilsiz, xalqın və hökumətin deviz və məqsədləri eyni, hamı böyük, abad, vahid və

müsəlman ölkələrə nümunə olacaq ölkə naminə hərəkətdə, gələcək də aydın və parlaqdır.[135]

Biz azğın və asılı rejimlər səbəbindən uzun illər beynəlxalq rəqabətlərdən kənarda qaldıq. Bir zaman elm və mədəniyyətin avanqardı olmuş xalqımız zalım şahların və antixalq qüvvələrin hökmranlığı səbəbindən elə vəziyyətə düşdü ki, dünyada elmi və siyasi müsabiqənin başlandığı təxminən 200 il öncədən bu yana yarışdan uzaq qaldı. Digər xalqlarla rəqabətə qoşulmayan bir xalqın təbii olaraq istedadları passivləşir və uğurları dəyərdən düşür. Siz güclü, fəal və həvəskar bir idman komandasını təsəvvür edin. Onu yarışlara buraxmasalar, təbii ki, bacarıqları azalar və itər. Bizim xalqımıza qarşı bu işi gördülər.

Uzun illər asılı, fəsadçı, bacarıqsız qüvvələrin və zalım padşahların xalqımızı bu duruma salmalarına baxmayaraq, İslam inqilabı vasitəsilə bu yola qapı açılan kimi və xalqımız beynəlxalq rəqabətlərə qatılan kimi böyük nailiyyətlər əldə etdi, bu gün həm elmi, həm siyasi sahələrdə dünyada tanınmış bir xalqdır. Elm

---

[135] Böyük Rəhbərin İslam inqilabının 20-ci ildönümü münasibətilə müraciətindən: 1999.

sahələrində biz bu dövrə nisbətən inkişaf etmişik. Əlbəttə, 200 illik gerilikləri 20-30 il ərzində düzəltmək olmaz. Lakin 20 ildən artıq sürən bu dövrdə biz həmin zamana nisbətən olduqca sürətlə irəliləmişik. Bu gün bizim gənclərimizin nüvə enerjisi, kök hüceyrələr, onurğa beyni və digər onlarla sahədə nailiyyətləri var, ölkəmizin görkəmli elm adamları dünyada parlayıb, xalqların tərifini qazana bilmişlər.

Siyasi rəqabətlərdə də belədir. Bu gün İran İslam Respubilkasının siyasi mövqeyi istər region, istər dünya səviyyəsində çoxlu tərəfdara malikdir və dinləməyə layiqdir. Ölkəmizin məmurları həm beynəlxalq toplantılarda, həm digər ölkələrə səfərlərində, həm də öz mövqelərində dəyərli və bir növ meyardırlar. Bu vəziyyət xalqımızın uyğun istedadının göstəricisidir.

Bizim xalqımız beynəlxalq siyasi leksikona yeni sözlər sala bilmişdir. Dünya dini demokratiyanın nə olduğunu bilmirdi, bu gün isə bütün müsəlman xalqlar arasında ideal şüardır. Dünya istismarçı sistemin tərifini bilmirdi, onu bizim xalqımız tərif və siyasi ədəbiyyata daxil etdi. Ölkə idarəsinin, siyasətin və qanunun dinə

əsaslanması da xalqımızın daxil etdiyi yeni anlayışlardır. Deməli, biz beynəlxalq müsabiqələrə - elm, siyasət, sənaye, iqtisadiyyat və mədəniyyət yarışlarına qatılıb qısa müddətdə müvəffəqiyyətə, uzun müddətdə isə ən üstün olmağa ümid bəsləyə bilərik.[136]

### Hərtərəfli inkişaf

Bir xalqın oyanış əlamətlərindən biri budur ki, zamanı tanısın, nəyin vaxtı olduğunu və anın əhəmiyyətini anlasın. Biz tağut dövründə anları bir-bir ötürürdük, lakin nə olduğunu anlamırdıq, nə baş verdiyini, başımıza nəyin gəldiyini və üzərimizə hansı vəzifənin düşdüyünü bilmirdik. Biz uzun zaman beləcə yaşadıq. Bu hərəkatın faydalarından, onun bənzərsiz və müstəsna rəhbərinin xüsusiyyətlərindən biri bu idi. O, anları hesabladı, beynimizi həssas etdi. Həssas barmaqlar toxunduğu ən kiçik zərrəni də hiss edir, əksinə, hissiz və key barmaqlar isə heç nəyi hiss eləmir. Biz

---

[136] Böyük Rəhbərin İmam Rzanın (ə) pak məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışından: 2007.

elə idik. İmam bizim hissiyyatımızı oyatdı və biz dövrdə nə baş verdiyini anladıq.[137]

Bu gün ölkəmiz tağut dövrü ilə müqayisəolunası deyil. Maddi baxımdan inkişaf etmişdir, imkanları daha genişdir, mənəviyyat və əxlaq baxımından o dövrdən dəfələrlə uca və yüksəkdir. O zaman bu ölkə tamamilə amerikalıların əlində idi; həm iqtisadiyyatı, həm siyasəti, həm ictimai münasibətləri. Bu ölkədə görülən işlər İranda nüfuzu olan əcnəbi istismarçıların maraqları istiqamətində idi. O zaman ölkənin yüksək məmurlarının seçilməsində xalqın ən kiçik rolu da yox idi. O zaman xalqın əksəriyyəti üçün əsla fikirləşmir, bir iş görmür və ümumiyyətlə əhəmiyyət vermirdilər. O zaman ölkədə elm son dərəcə geridə idi. Bu ölkədə mövcud olan bütün bu parlaq istedadlar dondurulmuşdu. Əgər kimsə bir yol tapa bilsəydi, digər ölkələrə gedib onlar üçün çalışırdı. Çoxları belə etdi. O zaman İran xalqı ən kiçik məhsul üçün xaricilərə möhtac idi; ya idxal edirdi, ya da daxildə düzəldilirdisə, yenə xaricilər düzəldirdilər. Biz o

---

[137] Böyük Rəhbərin hörmətli şəhid ailələri ilə görüşdə çıxışından: 1990.

zaman tikanlı məftili, bel dəstəyini və bu kimi şeyləri də xaricdən idxal edirdik. Ölkə inqilabın sayəsində hərəkətə gəldi və dəyişdi. O zaman ölkənin 35-40 milyonluq əhalisi arasında çox az sayda tələbə var idi.

**Universitetlərin möhtəşəm inkişafı**

Bu gün cəmiyyətimiz təxminən iki dəfə, tələbələrimizin sayı isə təxminən on beş dəfə artmışdır. Universitetlərin və müəllimlərin sayı bundan dəfələrlə artıqdır. Xalqımızın öz əli ilə yaratdığı sənaye möhtəşəm məsələdir. O zaman ən sadə əşyaları da digərləri gəlib düzəldirdilər; pulumuzu alıb özümüzü təhqir edir, sonra da onun ən sadə növünü düzəldirdilər. Bu gün bizim gənclərimiz ən mürəkkəb və ən dəyərli texnologiyalara yiyələnmişlər. Buna dair nümunələri eşitmisiniz və bilirsiniz. İctimai rəyin və ümumi tamaşaçıların qarşısına çıxarılanlar hələ reallıqdan dəfələrlə azdır. O zaman çayda bir bənd düzəltmək istəsəydilər, gedib dörd ölkəyə yalvarmalı və çoxlu pul verməli idilər. Onlar da gəlib yararsız yerlərdə bənd tikirdilər. Bu gün bizim gənclərimiz öz əlləri ilə belə şeylərdən o

dövrdən ən azı on dəfələrlə çox düzəldirlər. Ölkə inkişaf edib. Ölkənin elmi inkişaf edib. Ölkənin iqtisadi inkişafı ozamankından dəfələrlə artıqdır, imkanlar çox genişlənib. Ölkənin mənəviyyatı və əxlaqı o zamanla müqayisəolunası deyil. Milli özünəinam bu gün o zamandan yüz qat artıqdır. Bunların hamısından üstünü odur ki, bu gün ölkə müstəqildir. Gördüyünüz bütün bu beynəlxalq ajiotajlar müstəqilliyə görədir. Bu müstəqilliyi xalqın mübarizəsi bu ölkəyə ərməğan etdi. Bu yoldan dönüş yoxdur. Bunu dünyada hamı bilsin. İran xalqı bir də heç zaman amerikalıların qayıtmasına imkan verməyəcək.[138]

Bunun bir nümunəsi bizim universitetimizdir. İnqilabdan qabaq mərhum Əfzəlipur adlı bir xeyriyyəçi kişi vardı. Mən ona hörmətimi bildirmək istəyirəm. Eşitmişəm ona kömək etmiş həyat yoldaşı sağdır. Buradan onu salamlayıram. O mərhum öz vəsaiti hesabına kiçik bir ali təhsil mərkəzi açmışdı. Bir gün bu vilayətdə üç mindən az tələbə təhsil alırdı, amma bu gün Kermanın yetmiş minə yaxın tələbəsi var. Ölkə

---

[138] Böyük Rəhbərin Qum vilayətinin əhalisi ilə görüşdə çıxışından: 2005.

əhalisi iki dəfə artıb. Çox gözəl, üç min tələbə də altı min olmalı idi. Lakin bu vilayətimizdə yetmiş min tələbə var. Bu, inkişaf və irəliləyişdir.[139]

İnqilabın əvvəllərində bizdə həkim, alim, müəllim və tədqiqatçı az idi. Əvvəla ümumiyyətlə, ölkənin özündə az idi, amma bundan əlavə, bəziləri də xalqa arxa çevirib ona və inqilaba yardım əli uzatmadılar. Lakin quruluş müqavimət göstərmək qərarına gəldi. Bu gün bu müqavimətin nəticəsi odur ki, universitet rektorunun dediyi və mənim də bildiyim məlumata əsasən, sizin vilayətinizdə tələbə inqilabdan qabaqkı dövrə nisbətən 250 dəfə artmışdır. Yaradılan ixtisaslı təhsil mərkəzi, burada çıxış edən bu gənc tədqiqatçı, bir yerə toplaşmış bu elmi nümunələr[140] qiymətsiz nailiyyətlərdir. Bunların hamısı inqilabın sayəsində baş vermişdir.

---

139 Böyük Rəhbərin Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

140 İİR-da elmi məqalələrlə çıxış edən, kitab yazan, elmi konfrans və müsabiqələrdə uğurlu nailiyyətlər qazanan əlaçı tələbələr Elmi Nümunələr Fondu tərəfindən müəyyənləşdirilir, onlara xüsusi imtiyaz və imkanlar verilir. Bəzən isə "elmi nümunə" dedikdə bütün elmi elita – həm də alim və müəllimlər nəzərdə tutulur.

İndi quruluşun bütün fəaliyyətlərini qaralayıb zülmət təsəvvürü yaratmaq düzgündürmü?![141]

Bu gün ölkədə elmi nümunələr yetişir və beynəlxalq olimpiadalarda çıxış edirlər. Düzdür, bunun zərəri də var; dostumuz işarə vurdu: şəxsiyyətləri tanıtdırmaq işgüzar fikir və beyin axtaran kompaniyaların və pullu təşkilatların onları oğurlamaq işini asanlaşdırır. Lakin bu, öz-özlüyündə cəmiyyətimizdə yaranan elm hərəkatının, ölkəmizin və gənc təbəqəmizin elmdə özünü sübuta yetirmə cəsarətinin göstəricisidir. Onlar elmdə özlərini göstərib, bacarıqlarını sübuta yetirdilər.[142]

**"İranlı bacardı!"**

Bu gün biz çox əhəmiyyətli sahələrdə güclü inkişaflar əldə etmişik. Bunlar inqilabın hərəkəti, ruhu, inqilabın verdiyi özünəinam, istedadlar üçün, düşünüb ümidvar ola bilməmiz üçün inqilabın bizə

---

141 Böyük Rəhbərin Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışından: 2003.
142 Böyük Rəhbərin beynəlxalq olimpiadaların qalibləri ilə görüşdə çıxışından: 2002.

bəxş etdiyi açıq şəraitdir. Bunu özünüzdə, öz nəslinizdə və toplumunuzda gücləndirin.

Bədbinlik edib “olmur”, “cənab, qoymurlar”, “faydası yoxdur” demək bu hərəkətin məhvedici zəhəridir. Bir gün gəlib bu zəhəri düzəltdilər və millətin içinə ötürdülər. Bir gün gəlib açıq şəkildə dedilər ki, siz bacarmırsınız. Mənim gənclik dövrümdə bu cümlə çox yayılmışdı: İranlı hətta "lüləhəng" də düzəldə bilmir. Bəlkə də siz "lüləhəng"in nə olduğunu bilmirsiniz. "Lüləhəng" aftaba deməkdir; özü də palçıq aftaba. Bu o zamanın siyasətçilərinin və universitet işləri üzrə məsul şəxslərin baxışı idi. O zamanın siyasətçilərinin çoxu universitet adamları idilər, adları bəllidir. Onlar deyirdilər ki, iranlı bacarmır. Xeyr, iranlı bacarır, bu gün çox inkişaf etmişdir və çox geniş üfüqə malik elmin sərhədini keçib irəliləyə, yeni sərhədlər təyin edə bilər. Lakin biz gözləmirik ki, bu işi 5-10 il ərzində görək.

Mən bu otaqda sizin kimi gənclərin bir qrupuna dedim ki, indidən iradə ilə başlayın və əlli il sonra bu ölkə bütün sahələrdə bəşəriyyətə ən yeni texnologiyalar və elmi nəzəriyyələr təqdim edə bilsin. Siz bu niyyətlə hərəkət edin. Əlli ildən

sonra oraya çatmaq istəyirsinizsə, indi gördüyünüz işlər çox deyil; onları mütləq artırmaq və sürətləndirmək lazımdır.

Özünüzə arxalanın və iş görmək istəyin. Sizin təcrübəniz də yaxşıdır. Özünüz iradə göstərib işlərə girişdiniz. Allaha şükür ki, rəsmi qurumlar da kömək etdilər. Mən israrlıyam ki, bizim gənclərimiz əldə etdikləri nailiyyətlərlə qane olmasınlar, nəyəsə nail olublar deyə arxayınlaşmasınlar. Xeyr, bu, yolun başlanığıcıdır. Bu sizə bacardığınıza dair müjdə verir.

Burada əyləşən sizlər bir gün bəşəriyyətə dünyanın ən mühüm ixtiralarını təqdim edib, xalqınızı inkişaf etdirə bilərsiniz. Bir xalq işlərini yalnız hay-küy və səs-səda ilə görə bilməz. Düzdür, səs-səda da lazımdır, lakin beyni və dərinliyi olmalıdır. Beyni də yalnız iki şeydir: biri iman, biri elm. Siz bu iki amilə malik olmalısınız. İmansız elm işi idarə edə bilmr, kənarında çoxlu problemlər yaranır. Elmsiz iman da belədir.

Bu gün xoşbəxtlikdən, ölkədə sabit şərait var. Qabaqkı dövr arxada qaldı. Siz günəş batdıqdan yarım saat sonra laboratoriya və sexinizdə çıraq yandıranda deyirdilər ki, çırağı

söndür, yoxsa düşmən raketləri buranı bombalayar. Tehranı, Kərəci, Təbrizi, İsfahanı vururdular. Yəni düşmən ölkəmizin səmasını ələ keçirmişdi. Bizim öz gənclərimiz o dar əsarət mühitini qırdı; həm elm, həm cihad sahəsində.[143]

İslam quruluşunun iyirmi beş illik hakimiyyəti dövründə bu ölkədə ötən yüz ildən dəfələlərlə artıq iş görülmüşdür; mənfur Qacar və Pəhləvi xanədanlarının bu məmləkətə müstəbid şəkildə hökmranlıq etdiyi, xalq üçün bir iş görmədiyi, potensialları tələf etdiyi, yaxud istifadəsiz qoyduğu yüz ildən. Xalqı və ölkəni məqamına uyğun gələcəyə sarı aparan amil İslam inqilabı və İslam quruluşudur.[144]

**Möhtəşəm nailiyyətlər**

Mənim kiçik bir hissəsinə toxunduğum bütün imkanlar uzun əsrlər boyu bu ölkədə zalım diktatorların ixtiyarında olmuşdur. Siz bu padşahların bioqrafiyasına baxın, - əlbəttə, bizim

---

[143] Böyük Rəhbərin gənc ixtiraçı və yaradıcılarla görüşdə çıxışından: 2005.
[144] Böyük Rəhbərin Həmədan xalqının böyük toplantısında çıxışından: 2004.

əlimizdə olan mətnlər daha çox Qacar və Pəhləvi dövrünün xatirələri və məlumatlarıdır - onlar ölkəni özününkü, öz şəxsi mülkləri bilirdilər. Bir dəstə adam orada işləyir; hər halda nəsə yeyib yaşamalıdırlar. Yəni xalqın rolu yox idi. O padşah və hakimlər ölkənin taleyinə, elmi inkişafına önəm vermirdilər. Uzun illər beləcə keçdi və bizim ölkəmiz bu imkanlardan istifadə etmədi. Lakin inqilab dövründə möhtəşəm və gözəçarpan inkişaflar əldə edilmişdir.

İslam inqilabı və quruluşu 70 faizdən artıq savadsızı olan bir ölkəni təhvil aldı. Lakin bu gün biz savadlıların faizi çox yüksək olan bir ölkəyə çevrilimişik. Mən onun faizini təyin etmirəm; çünki 1-2 faiz aşağı-yuxarı deyilməsini istəmirəm, lakin miqdarı bəllidir. Universitet və tələbənin sayı baxımından ölkəmiz möcüzəvi bir iş görmüşdür. İslam quruluşunun yarandığı dövrdən on dəfə artıq tələbəmiz, ölkənin bütün yerlərində universitetimiz var. Bu ölkədə hansı kiçik, yaxud böyük şəhər var ki, orada ən azı 1-2 universitet olmasın?! Texnologiya sahəsində - petrokimyada, neftdə, poladda, müdafiə istehsalı və sənayesində olan inkişaflar da heyrətamizdir. Bir gün yuxuda

da görməzdik ki, bizim ölkəmiz bu gün istehsal olunan müdafiə qurğularının hətta məhsullarına malik olsun, lakin bu gün onları özü istehsal edir. Bütün düşmənliklərinə rəğmən, məcbur qalıb dedilər ki, İran nüvə yanacağı aparatını istehsal edən on ölkədən biridir. Bu az iş deyil. Əlbəttə, belə uğur əldə ediləndə, ardınca ajiotaj yaradırlar ki, bəli, bunlar bomba düzəltmək istəyirlər və s. Bu mühüm inkişaflar İslam quruluşunun sayəsində əldə olunmuşdur.

Mənim bəzən baş çəkdiyim - uzaqdan da məlumatım var, yaxından da gedib görürəm - mühüm və böyük universitetlərin hər birinin tədqiqat işləri təqdirəlayiqdir. Halbuki ötən illər ərzində dövlətin problemləri tədqiqata lazımi büdcə ayrılmasına imkan verməmişdir. Tibb sahələrində, həmçinin ölkənin infrastruktur işlərində - bənd tikməkdə, yol çəkməkdə, neft üçün dəniz terminallarında və digər bu kimi işlərdə gözəçarpan nailiyyətlərimiz var. Bunlar doğrudan da Allahın lütfü ilə, müstəqil və ehtiyacsız şəkildə əldə edilmişdir.[145]

---

[145] Böyük Rəhbərin İslam quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışından: 2003.

Zalım şah dövründə baxmırdılar ki, xalq nə istəyir və ona nə lazımdır. Baxırdılar ki, öz dostlarına, nökərlərinə və yerli mülkədarlara nə lazımdır və onlar nə istəyirlər. Xalqı mülkədarlara qurban verirdilər. Nəticədə, bu vilayət, bu məhrum, nəcabətli, dözümlü və istedadlı xalq tərəfindən cibləri doldu, mülkədarlar və onların övladları əyyaşlıq etdilər, vilayət və onun gəncləri isə məhrum qaldılar.

İnqilabın qələbəsindən bu günə qədər Allahın köməyi ilə burada çox işlər görülmüş, çox zəhmətlər çəkilmiş və çox pul xərclənmişdir. Lakin məhrumluq və ehtiyaclar qarşısında bunlar çox deyil. Bu il (1992) bu vilayətin abadlıq işlərinə ayrılan büdcə ötən ildən təxminən beş dəfə artırıldı. Bu onu göstərir ki, dövlət məmurları, vilayətin məsul və fəal şəxsləri çalışır, işləyirlər. Allaha şükür olsun ki, çoxlu layihələr icra olunmuşdur. Lakin görülməli işlər bu günə qədər görülənlərdən az deyil.[146]

İnqilabın əvvəlindən indiyədək 13 il ötmüşdür. Siz görün bizim tariximizdə hansı 13 il

---

[146] Böyük Rəhbərin Kürd şəhərinin İnqilab stadionunda çıxışından: 1992.

birinci dərəcəli şəxsiyyətlər ərsəyə gətirə bilmişdir?! Düzdür, bunların birinci dərəcəli şəxsiyyət olmalarına hələ var. Lakin inqilabın meydana çıxardığı bu təbəqədə birinci dərəcəli şəxsiyyətlər çox olacaq. Bizim ana vətənimiz son şah dövrü diktaturasında sonsuz olmuşdu. Həqiqətən böyük adamlar, böyük yazıçılar, xüsusən incəsənətin bəzi sahələrində böyük sənətkarlar yetişmirdi. Lakin bu gün görürük ki, bizim gənc uşaqlarımız arasında yaxşı aktyor, ssenarist, rejissor, şair və yazıçı çoxdur. Bunları inqilab yetişdirdi.[147]

Müharibənin əvvəllərində bizə tikanlı məftil lazım oldu. Onu xarici bir ölkədən aldıq, amma ozamankı Sovetlərdən keçirib gətirməli idi. Onlar İraqı müdafiə etdiklərindən buna icazə vermədilər. Tikanlı məftil nə atom bombasıdır, nə topdur, nə tank. Buna baxmayaraq, icazə vermədilər. Bizimlə bu qədər pis davranırdılar. Biz top almaq istəyirdik, satmırdılar; tank almaq istəyirdik, satmırdılar; tikanlı məftil almaq istəyirdik, vermirdilər; bəzi əşyalar istəyirdik, vermirdilər.

[147] Böyük Rəhbərin Təlim və Tərbiyə Naziri və nazirliyin əməkdaşları ilə görüşdə çıxışından: 1992.

Qaçaqmalçılar ikiqat, üçqat bahasına satırdılar və biz məcbur olub ehtiyac qədərincə onlardan alırdıq. Və bu embarqolar nəticəsində biz bu gün zireh əleyhinə istehsalda dünyanın ilk on ölkəsindən biri sayılırıq.

Bu gün uranı zənginləşdirən texnologiyaya sahib 10-11 ölkədən biriyik; həm də bu texnologiya yerli texnologiyadır. Biz kommunist quruluşlu olduğuna görə o zaman Sovetlərin kömək etdiyi Çin kimi deyilik. Bəziləri Çini bizə örnək göstərirlər. Çin inqilabının ilk on ilində bütün imkanlarını SSRİ-dən alırdı. O zaman hələ araları pozulmamışdı. Bizə isə elm və sənayedə inkişaf etmiş heç bir qüvvə kömək etmədi; nə etdiksə, özümüz etdik.[148]

Dəqiq statistikaya əsasən, Çahar-Mahal və Bəxtiyari vilayətində inqilabın qələbəsindən bu günə qədər görülmüş işlər inqilabdan öncəki bütün dövrlərdə görülmüş işlərdən azı on dəfə artıqdır. Lakin eyni zamanda, bu xidmətlər onun ehtiyaclarını təmin etməyə yetərli deyil.

---

148 Böyük Rəhbərin texnika və sənaye mühəndisləri və tədqiqatçıları ilə görüşdə çıxışından: 2005.

İnsan bu xalqın mədəni səviyyəsindən həqiqətən, həzz alır. Rəsmi savad olmasa da, mədəni ruh və mədəni istedad var. İnsan bunları gördükdə xəbis xanlara və onlardan da xəbis olan şahlara - illərlə bu xalqı geridə, savadsız və məhrum saxlamış, ondan istifadə etmiş, şirəsini sormuş, özünə isə heç bir fayda yetirməmiş şahlara min dəfə lənət oxumaq istəyir. Ümidvarıq ki, inşallah, İslam Respublikası dövründə bütün problemlər aradan qalxsın. Əlbəttə, Allahın lütfü ilə ölkədəki əksər əşirətlərin vəziyyəti nisbətən yaxşılaşmışdır. Buralarda da inşallah, tezlikə yaxşılaşdırılmalıdır.[149]

**Yerli texnologiya**

Bənd çəkməyə başlandığı zamandan tağut rejiminin məhvinə qədər xaricilər tərəfindən ölkədə 10-12 bənd çəkilmişdi. Onların bəzisinin çoxlu texniki problemləri vardı. İnqilab dövründə isə 70-dən artıq bənd planlaşdırılıb, çoxusu çəkilib və indi onlarla böyük və kiçik, beton və torpaq bənd tikilməkdədir. Mənə verilən məlumata əsasən,

149 Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinə səfərindəki müsahibədən: 1992.

tamamilə yerli mütəxəssislərin əli ilə və yerli texnologiyalarla çəkilən bu qədər bəndə görə biz belə böyük, keyfiyyətli və çoxlu bəndlər çəkən 5-6 ölkədən biri olmuşuq.

Hərbi sənaye sahəsində, müxtəlif sənayelərdə, infrastruktur layihələrində, mədəni istehsalatda bu tip uğurlar çoxdur. Daxildə bizim möhkəm mədəni sütunlarımıza qarışqa daraşdırmaq istəyirlər. Onlara qarşı praktik işlər də görürlər. Bu gün əsl mədəniyyət, İslam fəlsəfəsi və İslamın mədəni elmləri dünya səviyyəsində inkişaf edir və rəğbətlə qarşılanır. Bu gün bizim Sədra fəlsəfəmiz dünyanın diqqətini cəlb etmişdir; heyrətlərini ifadə edir və tərifləyirlər.

Görürlər ki, İslam Respubilkası bu dağıntıların altından baş qaldırmışdır. Dağıntılar altında boğmaq istədikləri şəxslər indi sinələrini sipər edərək aktiv bir xalqla və bütün bu gənclərlə dayanmışlar və təhdidləri saymırlar.[150]

O zaman ölkə və quruluş bizim mühəndisimizə qurmaq, tədqiqat aparmaq, elmi baxımdan inkişaf və hətta istifadə etmək üçün də

---

[150] Böyük Rəhbərin Tehranın cümə namazı xütbələrindən: 2004.

şərait yaratmırdı. Mən bir müddət qabaq Dez bəndinə baxış keçirdikdən sonra bir müsahibədə bunun dedim, bəlkə də eşitmisiniz. Xarici şirkətlər bizim Dez bəndinin bir hissəsini çəkdikdən sonra qısa bir müddət üçün stansiyadan istifadə hüququnu yerli bir şirkətə verdilər. Sonra stansiyanın həcmini iki dəfə artırmaq istəyirdilər. Bir ABŞ şirkəti bununla razılaşdı, sonra istifadəçinin iranlı olduğunu görüb dedi ki, bunar getməlidirlər. Şah rejimi iranlı istifadəçini ixrac etdi və stansiyanı bir İtaliya şirkətinə verdi. Deyəsən, bundan sonra amerikalılar gəlib stansiyanın digər 50 faizini də təkmilləşdirməyə razılıq verdilər. Yəni iranlıya hətta istifadə icazəsi də verilmirdi. Bu baxımdan, o zaman tikinti sahələrində - istər sənaye, istər mənzil tikintilərində, müxtəlif abadlaşdırma və mühəndislik işlərində iranlının istehsalı olan deyiləsi və göstəriləsi bir şeyimiz yox idi. Halbuki biz eyni xalqıq və bugünkü nəsil dünənki nəsildən fərqlənmir. Bu gün bu bəndləri, stansiyaları, böyük yolları, dəmir yollarını, müxtəlif zavodları, maşın və təyyarə layihələrini, hərbi silahları və mürəkkəb atom texnologiyasını istehsal edən gənclərdən bizim keçmiş nəsillərimizdə də

olmuşdur. Lakin belə işlər görülmürdü. Bu, inqilabın ölkəyə ən böyük xidmətidir. Mənim fikrimcə, onun ən böyük elmi xidməti budur ki, bizə bu inamı bəxş etdi: Biz bacarırıq! Bu, imamın işlətdiyi ifadədir: "Biz bacarırıq!" O zaman deyirdilər ki, gedin lüləhəng düzəldin; o vaxt düzəldilən palçıq aftabalardan. Yəni ağ dəmirdən olan aftaba da yox. Biz hətta bel dəstəyini, sənayenin həmişə ehtiyacı olan və işlətdiyi digər əşyaları da xaricdən idxal edirdik. Yaşayış səviyyəsi inkişaf edirdi, günbəgün çox ehtiyaclar yaranırdı. Bunların hamısını digərlərindən alıb idxal etməli idik. O zamanın proqram hazırlayanları bununla fəxr də edirdilər. 65, yaxud 66-cı ildə Məşhəddə bir dostumuzu görməyə getmişdik. O zamanın Milli Şura Məclisinin deputatlarından biri də təsadüfən, oraya gəlmişdi. Bizim qaynar gənclik çağımız idi; asılılıqdan, əcnəbilərin hökmranlığından və bu kimi məsələlərdən danışırdıq, o cənabın deputat olduğunu bilmirdik. O deputat, daha doğrusu, hansısa bölgədən millət vəkili olması üçün saray tərəfindən adı verilmiş şəxs mənə cavab olaraq bir qədər təkəbbürlülüklə və qaşqabaqla bəzi sözlər

danışdı. O cümlədən dedi ki, siz nəyə etiraz edirsiniz, bu gün avropalılar, qərblilər nökər kimi bizə işləyirlər. Bizim neftimiz, pulumuz var, pul veririk və onlar nökər kimi bizə işləyirlər. Bu ozamankı bir millət vəkilinin məntiqi idi. Tənəzzül dövrü dedikdə bunu nəzərdə tuturam. O fikirləşirdi ki, biz nə üçün istehsal edək, nə üçün quraq, öyrənək. Biz ağa kimi evlərimizdə otururuq, lazımi məhsulları gətirib bizə versinlər. Bizdə də neft pulu var; verib, bəy kimi yaşayırıq. Bu, yüksək səviyyəli bir hökumət adamının məntiqi idi. Ölkəni idarə edən qurumlara o zaman hakim mədəniyyət bu idi. Bu baxımdan, həmin yüz il bizim tənəzzül dövrümüzdür.[151]

Yollarımızı başqaları düzəldirdilər, bəndlərimizi başqaları çəkirdilər. Tağut dövründə çəkilmiş 8-9 bəndin hamısını əcnəbilər çəkiblər. Dez bəndi üçün dörd Avropa ölkəsi və Kanada həmkarlıq etmişdilər. Bizim uşaqlarımızın çəkdiyi Karun-3 bəndi ümumi baxımdan Dez bəndinə bənzəyir; betondur və su həcmləri eynidir. Bu fərqlə ki, Karun-3 bəndinin elektrik istehsalının

---

[151] Böyük Rəhbərin texnika və sənaye mühəndisləri və tədqiqatçıları ilə görüşdə çıxışından: 2005.

həcmi Dez bəndindən dörd dəfə artıqdır. Bu bənddə işlənmiş həcm, beton və dəmir, həmçinin qazılmış daş baxımından, Dez bəndinə işlənmiş həcmdən bəzən 10-20 və 30 dəfə artıqdır. Səbəbi də budur ki, onlar bənd çəkmək üçün asan yerləri seçmişdilər. Bu stansiyanın istifadə hüququ bir Kanada şirkətinə məxsus idi. Bir iranlı iş adamı çalışır, zəhmət çəkir, yəqin ki, sövdələşir, rüşvət verir və nəhayət, Dez bəndi stansiyasını işlətmək hüququnu almağa nail olur. 2-3 ildən sonra iranlılar Dez bəndinin elektrik istehsalını iki dəfə artırmaq istəyirlər. Gərək xaricilər gələydi; daxildə heç kimə etimad etmirdilər və heç kim də bu işi görə bilmirdi. Buna görə amerikalıları dəvət etdilər ki, gəlib Dez stansiyasının elektrik istehsalını iki dəfə artırsın. Amerikalılar orada iranlıların işlədiyini gördükdə dedilər ki, biz gəlmirik. Şərtimiz budur ki, iranlılar tamamilə işdən əl çəksinlər və Kanada şirkəti yenidən işə başlasın. Hakimiyyət də bunu etdi, iranlını və bütün adamlarını çıxartdı. Kanada şirkəti yenidən gəldi və bənddən istifadə hüququnu aldı. Sonra amerikalılar lütf göstərib, alicənablıq etdilər və təşrif buyurub stansiyanın tutumunu iki dəfə

artırdılar. Karun-3 bəndini isə yerli gənc və mühəndislər düzəltmişlər. Suyun həcmi eyni, elektrik həcmi isə dörd dəfə artıqdır. Özləri layihəsini hazırlamış, özləri düzəltmişlər, özləri də istifadə edirlər. Bu yaxşıdır, yoxsa o?! ABŞ, Avropa, Kanada və digərləri xalqımız və ölkəmiz üçün o vəziyyəti istəyirlər. Onlar istəmirlər ki, bizdə elm daxildən çağlasın, çiçəklənsin və inkişaf etsin.[152]

**Hazırkı inkişaf**

Qərb həyatı darvazası İranın üzünə açılanda - orada inkişaf, elm, maşın vardı, iranlıların isə heç bir şeyi yox idi - ozamankı siyasətçi, mütəfəkkir və görkəmli şəxsiyyətlərimiz o inkişafları görəndə Əmir Kəbirin Nasirəddin şahın dövründə çalışdığı işi görmək fikrinə düşmədilər, Əmir Kəbirdən 60-70 il sonra Məşrutə dövründə birisi peyda olub dedi ki, İranın xilası fiziki, psixi, zahiri və daxili cəhətdən qərbləşməkdədir. Geri qalmaların əvəzini çıxmaq üçün daxilə müraciət edib öz gövhərini axtarmaq, özünü özündə tapmaq yerinə, gedib özlərini Avropanın keçilmiş yolunda tapmaq

---

[152] Böyük Rəhbərin Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

istədilər. Onlar bu səhvi etdilər, sonra da ingiltərəlilərin vasitəsi ilə Pəhləvi rejimi iş başına gəldi. Ondan sonra amerikalılar ingilislərin yerini tutdular. ABŞ və İngiltərə üçün ən yaxşı seçim Rza xan və Məhəmmədrza idi. Çünki Qərb həmin planların, həmin mədəniyyətin, asılılığın, geriliyin və daxili istedadların üstünü örtmək işinin ölkədə zahirən iranlı olan şəxslərin əli ilə icra olunmasını istəyirdi. Bu gün bizim gəncimizin həmin yolu keçmək istəməsi səhvdir. O yol səhv yoldur.

Mən dünən Sərçeşmə misi kompleksinə baxmaq üçün oraya getmişdim. Bir gün bu kompleksi ingilislər və sonra amerikalılar idarə etmək istəyirdilər. Bir neçə il işlədilər, plan hazırladılar, amma açılmadı. Sonra inqilab qələbə çalanda bizim mühəndislərimiz onu açdılar, məhsul əldə etdilər və yaxşı işlər gördülər. Təxminən 2000-ci ildən indiyə qədər bizim mühəndislərimiz genişləndirmə işlərinə başlamışlar və indi də davam etdirirlər. Bu iş hökumətin ən yaxşı və ən təmiz işlərindəndir. O zaman xaricilərin qazanc götürməsi, istismarı və milli maraqları tapdaması bir yana, İran xalqını təhqir də edirdilər. Bu təhqir hamısından ağırdır.

Bir xalq otursun, xaricdən bir qrup gəlib ona desin ki, sən bacarmırsan, kənara çəkil, biz düzəldək. Onu kənara çəksinlər, hətta təcrübələrini öyrənməyə də icazə verməsinlər. Özləri gəlib daxili sərvəti çıxarsınlar, ona bir şey versinlər, əsas qazancı isə özləri aparsınlar. Bu iş neftdə, misdə, dəmirdə, müxtəlif tikintilərdə, bənd çəkməkdə, elevator düzəltməkdə və müxtəlif universitet və elm sahələrində həyata keçmişdir...

Dünən Sərçeşmə misi kompleksində, ali tədqiqat işlərinin məhsullarına baxmağım üçün kiçik bir sərgi düzəltmişdilər. Dedim bunu hansı orqanın köməyi ilə hazırlamısınız? Dedilər universitetin köməyi ilə. Bu əziz xanım qız sənaye və universitetin əlaqəsinə toxundu. Bu mənim bir neçə ildir maraqlandığım məsələ və Allahın lütfü ilə böyük həddə həyata keçmiş şüarlardandır. Dedim hansı universitet? Tehran Universitetinin, Şərif Sənaye Universitetinin, Kermanın Şəhid Bahünər Universitetinin və ölkənin digər universitetlərinin tələbələrinin bu mövzularda yazdığı magistratura və zənnimcə, doktorantura dissertasiyalarından istifadə etmiş, onları stolun üstünə düzmüşdülər. Bizim gənclərimiz

çiçəklənməkdədirlər. Bizim sənaye, mədən və əkinçiliyimiz bu daxili istedadlara arxalana bilər. Təbii istedadlarımız da maşallah, çoxdur. Ciroft bir nümunədir. Bütün Kerman yeraltı sərvətlər baxımından ölkəmizdə və bəzi cəhətlərdən Orta Şərqdə fövqəladə və müstəsna bir yerdir. Biz nə üçün başqalarının yolunu getməliyik?! Nə üçün özümüzdən xəbərsiz olmalıyıq?! Biz bacarırıq. Biz inkişaf etmişik.[153]

İnqilabın, imamın və bu xalqın asılı və azğın Pəhləvi rejimindən təhvil aldığı ölkə tam mənada bir xarabalıq idi. Abadlıq, sərvət və gözəllik böyük şəhərlərə məxsus idi; o da o rejimin əsas fiqurlarının maraqlarına bağlı olan həddə. Kəndlər bərbad, yolsuz, susuz, işıqsız, imkansız və yararlı istehsaldan uzaq idi. Şəhərlərdə çoxlu problemlər vardı və ölkənin ümumi vəziyyəti bərbad idi.

Belə bir şəraitdə Böyük İmam Quruculuq cihadı elan etdi. Mömin və həvəskar gənclərdən ibarət böyük izdiham bu inqilabçı hərəkətə qoşuldu. Bəlli idi ki, bu təşkilatda ölkənin xilası üçün yorulmaz iş, yaradıcılıq və yenilik vacib

---

[153] Böyük Rəhbərin Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışından: 2005.

şərtdir. Nə qədər dəyərli gənclər, pak və nurlu insanlar, nə qədər istedad və düşüncə sahibləri bu xidmətçilərə qoşuldular, uzaq yollarda, ucqar şəhər və kəndlərdə, isti, soyuq yerlərdə, əlverişsiz hava şəraitlərində, çoxlu problemlər içində fəaliyyət göstərdilər.[154]

**Bu günün dəmir yolu**

Bu gün ölkə quruculuq halındadır. Siz bilmirsiniz ki, bu xalqın düşmənləri mənfur Pəhləvi və Qacar şahları dövründə, xüsusən də Qacar sülaləsinin ikinci yarısında ölkəyə nələr etdilər; həyat mənbələrini bacardıqları qədər apardılar, bəzilərini tələf etdilər, bəzilərinə də əlləri çatmadı. İslam Respubilkasının möhtərəm hökumətnin düzəltməyə başladığı və bir neçə gün öncə Allahın yardımı ilə açdığı dəmir yolu ölkəyə vacib idi. Halbuki dəmir yolunun salındığı ilk gündən – yəni bir əsrdən artıq öncədən ona heç bir diqqət göstərilməmişdi. İngiltərə və Rusiyanın ehtiyacı olduğu üçün dəmir yolu saldılar. Rza xan ölkənin dəmir yolunu ingiltərəlilərin nüfuz yeri olan

---

[154] Böyük Rəhbərin Quruculuq Cihadının mücahidləri ilə görüşdə çıxışından: 1998.

cənubu və İraqı rusların nüfuz yeri olan şimala birləşdirmək üçün düzəltdi. Belə bir dəmir yolu ölkəyə lazım deyildi. Bu ölkəyə lazım olan dəmir yolu İslam Respubilkasının düzəltdiyidir. Bu, Bəndər Abbası – İranın Fars körfəzindəki ilk mühüm limanını ölkənin mərkəzinə və bütün bölgələrinə birləşdirir. Bu iş son 100 ildə görülməmişdi.

Görülməmiş belə işlər çoxdur. Ölkədə olan bu xarabalıqlar düşmənlərin, muzdur şahların törətdiyi fəsadlarla, Rza xanın, Məhəmmədrzanın və xarici qüvvələrə təslim olan nadan, savadsız, təəssübsüz və əyyaş quldurların hakimiyyəti dövründə baş vermişdir. Bu gün inqilab bunları abadlaşdırmaq istəyir. İnqilabın ömründən 16 il ötür. Bunun səkkiz ilində müharibə ilə məşğul olmuşuq. İndi görün bu ölkəni qurmaq nə qədər çətindir! Bu ölkəni necə qurmaq olar? Dövlət məmurları qayğıkeş və işgüzardırlar. Xalq da Allahın lütfü ilə səhnədədir.[155]

Keçmiş rejimin bütün dövründə bəlkə də bu bir neçə ildə ölkənin quruculuğuna dair görülmüş

---

155 Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışından: 1995.

işlərin bir hissəsi də görülməmişdi. Çünki işə həm kəmiyyət və həm keyfiyyətə görə qiymət vermək lazımdır. Onlar əgər ölkə üçün bir iş görürdülərsə - bu işlər bu qısa dövrdə görülən işlərə nisbətən kəmiyyət baxımından da həqiqətən azdır - keyfiyyət baxımından qüsurlu olurdu. Çünki onda xalqın müstəqilliyi nəzərə alınmırdı. O rejimin siyasəti asılılıq üzərində qurulmuşdu. Rza xanın dövründə nisbətən şücaətli olan bir neçə dövlət rəsmisi peyda olub, İran xalqının maraqlarının müəyyən həddə nəzərə alındığı bir neft müqaviləsi hazırladılar. Rza xan ingilislərdən ötrü çəkmələri ilə Dövlət Şurasının otağına daxil oldu, onların yazılarını – neft qovluğunu alıb sobaya atdı və onların gözü qarşısında yandırdı. Bu onların özlərinin yazdığıdır; Tağızadə və digərləri bu hadisəni yazmışlar.

Siyasət asılı siyasət idi. Çəkdikləri dəmir yolu da İran və İranın ticarətindən daha çox o zaman Almaniya əleyhinə vuruşan müttəfiqlərin iki cəbhəsini birləşdirməkdən ötrü idi. Ölkə boyu çəkilən dəmir yolu budur. Şimalla cənubu birləşdirən dəmir yolu ondan ötrü idi ki, o zamanın sovetlərini cənuba – ingiltərəlilərin iqamətgahı olan

Fars körfəzinə birləşdirsinlər və bu yolla silah ötürüb, Almaniya və onun həmkarlarının əleyhinə yaranmış müttəfiqlərin döyüş cəbhələrini həmişə müdafiəyə qadir saxlasınlar. Dəmir yolu da bunun üçün çəkilirdi. Mənfur rejimin tərəfdarları və keçmiş rejimin tör-töküntüləri 50 il ötdükdən sonra hələ də şimal və cənubun dəmir yolundan söhbət edirlər; elə bir dəmir yolu ki, bu xalqın müstəqilliyinə diqqət yetirmədən və xəyanətkar layihə əsasında çəkilmişdi, onda bu xalqın heysiyyəti və hörməti nəzərə alınmamışdı.

İndi siz baxın, müharibədən sonra çəkilmiş çoxlu dəmir yolları xalqımızın ehtiyacına hesablanıb. O zaman İrana gəlmiş şərqşünasların biri deyir: “Mən təəccüb edirəm necə olub ki, İranın dəmir yolu ölkə ticarətinin əsas şəhərlərindən keçməmişdir”. Lakin bu gün Allahın lütfü ilə və İslam Respubilkasının sayəsində görürük ki, düzgün rabitə və əlaqələr cəhətindən təmin olunmuşdur.

İslam Respubilkasından öncə bu məmləkətdə görülən işlərin nə kəmiyyəti və nə keyfiyyəti bu xalq quruluşu və ilahi quruluş olan İslam Respubilkasının gördüyü ilə

müqayisəolunasıdır. Mənəviyyata və imana bağlı quruluşun mənası budur; xalqın güclü dəstəyinə, səsinə, duyğularına və köməyinə malik, imanı, mənəviyyatı, qardaşlığı, əməkdaşlığı, Allaha təvəkkülü və qeybə imanı olan bir quruluşun nəticəsi belə olur. Bu xalqa qarşı aparılan bütün təxribat və müxalifətlərə, müxtəlif siyasi, iqtisadi və təbliğat blokadalarına rəğmən, bu xalq biri o birindən sonra gələn hökumətlərini müdafiə edə bilmişdir. Hökumətlər də ölkəni abadlaşdırma, siyasət, beynəlxalq imic və milli iqtidar cəhətindən bu şəkildə inkişaf etdirə bilmişlər. Bunlar bizim ölkəmizin sahib olduğu dəyərlərdir. Allaha şükür olsun ki, hökumətlərimizin hamısı bu dəyərlərə malikdir və malik olacaqlar. Bu, Allahın böyük nemətlərinin təzahürü və sözügedən qüdrət əlidir. Dedim ki, Allah-Taala həmişə bu quruluşu himayə etmişdir və edəcəkdir.[156]

İnqilabdan öncə bizim həmişə danışdığımız sözlərdən biri bu idi ki, buğdanı ABŞ-dan alırıq, anbarlarımızı da Sovetlər tikir. Mən inqilabın əvvəllərində cənub bölgəsinə getdim, gördüm ki,

---

[156] Böyük Rəhbərin prezidenti təsdiqetmə tədbirində çıxışından: 1997.

Quruculuq Cihadının uşaqları və sizin mühəndisləriniz kiçik bir elevator tikmişlər. Fikirimcə, həmin yerdə səcdə etdim. Çünki elevator tikmək çətin işdir, çox asan deyil. Kənardan baxanda sadə görünür, lakin mürəkkəb tikinti tərzi var. Biz bu mürəkkəb anbarı düzəldə bildik. Bu gün biz dünyanın irihəcmli elevator tikən mötəbər yerlərindən biriyik. Başqa yerlər üçün də tikmişik. Buna əsasən, Qərb dünyasının bizdən küsməsi, razılaşmaması və dözümsüzlüyü zərərimizə bitmədi. Bəziləri bunu bir faciə kimi qiymətləndirib deyirlər ki, iqtisadi blokada bizim texnologiyamızı çökdürdü. Bəli, asfalt yolu dağıda bilər, lakin asfalt yol həmişə yaxşı deyil. Bəzən insanın öz əli ilə çəkdiyi və üzərindən keçdiyi yollar əzələlərinin möhkəmlənməsi üçün çox faydalıdır; bəzən isə yolu da qısaldır. Digərlərinin çəkdiyi asfalt yol bizi onların istədiyi yerə aparır. Əgər özümüz yol çəksək, kəsə yol çəkib yolu qısaldarıq. Biz öz tənəzzülümüzün səbəbini ovsunlanmaqda bilirik. Bu gün o vəziyyətdən çıxmışıq. Qeyd etdiyim kimi, İslam Respubilkası quruluşunun elm və texnologiya sahəsindəki ən böyük xidmətlərindən biri bizi öz bacardığımıza inandırmasıdır. Bu gün

bu inam var və biz doğrudan da bacarırıq. Biz iqtibas, klonlaşdırma və dünyanın digər müasir texnologiya modellərində çox yaxşı inkişaf etmişik.[157]

**Ədalət və demokratiya**

Başqa bir məsələ budur ki, İslam Respubilkası hökumətinin qurulduğu zamandan bu günə qədər Allahın lütfü ilə ədalətin bərqərar olunması üçün çoxlu işlər görülmüşdür. O zülmlər, hegemonluqlar, insanların hüquqlarının yuxarıdan qəsb olunması, güclülərin sərvət toplaması - hakimiyyətin başında duran şəxs hamıdan sərvətli idi - adi iş deyildi. Qabaqkılardan tam xəbərimiz və onlarla işimiz də yoxdur. Lakin Qacar və Pəhləvi şahları, hakimiyyət başında olanlar və bu ölkədə şah olaraq yaşayan, ölkənin başçısı olan şəxs xalqın bütün fərdlərindən sərvətli idi. Bu haradandır? Məgər haqsızlıq etmədən belə bir şey mümkündür?! Xalqın malını mənimsəyirdilər. Harada yaxşı mülk vardısa, harada gözəçarpan bir şey vardısa, harada gözəl imarət vardısa, Rza xan

---

[157] Böyük Rəhbərin texnika və sənaye mühəndisləri və tədqiqatçıları ilə görüşdə çıxışından: 2005.

mənimsəyirdi. Özü üçün böyük sərvət toplamışdı. Ölkənin çoxlu bölgələrini bir yerdə mənimsədi və hamısını özünə aid etdi. Onun xələfi də belə idi. Hakimiyyətin başında mütləq ədalətsizlik hökm sürürdü. Hakimiyyətin zirvəsindən aşağıya endikcə bu ədalətsizlik də enir və genişlənirdi. O rejimdə kimin başqasına zülm etmək imkanı vardısa, zülm edirdi, heç bir maneə yox idi. O rejimlər belə idilər.

Allaha şükür olsun ki, İslam Respublikası quruluşunda məsələ əksinədir. Əgər hərdən bəzi ədalətsizliklərə, ziddiyyətlərə, yaxud təcavüzlərə dair məlumat çatırsa da, bunlar heç vaxt hökumətin yüksək rütbəli məmurları barədə olmur. Hakimiyyətin başında duran şəxslərin həyatı xalqın məişətinin orta və bəzən ortadan da aşağı səviyyəsi kimidir; xalqın malına göz dikməyiblər, dünya malında tamahları yoxdur. Allaha şükür edirik ki, İslam Respublikasında bu bəyənilmiş ənənəni və xüsusiyyəti yaradıb: məsul şəxslərin heç biri sərvətlə öyünmür. O zamanlar sərvətlə öyünürdülər, bu, bir üstünlük sayılırdı. Lakin bu gün məmurların sərvətli olması mənfi haldır. Əgər məmurların biri sərvətli, mal-dövlətli olsa, bəlli

görkəmdə evi, imkanları olsa, bu, mənfi bir hal sayılır; Allaha şükür olsun ki, həm xalqın, həm məmurların baxışında mənfidir, həm də bunlara malik olanlar onun mənfi bir cəhət olduğunu bilirlər. Bu, İslam Respublikası quruluşunda çox mühüm məsələdir. Bu, Allahın lütfü ilə inqilabın əvvəlindən başlayan və Allahın lütfü ilə genişlənən ədalətə sarı hərəkətdir. Böyük İmam paklığın, zahidliyin və dünyaya etinasızlığın tərənnümü idi. Bugünkü hökumətdə də belədir.[158]

Bu gün əziz İslam bizim ölkəmizdə izzət bayrağını ucaltmışdır. Bura həmin ölkədir ki, amerikalı və avropalılar onu öz mülkləri bilir, xalqımıza ən kiçik hörmət belə göstərmir, sərvətləri özlərinki bilirdilər. Dövlət məmurları onların muzdurları idilər, onların əmrlərini icra edirdilər. Bura elə bir ölkə idi ki, hakim qurumlar ümumi əmlakın ən böyük oğruları idilər. Bu oğruların başçısı şahın özü idi. Burada ən sərvətli adam siyasi baxımdan birinci şəxs sayılan şah idi. O bu sərvəti haradan gətirmişdi?! Məgər babalarından irs almışdı?! Bunların babaları kimlər idi ki?!

---

158 Böyük Rəhbərin İmam Rzanın (ə) məqbərəsində çıxışından: 1997.

İngiltərənin və sonra ABŞ-ın himayəsi ilə əlli il hakimiyyətdə olan bu rəzil, şəxsiyyətsiz və əsil-nəsəbsiz insanlar bu sərvətləri haradan gətirmişdilər?! Məgər xalqın cibindən, sərvətindən və xalqa aid ehtiyatlardan deyildi?! Ölkədən qaçanda buradan apardıqları ləl-cəvahiratdan və nəfis əşyalardan əlavə, xarici banklarda hər birinin milyardlarla dollar pulu vardı. Bu məmləkətin məmurları oğru, fəsadçı və ən sərvətli insanlar idilər, siyasət xain, cinayətkar və düşmən ABŞ-ın əlində, xalqların sərvətlərini qarət edən şəxslərin ixtiyarında idi. Bu ölkəni İslam ucaltdı, din, xalqın imanı və milyonların mənəvi duyğusu buraya çatdıra bildi.

Allahın lütfü ilə bu ölkənin məmurları xalqdandırlar, xalqın içindən çıxmışlar, göstərdikləri xidmətə görə qarşılıq ummurlar. Ola bilsin aşağı səviyyəli bəzi sahələrdə bu böyük vəzifəyə və məmurların təqvasının bu əhəmiyyətinə, Allah eləməmiş, diqqət yetirməyən insanlar tapılsın; sözsüz ki, bəzi yerlərdə belələri var. Lakin ölkənin yüksək məmurları əlləri, qəlbləri, gözləri təmiz, nəzərləri uca, məqsədləri

xalqa və ölkəyə xidmət olan insanlardır. Bunları İslam bizə vermişdir.[159]

Düşmən üçün çox əhəmiyyətli olan başqa bir məsələ hökumətin, parlamentin və ölkə məmurlarının xalqdan olmasıdır. Əgər siz dırnaqarası demokratik ölkələrə baxsanız, görərsiniz ki, dövlət rəsmiləri adətən ya böyük kapital sahiblərindəndir, ya da onlara bağlı adamlardan. Parlamentlərini adətən nüfuzlu, pullu, qüdrətli və güclü insanlarla doldururlar. Demokratiyadan dəm vuran ölkərdə də vəziyyət belədir. Dünyanın məşhur və tanınmış ölkələrində hökumətlərin başında duran şəxslərin əksəriyyəti tanınmış siyasi, hərbi, yaxud pullu ailə və təbəqələrdən və ya sərvət və qüdrət sahibi olan təbəqələrə bağlı adamlardır. İslam ölkəmizdə isə belə deyil. İslam Şurası Məclisi xalqın içindən çıxmış insanlardan təşkil olunur. Bir müəllim, əkinçi, ruhani, həkim, tacir, yaxud bir tələbə namizəd olur; xalq tanıyıb səs verir və o, deputat seçilir. Hökumət də belədir. Yüksək vəzifələrdə çalışanlar öz ömürlərini və gəncliklərini

---

[159] Böyük Rəhbərin Ərak əhalisinin böyük toplantısında çıxışından: 2000.

mübarizələrdə, çətinliklərdə keçirmiş insanlardır. Dəyərli şəxsiyyət olan əziz prezidentimiz ömrünü və gəncliyini mübarizələrdə keçirmişdir. Onun əməkdaşları da mübarizə, yaxud bacarıqları sayəsində vəzifəyə gəlmiş şəxslərdir, heç biri sərvətli bir ailəyə, aristokrat təbəqəsinə, qədim, köklü və məşhur qohuma, şirkətə, yaxud sərvətli və qüdrətli təbəqələrdən hansısa birinə bağlı deyillər, hamısı sadə, sağlam və sədaqətli insanlardır. Mühəndisi, doktoru, təcrübəli bir kadrı vəzifəyə gətirmişlər. Bu, mühüm məqamdır. Hakimiyyət xalq hakimiyyətidir. Buna görə də, xalq həm parlamenti, həm hökuməti, həm məmurları sevir, onların xalqdan olduqlarını görür.[160]

Bilin ki, indiyə qədər bu ölkədə indiki hökumət kimisi olmayıb. Bu hökumət xalqın səsinə, istəyinə və duyuğusuna arxalanır. Mən bunu qətiyyətlə deyirəm və sübut da edərəm. Düzdür, tərifçisi olan hökumətlər olmuşdur. Lakin tərifləmək bir məsələdir, xalqın inam və rəğbətini qazanması başqa bir məsələ. Bu, İslam

---

[160] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşündəki çıxşından: 1993.

Respubilkasına məxsusdur, inqilabın sayəsində və xalqa arxalanmaqla mümkün olmuşdur. İndi də belədir. Mən bunu fəxrlə deyirəm.

Burada xalqın rəğbəti başçıların fironluğu və eqoistlik hissi ilə olmamışdır. Mən indi sizinlə danışarkən özümü bir iynə ucu qədər də böyük hiss etmirəm. Aləmlərin Rəbbi olan Allaha şükür olsun. Ölkənin digər məmurları da belədirlər. Bu hiss nə prezidentdə var, nə spikerdə, nə də Ali Məhkəmənin sədrində. Əsla belə bir şey yoxdur. Bizim məmurlarımız bilirlər ki, Allahın əmanəti onlara tapşırılıb. Bu bir neçə gün var, sonra yoxdur. Məmurlar öz üzərlərində vəzifə hiss edirlər. Bu hal bu ölkəyə məxsusdur.

Xalqdan olan və xalqın məqsədlərinə xidmət edən bu təvazökar quruluşun böyük və bağışlanmaz bir "günahı" vardır. O da budur ki, regionda böyük güclərin maraqlarına təslim olmur. Onlar bunu açıq şəkildə söyləyirlər.[161]

---

161 Böyük Rəhbərin mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışından: 2001.